چکمشم فرقت بلاسین قامتیم چون قلدی خم
غم یوکین تنها کوتوردوم غمکساریم کلمدی
آتش هجرانه یاندیم **شوقی** جاناندان جدا
یتمدیم وصلینه بر آخر نکاریم کلمدی



Dərdü möhnət halımı pəjmürdə qılmış hər zaman,
Görmədim dünyada bir gün , xoş mədarım gəlmədi.
Çəkmişəm firqət bəlasın , qamətim çün qıldı xəm,
Qəm yükün tənha götürdüm , qəmgüsarım gəlmədi.
Atəşi hicrana yandım **Şövqi** canandan cüda,
Yetmədim vəslinə bir , axır nigarım gəlmədi.

---

[١]. أليازمانين بيرينجی صحيفه سينده يئرلشير و ياريمچيقدير. بورادا شعيرلرين سيراسی أليفبا قايداسيندا يوخ ، بلکه أليازمادا اولدوغو کيمی وئريليبدير. بير ايکی يئرده صفحه دوزومونه گؤره غزللر يئربه يئر اولونوبدور کی، أتک يازيسيندا بو مطلبه ايشاره اولونوبدور. ف.ر.ع.

جان پیانداز [۱] ایلرم یاریم بنکا مهمان کلیب
قلدی روشن قلبمی اول سروری خوبان کلیب
کونکلمنک ویرانه سین کویا که آباد ایلدی
دل اویین[۲] معمور ایدن بر عادلی سلطان کلیب
یعنی بر لقمان صفتدور چاره ساز و دلنواز
ایله کیم دآیم تفاخر دردنکا درمان کلیب
آلمشم یعقوب وش کل پیره هندن بوینی
حسنی بر محبوب عالم یوسف کنعان کلیب
باش قویوب اقدامینه قلسم تواضع یوخ عجب
مجلسم ایلر منور کیم مه تابان کلیب
ایچمشم میکون لبین تا مست مخمور اولمشم
سانه سن بر چشمی ساغر ساقی دوران کلیب
اینجمن[۳] کر ایلسه **شوقی** جفا یوز مین ستم
جانمه جوری فزون اولدوقجه بیل احسان کلیب



Can payandaz eylərəm yarım mənə mehman gəlib
Qıldı rövşən qəlbimi ol sərvəri xuban gəlib.
Gönlümün viranəsin guya ki, abad eylədi
Del evin mə`mur edən bir adili sultan gəlib.
Yəni bir Luqmansifətddir çarəsazü dilnəvaz
Eylə kim daim təfaxur dərdinə dərman gəlib.
Almışam Yə`qubvəş gül pirəhəndən buyini
Hüsni bir məhbubi aləm Yusifi Kən`an gəlib.
Baş qoyub əqdamına[٤] qılsam təvazö` yox ə`cəb,
Məclisim eylər münəvvər[٥] kim məhi taban gəlib.
Içmişəm meygun ləbin ta məsti məxmur olmuşam
Sanasan bir çeşmi sağər saqiyi dövran gəlib.
Incimənm gər qılsa **Şövqi** cəfa yüzmin sitəm,
Canıma cövri füzun oldüğca bil ehsan gəlib

---

[۱]. پای انداز سؤزونون آذربایجانجا تلفوظو.
[۲]. بو سؤز (öyin) لهجه تلفظی ایله یازیلیبدیر.
[۳]. بو سؤز(incimən) اینجیمه رم سؤزون قدیم فورماسیدیر.

[٤]. yağına
[٥]. işıqlı

کلدی چون فصلی بهار ایتدیم تمنا سیر باغ
آنده کوردیم عیشچون قورمیش شقایق لر اوتاغ
اهل ذوق ایتسون تماشا غنچه لر آچدی نقاب
آچلور هر دم کونکل کر باخسه کلزاره بو چاغ[۱]
کلشنه باسدنک قدم سرویم کوریب کلروخلر
هر چچک کلمش نظرکاهنکده یاندورمیش چراغ
وصل کل چون عندلیب آسا دلیم سولر نوا[۲]
عارضنک هجرینده چکدوم ای صنم صدریمه داغ
رشک زلفنکدن پریشان ایتدی سنبل حالنی
چشمی مستنک نرکسه ویردی خمار اوزره فراغ
چکسه لر فردوسه کتمن روضة کوینک قویوب
پای بند اولام درنکده آنی ایتمن اشتیاغ[۳]
تجرید اولدونک **شوقیا** کل بزم دنیانی اونوت
غیری بزم ایت آرزو هم باده سندن چک آیاغ



Gəldi çün fəsli bahar etdim təmənna seyri bağ,
Onda gördüm eyş üçün qurmuş şəqayiqlar otaq.
Əhli zövq etsin təmaşa ,qönçələr açdı niqab,
Açılır hər dəm könül gər baxsa gülzara bu çaq.
Gülşənə basdın qədəm , sərvim görüb gülrüxləri,
Hər çiçək gəlmiş nəzərgahında yandırmış çiraq.
Vəsli-gül çün əndəlib asa dilim söylər nəva,
Arizin hicrində çəkdim ey sənəm sədrimə daq.
Rəşki zülfündən pərişan etdi sünbül halını,
Çeşmi məstin nərgisə verdi xumar üzrə fəraq.
Çəksələr firdövsə getməm , rovzeyi kuyün qoyub,
Payibənd ollam dərində onu etməm eştiyaq.
Təcrid oldun **Şövqi**ya gəl bəzmi-dünyan unut,
Qeyri bəzm et arizu həm badəsindən çək ayaq.

---

[۱]. زامان، بوگونکو دیلیمیزده دئییریک «گون اورتا چاغی».
[۲]. نوا سؤیلمک: ترانه اوخوماق؛ سؤیلمک: دئمک، بیان ائتمک.
[۳]. آرزو ؛ ألیازمادا سؤزون ایملاسی بئله گئدیر.

کونکلمی ویران ایدوب یخدونک جفادن ای فلک
کورمدیم سندن بر ایش مهر وفادن ای فلک
قهر جورنک هر زمان ایتمش بنی محکوم به
جانمی دور[۱] ایتمدونک قید بلادن ای فلک
ظلم بیدادنک پریشان ایلمش کل برکی تک
صوردیم[۲] احوالیم دیدی باد صبادن ای فلک
یار چون رختین[۳] قرا کیمش دلیم بند ایلدی
توسنی فکریم بنم چقماز قرادن ای فلک
اولمشم سرمست دهرنک بلمزم کیفیتین
بادۀ عشق ایچمشم جام بقادن ای فلک
یوز سوروب اکلنسم عیب ایتمینک بنکا بو دردە کیم
سرمۀ چشمم درر اول خاک پادن ای فلک
ایلدوم **شوقی** توکل دوتمشم راهی شفیع
قلمشم هر شیی طلب بر کبریآدن ای فلک



Könlümü viran edib yıxdın cəfadan ey fələk,
Görmədim səndən bir iş mehrü vəfadan ey fələk.
Qəhri cövrun hər zaman etmiş məni məhkümi beh,
Canımı dur etmədin qeydü bəladan ey fələk.
Zülmu bidandın pərişan eyləmiş gül bərgi tək,
Sordum əhvalım dedi badi səbadan ey fələk.
Yar çün rəxtin qara geymiş delim bənd eylədi,
Tövsəni fikrim mənim çıqmaz qaradan ey fələk.
Olmuşam sərməst dəhrin bilməzəm keyfiyyətin,
Badeyi eşq içmişəm cami bəqadan ey fələk.
Yüz sürüb əylənsəm eyb etməyin bana bu dərdə kim,
Sürmədə çeşmimdir ol xaki padan ey fələk.
Eydədim **Şövqi** təvkkül tutmuşam rahi şəfi`,
Qılmışam hər şey tələb bir kibriyadan ey fələk.

---

۱. اوزاق ، کنار
۲. سئوآل ائتمک ؛ بوگون دیلیمیزده موستقیل ایشلنمیر و یالنیز سوروشماق فورماسی ایشلکدیر.
۳. پالتار ، دون

صبحدن کلشن ارا ایدنده سیران سیران
کوزیمه کوریندی بر کل یوزلو جانان جانان
قلدی احوالمی آشفتهٔ درهم درهم
مشکبو زلفلرینی ایدنده افشان افشان
قان ایدوپ بغریمی اول لبلری شیرین شیرین
ایتدی فرهاد صفت دیده می کریان کریان
لیلی عالمی سودیم من مجنون مجنون
کزرم کوهیله صحرا اولوب عریان عریان
کوز یاشیم وامغه نسبت کلور دم دم
اشک سیلابیم آلوپ چوره می هریان هریان
قویدی هجرنده بنی عارضی کلکون کلکون
عندلیب تک چکرم نالهٔ افغان افغان
یتمدیم[۱] شمع رخنک وصلینه یاندیم یاندیم
**شوقی** پروانه کمی قالمشم حیران حیران



Sübhidən gülşən ara edəndə seyran-seyran,
Gözümə göründü bir gülüzlü canan-canan.
Qıldı əhvalımı aşüftəyi dərhəm-dərhəm,
Mişkibu zülflərini edəndə əfşan-əfşan.
Qan edib bağrımı ol ləbləri şirin-şirin,
Etdi Fəhadsifət didəmi[۲] giryan-giryan.
Leyliyi-aləmi sevdim məni-məcnun-məcnun,
Gəzərəm kühilə səhra olub üryan-üryan[۳].
Gözyaşım Vamiğə nisbət gəlir dəm-dəm,
Əşgi silabım alıb çevrəmi həryan-həryan.
Qoydı hicrində məni arizi gülgun-gülgun,
Əndəlib tək çəkərəm naleyi əfqan,əfqan.
Yetmədim şəmi rüxun vəslinə yandım-yandım,
**Şövqi** pərvanə kimi qalmışam heyran-heyran.

---

۱. چاتماق ؛ بوگون بو فعلی یئتیشمک فورماسینی ایشلدیریک.

۲. gözlərimi

۳. çılpaq , lüt

میی کیم سورر یوزینی جام مصفا ایاغنه [۱]
ایستر دوشه بو ساقیننک اعلا ایاغنه
ای اشک خارمز منی یولندن یو دلبرنک
اول کل قدم باسنده باتمیه رعنا ایاغنه
یکدانه خالینه جان ویردی مرغ کونکل
باغلاندی بوینی زلف مطرّا ایاغنه
کلزاره آب روانی بوراخدی باغبان
چشممده سو وردی سرو دلارا ایاغنه
هر کون آلور که ماه مهر رخندن ضیالرین
دوشمش همیشه پاک نورآسا آیاغنه
قاشینه بنکزرم که دیمش لاف اوروب کمان
بو وجهدن سالندی رسن پا ایاغنه
آل دوره سین مدام **شوقی** شمع روینک
پروانه وش باش اوروب تا آیاغنه



Mey kim sürər üzünü cami müsəffa ayağına,
Istər düşə bu sağının əla ayağına.
Ey əşk xarimiz məni yoludan yu dilbərin,
Ol gül qədəm basanda batmaya rəna ayağına.
Yekdanə xalına can verdi mürği könül[۲],
Bağladı boyunu zülfi mütərra ayağına.
Gülzarə abi rəvani buraxdı bağiban,
Çeşmimdə[۳] su verdi sərvi dilara ayağına.
Hər gün alır ki, mah mehri rüxündən ziyaların,
Düşmüş həmişə pak nur asa ayağına.
Qaşına bənzərəm ki, demiş laf vurub kaman,
Bu vəchidən salındı rəsən[٤] ayağına.
Al dövrəsin müdan **Şövqi** şəmi rüyinin,
Pərvanə vəş baş vurub ta ayağına.

---

[۱]. باده ، بو سؤز بوگون فارس دیلینده «هم ایاغ» ترکیبینده گونوموزه چاتیبدیر.
[۲]. könül quşu
[۳]. gözümdə
[٤]. ip, kəndir

ای ساقی نوش ایدک بیزه می ویر هرای هرای[۱]
قیلسنک دماغمز اول باده تر هرای هرای
چکسنک همتیله غربت اوینده قویماسنک
اولسنک بو یرده می بنکار[۲] بیر هرای هرای
یازمش که نامم اوزره خط اول کاتب ازل
غم توشه سین بنکا هم روزی مقدر هرای هرای
یاندوردی کونکلمی فرقت اودیله درد اَلَم
مُحنت زده تنها کُونیم کچر هرای هرای
ظلمَتده آب حیاتی چُو خضر سُوَان کمی
سُوردیم لبی زلالنکی دلبر هرای هرای
بر ماه نو تک اولدی قدیم ضعفدن غرض
اولمش دو تا که قاشنکا بنکزر هرای هرای
یا رب ترحم ایله درنکده خسته **شوقیه**
آهیله چکدی ناله مکّرر هرای هرای



Ey saği nuş edək ,bizə mey ver haray,haray,
Qılsın dimağımız ol badə tər haray, haray.
Çəksin himmətilə , qürbət evində qoymasın,
Olsun bu yerdə mey bınar bir haray,haray.
Yazmış ki, namım[۳] üzrə xətt ol katibi əzəl,
Qəm tuşəsin bana həm rüzi müqəddər haray,haray.
Yandırdı gönlümü firqət odiylə dərdü ələm,
Möhnətzədə tənha günüm keçir haray,haray.
Zülmətdə abi həyati çü Xizr sevən kimi,
Sevərdim ləbi zülzlını dilbər haray,haray.
Bir mahi növ tək oldu qəddim zəfdən qərəz,
Olmuş duta[٤] ki, qaşına bənzər haray,haray.
Yarəb tərəhüm eylə dərində xəstə **Şövqi**yə,
Ahilə çəkdi nalə mükərrər haray,haray.

---

۱. بو شعیرده «هرای هرای» ایکی معنادا بیر «چاغیریش،فریاد» بیری ده « هر آی».
۲. پینار : چشمه ، بولاغ

۳ . adım
٤ . iki qat

یتمز بُو بُقعدن ملائکه بنم اَذَن سه سی
مغشوش قلدی آننکیچون منی درد حزن سه سی
رختی اقامتی ای دل گُوتُور بُو ملکیدن
دآیم کلور قُولاغیمه شورُ شیون سه سی
پاک ایلر هم غبارینی مرآت گُونکلمنک
تا کلسه گُوشِمه اُول طوطی ننک سخن سه سی
آز ایله جورنکی ای چرخ فلک سن بنکا
قان ایتدی بغریمی تیغله بتن سه سی
قُویمز بزی آسوده دل کوینده دلبرنک
اغیار مُورمُوریله اتلنک اُورن سه سی
کوردکده قدّنکی سرویم خم اولدی پیچ پیچ
مهو[۱] اولدی باغُ جهانده نارَوَن سه سی
دوت **شوقی** کوشنکا قُرآن آوازه سین
ترک ایت بُو دفی چنکیله نیندن کلن سه سی



Yetməz bu böqədən məlaikə mənim azan səsi,
Məğşüş qıldı onunçün məni dərdü həzən[۲] səsi.
Rəxti iqaməti ey dil götür bu mülkidən,
Daim gəlir qulağıma  şürü şivən səsi.
Pak eylər həm qubarını merati gönlümün,
Ta gəlsə guşimə ol tutinin süxən səsi.
Az eylə cövruni ey çərxi fələk sən baba,
Qan etdi bağrımı tiğlə batan səsi.
Qoymaz bizi asudədil kuyində dilbərin,
Əğyar mürmür ilə  atlının hürən səsi.
Gördükdə qəddini sərvim xəm oldu piç,piç,
Məhv oldu bağı cahanda narvən səsi.
Tut **Şövqi** guşinə Quran avazəsin,
Tərk et bu dəfi ,çəngilə neydən gələn səsi.

---

[۱]. محو ، ألیازمادا ایملاسی بئله گئدیر.

[۲] . kədər, acı ,qüssə

یارب یتر مُراده بُو دنیاده سن منی
شاد ایله دآئم عالم عُقباده سن منی
واردور همیشه کار و فلکدن شکایتم
اَدنا الینده قویمه قیل آزاده سن منی
کردون ایدُوب عبس[۱] جانمه جور جفا
اینجدنک ای زمانه زِیادَه سن منی
محبوس حبسدن قوتار منی پروردکار
تا قویمه درد ایله محنت سراده سن منی
اعـدایه غالب ایلـه کام آلیـم هنـوز
میدانِ رزم ایچنده کتُور یاده سن منی
فرضدور[۲] بنکا شاه آچُ رخیم در اسب فیل
مات ایتمه غم اونده پیاده سن منی
ششتاره[۳] سالدی **شوقنی** چرخ شعبده باز
ایله الهی بو داریدن کشاده سن منی



Yarəb yetir mürada bu dünyada sən məni,
Şad eylə daim aləmi uqbada sən məni.
Vardır həmişə karü fələkdən şikayətim,
Ədna əlində qoyma ,qıl azadə sən məni.
Gərdun edib əbəs canıma cövrü cəfa,
Incitdin ey zamana ziyadə sən məni.
Məhbusi həbsidən qurtar məni pərvərdigar,
Ta qoyma dərdilə möhnətsərada sən məni.
Ədayə qalib eylə kam alım hənuz,
Meydani rəzm içində gətir yada sən məni.
Fərzdir bana şah,aç rüxumdur əsb ,fil,
Mat etmə qəm evində piyada sən məni.
Şeştara saldı **Şövqini** çərxi şöbədəbaz,
Eylə ilahi bu darıdan güşadə sən məni.

---

[۱]. عبث ، ألیازمادا ایملاسی بئله گئدیر.
[۲]. شطرنج اویونوندا «سرباز»-ا دئییلیر.
[۳]. ششدار ، ایملاسی ألیازمادا بئله دیر. قفس، حبس، نرد اویونوندا چیخیلماز حالت.

ایلر جمالنک دلبرا کلشنده کلّلر آرزو
بر دم گُونش بر دم قمر بر دم گُوزللر آرزو
نرکس سنبل لاله هم رخسارک اوزره کورمکه
چشمیله زلف چهرنکا دآئم چکللر آرزو
شیرین شیرین کفتارنکا حسرتده قالمش بن کمی
قُمریله بُلبُل چوق ایدر طوطی دیللر آرزو
میکون لبنک شهدین صنم ایستر مریضچون دوا
بیمار خمار باده خار ایلر هرایللر آرزو
عشقنکده کویا کیم دلی عشاقلر قلمش طلب
خال زنخدان لبنک أُول سُوز دیللر آرزو
قاشنقه[۱] نسبت اولماقه خم ایلمش قامتلرین
قوس هلال مثال دال اولمش ایدللر آرزو
پروانه وش أُول شمعنکا یانمق دیلر تا **شوقی** تک
جمله جهان اولمش ویران ای جان کونکلر آرزو



Eylər cəmalın dilbəra gülşəndə güllər arzu,
Bir dəm günəş ,bir dəm qəmər, bir dəm gözəllər arzu.
Nərgis, sünbül, lalə , həm rüxsarin üzrə görməgə,
Çeşmilə zülfü çehrinə daim çəkəllər arzu.
Şirin-şirin goftarına həsrətdə qalmış mən kimi,
Qumrilə bulbul çox edər tutidillər arzu.
Meygün ləbin şəhdin sənəm istər məriz üçün dəva,
Bimar xumari badə eylər hər illər arzu.
Eşqində güya kim, dəli üşşaqlər qılmış tələb,
Xali zənəxdani ləbin , ol süzi dillər arzu.
Qaşına nisbət olmağa xəm eyləmiş qamətlərin,
Qövsi hilal misali dal olmuş edəllər arzu.
Pərvanəvəş ol şəminə yanmaq dilər ta **Şövqi** tək,
Cümlə cahan olmuş viran ey can könüllər arzu.

---

[۱]. بو فورما یونلوک حالین أسکی جوغاتای شکلیدیر. بو فورما اورتا عصره قدر آنجاق یازی دیلینده جوغاتای ادبی دیلی تأثیرینده ایشلنیلیبدیر.

ای یار بوُ عشقنکده سننک چوخ هوسیم وار
باشیمده بوُ سُودا اولاجق تا نفسیم وار
جان ویرمشم ای شوخ سنکا روز ازلدن
فکر ایلمه سندن دخی بر غیری کسیم وار
یاد ایتدوکجه وصلنکی چوُن روی زمینده
فریاد ایلرم چرخ معُلاده سُسیم وار
مجنون کمی همراه ایلدیم جُمله طُیُوری
باشمده یُوا دوتماقیچون خارُ خسیم وار
غم لشکری سالمش بَنی عالمده حصاره
حبس ایچره عنادل کمی کویا قفسیم وار
لیلی دیدی مجنونی خبردار ایدن آگَه
هم ناقة بانکیله بنم تا جره سیم وار
سن بر دیمه سن هانده قالوب عاشق دلسوز
میندیم کزه رم عشق دیارین فره سیم وار
دل مرغی سیه زلفنکا بند اولدی نکاریم
دوشدیم بو سلاسلره بیلکیم عسسیم وار
عجز ایله معین ایستمنم اهل جهاندان
بیل شوقی یتر دادیمه فریادرسیم وار



Ey yar bu eşqində sənin çox həvəsim var,
Başımda bu seva olacaq ta nəfəsim var.
Can vermişəm ey şux sənə ruzi əzəldən,
Fikr eyləmə səndən dəxi bir qeyri kəsim var.
Yad etdikicə vəslini çün ruyi zəmin,
Fəryad eylərəm çərxi-müəllada səsim var.
Məcnun kimi həmrah eylədim cümlə tüyuri,
Başımda yuva tutmaq üçün xarü xəsim var.
Qəm ləşkəri salmış məni aləmdə hisara,
Həbs içrə ənadil kimi güya qəfəsim var.
Leyli dedi Məcnuna xəbərdar edin agah,
Həm naqeyi bankilə mənim ta cərəsim var.
Sən bir deməsən harda qalıb aşiqi dilsuz,
Mindim gəzərəm eşq diyarın fərəsim var.
Dil mürği siyəh zülfünə bənd oldu nigarım,
Düşdüm bu səlasilərə bilkim əsəsim var.
Əcz ilə müin istəmənəm əhli cahandan,
Bil **Şövqi** yetər dadıma , fəryadrəsim var.

Saqi mey ver içəlim taki dimağım[1] ola tər,
Göstərim məsnəvidə , şerü qəzəl içrə hünər.
Vəzni sərrast ola , mə`nasi dərin fəhm edənə,
Gözünə xoş ginə , sərrafına bu lə`li gövhər.
Çəkmişəm riştəyi[2] nəzmimə , düzüb bir neçə dürr,
Qərəzim bu ki, pəsənd etsə onu dilbər əgər.
Mənə çox ne`mət olur müzd[3] bahasına onun,
Gül rüxün göstərə bəsdir dəxi sərf etməyə zər.
Hatəmin dəftərini tey eyləmişdir[4] kərəmi,
Yoxdur aləmdə onun cudü[5] səxasından əsər.
Şimdi mədh eylərəm hüsn içrə güllükdə onu,
Qaşları qövsi-qəzəhdir , cəbini[6] bədri-qəmər[7].
Müxbir[8] et aşiqi üfdadəsinin halından,
Yetir ey badi-səba yar qulağına xəbər.
Eşq divanəsidir , düşmüş əcəb səhraya[9],
Götürüb qəm yükün arxasına , hicrində gəzər.
Bu cəhətdən dilərəm vəslini hər dəmdə sənin,
**Şövqi** məqsudinə əlbəttə ki, vəslində yetər.

---

١ .beyin
٢ .tel , ap
٣ .gəliç əmək həqqi
٤ .keçmək , getmək
٥ .əliaçıqlıq , comərdlik , səxvət
٦ .alın
٧ .bütöv ay, ondörd gecəlik ay
٨ .xəbərdar , müxbir et: bildir
٩ .çöl

ساقی می ویر ایچه لُوم تا که دماغیم اولا تر
کوستریم مثنویده شعر غزل ایچره هنر
وزنی سراست اوله معناسی درین فهم ایدنه
گُوزینه خوش کنه صرّافنه بو لعل کهر
چکمشم رشتهٔ نظمیمه دوزیب بر نچه دُر[۱]
غرضیم بوکُه پسند ایتسه آنی دلبر اکر
بنکا چُوخ نعمت اولور مُزد بهاسینه آننک
کل رُخین کوستره بسدور دخی صرف ایتمیه زر
حاتمنک دفترینی طی ایلمشدور کره می
یُوخدور عالمده آننک جود سخاسندن اثر
شمدی[۲] مدح ایلرم حُسن ایچره کُللکده آنی
قاشلری قوس قزحدور جبنی بدرُ قمر
مخبر ایت[۳] عاشقی افتاده سیننک حالیندن
یتیر ای باد صبا یار قولاغینه خبر
عشق دیوانه سیدور دوشمش عجب صحرایه
کوتوروب غم یُوکین آرخاسنه هجرنکده کزر
بو جهتدن دیلرم وصلنکی هر دمده سننک
**شوقی** مقصودینه البته که وصلنکده یتر

---

۱. اینجی
۲. أسکی سؤزودور«ایندی»معناسیندا. بو سؤز بوگون ترکیه تورکجه سینده ایشلکدیر.
۳. خبر وئر ، خبردار ائت

Sənəma gönlüm ilə gönlünü dəmsaz eylə,
Bəni dilxəstəyə gəl cövrü cəfa az eylə.
Saqi gəzdir qədəhin nuş edəlim yar ilə biz,
Meyi məhbubi dutaq oldu bahar yaz ilə.
Mütrüba dəstini ta çəng qulağına yetir,
Bəzmidə nəğmə , nəva söylə xoş avaz ilə.
Tuta görsəd yeni novruzun edək eyşü tərəb,
Fələk hər şöbədə göstərsə də sən baz eylə.
Keç nəzər eyləmə üşşaqə pərim kuyində,
Rastrodur ona az qəmzə vurub naz eylə.
Məni sevdirmə könül sar-süfət əqyara,
Sən ki, şahbazsan həmrahın şahbaz eylə.
Murği dil zülfi girehgirinə düş cananın,
Yetər əlbəttə havalardaki pərvaz eylə.
Ey könül dilbərə söylə sözünü pünhani,
Olmaya sirrinə vaqif ginə qəmmaz eylə.
Çəkmiş hicranını bir dəmdə yetir məzluma,
Aqibət **Şövqi**ni vəslində sərəfraz eylə.

صنما کونکلم ایله کونکلنکی دم ساز ایله
بن دلخستیه کل جور جفا آز ایله
ساقی کزدور قدحنک نوش ایده لوم یار ایله بیز
می محبوبی دوتاق اُولدی بهار یازیله
مطربا دستنکی تا چنک قولاغینه[۱] یتیر
بزمیده نغمه نوا سوله خوش آوازیله
دوتا[۲] کورسد ینی نوروزنک ایدک عیشُ طرب
فلک هر شعبده کُوسترسده سن باز ایله
کیج نظر ایلمه عشاقه پریم کوینکده
راست رودور انکا آز غمزه اُوروب ناز ایله
منی سَودیرمه کونکل سار صفت اغیاره
سن که شهبازسن همراهنکی شهباز ایله
مرغ دل زلف کره کیرینه دوش جانانک
یتر البته هوالرده که پرواز ایله
ای کونکل دلبره سوله سوزنکی پُنهانی
اولمیه سرّنکا واقف کنه غمّاز ایله
چکمش هجرانکی بر دمده یتیر مظلومه
عاقبت **شوقنی** وصلنکده سرافراز ایله

---

[۱]. چنگی چالان حیصه ، چنگ دسته سی
[۲]. توتاراق . بو سؤز أسکی منبعلرده دوتماق کیمی یازیلیبدیر. بو حالت چوخو تکرار فورمادا قئید کیمی ایشلک اولور مثلن باخا-باخا ، توتا-توتا ، قاچا-قاچا

Saqi son mey içəlim bəzmidə mən höşyarə,
Bəlkə sərməst oluban taki düşəm xumarə.
Bilmiyəm sorğı sorulduğda nədir onda cavab,
Gəlmiyəm həşridə xab içrə dəxi goftarə.
Qəm dəyil canü tənim versəm əgəra mən zərə,
Ginə ehya edər heyvan suyı tək hər barə.
Badəni gülşən ara nuş edərəm , var qərəzim,
Ki, görüm gül rüxumi qoysa qədəm gülzarə.
Gül yanağına baxıb , künlümüz istər ki,dönə,
Əndəlib tək bu bərgi güli minqarə.
Sərvi rəftari görüb, kəpək çəkib sədrinə zaq,
Ol səbəbdən ki, salıb qulquləsin kuhsarə.
Şəmi rüxsarının hər ləhzə kənarında gəzib,
Yaxaram cismimi pərvanı sifət odlarə.
Iç həqiqətdə mey sev dininin tərsanın,
Şeyx Sənan kimi meyl etmı könül zünnarə.
Hüsni sultani tərəhhüm qılar axər ki, sənə,
**Şövqi** hali dilin ərz eylə yetir dildarə.

ساقی صون می ایچه لُوم بزمیده من هشیاره
بلکه سرمست اوُلوُبان تا که دوُشم خُماره
بلمیم سوُرقی سوُریلدوقده ندور آنده جواب
کلمیم حشرده خاب ایچره دخی کفتاره
غم دکل جان تنیم ویرسم اکرا بن زره
کنه احیا ایدر حیوان سوُیی تک هر باره
باده نی کلشن ارا نوش ایدرم وار غرضیم
که کوُریم کُل رخمی قوُیسه قدم کلزاره
کل ینکاغینه باخوُب کونکلمز ایستر که دونه
عندلیب تک آله بو برک کلی منقاره
سروُ رفتاری کوُروب کپک چکوب صدرینه داغ
اول سببدنکه سالوُب غلغله سین کوهساره
شمع رخسارینںک هر لحظه کنارینده کزوب
یاخرم جسممی پروانه صفت اوُدلاره
ایچ حقیقتینده می سو دیننین ترساننک
شیخ صنعان کمی میل ایتمه کونکل زناره
حسن سلطانی ترحم قلار آخر که سنکا
**شوقی** حال دلنک عرض ایله یتیر دلداره

Olmaz sənə həmta[1] gözəlim qeyri gözəllər,
Olmuş o səbəbdən ki, gəlib dərində çakir[2].
Görkəc rüxunu oldu xəcil şahidi bağın,
Çeşmini tutub xabi ədəm , yoxladı əbtər.
Seyr üzrə sənin qəddini[3] bağ içrə görəndə,
Göstərdi təvazü baş əyib sərvü sənubər.
Kəc gərdən olub cisminə çün dağ eyləmiş yer,
Etdikdə nigah[4] arizinə laleyi əhmər.
Nisbət qılıb ol türrələrin zülfünə sünbül,
Kim ondan olub ruy-siyəh[5] gönlü mükəddər.
Bimar[6] eləmiş nərgisi şəhlani du çeşmin,
Yatmışdı zəmin üzrə salıb xakdə bəstər[7].
Can verməyi kuyində dilər gönlüm onunçün,
Cənnətdə sənə hurilər olmaz ki bərabər.
Sənsən bu gözəllikdə əcəb Yusifi sani,
Yoxdur sənə manənd[8] cahan içrə deyəllər.
Başın sənə qurban eləmiş **Şövqi** dərində,
Kəsdirməyə qanidir bu sövdadə sərasər.

---

[1] .tay , tay-tuş , oxşar, bu söz həm+tay birləşməsindən yaranıbdır.
[2] .qulluqçu
[3] .boyunu, boy-buxunu
[4] .baxış , nighah etmək: baxmaq
[5] .üzüqara
[6] . xəstə, naxoş
[7] .yataq , yatan yer
[8] . oxşar, bənzər

اولماز سنکا همتا کوزه لیم غیری کوُزللر
اولمش او سببدن که کلوب درنکده[1] چاکر
کورکج رخنکی اولدی خجل شاهدی باغنک
چشمینی دوُتوُب خاب[2] عدم یوُخلادی ابتر
سیر اوزره سننک قدنکی باغ ایچره گُورنده
کوُستردی تواضع باش اکوب سرو صنوبر
کج کردن اوُلوُب جسمنه چون داغ ایلمش یر
ایتدوکده نکاه عارضنکا لالهٔ احمر
نسبت قلوُب اوُل طره لرین زلفنکا سنبل
کیم آندان اولوب روی سیه کونکلی مکدر
بیمار ایلمش نرکس شهلانی دو چشمک
یاتمشدی زمین اوزره سالوب خاکده بستر
جان ویرمکی کوینکده دیلر کونکلیم آننکچون
جنتده سنکا حوریلر اوُلماز که برابر
سن سن بُو کوزللکده عجب یوسف ثانی
یوُخدور سنکا مانند جهان ایچره دِیللر
باشین سنکا قربان ایلمش **شوقی** درنکده
کسدورمکه قانع دور رو بوُ سَوداده سراسر

---

[1]. قاپیندا ، آستاناندا
[2]. خواب. ألیازمادا ایملاسی بئله یازیلیبدیر.

Tutar dəstində[١] saqi cami mey cananı gördükdə,
Ayağından öpər ol xosrövi xubani gördükdə.
Oxur nəğmə , nəva mütrib xoş avaz ilə bulbul tək,
Qədi tuba , üzi gül məclisi , gülüstani gördükdə.
Cahan məhbübəsi xaki dərində[٢] kəc qılır gərdən,
Təvazölər edər taxtında ol sultani gördükdə.
Tulu etsə üfüqdə ,baş verib rüxsari əncüm[٣] tək,
Batar xublar quruba xurşidi rəxşani[٤] gördükdə.
Camalın görsə bir adam çəkər nəzzarəsin həsrət,
Varıb şol cənnət içrə huriyi qılmanı gördükdə.
Ziyad[٥] olduqca hüsni ,eşqim artar rüyinə baxsam,
Bulut zülfün içində bərq vuran[٦] lömani gördükdə.
Zəkati hüsnüdən şahlar gərək üşşaqa bəzl[٧] etsin,
Gədalar qul olur şahlara çün ehsani gördükdə.
Məni dilxəstənin halın səba dildara izhar et,
Rəqibi sək-süfətdən[٨] hər zaman pünhani gördükdə.
Nədəndir yəni bilməm, dilbərin vəslin dilər gönlüm,
Yanar **Şövqi** nə məhv olmuş məhü tabani gördükdə.

---

١ .əlində
٢ .astananın torpağında
٣ .ulduz
٤ .parlaq, parıldayan
٥ .çox
٦ .parıldamaq
٧ .bəxşiş
٨ .it üzlü

دُوتار دستنده ساقی جام می جانانی کوردکده
ایاغندن اوُپر اول خسروی خوبانی کوردکده
اوخور نغمه نوا مطرب خوش آواز ایله بلبل تک
قدی طُوبی یوُزی گُل مجلسی کلستانی کوردکده
جهان محبوبه سی خاک درینده کج قلُور کردن
تواضع لر ایدر تختنده اوُل سُلطانی کوردکده
طلوع ایتسه اُفقده باش وریب رخساری انجم تک
باتار خُوبلار غرُوبه خورشیدی رخشانی کوردکده
جمالین کوُرسه بر آدم چکر نظاره سین حسرت
واروُب شول جنت ایچره حوری غلمانی کوردکده
زیاد اولدوُقجه حُسنی عشقیم آرتار روینه باخسم
بوُلوُط زلفنک ایچنده برق اوُران لمعانی[1] کوردکده
زکوة حُسنیدن شهلر کرک عشاقه بذل اتسنک
کدالر قوُل اوُلور شهلره چُون احسانی کوردکده
بن دلخسته ننک حالین صبا دلداره اظهار ایت
رقیبی سک صُفتدن هر زمان پنهانی کوردکده
ندندور یعنی بلمن دلبرنک وصلین دیلر کونکلم
یانار **شوقی** نه مهو اولمش مَهُ تابانی کوردکده

---

[1]. پاریلتی ، پاریلداما

Dila bu dövrüdə bir şeri mövzün aşkar eylə,
Rəvacin ver dürri nəzmin, mətaın xoş baraz eylə.
Rümüzin qoyma mübhəm,nüktəsin qıl ləl tək rövşən,
Könül ta durr yetir sərrafına , qabil əyar eylə.
Coşubdur bu beytlər belə rəngin yaquta bənzər,
Münəqqəş qıldın ətrafın , görəndə iftixar eylə.
Təmənna edən ey dil, camalın görməyə yarın,
Bularsan bərgi güllər içrə , gülzara güzar eylə[١].
Açılmış cöhrəsi gül tək, salıb gisüsiyin hər yana,
Bu ətvar ilə görkəc ol nigari, can nisar eylə.
Tərrəhüm qıl görəndə aşiqi dilxəstəyi ey şux,
Yetər bihəd zülm et halını, şəfqət şüar eylə.
Şəkərriz[٢] ol həbibim ,tutiyi dil ləhcəsin açsın,
Rüxün bir zərrəsin göstər, üzün ayinədar eylə.
Tənəümdə[٣] bilinməz mərdilə namərdin əhvalı,
Gözüm mərdisən[٤] , ol , fəqr içrə həmrah[٥] ixtiyar eylə.
Dilərsən **Şövqiya** bu dəhridə asudə hal olmaq,
Bəsa həmdü-səna ol kirdikara bişümar[٦] eylə.

---

[١] . güzar eyləmək getmək deməkdir
[٢] . şəkər paylayan, şəkər bağışlayan
[٣] . bolluqda , nemət içində, firavanlıqda
[٤] . kişisənsə
[٥] . yoldaş , məsləkdaş, həmfikir
[٦] . saysız, çox

دلا بۇ دوریده بر شعر موزۇن اشکار ایله
رواجین ویر دُری نظمنک مطاعنک خوش بزار ایله
رُموزین قُویمه مبهم نکته سین قیل لعل تک روشن
کونکل تا دُور[۱] یتیر صرافنه قابل عیار ایله
جوشُپدور بُو بیتلر بیله رنکین یاقوته بنکزر
منقش قلدنک اطرافین کورنده افتخار ایله
تمنا ایدنک ایدل جمالین کورمکه یارنک
بُولورسن برک کللر ایچره کلزاره کزار[۲] ایله
آچلمش چهره سی گُل تک سالوب گیسوُسین هر یانه
بُو اطوار ایله کورکج اوُل نکاری جان نثار ایله
ترحم قیل کورنده عاشقی دلخسته یی ای شوخ
یتر بی حد ظلم ایت حالنکی شفقت شعار ایله
شکرریز اول حبیبم طُوطی دل لهجه سین آچسون
رخنک بر زره سین کوستر اوُزنک آیینه دار ایله
تنعمده بلنمز مردیله نامردنک احوالی
کوزیم مردی سن اوُل[۳] فقر ایچره همراه اختیار ایله
دیلرسن **شوقیا** بُو دهرده آسوده حال اولمق
بسا حمد ثنا اول کردکاره بی شمار ایله

---

[۱]. بورادا منظور «در» اینجی معناسیندادیر، ندنسه ایملاسی یالنیشدیر.
[۲]. گذار سؤزون ایملاسی بئله یازیلیبدیر.
[۳]. اولماق فعلی معناسی بورادا «چالیش»، «گل» دئمکدیر.

Təbiba bir nəzər qıl halıma gör necə bimarəm[1],
Dəvasız dərdlərə aləmdə mən tək , tənha[2] giriftarəm.
Giribanım qutarmaz dərdü qəmdən , çarə yo neylim,
Çətindir dirliyim dünya evində bil ki, naçarəm.
Içib əhli cahan qəflət şərabın , cümlə[3] sərxoşdur,
Dəxi piri muqan bəzmində[4] kim söylər ki, huşyarəm.
Içirmiş eşq camından mənə mey saqiyi kövsər[5],
Ayılmaq ? həşrədək mədhuş qallam məsti xümarəm.
Cününluq dağı var köksümdə , nəqqaşi[6] əzəl çəkmiş,
Onunçün vadiyi[7] eşq içrə Məcnuni-həvadarəm.
Vuranda tişə tək dırnağımı dağlara hər ləhzə,
Qoparram yerli-yerdən , kuhkəncə[8] mən daxi varəm.
Tökəndə qanlı yaş gözdən, gül üzlü yardan ayrı,
Çəkəndə naleyi-əfqan , görən der bülbüli zarəm.
Gərək xublara can nəqdin verəm dəhrin bazarinda,
Budur qəsdim , könüldən əhli hüsnə mən xəridarəm[9].
Bugün bir dilbərin ləli ləbin mədh eylədim dildə,
Yəqin bil **Şövqi**ya sərraf tək ləli gövhərbarəm.

---

[1] .xəstə , nasaz, naxoş
[2] . yalnız , tək
[3] .hamı , bütün
[4] .şadlığında , şənliyində
[5] . al şərab , qırmızı şərab
[6] .rəssam
[7] . çöl , səhra , yer, məkan
[8] .dağ qazan
[9] .alıcıyam

طبیبا بر نظر قیل حالمه گُور نیجه بیمارم
دواسیز دردلره عالمده من تنها گرفتارم
کریبانم قُوتارمز دردُ غمدن چاره یوخ نیلیم
چَتیندُور دیرلکیم دُنیا اونده بیل که ناچارم
ایچُوب اهل جهان غفلت شرابین جمله سرخوشدور
دخی پیر مغان بزمنده کیم سولر که هوشیارم
ایچرمیش عشق جامندن بنکا می ساقی کوثر
آیلمق حشره دک مدهوش قالّام مست خمارم
جُنُونلق داغی وار کوکسمده[1] نقاش ازل چَکمش
آننکیچون وادهٔ عشق ایچره مجنونه هوادارم
اوُرانده تیشه تک دیرناغمی داغلاره هر لحظه
قوپارّام یرلو یردن گُوهکنجه من داخی وارم
توُکنده قانلو یاش کوزدن کل یوزلو یاردن آیرو
چکنده نالهٔ افغان گُورن دِیَر[2] بلبل زارم
کرک خوبلاره جان نقدین ویرُم دهرنک بزارینده[3]
بُودُور قصدیم کونکلدن اهلُ حُسنَه من خریدارم
بکون بر دلبرنک لعل لبین مدح ایلدیم دلده
یقین بیل **شوقیا** صراف تک لعل کهر بارم

---

[1]. قدیملرده دلی اولانلارین بدنینه پامبیق قویوب یاندیراردیلار کی، دلیلیک اوندان قاچسین. فضولی دئییر: پنبهٔ داغ جنون ایچره نهاندیر بدنیم/
[2]. دئیر
[3]. بازاریندا سؤزونون ایملاسی ألیازمادا بئله گئدیر.

نه خوشدور بُو جهان باغنده کل رخساره جان ویرمک
قدی شاخ نزاکت سرو خوش رفتاره جان ویرمک
مُسیحا دم نکارنک یولنه تسلیم ایدن جانین
سناسن ینکی دن احیا اولور صد باره جان (ویرمک)[1]
توکولمیش چین چین اولمش زلفلری یارنک بوخاقنده
نه یکدر هر زمان اُول طرهٔ طرّاره[2] جان ویرمک
ایچرسه قانمی اُول مست چشمنک غم دکل دلبر
مُدام عشق اهلی ایستر کوزلری خونخواره جان (ویرمک)
نه مانع عارضنک وصلینده غمزنک بَغرمی دَلسَه
بُو دور کونکلیم تمناسی کُل اوزره خاره جان ویرمک
لبنک خاصیتین صُوردوم دیدیلر کیف یحیی الارض
آننکچون عادت ایتمش بن کمی بیچاره جان ویرمک
شکسته **شوقی** صبر ایتسُونک اکر هجرنکده جانانک
یترسن وصلنه بر کُون کرک دلداره جان ویرمک



Nə xoşdur bu cahan bağında gülrüxsara can vermək,
Qədi şaxi nəzakət sərvi xoşrəftara can ermək.
Məsihadəm nigarın yoluna təslim edən canın,
Sanasan yenidən ehya olur sədbarə can (vermək).
Tökülmüş çin-çin olmuş zülfləri yarın buxağında,
Nə yeydir hər zaman ol türrei tərrara can vermək.
Içərsə qanımı ol məst çeşmin , qəm dəyil dilbər,
Müdam eşq əhli istər gözləri xunxara can (vermək).
Nə mane arizin vəslində qəmzən bağrımı dəlsə,
Budur könlüm təmənnasi gül üzrə xara can vermək.
Ləbin xasiyyətin sordum dedilər keyfə yohyələrz,
Onunçün adət etmiş mən kimi biçarə can vermək.
Şikəstə **Şövqi** səbr etsin əgər hicrində cananın,
Yetirsin vəslinə birgün gərək dildara can vermək.

---

[1]. پرانتئز ایچینده اولان سؤزلر ألیازمادا دوشوبدور.
[2]. اوغرون ساچلارا ، کونول اوغورلایان تئیللر

کونکل بُو دهرده بی رحم اولان دلداردن کن کز
ذلالت چکمه کوینده وفاسیز یاردن کن کز
کُورنده ماهوشلر بینوا عاشقلر احوالین
ترحم قل میوب ظلم ایلسه خونخواردن کن کز
یقین بیل اصلی اولماز بر کلنک خضرا دمندن کیم
نظیف اوُلماز مُلّوثدور بتن کلزاریدن کن کز
اکر دوُشسه کذارنک مجلس ایچره هم قرین اولمه
یتنده اوُل رقیبی سک صُفت بی آردن[1] کن کز
تاپارسن بحره[2] اوستادون مکمّل اوُلسَه علمنده
که بی علم بی عمل اوستاد بی کرداردن کن کز
بد اولمق یکدور امّا همنشیننک مار زهرآلود
رفیقی بی وفادن هم عذاب النـاردن کن کز
الا ای **شوقی** دوُت همراهکی خوش بخت اولان کسدن
جهانده هر دَنی بدبخت اولان ادباردن کن کز



Könül bu dəhrdə birəhm olan dildardan gen gəz,
Zəlalət çəkmə kuyində vəfasız yardan gen gəz.
Görəndə mahvəşlər binəva aşiqlər əhvalın,
Tərəhhüm qılmayıb zülm eyləsə xunxardan gen gəz.
Yəqin bil əsli olmaz bir gülün xəzra dəmindən kim,
Nəzif olmaz müləvvəsdur ,bütün gülzaridən gen gəz.
Əgər düşsə güzarın məclis içrə , həm qərin olma,
Yetəndə ol rəqibi səg-sifət biardan gen gəz.
Taparsan bəhrə , ustadın mükəmməl olsa elmində,
Ki , bielm, biəməl ustadi bikerdardən gen gəz.
Bəd olmaq yeydir amma həmnişinin mari zəhralud,
Rəfiqi bivəfadan , həm əzabi nardan gen gəz.
Əla ey **Şövqi** tut həmrahını  xoşbəxt olan kəsdən,
Cahanda hər dəni , bədbəxt olan ədbardan gen gəz.

---

[1]. بی ناموس، بی غیرت ( فارسجا عار یازیلیر). آر تورکجه تمیز، صاف دئمکدیر مثلن آریتلاماق تمیزلمک دئمکدیر
[2]. بهره : فایدا ، کار. (ألیازمادا ایملاسی بئله دیر).

Içər sultani Rumi bəzm ara kim dəmbədəm qəhvə,
Onunçün bu cahan içrə olubdur möhtərəm qəhvə.
Yetəndə bəzminə[1] dövründə can mülkün qılır abad,
Şərabın tərk edib , nuş eylər[2] ol cəmşidi cəm qəhvə.
Demiş xasiyyətin , Lüqman hökmündə nafedir[3],
Təamın mədəyə qoymaz yetə həgiz ələm qəhvə.
Gələndə məclisə əzyafi[4] istiqbal edər hər dəm,
Məhəbbət göstərər mehmanə çox eylər kərəm qəhvə.
Tutub fincan içində didə birlə həm qərin etsə,
Verər mərdümlərin çeşminə ehyaisi[5] dəm qəhvə.
Içəndə artırar zövqü səfasın əhli irfanın,
Demişlər badədən olmaz , bilin əlbəttə kəm qəhvə.
Siyəh rəng eyləmiş pirahənin mişkin qəba[6] geymiş,
Məgər hindubəçə[7] məhbubdur pak , şim qəhvə.
Bu məzmunilə xət rüxsarə çəkmiş katibi qüdrət,
Ləbaləb olmağa dildardan qılmış rəqəm qəhvə.
Yanar sevda sərində[8] **Şövqi** həm pərvanədir eşqə,
Düşüb atəşlərə mən tək, görür yüz min sitəm qəhvə.

---

[1] . şənlik , şölən , qonaqlıq
[2] . içmək
[3] . faydalıdır , faydası var
[4] . ziyyafət , şənlilik
[5] . ehya canlanma , yeniləşmə
[6] . kişi geyimi
[7] . hindli uşaq
[8] .başında

ایچر سلطان رومی بزم ارا کیم دمبدم قهوه
آننکچون بُو جهان ایچره اولوبدور مُحترم قهوه
یتنده بزمنه دَوریندە جان مُلکین قلور آباد
شرابین ترک ایدوب نوش ایلر اول جمشید جم قهوه
دیمش خاصیّتین لقمان حکمنده نافعدور
طعامین مَعدیه قویمز یته هرکز اَلَم قهوه
کلنده مجلسه اضیافی استقبال ایدر هر دم
محبّت کوسترور مهمانه چوخ ایلر کرم قهوه
دُوتُوب فنجان ایچنده دیده برله هم قرین ایتسه
ویرور مردُملرنک[۱] چشمینه احیاعسی[۲] دم قهوه
ایچنده آرتورور زوق[۳] و صفاسین اهل عرفاننک
دیمشلر باده دن اولماز بلُون البته کم قهوه
سِیَه رنک ایلمش پراهنین مشکین قبا کیمش
مکر هنُدوبچه محبُوبدور پاک شیم قهوه
بو مضونیله خط رُخساره چکمش کاتب قُدرت
لبالب اولمقه دلدارلن قلمش رقم قهوه
یانار سودا سَرِنده **شوقی** هم پروانه دُر عشقه
دُوشُوب آتشلره بن تک کُورر یُوز مین ستم قهوه

---

۱. گؤز ببه یی
۲. احیاء سؤزون ایملاسی أایازمادا بئله دیر.
۳. ذوق سؤزونون ایملاسی ألیازمادا بئله یازیلیبدیر.

تماشا قیل کونکل بزم ایچره کویا ساقیدر قلیان
کزر باشدن آیاغه مجلسونک نوراقیدر قلیان
دمادم آهل عشقی شاد ایلر ذوق ضیافتله
اکر هر یره اُولسه خوبلر یغناقیدور قلیان
صُراحی کردنی مینا بیلی چرکس کبی اینچه
کُلاهین سرده کُلناری قوین قیطاقیدور قلیان
اُطبایی سُلف غم چکمکه تزویج[۱] کورمشلر
کونکلدن فکر کوناکونی قویمز داقیدر قلیان
دهانیندن آلور هم بوسه لر دست بازیلق ایلر
کُورنلر دیر آنکا معشوقه لر عشّاقیدور قلیان
دکر تا صبحدن کیم چکسه تُوپ کمی یخار جسمین
سناسن جان آلان جلّاد قاتل یاقیدور قلیان
روادور دود آهین قهریله باشدن چخارسونلار
که نی برله اوُپن محبوبلر دوداغیدور قلیان
کُتورسه مجلسه بر زشت صورت بر قبیح منظر
معاذالّه یانار **شوقی** دیر بر آغودور[۲] قلیان

Təmaşa qıl könül bəzm içrə güya saqidir qəlyan,
Gəzər başdan ayağa məclisin nurağıdır qəlyan.
Dəmadəm əhli eşqi şad elər zövqi ziyafətlə,
Əgər hər yerə olsa, xublar yığnağıdır qəlyan.
Surahi gərdəni , mina beli , Çərkəs kimi incə,
Kulahin sərdə gülnari qoyun qaytağıdır qəlyan.
Ətibbayi sələf qəm çəkməyə təcviz görmüşlər,
Könüldən fikri gunaguni qoymaz , dağıdar qəlyan.
Dəhanından alır həm busələr, dəstbazlıq eylər,
Görənlər der ona məşüqələr üşşaqıdır qəlyan.
Dəgər ta sübhdən kim çəksə top kimi yıxar cismin,
Sanasan can alan cəllad , qatil , yağıdır qəlyan.
Rəvadır dudu ahın qəhrilə başdan çıxarsınlar,
Ki , ney birlə öpən məhbublar dodağıdır qəlyan.
Gətirsə məclisə bir zişt surət, bir qəbih mənzər,
Məazallah yanar **Şövqi** , deyər bir ağudur qəlyan.

---

۱. أليازمادا بئله يازيليبدير و «تجويز» سؤزونون آغيز فورماسيدير.
۲. گومان کی، بو «آهو» سؤزونون آغيز فورماسيدير.

بـهار ایامی کلشنده اوُتردیم بر چمندن من
رخنک ترحین[١] کُوتُوردوم دلبرا کُل نسترن دن من
کُوروب کُل چَوره سندن سنبلی خوش رنکی محظوظم
دُور اولمان عارضنک دَورینده زلفی یاسمندن من
او شهلا چشمیُون ذوقیله کزردیم کوهُ صحرانی
بر اوصافی نکاهنک بُولدُوم[٢] آهویی خُطندن من
کلوب اول لهجه سی شیرین بنمله بر مقال آچمق
اوُماردیم سولشه بُو طوطی شکر شکندن من
افقدن باش چخار حُسننک منور قیلسنک آفاقی
کونش تک رُوینکی کوستر یتیم بر فیضه سندن من
بنکا خلد برینده یک پریم کوینکده جور ایتسنک
تمنا ایتمنم فردوسی آیرولمق وطندن من
اولوب یعقوب وش **شوقی** کونکل دآئم چکر قیغو
آلیدیم بُوینکی یوسف کمی کل پیرهن دن من



Bahar əyyami gülşəndə ötürdüm bir çəməndən mən,
Rüxun tərhin götürdüm dilbəra gül nəstərəndən mən.
Görüb gül çevrəsindən sünbüli xoş rəng məhzüzəm,
Dur olman arizin dövründə zülfi yasəməndən mən.
O şəhla çeşminin zövqilə gəzərdim kühu səhrani,
Bir övsafi nigahın buldum ahuyi Xütəndən mən.
Gəlib ol ləhcəsi şirin , bənimlə bir məqal açmaq,
Umardım söyləşə , bu tutiyi şəkkər şəkəndən mən.
Üfüqdən baş çıxar hüsnun münəvvər qılsın afaqi,
Günəş tək ruyini göstər , yetim bir feyzə səndən mən.
Bana xuldi bərindən yey , pərim kuyində cövr etsin,
Təmənna etmənəm firdövsi , ayrılmaq vətəndən mən.
Olub Yəqubvəş **Şövqi** , könül daim çəkər qayğı,
Alaydım buyini Yusifkimi, gül pirəhəndən mən.

---

[١]. آلیازمادا سؤزون ایملاسی بئله دیر/ طرح ، ناخیش
[٢]. تاپماق. بو سؤز موعاصیر دیلیمیزده منسوخ ساییلیر. باشقا اوغوز تورکجه سینده وار.

Könül aqillərə əsrarını[1] bir-bir bəyan eylə,
Yetər , bu sirri eşqin , daima eldən nihan[2] eylə.
Dili məhzununu[3] bir yara verdin çün dəyil fani,
Muradi mətləbin ondan dilə, halın əyan[4] eylə
Həyatın sərf qıl uqbayə kim, olduqca dəhr içrə,
Qusur ilə dünyanın kirdarın[5] yox küman eylə.
Nədəndir çərxi[6] bipərva mənə zülm eylədin hər dəm,
Məni aləmdə yetməzmi , zəifü natəvan eylə.
Müdam zəfi tənimdə[7] ustuxanım[8] muyə[9] dönmüş kim,
Daha bəsdir ki, ey gərdun[10] bu cövri bikəran eylə.
Təni üryanilə eşqin yonlunda keçmişəm sərdən,
Fələk sevsən cəfa tiğin vurub, imtahan eylə.
Mənim dadxahım[11] var, şikayət eylərəm səndən,
Dəmadəm vəhm qıl ondan mənə, az qəsdi can eylə.
Əlindən dad[12] qılsam , onda padişaha neylərsən,
Qəzəb eylər sənə , istərsə fəryadü aman eylə.
Qərəz **Şövqi** həqiqətdən ki, içdin badeyi vəhdət,
Onunçün məsti eşq oldun , məşhuri cahan eylə.

---

[1] . sirlərini
[2] . gizli , örtülü, məxfi
[3] . qəmli , kədərli
[4] . aşkar , açıq
[5] . davranıç
[6] . dünya , fələk
[7] . bədən
[8] . sümük
[9] . hük , saç , qıl
[10] . fələk, dünya , qismət
[11] . şikayət ərizəsi
[12] . şikayət

کونکل عاقلره اسرانکی بربر بیان ایله
یتر بُو سرّ عشقنک دآئما ایلدن نهان ایله
دلی محزونکی بر یاره ویردونک چون دکل فانی
مُرادی مطلبنک آندان دیله حالنک عیان ایله
حیاتنک صَرف قیل عقبایه کیم اولدوقجه دهر ایچره
قصور ایله دنیاننک کردارین یُوخ کُمان ایله
ندندور چرخ بی پروا بنکا ظلم ایلدُونک هر دم
بنی عالمده یتمزمی ضعیف ناتوان ایله
مدام ضعف تنمده استخوانم مویه دونمش کیم
دخی بسدور که ای کردُون بُو جوری بیکران (ایله)[1]
تنی عریانله عشقنک یُولنده کچمشم سردن
فلک سَوسنک جفا تیغین وُروب امتحان ایله
بنم بر دادخواهم وار شکایت ایلرم سندن
دمادم وهم  قیل آندن بنکا آز قصد جان ایله
الندن داد قیلسم آنده پادشاهه نیلرسن
غضب ایلر سنکا ایسترسه فریاد امان ایله
غرض **شوقی** حقیقتدن که ایچدونک بادهٔ وحدت
آننکچُون مست عشق اولدونک مشهور جهان ایله

---

[1]. ألیازمادا بو سؤز یوخدور.

Səfasi zövqi dünyanın cəfayi karına[1] dəyməz,
Ki beş gün sağ olub gəzmək çəkən azarına dəyməz.
Alıb cami müsəffa[2] aləm içrə saqi dəstindən,
Əzəl məsti şərab olmaq, sonar xumarına dəyməz.
Girib bağı cahanda şaxi güldən[3] qönçəsin dərmək,
Dili məcruhi xunaludə eylər[4] , xarın dəyməz.
Əgər bir kimsə məmur eyləsə eyvani taqi Kəsranın,
Ginə viran olur , dəsti sınıq divarına dəyməz.
Muxalif dövri-sərgərdan gəzər , həm rastru gösrsə,
Dönər rəyincə , kəcru kimsənin pərgarina dəyməz.
Nəimi rövzəni verdi atam, buğdaya eyb etmən,
Zamana əhlinin yanında co miqdarına dəyməz.
Dila tərk et fəna mülkün, onu arif olan sevməz,
Ömür sərf eylə üqbayə[5], girib bazarına dəyməz.
Riyazi dəhrin amma xöf edən gülün xarından,
Gül əyamında dərməz, güllərin gülzarına dəyməz.
Gəl ey **Şövqi** təmə qılma , dəni[6] hümmət olan kəsdən,
Zəlil eylər səni, verdikcə zər , izharına dəyməz.

---

[1] . işinə
[2] .səfalı , səfası olan.
[3] . gül budağı
[4]. yaralı ürəyi qan eylər.
[5] . o dünyaya , axirət dünyası.
[6] . alçaq , rəzil (adam)

صفاسی ذوقی دنیانک جفایی کارینه دکمز
که بیش گُون ساغ اوُلوُب کزمک چکن آزارینه دکمز
آلوب جام مصفا عالم ایچره ساقی دستندن
ازل مست شراب اولمق صنکره خمارینه دکمز
کیروب باغ جهانده شاخ کلدن غنچه سین درمک
دل مجروحی خون آلوده ایلر خارینه دکمز
اکر بر کیمسه معمور ایلسه ایوان طاق کسرانک
کنه ویران اوُلوُر دستی سنق دیوارینه دکمز
مخالف دَور[1] سرکردان کزر هم راست رو کورسه
دوُنر راینجه کج رو کیمسننک پرکارینه دکمز
نعیمُ رَوضه نی ویردی آتام بوُغدایه عیب اتمنک[2]
زمانه اهلیننک یاننده جو مقدارینه دکمز
دلا ترک ایت فنا مُلکین اوُنی عارف اولان سومز
عمُر صرف ایله عقبایه کیروب بازارینه دکمز
ریاض دهرنک اما خوف ایدن کلنک خوارندن
گُل ایامنده درمز کللرین کلزارینه دکمز
کل ای **شوقی** طمع قلمه دنی همت اولان کسدن
ذلیل ایلر سنی ویردُوکجه زر اظهارینه دکمز

---

[1]. دوران ، زامان، روزگار
[2]. حضرت آدمین جنتده کی عملینه ایشاره ائدیر: بهشت نعمتلرین بوغدایا ساتدی.

Cahan mülki müşəvvəşdir[1] , gəlir seyl sərabından[2],
Zəminə[3] saçılır sular, çıxar giryə[4] səhabından.
Havaya bir nəzər qıldım , xəzanın fəsli gəlmişdi,
Belə məlum olur hala rütübətli türabından[5].
Cəfadır kim əkilmiş , həbbələr[6] bərg[7] içrə pünhandır,
Qalıbdır möhnət ilə başları , çıxmaz hicabından.
Xəzanı qəmdə qalmış bülbüli gül , həm xumar içrə,
Sanasan mey içib nərgis, məgər qəflət şərabından.
Tutuqda bəslənir çün mahinövlər[8] , şahidə bənzər,
Ziyasın kim görübdür aftabın iztirabından.
Dönüb naəhl əgər diqqət desə şerim nizamında,
Çi bak ondan ki, əhli hala rövşəndir cavabından.
Fələkdir bu muxalif ruzigari eyləyən büryan,
Cəmaat xəlqi sərgərdan olur çərxin şitabından[9].
Gəlib ustadi memari edibdir xanələr bünyad,
Xərab abad olubdur , həm sipəhrin[10] inqilabından.
Daha **Şövqi** ədəb təlimin alma fani dünyadan,
Yetərsən feyzə təlim alsan üqbanın kitabından.

---

[1] .qarmaqarışıq
[2] .bulaq, pinar, çeşmə
[3] .yerə
[4] .ağlamaq
[5] .məza, qəbir, torpaq
[6] .dən , dənə , dənəli bitkilər
[7] .yarpaq
[8] .gözəllər, yeni yetmələr
[9] .sürətindən, hərəkətindən
[10] asiman, fəza , tale

جهان مُلکی مشوشدور کلور سیلُ سرابندن
زمینه ساچلُور[۱] سولر چخار کریه سحابندن
هوایه بر نظر قلدُوم[۲] خزاننک فصلی کلمشدی
بیله معلوم اوُلوُر حالا رطوبتلی تُرابندن
جفادور کیم اکیلمش حبّه لر برک ایچره پنهاندور
قالُوپدور محنت ایله باشلری چخمز حجابندن
خزانی غمده قالمش بلبلی کل هم خمار ایچره
سناسن می ایچب نرکس مکر غفلت شرابندن
تُتُقده[۳] بسلنور چُون ماه نولر شاهده بنکزر
ضیاسین کیم کُوروپدور آفتابنک اضطرابندن
دونوب نااهل اکر دقت دیسه[٤] شعریم نظامنده
چه باک آندان که اَهلی حاله روشندور جوابندن
فلکدور بو مخالف روزکاری ایلین بریان
جماعت خلقی سرکردان اوُلوُر چرخنک شتابندن
کلوب اوستادُ معماری ایدپدور خانه لر بنیاد
خراب آباد اوُلوپدور هم سُپهرنک انقلابندن
دخی **شوقی** ادب تعلیمین آلمه فانی دنیادن
یترسن فیضه تعلیم آل سن عُقباننک کتابندن.

---

[۱] داغیلماق
[۲]. باخماق
[۳]. اورتولو
[٤]. دیققت ائدین.

عنادل کلشن ایچره بکلیوب خوش خانه دوتمشلر
اوخور نغمات شورین میل کلخندانه دوتمشلر
کیجه تا صبحدن شمع رُخنک دورنده چوخ یاندیم
گُورنلر روینکی آتش تنیم پروانه دوتمشلر[۱]
قلپدور جغدیلر چون آشیان بُو کونکلمنک شهرین
قچن[۲] معمُور اولور یارب کوروب ویرانه دوتمشلر
کلی رُخسارنک اوزره اول سیه زلفنک قلور تشبیه
عارفلر کلشن ایچره لشکری زاقانه[۳] دوتمشلر
قرادور روزکاریم چشم اوجندن ای کمان ابرو
هدف تک سینمی اول ناوک مژکانه دوتمشلر
لبنک ذوقیله زاهدلر سونپدور بادهٔ نابی
آلُوب میخانه کنجین دستنه پیمانه دوتمشلر
مُدام **شوقی** جهان ایچره توکل قیل صداقتله
توکلنی جهانده درد ایچُون درمانه دوتمشلر



Ənadl gülşən içrə bəkləyib xoş xanə tutmuşlar,
Oxur nəğmati şurin , meyl gülxəndanə tutmuşlar.
Kecə ta subhdən şəmi rüxun dövründə çox yandım,
Görənlər ruyini, atəş tənim pərvanə tutmuşlar.
Qılbdır cüğdilər çün aşiyan bu könlümün şəhrin,
Haçan məmur olur yarəb, görüb viranə tutmuşlar.
Güli rüxsarın üzrə ol , siyəh zülfun qılır təşbih,
Ariflər gülşən içrə ləşkəri zaqanə tutmuşlar.
Qaradır rüzigarım çeşm ucundan ,ey kaman əbru,
Hədəf tək , sinəmi ol navəki müjganə tutmuşlar.
Ləbin zövqilə zahidlər sunubdur badeyi nabi,
Alıb meyxanə küncin , dəstinə peymanə tutmuşlar.
Müdam **Şövqi** cahan içrə təvəkkül qıl sədaqətlə,
Təvəkkülni cahanda dərd üçün dərmanə tutmuşlar.

---

[۱]. گومان ائتمیشلر
[۲]. نه واخت ، نه زامان ، سئوال ضمیریدیر و أسکی دیلده هاچان، قاچان شکیلده اولوب.
[۳]. قارقا ، بورادا قارالیق نظرده توتولور.

خم اولدی قدیمز گُوز کورمدی اول سروُ قامتدن
اولور هجران گُونی مشکل بنا روزی قیامتدن
ایدوبسن ترک می ای دل کلور ایامُ گُل حالا
بو ایشده فائده اوُلماز که بر غیری ندامتدن
دیدیلر شاه مجنون سپاهی وحش طیریدن
بنم تک چون مسخر ایتمدی مُلک ملامتدن
دَگُل صحرانوردُ کوهکن بن کمی عشق ایچره
دوشر کیم شهر ارا اوُلسه مزاجی استقامتدن
قِلُنک سنکی ملامتدن حصار اطرافمه بربر
فنای غرغه اشکیم ویرمه سنک اهلی سلامتدن
اکر گُورسونک مَیُنک افتاده سین طعن ایتمه ای زاهد
یخار چُوخلاری بو پیرمغان هر دم کرامتدن
جهان ایچره مُدام بر فرد قالمز هیچ مُحنتده
توکل ایلسه بر گُون چخار آخر ندامتدن
اعلی ای **شوقی** بیچاره چُوخ ایتمه سفر سُو تک
دکر داشدن داشه باشنک کر ال چکسنک اقامتدن

Xəm oldu qəddimiz , göz görmədi ol sərvi qamətdən,
Olur hicran güni müşgül bana rüzi qiyamətdən.
Edibsən tərki mey ey dil , gəlir əyyami gül hala,
Bu işdə faidə olmaz ki, bir qeyri nidamətdən.
Dedilər şah Məcnun sipahi vəhşü teyridən,
Mənim tək çün müsəxxər etmədi mülki məlamətdən.
Dəyil səhranəvərdü kuhkən mən kimi eşq içrə,
Düşər kim , şəhr ara olsa mizaci istiqamətdən.
Qılın səngi məlamətdən hisar ətrafıma bir-bir,
Fənayi qərğə əşkim verməsin əhli səlamətdən.
Əgər görsən minən üfdadəsin, tən etmə ey zahid,
Yıxar çoxları bu piri muğan hər dəm kəramətdən.
Cahan içrə müdam bir fərd qalmaz hiç möhnətdə,
Təvəkkül eyləsə birgün çıxar axər nidamətdən.
Əla ey **Şövqi** , biçarə çox etmə səfər su tək,
Dəyər daşdan daşa başın, gər əl çəksən iqamətdən.

Vilayətdə var əhbab , eşitsin xoş xəbərdir bu,
Tutar sərraf olan guşinə[۱] , bir ləli gövhərdir bu.
Süleymana mələx[۲] payın edib töhfə apardı mur[۳],
Qəbul etmiş onu görkəc, hədisi mötəbərdir bu.
Yamanlıq edənə hər kim dönüb bir yaxşılıq etsə,
Yetər məqsuduna insafdan , onda əsərdir bu.
Şücaət həm səxavət , rəhm , taət pişə qıl ey dil,
Bu məzkürat[٤] hər kimdə bulunsa , çox hünərdir bu.
Bu halətlər yəqin bil cani mən[٥] hər kimsədə olsa,
Mühəqqəq ilə kim , aləmdə həm niku siyərdir[٦] bu.
Bu ətvar[۷] ilə bir yarı , könül həsrət çəkər bulmaq,
Dolanım səyilə daim tapaydım , bəhrü bərdir bu.
Bihəmdullahu vəlminə[۸] yetib ol dust vəslinə,
Görübdür canım hicran acısın, şirin şəkərdir bu.
Görəndə **Şövqi** ədna[۹] kəsləri izhari əcz etmə,
Bu dəhri zalidə az eylə kim, xunin cəgərdir bu.

---

۱ .qulaq
۲ .çəyirtkə
۳ . qarışqa
٤ .haqqında danışılmış
٥ .mənim əzizim
٦ .sirət, əxlaq, ərdəm
۷ .üsul, əda, tərz
۸ .allaha şükür edib minətdaram
۹ .alçaq , aşşağı

ولایتکده وار احباب[1] ایشیتسون خوُش خبردر بُو
دوتار صراف اولان گُوشینه بر لعل کهردر بو
سلیمانه ملخ پــایین ایدوب تحفه آپاردی مُور
قبول ایتمش آنی کورکج حدیث معتبردر بو
یمانلق ایدنه هر کیم دُونوب بر یاخشلق ایتسه
یتر مقصودینه انصافدن اونده اثردر بو
شجاعت هم سخاوت رحم طاعت پیشه قل ای دل
بُو مذکورات هر کیمده بُولنسه[2] جوخ هنردر بو
بُو حالتلر یقین بیل جان من بر کیمسده اوُلسه
محقق ایله کیم عالمده هم نیکو سیردور بُو
بُو اطواریله بر یاری کونکل حسرت چکر بولماق
دولانم سعیله دآئم تاپیدوم بحرُ بر دُور بُو
بحمدالله و المنه یتوب اول دوست وصلینه
گُوریپدُور جانم هجران آجسین شیرین شکردر بُو
کورنده **شوقی** ادنا کسلری اظهار عجز ایتمه
بُو دهر ذالیده آز ایله کیم خونین جکردور بُو

---

[1]. دوست ، تانیش(حبیب سؤزونون جمعی)
[2]. بولنسه : تاپیلسا ؛ بولماق فعلیندندیر.

سنُنک تک شوخ رعنا گُورمدیم باغُ جهان ایچره
خجلدُور عارضنک بختنده گُل هر کلستان ایچره
ریاض روضة رضوانده وادور حوریلر اَمّا
نه نسبت حُسنکا همتا اولا بلمز جنان ایچره
مُطرّا زلفلرنک ای شوخ آلوپدور دور رخسارنک
سناسن لالة احمر قالوب عنبرفشان ایچره
گُورنده نرکس شهلا کمی حیرتده در عالَم
سالوُپدور فتنه لر چشمنک کوریم اهل زمان ایچره
ینکاغنک حسرتندن کوهلن صحراالره دوشمش
قلوب مستور داغین لاله اول برک نهان ایچره
دیشنک مرواریدن کوکچک لبنک یاقوتدن یکدُر
دهاننک دور صدف کویا دوُتار کوهرنی کان ایچره
اوُلوُم قربان قاشنکا اول غمزنکا هر دم
چکپدور کلک قدرت نوک مژکاننک کمان ایچره
کونکل مقصودینه وصلنده بر دلبر یتر آخر
دمادم **شوقی** ایلر ذکر اللهی زبان ایچره



Sənin tək şüxu rəna görmədim baği cahan içrə,
Xəcildir arizin bəxtində gül hər gülüstan içrə.
Riyazi rovzeyi-rizvanda vardır hurilər amma,
Nə nisbət hüsnünə həmta ola bilməz cinan içrə.
Mütərra zülflərin ey şüx alıbdır dövri rüxsarın,
Sanasan laleyi əhmər qalıb ənbərfəşan içrə.
Görəndə nərgisi şəhla kimi heyrətdədir aləm,
Salıbdır fintnələr çeşmin görüm əhli zaman içrə.
Yanağın həsrətindən kuhilən səhralara düşmüş,
Qılıb məstür dağın lalə ol bərgi nihan içrə.
Dişin mirvaridən göyçək,ləbin yaqutdan yeydir,
Dahanındır sədəf güya tutar gövhərni kan içrə.
Olum qurban qaşına, ol qəmzənə hər dəm,
Çəkibdir kelki qüddrət nöki mölganın kaman içrə.
Könül məqsudına vəslində bir dibər yetər axır,
Dəmadəm **Şövqi** eylər zikr allahı zəban içrə.

ای صبا دلداره ویر من مبتلادن بر خبر
رسمدر سُلطانه یتمک بینوادن بر خبر
سَوله ای بیکانه وش هجر اودینه یانمش تنیم
نُوله صُورسنک رحم ایدُوب بو آشنادن بر خبر
عاشقُ دلخسته دنک حالین دیر صبح نسیم
کوشنکا دکدوکجه لعل جانفرادن بر خبر
بیل پریشان اولدی کونکلم خنده لب زلفنک کمی
آل آننک کیفیتین بادُ صبادن بر خبر
بلبل شوریدام گُلشنده افقان ایلین
بلمدیم کلچهره مهر و دلربا(دا)ن[۱] بر خبر
وصل دیدارنکله تشخیص ایتمه سن دردیم طبیب
بلمه سن بیمارونکم شاهیم کدادن بر خبر
عشقه دوشدونک **شوقی** کلمش چونکه هاتفدن ندا
یتمش امّا سمعنکا کویا بنادن بر خبر



Ey səba dildara ver mən mübtəladan bir xəbər,
Rəsmdir sultana yetmək binəvadan bir xəbər.
Söylə eybiganəvəş hicr oduna yanmış tənim,
Nöla sorsan , rəhm edib bu aşinadan bir xəbər.
Aşiqi dilxəstədən halın deyər sübhi nəsim,
Guşuna dəydikcə lə`li canfəzadan bir xəbər.
Bil pərişan oldu könlüm , xəndələb zülfün kimi,
Al onun keyfiyyətin badi-səbadan bir xəbər.
Bülbüli-şüridəyəm gülşəndə əfğan eylərəm,
Bilmədim gülçehrə mehrü dilrübadan bir xəbər.
Vəsli didarınla təşxis etməsən dərdim təbib,
Bilməsən bimarınam şahım gədadan bir xəbər.
Eşqə düşdün **Şövqi** , gəlmiş çünki hatifdən nida,
Yetmiş amma səminə güya binadan bir xəbər.

---

[۱]. بو سؤز آلیازمادا «دلربان» کیمی یازیلیبدیر.

Əzəl üşşaq[1] olan canın verir canana qanundur,
Keçər başdan , yolunda qalmaz ol nüqsana , qanundur.
Haçan piri muğan bəzmində[2] görsə aşiqi- məsti,
Sunar camilə mey , çün saqi dövrana qanundur.
Olanda məclisi rindanə daxil bil kim, eşq əhli,
Heç etməz meyli məscid ,bəklər ol meyxana qanundur.
Bu könlüm arizin[3] istər , qədin canım , əcəb olmaz,
Sevər bülbül gülü , aləmdə şəm pərvanə qanundur.
Dəhanından[4] xəbər sordum ki , yox cürmim[5] nədir qəhrin,
Gəda[6] gər cürm qılsa əfv edər sultana qanundur.
Edər ta əvvəl zaman əhvalımı aşüftədir dərhəm,
Səri muyin[7] tökülsə gərdənə[8] hər yana qanundur.
Dəyil bihüdə kəc baxsan , içibsən bağrımın qanın,
Yaxar meyxarələr sərxoş gözüm məstana qanundur.
Nolur sən Leyliveş qeydinə qalsam yə`ni Məcnun tək,
Girər zəncir zülfə hər zaman divana qanundur.
Çəkəndə **Şövqiya** hər dəm cəfa firqətdə səbr eylə,
Yetər vəslinə yarın səbr edən hicrana , qanundur.

---

[1] .aşiq
[2] .toy, çadlıq, şölən
[3] .üzün
[4] .ağzından
[5] .günah
[6] .diləşçi
[7] .saçın başı
[8] .boyun

ازل عشاق اولان جانین ویرور جانانه قانوندر
کچر باشدن یولنده قالماز اول نقصانه قانوندر
هاچن[۱] پیر مفان بزمنده کورسه عاشق مستی
صٌونار[۲] جامیله می چون ساقی دورانه قانوندور
اولانده مجلس رندانه داخل بیلکم عشق اهلی
هیچ ایتمز میل مسجد بکلر اوُل میخانه قانوندور
بو کونکلم عارضنک ایستر قدنک جانم عجب اولماز
سَور بلبل کلی عالمده شمع پروانه قانوندر
دهاننکدن خبر سُوردوم که یُوخ جرمیم ندر قهرنک
کدا کر جُرم قیلسه عفو ایدر سلطانه قانوندر
ایدر تا اول زمان احوالمی آشفتة درهم
سری موینک تُوکولسه کردنه هریانه قانوندر
دکل بیهوده کچ باخسنک ایچوبسن بغرمیک قانین
یاخار میخاریلر سرخوش کوزیم مستانه قانوندر
نُولُورسن لیلی وش قیدنده قالسم یعنی مجنون تک
کیرر زنجیر زلفه هر زمان دیوانه قانوندر
چکنده **شوقیا** هر دم جفا فرقتده صبر ایله
یتر وصلینه یارنک صبر ایدن هجرانه قانوندر

---

[۱]. نه واخت ، بوگون هاواخت فورماسیندا دیلده ایشلنیلیر.
[۲]. سونماق: تقدیم ائتمک ؛ أسکی یازی ساياغینا گؤره «ص» ایله یازیلیبدیر.

# قصیده لــر

Həqiqət məclisində saqi dövranə yetdim mən,
Əlindən eşq camın nuş edib, meydana yetdim mən.
Grib xumxanaya ta qərqeyi girdabi mey oldum,
Sanasan qətrəyəm güya ki, bir umana yetdim mən.
Müsəffa eylədim dil güzgüsün dünya qubarından,
Edib kəsbi kamali əhli dil irfana yetdim mən.
Deyib əşarlər mövzün Füzüli, Ənvəri, Sədi,
Görüb kan içrə ləlü, gövhərü məcana yetdim mən.
Ədəb dəstilə tutdum bir müəllim damənin amma,
Hürüfi hiccədən dərsim alıb, Qurana yetdim mən
Açıb məktubdə babi fələk bürcün kəvakiblə,
Oxuyub .şəmsü mahın sirrni keyvana yetdm mən.
Gəlib sərdari sevda olzaman başımda ca tutdu,
Suvar oldum səməndi eşqə bir meydana yetdim mən.
Gəzərkən dəştü hamuni düçar olduqca Məcnuna,
Şikəstə hal gördüm, ol təni üryana yetdim mən.
Düşübdür Leylidən ayrı, yanıb dağı fərağilə,
Olubdur həmrəhi vəhşi, dili suzana yetdim mən.
Dəmadəm yaş töküb, seylab edibdir kukü səhranı,
Pozulmuş ciyəri , həm didəsi giryana yetdim mən.
Nəzər saldım yinə bu deyrə bir çeşmi təəsüflə,
Ki, gördüm bəkləmiş Fərhad , bir qəmxana yetdim mən.
Düzətmiş dəşti təbşilə , diriğa Bisutun bica,
Yıxılmış tağı-Kəsranın sınıq-virana yetdim mən.
Edib bir xüdə ,vermiş surəti nəqşini Şirinə,
Qılıb əğyara öziçün kuhkən nadana yetdim mən.
Qərəz bu zal dünyada eşitkəc föti Şirini,
Həlak etmiş özün tişilə ol bicana yetdim mən.

حقیقت مجلسنده ساقی دورانه یتدُوم من
الیندن عشق جامین نوش ایدیب می دانه یتدیم من
کیروُب خمخانیه تا غرقیهٔ کرداب می اولدُوم
سناسن قطره یم کوُیا که بر عُمانه یتدُوم من
مصفا ایلدوم دل کوزکسین دُنیا غُبارندن
ایدوب کسب کمال اهل دل عرفانه یتدوُم من
دیوب اشعاریلر موزون فضولی انوری سعدی
گُوروب کان ایچره لعلُ کوهر مرجانه یتدوم من
ادب دستیله دوتدُوم بر معلم دامنین اما
حروف هجه دن درسیم آلوب قرآنه یتدوم من
آچوب مکتُوبده باب فلک بُرجین کواکبله
اوخویُوب شمس ماهنک سرّینی کیوانه یتدوم من
کلوُب سردار سودا اولزمان باشمده جا دوتدی
سُوار اوُلدوم سمند عشقه بر میدانه یتدوم من
کزرکن دشت هامونی دُوچار اولدوُقجه مجنونه
شکسته حال گُوردوم اوُل تنی عریانه یتدوم من
دُوشوپدر لیلی دن آیرو یانوب داغ فراقیله
اوُلوُپدور همرهی وحشی دلی سوزانه یتدوم من
دمادم یاش توکوب سیلاب ایدوُپدور کوهُ صحرانی
پوُزولمش جیکری هم دیده سی کریانه یتدوم من
نظر سالدوُم ینه بو دیره بر چشم تاسفله
که کوردُوم بکلمیش فرهاد بر غمخانه یتدُوم من
دُوزتمش دشت تیشیله دریغا بیستون بیجا
یخلمش طاغ کسرانک سنق ویرانه یتدُوم من
ایدُوب بر خدعه ویرمش صورت نقشینی شیرینه
قلوب اغیار اوُزیچون کوهکن نادانه یتدُوم من
غرض بو ذال دُنیاده ایشتکج فوت شیرینی
هلاک ایتمش اوُزین تیشیله اوُل بیجانه یتدُوم من

Dolandım bu fənada haliya oldum dili naşad,
Müdam bir şad olan dil görmədim ,hər yana yetdim mən.
Yetibdi rəhmətin həm ruzgara eyləmiş izhar,
Əsər badi xəzan , gümrah edən tuğyana yetdim mən.
Varb ta bəxti nafərcam əlindən seyri bağ etdim,
Nəhalın görkəc əfsürdə ötüb, gülüstana yetdim mən.
Dəyib sür-sür bürəhnə şaxi gülni səbzə ney etmiş,
Kim oldum gülşən içrə Nuh görən tufana yetdim mən.
Çəmən gülrüxlərin pamal edibdir ziri gülpundə,
Döşənmiş xişti zərrin, eyləbil gülxanaya yetdim mən.
Alıbdır lalənin börkin başından, qoydı sərgərdan,
Pərişan etmiş ovrağın güli xəndana yetdim mən.
Kəfənlənmiş görüb dəhrin fənasın nərgisi şəhla,
Ədəm xabilə uymuş , gözləri məstana yetdim mən.
Şəqayiq dağ köksündə açılmış, yara tən nəsrin,
Xəzan oduyla tutmuş hər yeri biryana yetdim mən.
Bənəfşə ,yasəmən,snbül, susən fərsüdə heyrətdən,
Çiyningdə hər biri məcruh-tən nalana yetdim mən.
Surud etməz, qalıbdır əndəlibi binəva əbsəm,
Yanar gül firğətində, atəşi hicrana yetdim mən.
Bəsa göz gördü xərçəngi aləm əşyaya cövrin çox,
Vurub tiğilə sözlər, çün fələk gərdana yetdim mən.
Nə adətdir dedim ədna pərəstlik səndə ey sulfa,
Sürər zövqü səfa dövründə hər dönənə yetdim mən.
Giriftar etmişsən yüz möhnətə daim xirədməndi,
Açılmaz könlü bir əla olan insana yetdim mən.
Nədir bu təb gəlcək ruyini açdın mənə madam,
Cahanda hər işi iqdam edib, nüqsana yetdim mən.

دولاندم بو فناده حالیا اوُلدوم دل ناشاد
مدام بر شاد اولان دل گُورمدوم هر یانه یتدُوم من
یتوب دی رحمتین هم روزکاره ایلمش اظهار
اَسُر بادُ خزان کمراه ایدن طغیانه یتدوم من
واروب تا بخت نافرجام الندن سیر باغ ایتدُوم
نهالین کورکج افسرده اتُوب کلستانه یتدوم من
دگُوب صرصر بُرهنه شاخ کلنی سبزه نی ایتمش
کیم اوُلدم کلشن ایچره نوح کورن طوفانه یتدوم من
چمن گُلرخلرین پامال ایدوپدور زیر کلپنده
دُوشنمش خشت زرین ایله بیل کلخانه یتدوم من
آلوپدور لاله ننک بورکین باشنندن قویدی سرکردان
پریشان ایتمش اَوراغین[1] گُلی خندانه یتدوم من
کفنلنمش گُوروب دهرنک فناسین نرکس شهلا
عدم خابیله[2] اوُیمش گُوزلری مستانه یتدوم من
شقایق داغ کوکسنده آچلمش یاره تن نسرین
خزان اودیله دُوتمش هر یری بریانه یتدُوم من
بنفشه یاسمن سنبل سوسن فرسوده حیرتدن
چکنده هر یری مجروح تن نالانه یتدوم من
سرُود ایتمز قالُوپدور عندلیب بینوا اَبسُم
یانار کل فرقتنده آتش هجرانه یتدُوم من
بسا کوز کوردی خرچنک عالم اشیایه جورین چوخ
اوُروب تیغیله سُوزلر چُون فلک کردانه یتدُوم من
نه عادتدور دیدیم ادنا پرستلیک سنده ای سُفلی
سُوَرر ذوق صفا دورنکده هر دونانه یتدُوم من
کرفتار ایتمش سن یُوز مُحنته دآئم خردمندی
آچلمز کونکلی بر اعلا اولان انسانه یتدوم من
نَدور بُو طبع کجلک روُینی آچدنک بنکا مادام
جهانده هر ایشی اقدام ایدُوب نقصانه یتدوم من

---

[1] .ألیازمادا «اوراق»سؤزون ایملاسی تورک ایملاسی أساسیندا یازیلیبدیر.
[2]. ألیازمادا «خواب» سؤزونون ایملاسی هریئرده بئله یازیلیبدیر.

Qılıbdır cismi amaci təşəni oxuna hər kəs,
Tənimə vurdular tiri sitəm , amana yetdim mən.
Tərəhüm çağı gəldi ,**Şövqiyə**, ey qadiri yekta,
Bəla vü dərdu möhnət çəkməkilə cana yetdim mən.
Könül bu dərdə ümid ilə baş qoy üz sürüb xaka,
Yəqin bil sidqi-dildən can verib, canana yetdim mən.
Yetişdi bir nida guşimə hatifdən ki, qəm çəkmə,
Bihəmdillah ğəmü  dərddən çıxıb, dərmana yetdim mən.
Nə xuf ol nari-düzəxdən ,Məhəmmədir şəfaətçim,
Kərəm kani, ədalət mədəni sultana yetdim mən.

قلوُپدور جسمی آماج تشنیع اُوخنه هر کس
تَنِمغه اوُردیلر تیر ستم آمانه یتدوم من
ترحم چاغی کلدی **شوقیه** ای قادر یکتا
بلا وُ درد محنت چکمکیله جانه یتدُوم من
کونکل بُو درده امید ایله باش قوی یُوز سوروب خاکه
یقین بیل صدق دلدن جان ویروب جانانه یتدوم من
یتشدی بر ندا کوشمقه هاتفدن که غم چکمه
بحُمدالله غمو دردن چیخوب درمانه یتدوم من
نه خوف اُول نار دوزخدن محمدور شفاعتچیم
کرم کانی عدالت معدنی سُلطانه یتدوم من

Getdi zimistan ki, gəlib növbahar,
Kuhilə səhralar olub laləzar.
Saldı səba səbzeyi növxizə rəng,
Aldı hava, qoymadı gülbundə jəng.
Quruldu bağ içrə ki, növrağlar,
Açıldı süsən, güli-zanbağlar.
Çıxdı bənövşə ,qədini qıldı xəm,
Çünki düşüb başına gül eşqi həm.
Nərgisü şəhla bu çəmənzarıdan,
Açdı gözün dürdana xummardan
Abi-rəvan bağladı şirazəsin,
Nəhrə töküldü , çəkib avazəsin.
Doldu nəsim ilə o gülzarlar,
Açdı yinə başını əşcarlar.
Göründü gülşəndə hər yan əcəb,
Qönçə ləbin eylədi xəndan əcəb.
Vərd gülün arizi əhmə kimi,
Börkünə şəbnəm düzülüb tər kimi.
Gördü ənadil onu fərxündəru,
Vardı kənarında gülün tutdu xu.
Nəğmeyi növruzi çəkib bir nəva,
Bəklədi gülşəndə ki, behcət səra.
Əndəlibə qümri həmavaz olub,
Pərdəyi ahəngidə dəmsaz olub.
Quruldu bir bəzm ki, Cümşüdvar,
Sünbül mütrüb çala ol çəngvar.
Saqi-sifət rəxt geyib aladan,

کیتدی زمستان که کلُوب نوبهار
کوهیله صحرالر اولُوب لاله زار
سالدی صبا سبزة نوخیزه رنک
آلدی هوا قویمدی کلبنده ژنک
قُورولدی باغ ایچره که نوراغلر
آچلدی سُوسن کُل زنباغلر
چُخدی بنفشه قدینی قلدی خم
چونکه دوشوب باشنه کُل عشقی هم
نرکس شهلا بُو چمن زاریدن
آچدی کوزین دوردکه خماردن
آب روان باغلادی شیرازه سین
نهره توکُولدی چکوب آوازه سین
دوُلدی نسیم ایله اُو کلزارلر
آچدی کِینَه باشنی اشجا(ر) لَر
کورُوُندی کلشنده هر یان عجب
غنچه لبین ایلدی خندان عجب
ورد کُلنک عارضی احمر کمی
برکنه شبنم دوزیلُوب تر کمی
کوُردی عنادل آنی فرخنده رو
واردی کنارنده کُلنک دُوتدی حو
نغمة نوروزی چکُوب بر نوا
بکلدی کُلشنده که بهجت سرا
عندلیبه قُمری هم آواز اولوب
پردة آهنکیده دمساز اولوب
قوُرولدی بر بزم که جُمشیدوار
سنبل مطرب چالا اوُل چنک وار
ساقی صُفت رخت کیوب آله دن

Tudu şəqayiq qədəhin jalədən.
Lalə surahi meyi-şəbnəm tutub,
Sərvi görüb, qaməti xəm tutub.
Məclisi eyşin bu dəmi,çağda,
Bəzmü tərəb eylədilər bağda.
Şahid bağın ki, çəkib möhnətin,
Dəmbədəm artırdı səba zinətin.
Oldu o mənzildə olar şadkam,
Nə töhfə mənzildir ol darulsəlam.
Mən dilədim  bu fəslidə şad olum,
Qüsseyi qəmdən çıxıb ,azad olum.
Bəkləmədim kənc ilə pünhanı mən,
Möhnəti dərdə buraxıb, canı mən.
Seyri-bağ etdim,təfərrüc kunan,
Tövsəni iqbala olam həm inan.
Varidi könlümdə mənim arzu,
Şahidi dövlətə olum ruberu.
Əqlim o dölət üzünü görmədi,
Nəxli muradın gülünü dərmədi.
Oldu bu yerdə mənim heyranlığım,
Varmış əlbəti ki, nadanlığım.
Lik görüb dəhridə nadanları,
Dövləti iqbal firavanları.
Yetdi təmənnasına , həm kamına,
Vermədi üz tirəlik əyyamına.
Fəhm elədim üqəlayə cahanda,
Xoşmidir əhvalı ki, hər zamanda.
Gördüm o dana kəsi möhtacdır,
Nanu nəmək düşmür ona , acdır.
Ahilə çəkdim işinə təəsüf,

دؤتدی شقایق قدحین ژاله دن
لاله صُراحی می شبنم دُوتُوب
سروی کوروب قامتنی خم دوتو
مجلس عیشنک بُو دمی چاغده
بزم طرب ایلدیلر باغده
شاهد باغنک که چگُوب محنتین
دمبدم آرتوردی صبا زینتین
اولدی او منزلده اولار شادکام
نه تحفه منزیلدور او دارالسلام
بن دیله دُوم بو فصلده شاد اولوم
غصة غمدن چیخوب ازاد اوُلُوم
بکله مدوم کنج ایله پُنهانی من
محنت درده براخوب جانی من
سیر باغ ایتدُوم که تفرج کنان
توسن اقباله اولام هم عنان
واریدی کونکلمده بنم آرزو
شاهد دَولَتقَه اولوم روبرو
عقلیم اُو دولت یوزینی کورمدی
نخل مُرادنک کُلنی درمدی
اولدی بو یرده بنم حیرانلقم
وارمش البته که نادانلقیم
لیک کُوروب دهریده نادانلاری
دَولت اقبال فراوانلاری
یتدی تمناسنه هم کامنه
ویرمدی یُوز تیره لک ایامنه
فهم ایلدُوم عقلایُه جهانده
خوشمیدور احوالی که هر زمانده
کوردوم او دانا کسی محتاجدور
نانُ نمک دُوشمر آنکا آجدور
آهله چکدوم ایشینه تاسف

Kimsə gəlib etməz ona tələttüf.
Fikr elədim bu işdə məna nədir,
Ta ki bilim , bunda müəma nədir.
Qaidə qılmış bunu şahü kəda,
Əqli edəllər hər işə pişva.
Bildim heç əqlilə dövlət mənə,
Nədəndir ol yetmədi şövkət mənə.
Əql zəka dövlətə sultandır,
Hirs təmə , büqz ona düşmandır.
Bəlkə bunu büqz , təmə mən edər
Dövləti əqlim dəxi bəndən gedər.
Oldu bu işdə ürəyim kim tərəddud,
Çəkdi bunun fikrini dil müzid.
Qəvas olub , mən aradım bəhr bər.
Düşmədi dəstimə dürri namvər,
Bir nəzər etdim ki, dəşti fəzaya.
Bəlkə bu dərdim  yetişə dəvaya.
Gəldi mənə qarşı iki şəxs ilə,
Sordum olardan nə gəzirsiz belə.
Söylədilər biz iki yoldaşlarız,
Bir-birinin sirrinə sırdaşlarız.
Açın dedim onlara guftarınız,
Çünki bilim fəhmilə kirdarınız.
Olar mənə söylədi ey şəxsi kəl,
Nagəh ola müşkilimiz bunda həl.
Sultanisən et bizə həmrahlıq,
Qılma tkkbür daha gümrahlıq
Şah əgər olmasa dəriş navaz,
Bil ki, xuda olmaz ona çarə saz.
Olsa gərək bir evdə fərzanəlik,

کیمسه کلُوب ایتمز آنکا تلطُف
فکر ایلدُوم بُو ایشده معنا ندور
تا که بِلَم مُونده معما ندُور
قاعده قلمش مُونی شاهُ کدا
عقلی ایده للر هر ایشه پیشوا
بلمدُوم هیچ عقلیله دولت بنکا
ندندُور اوُل یتمدی شوکت بنکا
عقل زکی دولته سلطاندور
حرص طمع بغض آنکا دُشماندور
بلکه مُونی بغض طمع منع ایدر
دولت عقلیم دخی بندن کیدر
اوُلدی بُو ایشده یُوره کیم تردد
چکدی بوننک فکرینی دل مُزید
غواص اوُلوب بن آرادُوم بحر بر
دوشمدی دستیمه دری نامور
بر نظر ایتدوم که دشت فزایه
بلکه بُو دردُوم یتشه دوایه
کلدی بنکا قارشو ایکی شخص ایله
صُوردُوم اوُلاردن نه کزرسُوز بیله
سولدیلر بز ایکی یولداشلرُز
بر برینک سرینه سیرداشلروز
آچنک دیدُوم آنلاره کفتارنکز
چونکه بیلیم فهمیله کردارنکز
اولار بنکا سولدی ای شخص کل
ناکه اولا مشکلمز مونده حل
سُلطانیسنک ایت بیزه همراهلق
قلمه تکبر دهی کمراهلق
شاه اکر اولمسه درویش نواز
بیلکه خدا اولماز آنکا چاره ساز
اولسه کرک بر آَوده فرزانه لک

Olmaya səndən bizə biganəlik.
Gəl bu yerdə seyr eləyək keştzar,
Ruyi rüxun mat qılıb,tumta dar.
Ördüm olar ruyin açıb gül kimi,
Arizi nəsrindir ,xalı qıl kimi.
Piyada sürdüm qədəmi bifərs,
Yetişdim onlara,olub həmnəfəs.
Düzüldü ol yerdə bizim xanımız,
Ondan aldı kamü dilin canımız.
Götürdülər xanı o yerdən cəmi,
Yetişdi ağazi kəlamın dəmi.
Dedim gərək söz səddəfi açıla,
Dürc dəhəndən ki , dürri saçıla.
Sordum o göhər təki qiymətti söz,
Söyləşəlim bir neçə ülfətti söz.
Mən ki , bilim namınız,əhvalınız,
Keçirmə xoş bu dünyada halınız.
Biri cavab verdi, dedi eylə guş,
Bil indi adımdır mənim tizhuş.
Yoldaşımın ismidir ol sadədil,
Hər işdə məndən onu amadə bil.
Əgər desən kim, cəhətin söyləyim,
Sanki, bu əhvalı bəyan eyləyim.
Bir günü çıxdım bazaar səbadan,
Alım ki, zərbəft zərü zibadan.
Çarsüyi bazaar salıb bir nəzər,
Gördüm o həmrahi , tənha gəzər.
Dedim nəçün baxırsan heyran sən,
Bu yerrisən, yoxsa ki, mehman sən.
Söylədi zəifəm dəxi, dehqan mənəm,

اولمیه سندن بیزه بیکانه لک
گَل بُو یرده سیر ایلیک کشت زار
روُیی رُخنک مات قلوب دوتمه دار
گُوردُوم اولار رُوییین آچوب گُل کمی
عارضی نسریندور خالی قیل کمی
پیاده سُوردوُم قدمی بی فرس
یتشدُوم آنلاره اوُلوُب همنفس
دوزیلدی اول یرده بزیم خوانمز
آندن آلدی کامُ دلین جانمز
گُوتُوردیلر خوانی اوُ یردن جمی
یتشدی آغاز کلامُنک دمی
دیدُوم کرک سُوز صدفی آچله
دُرج دهندن که دُرِی ساچله
صُوردُوم او کوهرتکی قیمتّی سُوز
سولشه لُوم بر نچه اُلفتّی سُوز
بن که بلیم نامنکز احوالنکز
کچیرمه خوش بو دنیاده حالنکز
بیری جواب ویردی دیدی ایله کوش
بیل اندی آدیمدُور منم تیزهوش
یُولداشمنک اسمی دُور اوُل ساده دل
هر ایشده مندن آنی آماده بیل
اکر دیسنک کیم جهتین سولیم
سانکه بُو احوالی بیان ایلیم
بر گُونی چیخدُوم بازاره صبادن
آلیم که زربفت زر و زیبادن
چارسوی بازاره سالُوب بر نظر
گُوردوم او همراهی تنها کزر
دیدُوم نیچون باخیرسن حیران سن
بُو یررّی سن یُوخسه که مهمان سن
سولدی ضیفیم دخی دهقان منم

Yoxdu yerim, şimdi pəşiman mənəm.
Dedim, gedək mən səni rahat qılım,
Gəl bizim evlərdə fərağət qılım.
Gəldi, qədəm basdı bəndə xanaya,
Nik,bədin kim o yerin tanıya.
Mahəzərə getdim o mehmanıya,
Çünki, bənim latiq olan şanıma.
Gətirdilər məkülat əsbabını,
Fəth elədin çün süxənin babını.
Soruşdum ol mehmanımın peşəsin,
Görkəc əlində bililən tişəsin.
Dedi mənə deqəniyyət pişədir,
Aləmdə alət bu bilü tişədir.
Dedim ziraətdə yerin varmi?
Dövlətə yetmək hünərin varmi?
Dedi mənə gün oldu səd mərhələ,
Daməni dövlət necə gəlsin ələ.
Dəhridə xərcimdir çox, əfzün mənim,
Dəxlim azdır,bağrım olub xun mənim.
Tul verib, uzatmayım sözümü,
Yoldaşımdan sonar deyim ozümü.
Mən bu cahan içrə ki, tüccardım,
Ol da dəbra didə pur kardım.
Var idi çox dövlət, malım mənim,
Keçirdi aləmdə xoş halım mənim.
Hər yana çün etsə idim irada,
Yetərdi könlüm ol zaman murada.
Keçdi o vaxtdan , neçə məh oldu sal,
Qalmadı indi mənə dölət, nə mal.
Bu həmrəhim indi ticarətdə var,

یُوخدُو یریم شمدی پشیمان منم
دیدُوم کیدک بن سنی راحت قیلم
گَل بزیم اَویلرده فراغت قلیم
کلدی قدم باسدی بنده خانیه
نیک بدین کیم اوُ یرُونک تانیه
ماحضره کتدُوم اوُ مهمانمه
چونکه بنم لایق اوُلان شانمه
کتوردیلر مأکولات اسبابنی
فتح ایلددُوک چون سخنک بابنی
سوروشدیم اوُل مهمانمنک پیشه سین
کورکج النده بیل ایلن تیشه سین
دیدی بنکا دهقنیت پیشه دوُر
آلمده آلت بو بیل تیشه دوُر
دیدُوم زراعتده یرنک وارمی
دولته یتمک هُنرنک وارمی
دیدی بنکا کن اولدی صد مرحله
دامن دولت نجه کلسنک اَلَه
دهریده خرجیم دُ چُوخ افزون منم
دخلیم آزدور بغریم اولوب خون منیم
طول ویروب اوزاتمیم سُوزمی
یُولداشمدن صُنکره دیم اوزمی
من بو جهان ایچره که تجاردیم
اوُدا دبرا دیده پُر کار دیم
وار ایدی چُوخ دولتُ مالیم منم
کیچردی عالمده خوش حالیم منم
هریانه چُون ایتسه ایدیم ایراده
یتردی کونکلم اول زمان مراده
کیچدی او وقتدن نجه مَه اولدی سال
قالمادی ایندی بنکا دولت نه مال
بو همرهم ایندی تجارتده وار

Bunda silü zərdən, imarət də var.
Bəkləyib möhnətü qəm güşəsin,
Tərk qılıb deqaniyyət tişəsin.
Artıb onun şövkəilə şanları,
Çakər edib bir neçə dehqanları.
Həmrəhim olmuş bəsi ali təbar,
İndi füqəra , deqaniyyət məndə var.
Sorsan əyər vəchini izhar edim,
Mən bu işin məxfisin aşkar edim.
Həmişə bu könlümə məlum idi,
Halətim , iqbalimilə şum idi.
Hirs, təmə məndə əqlü zəkavət,
Ziyadə büqzum daha binəhayət.
Həmrəhimdə əqlü zəkavət də yox,
Hirs, təm, büqz, ədavət də yox.
Hirs,təmə, büqz kəm olmağ ilə bil,
Həmrəhin olmadı əqli zəlil.
Müxəddəyi dövləti etdi kənar,
Qalmadı könlündə ki, bir intizar.
Hirs, təmə, büqz məni xar edib,
Bu cəhətdən əqlimi naçar edib.
Müxrəsər etdi sözünü tizhuş,
Əql xədəngi mənə toxundü tuş.
Gəl könül indi qılalım məşvirət,
Olmaya ta işlərimiz bisifət.
Tizhuşun halını gördünmü yox,
Hirs,təmə,büqz,xirəd onda yox.
Bəhs səməndin minibən sürmədi,
Cahanda iqbal ona üz vermədi.

بونده سیم زردن عمارتده وار
بکلیُوب محنت غم گُوشه سین
ترک قلُوب دهقنیت تیشه سین
آرتوب آننک شوکتله شانلاری
چاکر ایدُوب بر نچه دهقانلاری
همرهم اولمش بسی عالی تبار
ایندی فقرا دهقنیت بنده وار
سُورسُون اکر وجهینی اظهار ایدیم
بن بُو ایشنک مخفی سین آشکار ایدیم
همیشه بُو کونکلمه معلوم ایدی
حالتیم اقبالیمیله شوم ایدی
حرصُ طمع بنده عقل زکاوت
زیاده بغضیم داخی بی نهایت
همرهمده عقل زکاوتده یوخ
حرص طمع بغض عداوتده یوخ
حرص طمع بغض کم اولمقله بیل
همرهنک اولمادی عقلی ذلیل
مخدایة دولتی ایتمش کنار
قالمادی کونکلنده که بر انتظار
حرص طمع بغض بنی خار ایدُوب
بُو جهتدن عقلمی ناچار ایدُوب
مختصر ایتدی سُوزینی تیزهوش
عقل خدنکی بنکا توخندی توش
گَل کونکل ایمدی قلالُوم مشورت
اوُلمیه تا ایشلریمُوز بی صفت
تیز هوشنک حالنی کُوردونمی یُوخ
حرص طمع بغض خرد آنده یُوخ
بحث سمندین مینُوبن سوُرمدی
جهانده اقبال اوُنکا اوُز ویردی

Sadədildə büqz, təmə, əql az,
Bağı-cahanda o idi sərfəraz.
Onun qəlbi röv.ən idi , sadə, tər,
Gülbuni-məqsud ona vermişdi bər.
Götür dila olardan  qeyrətdə sən,
Ta yetəsən murada əlbəttə sən.
Çox dərində gəzmə ki, dərya könül,
Düşmür ələ gövhəri əla könül.
Hirs,təmə,büqzilə sərkiş dəyil,
Bil o kəsin əqli müşəvvəş dəyil.
Çox xirəd əhli təməindən bəla,
Özü götürüb özünə qarşına.
Bəzi yıxıb neçə xanimanları,
Müflis edib cahanda sultanları.
Sən daha bu hirs,təmə,büqzi kəs,
Əqlə bu aləmdə çox etmə həvəs.
Əql , şücaət, hünər şövkəti,
Qadirü yekta dərün şöhrəti.
Dövri fələk , aləmi üqba onun,
Qüdrəti dəstindədir əşya onun.
Aləm surətdəki nəqşi zəka,
Kargəhi sünundan almış cəla.
İzni gər olmaya məgəs balü pər,
Neçə şəhpər üzrə açıb, dur edər.
Hökm eləsə muri Suleyman qılar,
İnsü cini əmrinə fərman qılar.
Dəhrdə hər padişahı kibriya,
Qılsa qəzəb, eylər onu xunfəsa.

ساده دلده بغض طمع عقل آز
باغ جهانده اوُ ایدی سرفراز
آننک قلبی روشن ایدی ساده تر
کلینک مقصود آنکا ویرمشدی بر
کُوتوُر دلا اولاردن غیرتده سن
تا یته سن مراده البته سن
چوخ درینده کزمه که دریا کونکل
دوشمر اله کوهر اعلا کونکل
حرص طمع بغصیله سرکش دکل
بیل اوُ کسنک عقلی مشوش دکل
چوخ خرد اهلی طمعیندن بلا
اوُزی کُوتُوروب اوزینه قارشونا
بعضی یخُوب نیچه خانمانلاری
مفلس ایدوُب جهانده سلطانلاری
سن دخی بُو حرص طمع بُغضی کس
عقله بو عالمده چوخ ایتمه هوس
عقل شجاع هنر شوکتی
قادر و یکتا درُون شهرتی
دور فلک عالم عقبا آننک
قدرت دستنده در اشیا آننک
عالم صورتده که نقش زکا
کارکهی صُنعندن آلیمش جلا
ایزنی کر اولمایه مکس بال پر
نیچه شهپر اوزره آچوب دور ایدر
حکم ایلسه مُوری سلیمان قلار
انس جنی امرینه فرمان قلار
دهرده هر پادشهی کبریا
قلسه غضب ایلر آنی خون فسا

Hər kimi istərsə edər alicənab,
Sevməsə həm ruzini eylər siyah.
Əql, hünər bari giranmayadır,
Daima onlara ki, bivayadır.
Söyləmə dil füsuni əfsanə sən,
Hər işi təslimelə sübhana sən.
Eylə təvəkkül dil, onu guşa tut,
**Şövqi**ni qənaətlə rizapişə tut.
Tövhidü vəhabi dildə zikr qıl,
Sumü sələvat, həmd, səna şükr qıl.
Mərdümi aləmə gərək bəxtiyar,
Qürrə məşü məndə hünər, əql var.

هر کیمی استرسه ایدر عالیجاه
سومسه هم روزنی ایلر سیاه
عقل هنربار و کرانمایه دور
دایمه آنلاره که بی وایه دور
سولمه دل فسون افسانه سن
هر ایشی تسلیم ایله سبحانه سن
ایله توکل دیل آنکا کوشه دوت
**شوقنی** قناعتله رضا پیشه دوت
توحید وهابی دلده ذکر قیل
صُوم صلوة حمد ثنا شکر قیل
مردم عالمقه کرک بختیار
غرّه مشو منده هنر عقل وار

Birgün ki, bahar oldu peyda,
Gülşən də sürur üçün mühəyya
Düzmüşdi niqab çöhrədən gül,
Çəkmişdi nəva , surud bulbul.
Səhni çəmən içrədir bu zinət,
Vermişdi qəzayə dəsti qüdrət.
Geymişdi qəba ki, qönçə əxzər,
Gül zari həm eyləmiş münəvvər.
Baxdı gülə qqədin əydi hər yan,
Gördükdə bənövşə qıldı heyran.
Şəbnəmlə qədəh pur etdi lala,
Güya ki, başında var piyala.
San nərgis edib ki, badələr nuş,
Şəhla gözü məst, könlü mədhuş.
Gördüm ki, düzəlmiş eyşlə bəzm,
Ol bəzmə yetib, məneylədim əzm.
Ta verdi bu saqi məclisə cam,
Hər bir qədəhi şərabi gülfam.
Bu saqinin hüsnüdür nəzahət,
Gül arizi yəni pur lətafət.
Həm var idi məclisində bir xub,
Bulmuşdu qərəz hər işdə uslub.
Bir şəxsi həris gördüm onda,
Uymuşdu cahana dildən amma.
Bu məşğələdən ki, olcaq agah,
Oldum bu guruha mən də həmrah.
Bünyadımız olmuş abü atəş,

بر کون که بهار اولدی پیدا
کلشنده سرور ایچون مهیا
دوزمشدی نقاب چهره دن گُل
چکمشدی نوا سرود بلبل
صحن چمن ایچره دور بو زینت
ورمشدی قضای دست قدرت
کیمشدی قبا که غنچه اخضر
کل زاری هم ایلمش منور
باخدی گُله قدین اکدی هر یان
کودوکده بنفشه قالدی حیران
شبنمله قدح پر ایتدی لاله
کویا که باشنده وار پیاله
سان نرکس ایدوب که باده لر نوش
شهلا کوزی مست کونکلی مدهوش
کوردوم که دوزلمیش عیشله بزم
اول بزمه یتوب بن ایلدوم عزم
تا وردی بو ساقی مجلسه جام
هر بر قدحی شراب کل فام
بو ساقننک حسنی در نزاهت
کل عارضی یعنی پر لطافت
هم وار ایدی مجلسنده بر خوب
بلمشدی غرض هر ایشده اسلوب
بر شخص حریص کوردوم آندا
اویمشدی جهانه دلدن اما
بو مشغله دن که اولجق آکاه
اولدوم بو کروهه منده همراه
بنیادیمز اولمش آبُ آتش

Bad ilə çü xak olub münəqqəş.
Ta yetdi visalə çün ənasir,
Biz həm çahar olduq həmdəm bir.
Bəzmi tərəb oldu işrət abad,
Bu yerdə biz olduq olzaman şad.
Nahid-sifət-müğənilər çəng,
Almış ələ onlar , açıb ahəng.
Gisülərin etdi sünbüləvar,
Aşiqlər edib ona giriftar.
Bir karü əməl çalanda hala,
Nəğmatilə söyləşirdi güya.
Ta rast düz oldu bəzmin əsli,
Növruz idi , həm bahar fəsli.
Saqi mənə mey verib, dedi al,
Sən gəl bu cavaba olmagıl lal.
Qəm yüklərin etmə arxana bar,
Eylər səni həm zəifü , bimar.
Tutdum sənə cam bir həvəs qıl,
Dildən qəm möhnətini kəsqıl.
Mən həm bu sözə qulaq tutdum,
Oldum mütərəddid , unutdum.
Bir ləhzədə mən xiyal qıldım,
Ol dəm nə cavabdır ki, bildim.
Həmrahlara qılıb müşavir,
Dedim mənə bir deyin nə tədbir.
Ol mərdi rəfiqü nəzm pərvər,
Şirin sözüdür misali gövhər.
Dəryayi kamal eylədi cuş,
Dedi bu kəlama , əql ver huş.
Bu deyridə kim məni cahangərd,

باد ایله چو خاک اولوب منقش
تا یتدی وصوله چون عناصر
بیز هم چهار اولدوق همدم بر
بزم طرب اولدی عشرت آباد
بو یرده بیز اولدق اولزمان شاد
ناحید صفت مغنی لر چنک
آلمش اله آنلار آچوب آهنک
کیسولرین ایتدی سنبله وار
عاشقلر ایدوب آنکا کرفتار
بر کارُ عمل چالانده حالا
نغماتیله سولشوردی کُویا
تا راست دوز اولدی بزمنک اصلی
نوروزیدی هم بهار فصلی
ساقی بنکا می ویروب دیدی آل
سن کل بُو جوابه اولمکل لال
غم یوکلرین ایتمه آرخنکا بار
ایلر سنی هم ضعیفُ بیمار
دوتدوم سنکا جام بر هوس قیل
دلدن غم محنتکی کس قیل
بن هم بو سوزه قولاغ دوتدوم
اولدوم متردد اونوتدوم
بر لحظه ده بن خیال قلدیم
اولدم نه جوابدور که بیلدیم
همراهیلره قلوب مشاویر
دیدُوم بنکا بر دیُونکه تدبیر
اول مرد رفیق نظم پرور
شیرین سُوزیدور مثال کوهر
دریای کمالی ایلدی جوش
دیدی بو کلامه عقل ویر هوش
بو دیریده کیم منی جهانکرد

Çox yetdi mənə ki,qüssəvü dərd.
Bildim ki, bu dəhr bivəfadır,
Daim işi cövrilə cəfadır.
Həgiz sitəmindən olmadım dur,
Bifaidə keçdi ömri məhcür.
Dünyanın işi mənə yəqindir,
Bildim ki, fənası həm qərindir.
Bir kimsə ki,olsaçün xirədmənd,
Dünyaya özün kim, eyləməz bənd.
Üqbaya gözün tikər dəmadəm,
Sidqilə deyər xudayi əzəm.
Sən qıl mənə ol məqamı münzil,
Kim onda təfaxur eyləsin dil.
Əlbəttə ol yer ki, cavdandır,
Daim işi əmin ilə amandır.
Sən daha ki, var isən xirədmənd,
Al kim, sənə aqilan verə pənd.
Çox versə fərib şahidü mey,
Aldanma olara, bəzmin et tey.
Gülzari dönər həmin xəzanə,
Uyma ki, fəsanədir , fəsanə.
Ətvar cahanı tutma hərgiz,
Ayini bəqa unutma hərgiz.
Bihudə bil ol hamı cahanı,
Nuş etmə şərabi ərqəvani.
Bu sözləri guş qıldım ondan,
Çəkdim əlimi meyi cahandan.
Nə cami tutub şərabı aldım,
Nə mehrü möhəbbət ona saldım.
Ol şəxsi həris çün qəzəbnak,

چُوخ یتدی بنکا که غصه وُ درد
بلدوم که بو دهر بی وفادور
دایم ایشی جوریله جفادور
هرکز ستمندن اولمدوم دور
بی فائده کچدی عُمر مهجور
دنیاننک ایشی بنکا یقیندور
بلدوم که فناسی هم قرین دور
بر کیمسه که اولسه چون خردمند
دنیایه اوزین کیم ایلمز بند
عقبایه کوزین تِکَر دمادم
صدقیله دِیَر خدای اعظم
سن قیل بنکا اول مقامی منزیل
کیم آنده تفاخر ایلسنک دل
البته اول یر که جاوداندور
دآئم ایشی اَمنله آماندور
سن داخی که وار ایسنک خردمند
آل کیم سنکا عاقلان ویره پند
چوخ ویرسه فریب شاهد مَی
آلدانمه اولاره بزمین ایت طَی
کلزاری دونر همین خزانه
اوُیمَه که فسانه دور فسانه
اطوار جهانی دوتمه هرکز
آیین بقا اونوتمه هرکز
بیهوده بیل اوُل قمو جهانی
نوش ایتمه شراب ارغوانی
بو سوزلری کوش قلدیم آندان
چکدوم المی می جهاندن
نه جامی دوتوب شرابی آلدیم
نه مهر محبت آنکا سالدیم
اول شخص حریص چون غضبناک

Dedi mənə əqlin eylə bir pak.
Axır sənə bir süxən deyim mən,
Bir onu təfəkkür eylə həm sən.
Mey əqlə cəla verir dəmadəm,
Nuş eylə ki, xatirin qılıb cəm.
Demiş hükəma bunu şəfadır,
Meyl eylə şərab , çox dəvadır.
Həm saqini onda möhtərəm qıl,
Tut camını ,sidqilə kərəm qıl.
Mən bu kəlamı çün eşitdim,
Könlümdə bunu müqərrər etdim.
Meylim daha ol şəraba verdim,
Guşim ney ilə , rübabə verdim.
Saqi mənə bir ayaq uzatdı,
Baş vurdum ayağa , zövqum artdı.
İçdim meyü söhbətilə bir dəm,
Qalmadı dilimdə möhnətü qəm.
Nəzzarəmə gəldi sərvi-qamət,
Mütrib zərif , ol zərafət.
Dəstində bu səmtüri sitayi,
Həm , çeir, qəzəl oxur nəvayi.
Məhbub özü nəğmə ilə dəmsaz,
Mürği dilim oldu seydi şəhbaz.
Rəqs vurudu dəmində bazigərlər,
Ta məclisə göstərib hünərlər.
Bu bəzmə fələk edib təmaşa,
Zinətli görəndə xubü əla.
Kamil dedi kim, olaydı mürşid,
Etməzd pəsənd bəzmi Cəmşid.
Səhbası səmanı həm qılır həy,

دیدی بنکا عقلنک ایله بر پاک
آخر سنکا بر سخن دیم من
بر آنی تفکر ایله هم سن
می عقله جلا ویرور دمادم
نوش ایله که خاطرنک قلوب جم
دیمش حکما مونی شفادُور
میل ایله شرابه چوخ دوادور
هم ساقینی آنده محترم قیل
دوت جامنی صدقیله کرم قیل
بن هم بو کلامی چون ایشتدیم
کونکلمده مونی مقرر ایتدیم
میلیم دخی اول شرابه ویردیم
کوشیم نیله ربابه ویردیم
ساقی بنکا بر ایاغ اوزاتدی
باش اوردیم ایاغه ذوقیم آرتدی
ایچدوم می صحبتیله بر دم
قالمادی دلمده محنتُ غم
نظارمه کلدی سروُ قامت
مطریب ظریف اول ظرافت
دستنده بو سمطور سیطایی
هم شعرُ غزل اوخور نوایی
محبوب اوزی نغمیله دمساز
مرغ دلیم اولدی صید شهباز
رقص اوردی دمینده بازیکرلر
تا مجلسه کوستروب هنرلر
بو بزمه فلک ایدُوب تماشا
زینتلو کورنده خوب اعلا
کامل دیدی کیم اولایدی مرشید
ایتمزدی پسند بزم جمشید
صحباسی همانی هم قلور حیّ

Sürməzdi bu zövqi Xosrovi kəy.
Bu məcməə mən kim aşiqi zar,
Canilə könüldənəm giriftar.
İşrətdə müdam keçirdim əyyam,
Kim bilməz işin nolur sərəncam.
İçdim meyü əldə cam tutdum,
Xummarə düşüb , özüm unutdum.
Qəflət yuxusuyla yəni bihuş,
Yatdım yinə məst , belə mədhuş.
Getdi necə bilmədim baharı,
Dünyadaki leylü naharı.
Keçdi neçə müddət ol zamandan,
Götdüm başımı bu xakdandan.
Çün başıma gəldi əql nagah,
Oldum bu qəbih əməldən agah.
Hala nigaran , baxdım heyran,
Ol cəmidən ötrü gəzdim hər yan.
Yaranları bulmadım, xəbər yox,
Ol məclisi xubsidən əsər yox.
Qaldım bu fəzada qəmli, tənha,
Olmuş mənə sanki dar dünya.
Tənhalıq odu yetişdi cana,
Yandırdı məni qərəz zamana.
Həmrahiləri aradım hə su,
Tapdım oları , edib təkapu.
Ol saqiyi xubruya bir dəm,
Qıldığda nəzər çox eylədim qəm.
Aləmdə imiş şərir , bibak,
Etmişdi cahanı cümlə qəmnak.
Göstərmiş özün ərüsə nisbət,

سورمزدی بو ذوقی خسرو کی
بو مجمعه بن کیم عاشق زار
جانیله کونکلدنم کرفتار
عشرتده مدام کچردوم ایام
کیم بلمز ایشین نُولُور سرانجام
ایچدُوم می الده جام دوتدوم
خمارّه دُوشوب اوُزیم اونوتدوم
غفلت یُوخوسیله یعنی بیهوش
یاتدُوم کنه مست بیله مدهوش
کیتدی نجه بیلمدیم بهاری
دُنیا ده که لیل و نهاری
کچدی نچه مدت اول زماندان
کوتدّیم باشمی بُو خاکداندان
چُون باشمه کلدی عقل ناکه
اولدیم بُو قبیح عملدن آکه
حالا نکران باخدوم حیران
اوُل جمعدن اوتری کزدوم هر یان
یارانلاری بُولمادُوم خبر یُوخ
اوُل مجلس خُبثدن اثر یُوخ
قالدُوم بو فزاده غملُو تنها
اوُلمش بنکا سانکه دار دنیا
تنهالق اوُدی یتشدی جانه
یاندُوردی منی غرض زمانه
همراهیلری آرادیم هر سُو
تاپدُوم اوُلاری ایدیب تک پُو
اول ساقی خوبرویه بر دم
قلدُوقده نظر چوق ایلدیم غم
عالمده ایمش شریر بی باک
ایتمشدی جهانی جمله غمناک
کُوسترمیش اوُزین عروسه نسبت

Hər kim ona eyləsin ki, rəğbət.
Diqqətlə üzünə bir baxıb mən,
Ta bildim işini məkridir , fənn.
Gördüm onu ziştü pirə zalə,
Olmuşdu bu xalqa bəs həvalə.
Həm ruyi siyah ,əbrusi ağ,
Püstanı büzürg , sinəsi dağ.
Bu ayin tərzi ona gördüm,
Nifrət edibən, kənara durdum.
Bildim budur ol cəfaçı dünya,
Hər kimsə onu sevərsə bica.
Hər dəm işidir ki, bivəfalıq,
Cövr ilə müdam edər cəfalıq.
Bundan götürüb çeşmü dili tən,
Ol şəxsi hərisə uğradım mən.
Sordum onu kim , sən ey sitəmgər,
Zülmi mənə eylədin sərasər.
Dedi mənim ol nəfsi ləimin,
Həm baisəm sənə cəhimin.
Bildim ki, bu nəfsidir cəfacu,
Könlümə salır mudan qayğu.
Andan ki, mən eylədim tənəfsir,
Gördüm məni eyləmiş müqəsir.
Baxıb yinə dedim ol hərifə,
Bu mərdi xirədməndi zərifə.
Kimsən mənə eylə bir tərəhhüm,
Bilsəm səni daha çəkmənəm bim.
Gəh başıma sayələr salırsan,
Gəh rəhm qılıb, könlüm alırsan.
Sənsən mənə yar çünki qəmxar,

هر کیم آنکا ایلسنک که رغبت
دقتله اوُزینه بر باخوُب من
تا بلدیم ایشینی مکردر فنّ
کوُردُوم آنی زشت پره ذاله
اولمشدی بُو خلقه بس حواله
هم رُویی سیاه ابرُوسی آغ
پُستانی بزرک سینه سی داغ
بو آیین ترزی آنده کوردیم
نفرت ایدوبن کناره دوردیم
بلُدم بُودور اول جفاچی دنیا
هر کیمسه آنی سُوَرسه بیجا
هر دم ایشدور که بیوفالق
جور ایله مُدام ایدر جفالق
بُوندان کوتُوروُب چشم دلی تن
اول شخص حریصه اوغرادوم من
صُوردوم آنی کیم سن ای ستمکر
ظلمی بنکا ایلدُوک سراسر
دیدی بَنَم اول نفس لئیمنک
هم باعثیم سنکا جهیمنک
بلدُوم که بو نفسدور جفاجو
کونکلمقه سالُور مدام غیغو
آندانکه بن ایلدُوم تَنَفسِر
کوردیم بنی ایلنش مقصِر
باخُوب ینه دیدیم اوُل حریفه
بُو مردُ خردمند ظریفه
کیمسن بنکا ایله بر ترحم
بلسم سنی داخی چکمنم بیم
که باشمه سایه لر سالوُرسن
که رحم قلوُب کونکلم آلورسن
سن سن بنکا یار چوُنکه غمخوار

İsmin bizə bəlidir , ey vəfadar.
Dedi mənəm əql rəhnəmünim,
Dəf eyləməyə sənin cününin.
Hər işdə mənəm səninlə həmrah,
Həm möhnətinə durub həvaxah.
Söylə mənim ilə ,aç zəbanın,
Söyləşməyə var isə lisanın.
Bildir mənə necə kim, işindir,
Könlündə nə tur təşvişindir.
Dedim ona əql səndən ayrı,
Hicrana yanmışam , halım bu.
Axırada nə tərz olur bu halım,
Nəfsim mənə zülm qıldı , zalım.
Bu dəhri fəna yolunu tutdum,
Getdim o bəqanı həm unutdum.
Dünyada ki, içdim ol meyi cam,
Məhbubla keçdi ömrü əyyam.
İmruz ki, etmədin sərəncam,
Fərda çün ruhumuz ala kam?
Yaxşı əməl etmədin əzəldən,
Ol vaxti şəbab çıxdı əldən.
Pilikdə yaman keçir şəbü ruz,
Taət edə bilmərəm , ciyər suz.
Vacib mənə qüdrətim olunca,
Getməkdir ibadətin yolunca.
Hala ki, mən olmuşam peşiman,
Təqsirimi əfv edərmi sübhan?
Əqlim dedi , sən heç olma nümid,
Qəffarə çox eylə zikri-tövhid.
Oldum səni eylədim xəbərdar,

اسمنک بیزه بلدیر ای وفادار
دیدی منم عقل رهنموننک
دفع ایلمکه سننک جنُوننک
هر ایشده بنم سنکله همراه
هم محنتکا دُوروب هواخواه
سَوله بنم ایله آچ زبانک
سولشمکه وار ایسه لساننک
بلدیر بنکا نیجه کیم ایشکندُور
کونکلنده نه طور تشویشندور
دیدُوم آنکا عقل سندن آیرو
هجرانکا یانمشم حالیم بو
اُخراده نه ترز اوُلوُر بو حالیم
نفسیم بنکا ظلم قلدی ظالم
بُو دهر فنا یوُلینی دوُتدوم
کیتدوم او بقانی هم اونوتدوم
دنیاده که ایچدُوم اول می جام
محبُوبله کیچدی عُمر ایام
امروز که ایتمدوک سرانجام
فردا چون روُحمیز آله کام
یخشی عمل ایتمدوُم ازلدن
اول وقت شُباب چیخدی الدن
پیرلکده یمان کیچر شبی روز
طاعت ایده بلمیرم جکر سُوز
واجب بنکا قدرتم اوُلونجه
کیتمکدور عبادتنک یولنجه
حالا که بن اولمشم پشیمان
تقصیریمی عفو ایدرمی سبحان
عقلیم دیدی سن هیچ اوُلمه نومید
غفاره چوخ ایله ذکر توحید
اوُلدَم سنی ایلدوم خبردار

Dünyadan özgə ki, axirət var.
Gəl verməbu şahidü meyə dil,
Qılma onu könlünə müvəkkil.
Aldanma fəsanəyə füsundur,
Yox əvvli, axırı nigündur.
Hala əcəb olma sən ki , bidar,
Xumarilə meydən indi huşyar.
Məhbub meyi sevib usandın,
Qəflət yuxusundan həm oyandın.
Baqi qalan ömrü qılma zaye,
Olmasın özünə nəfs mane.
Qıl tövbə sənə ki, rahbərdir,
Əhsən əməl eylə , bir hünərdir.
Əqlim bu sözü mənə yetirdi,
Dildən hamı dərdimi itirdi.
Getdim bu təriqə mən caahanda,
Sidqilə tutub ,könüldə , canda.
İxlasilə eylədim təvəkkül,
Rəbbim mənə həl edər ki, müşkil.
Bu şeri nə xoş demiş süxənvər,
Tövhid ilə, **Şövqi** dildə əzbər.
Rəhmana canını fəda qıl,
Dərgahına üzsürüb, dua qıl.
Növmid eyləməz səni o dərgah,
Bəxtin bir açar, gözəl şəhənşah.

دُنیادن اوُزکه آخرت وار
کل ویرمه بو شاهدُ میه دل
قیلمه آنی کونلکا مُوَکِل
آلدانمه فسانهٔ فُسوندور
یُوخ اوّلی آخری نکوندور
حالا عجب اوُلمه سن که بیدار
خماریله میی دن ایمدی هوشیار
محبوب می سوب اوُصاندونک
غفلت یوُخوُسندن هم اوُیاندونک
باقی قالان عُمری قلمه ضایع
اولماسنک اوُزنکقه نفس مانع
قیل توبه سنکا که راهبردوُر
احسن عمل ایله بر هنردوُر
عقلیم بو سوزی بنکا یتُوردی
دلدن قمو دردیمی ایتوُردی
کیتدوم بُو طریقه بن جهانده
صدقیله دُوتوب کونکلده جانده
اخلاصیله ایلدُوم توکل
ربّم بنکا حل ایدر که مشکل
بُو شعری نه خوش دیمش سخن ور
توحید ایله **شوقی** دیلده ازبر
رحمانکا جانکی فدا قیل
درکاهنه یُوز سُوروُب دعا قیل
نومید ایلمز سنی اوُ درکاه
بختنک بر آچر کوُزل شهنشاه

Bir fəsli növbahar seyr eylədim cahan,
Bir bağa düşdü yolum onda nagahan.
Gördüm ki,türfi çəməndə,gülşən içrə,
Qılmış mürəttəb ilə onu çərxi gülüstan.
Hər səbzə qıldı xalıqa zikrü ibadəti,
Həmdü səna ilə kəşf etdilər lisan.
Qümri,əndil,tuti oxur nəvalərin,
Tövhid dillərində,zikr qıldılar əyan.
Tutmuşdu lalə jalədən əcəb qədəhlə mey,
Nərgis içib,xumara düşüb,məst oluy haman.
Gül arzuyi ruyun edər, bənövfşə xalların,
Gördükdə arizin,heyrətdə qaldılar cinan.
Gər qönçə bağrı qalın olursə əcəb dəyil,
Goftar yarilə bəhs etdi xurdədan.
Süsən bu halı görüb,şükr qıldı,yox,
Təənilə yara dedi duraydın nihan.
Bağ içrə şəcərlər gətirdi gülilə səmər,
Vurdu bu məcməə bir çeşmi-zəxmini zaman.
Tuğyan edər həsəd bəsi,qəlbin tutar onun,
Hər yerdə görsə bir nişat,eyşi kamran.
Dövran nə qafilən gəzər, bilin ey əhli-dil,
Bir cəmi dağıdır,görəndə müttəfiq çünan.
Rəsm eyləmişdi fələk kari bivəfalığı,
İzhar edərdi cəfanı ,tutmayıb nihan.
Qəddardır ki, qılır pişə məkr ilən heyəl,
Gər yetsə məclisi irfana,salır tufan.
Əlqissə ol bahara yetişdi həşmilə qərəz,
Yandırdı bağilə,gülzarın atəşi-xəzan.
Pamal edib,şüküfələrin eyləmiş xarab,
Vermiş fənaya bərglərin tak bigüman.

بر فصل نوبهاره سیر ایلدُوم جهان
بر باغه دوُشدی یُولیم آنده ناکهان
کوُردوُم که طرف چمنده کلشن ایچره بزم
قلمش مرتّب ایله آنی چرخ کلستان
هر سبزه قلدی خالقه ذکر و عبادتی
حمد ثنا ایله کشف ایتدیلر لسان
قُمری عنادل طوطی اوُخوُر نوالرین
توحید دللرنده ذکر قلدیلر عیان
دوُتمشدی لاله ژاله دن عجب قدحله می
نرکس ایچوُب خماره دوشوب مست اولوب همان
کل آرزوی رُوینک ایدر بنفشه خالارنک
کُوردُوکده عارضنک حیرتده قالدیلر جنان
کر غنچه باغری قان اولورسه عجب ده کل
کفتار یاریله بحث ایتدی خرده دان
سُوسن بوُ حالی کُوروب شکر قلدی یُوخ
طعنیله یاره دیدی وورمدیم زبان
باغ ایچره شجرلر کتوردی کُل ایله ثمر
اوُردی بوُ مجمعه بر چشم زخمنی زمان
طغیان ایدر حسد بسی قلبین دوُتر آننک
هر پرده کوُرسه بر نشاط عیشی کامران
دوران نقافلن کزر بلون ای اهل دل
بر جمعی داغیدور کوُرنده متفق چنان
رسم ایلمشدی فلک کار بیوفالقی
اظهار ایدردی جفانی دُوتمیوب نهان
غدّاردر که قلُور پیشه مکر ایلن حِیَل
کر یتسه مجلس عرفانه سالور طوفان
القصه اوُل بهاره یتشدی خشملن غرض
یاندُوردی باغیله کلزارین آتش خزان
پامال ایدُوب شُکوفه لرین ایلمش خراب
ویرمش فنایه برکلرین تاک بیکُمان

Sərsə əzim ləşkərilə girdi gülşənə,
Yağmaya verdi nahalı,pozdu busitan.
Qılmış havayi müxtəlif səba gülün möhən,
Nilüfər onda sevə qəmin eylədi bəyan.
Badi-xəzan yetirdi güllərə zəhmət vəli,
Fərsüdə-hal qıldı şəqayiqlə nəstəran.
Aşüftə qıldı sünbül xoş-buy səbzəni,
Xakilə yeksan edib, qoydu binişan.
Dünya təcəmmülini sevmə,şaxi-gül görüb,
Gəh fəqir,gəh qənidir ol ey arif yekan.
Dərhm qılıb əyalətini badi-səba,
Həqa ki, mötəbər dəyil əsbabi-xakdan.
Salmışdı gülşənə Dey bərgi-xüşk zər kimi,
Olmuş xəzandan gəh zərd gülü ərğəvan.
Pəjmürdə,bürəhnə qoydu laləni həzin.
Köksündə dağ vurdu möhnətilə natəvan.
Almış siyah rəxti-kisvətin bənövşənin,
Salmış başın aşağı qədin eyləmiş kaman.
Baran ilə seylaba verdi nəxli-gülbün,
Bülbül gedib,yerində qaldı zağ bikəran.
Bazari-baharın busatın aldı fələk,
Bildim onun yəqinlə sevdasıdır ziyan.
İbrət gözilə nəzər qılanda çərx söfləyə,
Avaz gəldi guşimə Hatifdən ey cavan.
Gərdün işini məgər ki, bildinmi sən,
Bir vaya çatmadı dövründə mürsəlan.
Baş qoy dərində könül ,çağır şahi-ənbiya,
Sidqilə bəklə , o pak türbətində məkan.
Dünyada zövq sürmədi kamınca hər biri,
Üqbaya getdi bu vəchilə səhabiyan.

صرصر عظیم لشکر ایله کیردی گُلشنه
یغمایه ویردی نهالی پُوزدی بوستان
قلمش هوای مختلف صبا کلین محن
نیلوفر آنده سُویَه غمین ایلدی بیان
باد خزان یتوردی کللره زحمت ولی
فرسوه حال قلدی شقایقله نستران
آشفته قلدی سنبل خوش بُوی سبزه نی
خاکیله یکسان ایدُوب قوُیدی بی نشان
دُنیا تجملینی سومه شاخ کل گُورؤُب
گَه فقر که غنی در اوُل ای عارف یکان
درهم قلوُب چمن ایالتینی باد صبا
حقاکه معتبر ده کل اسباب خاکدان
سالمشدی گُلشنه دَی برک خشت زر کبی
اوُلمش خزاندان که زرد گُلی ارغوان
پژمرده برهنه قُویدی لاله نی حزین
کوکسنده داغ برد محنتیله ناتوان
آلمش سیاه رخت کسوتین بنفشه ننک
سالمش باشین آشاغه قدین ایلمش کمان
بارانله سیلابه وردی نخل کلبنی
بلبل کیدُوب یرینده قالدی زاغ بیکران
بازار بهارنک بساطین آلدی فلک
بلدُوم آننک یقینله سوداسیدور زبان
عبرت گُوزیله نظر قلانده چرخ سُفلیه
آواز کلدی گُوشمه هاتفدن ای جوان
کردون ایشینی مکر که بیلدُنمی سن
بر وایه چاتمدی دَورنده مُرسلان
باش قُوی درینده کونکل چاغر شاه انبیا
صدقیله بکله او پاک تربتنده مکان
دنیاده ذوق سُورمدی کامنجه هر بری
عقبایه کیتدی بو وجهیله صحابیان

Yanmış bu xak içində həsrətilə şahlar,
Tacına ziynət edən çıqar zərqəvan.
Jəngari gərdilə aludətər durur hənuz,
Mirati ki, İskəndərin cahana nur salan.
Yetmişdi səmlərinə rəhili-kusdan səda,
Səncərlə ta gedib, fənaya Alb-Ərsalan.
Kiyuməzilə Küştasb uyub xabi-qəflətə,
Köçmüş bu fanidən ədəmə şahlar,kiyan
Dünyayi-zalının əlində olub zəbunü xar,
Əfrasiyab Rüstəm ilə Sami-pəhləvan.
Hər kəs məzhəbində tutub axirət yolun,
Keçmiş süflədə ki, şahanü pişdadiyan.
Olmuşdu bəzmi cahanda ədlilə namdar,
Nuş etdi cami əcəlini Nuşirvan.
Göstərdi aləmə seyfi-şücaətin hər an,
Bir nadirə yetdi ,necə oldu nadiri giti-sitan.
Aqil gərəkdir eyləyə bu dəhri təcrübə,
Mən bilmişəm ki,dəyil bunda kimsə cavdan.
Gördüm bu çərxi cəfa-pişeyi-sitəmgəri,
Çəkdim bu dəmdə bi ah tərpəndi asiman.
Dövranə zəbani-təərüzi açdım,dedim,
Key çərxi bimürüvvət, biəhdi cəfakunan.
Saldın həmişə zillətə mərdanələr işin,
Bir kamın almadı dövründə əhli-danişan.
Kəcruləri sevərsən əcəb haldır ki, səndə bu,
Əlbəttə kəcməzacın bəsi təbləndirir yaman.
Atdın bu xakdana tacın edib sərnigun,
Sultaniyani Rum, Hindü , Sindü İran.
Yıxdın fələk bu yerdə neçə xanumanları,
Abad olanlarn neçəsin eylədin viran.

یانمش بُو خاک ایچنده حسرتیله شاهلر
تاجینه زینت ایدن چقر زرقوان
ژنکار کردیله آلوده تردُرر هنوز
مرآتی که اسکندرنک جهانه نُور سالان
یتمشدی سمعلرینه رَحیل کوسدان صدا
سنجرله تا کیدُوب فنایه عُلب ارسلان
کیومرزیله کشتاسب اوُیوُب خاب غفلته
کوچمش بُو فانیدن عدمه شاهلر کیان
دنیایی ذالنک النده اولوب زبونُ خار
اَفراسیاب رستمیله سام پهلوان
هر کس مذاهبنده دُوتوب آخرت یُولین
کچمش سُفله ده که شاهان پیش دادیان
اوُلمشدی بزم جهانده عدلیله نامدار
نوش ایتدی جام اجلنی نوشیروان
کوستردی عالمه سیف شجاعتین هر آن
بر نادره یدی نجه اولدی نادر کیتی ستان
عاقل کرکدور ایلیه بُو دهری تجربه
من بلمشم که ده کل مؤنده کیمسه جاودان
کُوردیم بُو چرخ جفا پیشهٔ ستمکری
چکدُوم بُو دمده بر آه تیرندی آسمان
دورانه زبان تعرضی آچدُوم دیدیم
گی چرخ بیمروت بی عهد جفاکنان
سالدُونک همیشه ذلته مردانه لر ایشین
بر کامین آلمدی دَورنکده اهل دانشان
گَج رَولری سورسن عجب حالدور که سنده بُو
البته کج مزاجن بسی طبعلنکدور یمان
آتتدونک بُو خاکدانه تاجین ایدوب سرنکون
سُلطانیان روم هندُ سِندُ ایران
یخدونک فلک بُو یرده نجه خانمانلاری
آباد اوُلانلروک نجه سین ایلدنک ویران

Şəhrilə köyi kənd olub, xərabə rubat,
Olmaz əcəb olara cüqd qılsa aşiyan.
Sənin cəfadan özgə ,səndə gövhər bulmadım,
Çəkdim vəfa məhəkinə ,mən etdim imtihan.
Dövran cavab verdi,cavabımda həm dedi,
Əşari kezb təbinə dölmüş, dedin yalan.
Dünya vü axirət ki, yədi qüdrətindədir onun,
Ol padişahi adil özüdür eyləyən divan.
Hökmi onun bir hökmudur ki,ona kulşəy müti,
Birdir onun yanında gəda, padişah,xan.
Bir ləhzədən sonar açdım zəbani-süxən ki,söylədim,
Guş eyləyən bilir , nədir ağazi dasitan.
Yəni qərəz budur ki, dəhridə yoxdur etibar,
Təslim edər xudaya müdam işin aqilan.
Yarəb yetir nicatı bula **şövqi** der dilim,
Dünya vü axirət məni eylə şadiman.
Sən dadıma yetiş mənim ey dadgər bugün,
Bir muyə döndü zəfidən tənim üzüldü can.
Sitr eylə xatalarım ilahi xatapuş sən,
Ta həşridə hesab çəkib quranda mizan.

شهریله گُویی کند اولوب خرابه رباط
اولمز عجب اولاری جُغد قلسه آشیان
سنک جفادن اوزکه سنده کوهر بُولمادیم
چکدوم وفا محکینه بن ایتدُوم امتحان
دوران جواب ویردی جوابمده هم دیدی
اشعار کذب طبعنکا دولمش دیدنک یلان
دُنیا و آخرت که یَدی قدرتنده در آننک
اوُل پادشاه عادل اوزیدور ایلین دیوان
حُکمی آننک بر حُکمدور که آنکا کُلّ شی مطیع
بردر آننک یاننده کدا پادشاه خان
بر لحظه دن صنکره آچدُوم زبان سخن که سولدیم
کوش ایلین بلوُر ندور آغاز داستان
یعنی غرض بُودور که دهرده یُوخدور اعتبار
تسلیم ایدر خدایه مدام ایشین عاقلان
یارب یتیر نجاتی بُوله **شوقی** دیر دلیم
دُنیا و آخرت بنی ایله شادمان
سن دادیمه یتیش منم ای دادکر بکون
بر مُویه دُوندی ضعفدن تنم اوزولدی جان
ستر ایله خطالریم الهی خطاپوش سن
تا حشرده حساب چکوب قوراندہ میزان

Eşitdim ki, birgün Mənüçöhrşah,
Ki,qurmuşdu bir məclisi bəzmgah.
Nişatü fərəh , bəzm ara kamran,
Sunub saqi mey ,cami Nuşirvan.
Nəsihət yazıb,münşilər cameyi xətt,
Sərihdir sərasər ki,yox bir qələt.
Demiş dəhridə kimsəyə çatmaz kamal,
Yetirsə kamala bulur tez zəval.
Sübati cahana ki , yox etibar,
Ki ,bir kəs dəyil bunda həm paydar.
Cahangir mərdi edib paymal,
Bu pirü siyəh ruyi dünyayi zal.
Yəqin bilki, bu dəhrdir bimədar,
Onunçün dəyil təbə bu sazigar.
Gətir saqi ol badəyi əhmərar,
Ki ,bir dəm ruxi zərdim et laləzar.
Edib zövq bəzm içrə Cəmşidi cəm,
Qoyub getdi çün name niki, həm.
Cahandidə kim, filisufani həy,
Həm üqbaya getmişdi Kavusi kəy.
Olar bir dürr almadı bu bəhridən,
Bir ad qaldı onlara bu dəhridən.
Qərəz adımış dəhridə yox etibar,
Gözət aqibət **Şövqi**, sən eylə ad.

ایشتدُوم که بر کون منوچهر شاه
که قورمشدی بر مجلس بزم کاه
نشاط فرح بزم ارا کامران
سُونوب ساقی می جام نوشیروان
نصیحت یازُوب منشیلر جامة خط
صریحدور سراسر که یُوخ بر غلط
دیمش دهریده کیمسیه چاتمز کمال
یترسه کماله بُلُور تیز زوال
ثُبات جهانه که یُوخ اعتبار
که بر کس دگُل مُونده هم پایدار
جهانکیر مرُدی ایدُوب پایمال
بُو پیرُ سیه رویی دُنیایی ذال
یقین بیل که بو دهردُر بی مدار
آننکچون دگُل طبعه بُو سازکار
کتُور ساقی اوُل بادة احمرار
که بر دم رُخی زردیم ایت لاله زار
ایدُوب ذوق بزم ایچره جمشید جم
قویوب کتدی چُون نام نیکی هم
جهان دیده کیم فیلسوفان حَی
هم عقبایه کیتمشدی کاووس گَی
اوُلار بردُر آلمادی بُو بحریدن
بر آد قالدی آنلاره بُو دهریدن
غرض آدیمش دهرده یُوخ اعتبار
کُوزت عاقبت **شوقی** سن اَیله آد

Eşitdim ki, Keyxosrovi padişah,
Qorub bəzm , ayini əla ,cah.
Açıb pərdəsin şahidi mey ki, ru,
Ayaq üzrə durmuş ,surahi, səbu.
Tutub saqi meydir edir ixtiyar,
Alıb bir qədəh, şah edib iftixar.
İçib badəsin oldu xummar, məst,
Verib cam Cəmşidə xeyli şikəst.
Götürdü ələ mütrib ol çəngini,
Xoş avazilən açdı ahəngini.
Dedi kim, bu dünyayi napayidar,
Ki, pünhan dəyil zülm, edib aşkar.
Neçə şəhriyari tutub, məkrü fənn,
Müsələt cəvanə olub pirəzən.
Sürüb bir zaman dövri Cəmşidşah,
Təriqi ədəm bəkləyib , tutdu rah.
Daha həm Firiduni ali məqam,
Olub bu cahanda zəvil ihtiram.
Çü gördüm zəminə düşüb küzə pak,
Eşitdim ki, Cəmşiddir kim, bu xak.
Sabahi ki, avaz bir xanadan,
Gəlirkən dedi xişt viranadan.
Mənəm ol Firiduni fərxündə bəxt,
Mənə şah Kavus idi ziri təxt.
Ki, bər xakam indi cahan içrə mən,
Qılıb xişt viranə , deyri kühən.
Sübati cahanı ədəm bil yəqin,
Yinə **Şövqi** üqbanı tut kim, həmin.

ایشتدُوم که کیخسروی پادشاه
قُورِوُب بزم آیین اعلا جاه
آچوب پرده سین شاهد مَی که رو
آیاغ اوُزره دوُرمش صُراحی صَبوُ
دُوتوُب ساقی مَی دور ایدر اختیار
آلوُب بر قدح شاه ایدُوب افتخار
ایچُوب باده سین اوُلدی خمار مست
ویرُوب جام جمشیده خیلی شکست
کوثُوردی اَلَه مطرب اوُل چنکنی
خوش آوازیلن آچدی آهنکنی
دیدی کیم بو دنیایی ناپایدار
که پُنهان دُکل ظلم ایدُوب آشکار
نچه شهریاری دُوتوُوب مکر فنّ
مُسلت[1] جُوانه اوُلوُب پیره زن
سُوروُب بر زمان دَور جمشید شاه
طریق عدم بکلیُوب دُوتدی راه
دخی هم فریدون عالی مقام
اوُلوُب بُو جهانده ذویل احترام
چُو کوُردوم زمینه دُوشوب کوزه پاک
ایشتدوم که جمشید در کیم بُو خاک
صباحی که آواز بر خانه دن
کلوُرکن دیدی خشت ویرانه دن
منم اوُل فریدون فرخنده بخت
بنکا شاه کاووس ایدی زیر تخت
که بر خاکم ایندی جهان ایچره من
قلوب خشت ویرانه دیری کهن
ثبات جهانی عدم بیل یقین
ینه **شوقی** عقبانی دُوت کیم همین

---

[1]. ألیازمادا «مسلط» سؤزونون ایملاسی بئله یازیلیبدیر.

Eşitdim bir zaman fəryadi bulbul,
Deyir dünyaya uymaq kari müşkül.
Verib arayiş , etdim aşiyana,
Ümid oldum davam eylər cahana.
Edib gülşəndə zövqilə səfalar,
Surud üzrə açıb sövtü nəvalar.
Oxurdum rast nəğmat, xoş əlhan,
Alıb gül çevrəsin üşaqvəş san.
İraq bərgi gül düzmüş yanağa,
Tutub minqara ,çıxdım bir munqara.
Edirdim eyş,işrət vəsli güldə,
Bahar əyyami gəlmiş bu fəsildə.
Həm olmuş dəhridə asudə halım,
Dedim,yoxdur daha dərdü məlalım.
Təfaxurlə kçirdim ömr ,əyyam,
Deyirdim qəm mənə yrtməz ki, madam.
Yetişdi bu zamanda vaxt çün Dey,
Görüb, oldu xəzanı hüsni gül tey.
Ki, nagah bir gecə ol bərqi lame,
Ki, durdu aşiyanım qıldı zaye.
Bəsa ol xarü xəs həm tutdu atəş,
Fələk bu halımı qıldı müşəvvəş.
Çəkib bir nalaeyi fəryadi dilsuz,
Dedim,aləmdə yox mən tək ciyərsuz.
Kim eylərdi mənə beylə kümanı,
Göreydim qarət olmuş xanı-manı.
Mənəm ol əndəlibi zar qalmış,

ایشتدُوم بر زمان فریاد بلبل
دِیَر دُنیایه اوُیمق کار مشکل
ویرُوب آرایش ایتدُوم آشیانه
اُومید اوُلدوم دوام ایلر جهانه
ایدُوب کلشنده ذوقیله صفالر
سُرُود اوزره آچُوب صوت نوالر
اوُخوردوم راست نغمات خوش الحان
آلوب کُل چَوره سین عشاق وش سان
عراق برک کل دوُزمیش ینکاغه
دوُتُوب منقاره چیخدوم بر منقاره
ایدردُوم عیش عشرت وصل کلده
بهار ایامی کلمش بُو فَصِلده
هم اولمش دهرده آسوده حالیم
دیدُوم یُوخدور دخی دردُ ملالیم
تفاخرله کچوردوم عمر ایام
دِیَردُوم غم بنکا یتمز که مادام
یتشدی بُو زمانده وقت چون دَی
کُوروُب اولدی خزانی حُسن کُلُ طَی
که ناکه بر کیجه اول برق لامع
که دوردی آشیانم قلدی ضایع
بسا اول خارخس هم دُوتدی آتش
فلک بُو حالمی قلدی مشوش
چکوب بر نالهٔ فریاد دلسوز
دیدوُم عالمده یُوخ من تک جکرسوز
کیم ایلردی بنکا بیله کُمانی
کوُرَیدوُم غارت اولمش خانی مانی
بنم اوُل عندلیب زار قالمش

Cuda olmuş vətəndən, yar qalmış.
Qəmü hicrana düşdüm güldən ayrı,
Çəkib məhnət həmişə dildə qayğı.
Bu vəchilə heç olmazdı hümanım,
Qalaydı xaksar həm cism , canım.
Dəruğa mülkilə , məvadan oldum,
Cahan bağında gül , rənadan oldum.
Bu ətvarilə keçsə ruzgarım,
Yetər həm asimana ahü zarım.
Görün bu gərdişi çərxi sitəmgər,
Cəfada könlümü qoymuş sərasər.
Edib rüsva məni çaki gəriban.
Bəla dağın çəkib sinəmdə biryan.
Nə rəyim məksədir ki, ta duram mən,
Fərar etsəm dəyil qəlbim ki, rövşən.
Nə payım var gəzəm kim, bu cahanı,
Dözərsəm , qürətim yox aşiyanı.
Nə xabım var gecə, nə gündüz aram,
Keçirməsin mənim tək kimsə əyyam.
Cəfavü cövra düşdüm xandandan,
Cuda oldum ki, yarü xanmandan.
Fələk qılmış üzərinə zülmi mötad,
Giriftar eyləmiş, yox kimsə azad.
Bu xoşdur **Şöqi** göstər niknamı,
Vəfasızdır işi çərxin tamamı.

جدا اوُلمش وطندن یار قالمش
غمُ هجرانه دُوشدم کلدن آیرو
چکُوب محنت همیشه دلده غیقو
بو وجهیله هیچ اولمازدی کمانم
قالیدی خاکسار هم جسم جانم
دریغا ملکله مأوی دن اولدُوم
جهان باغنده کُل رعنادن اولدوم
بو اطواریله کیچسه روزکاریم
یتر هم آسمانه آه زاریم
کورنک بُو کردیش چرخ ستمکر
جفاده کونکلمی قوُیمش سراسر
ایدُوب رسوا بنی چاک کریبان
بلا داغین چکُوب سینمده بریان
نه رأیم مُکسِه دُر[۱] که تا دُورام من
فرار ایتسم ده کل قلبیم که روشن
نه پایم وار کزم کیم بو جهانی
دُزرسم قدرتیم یُوخ آشیانی
نه خوابیم وار کیجه نه کوندوز آرام
کیچرمه سُون بنم تک کیمسه ایام
جفا و جوره دوُشدم خاکداندان
جدا اوُلدوُم که یارُ خانماندان
فلک قلمش اوُزرینه ظلمی معتاد
کرفتار ایلمش یُوخ کیمسه آزاد
بُو خوشدور **شوقی** کوستر نیک نامی
وفاسیزدُور ایشی چرخنک تمامی

---

[۱]. ألیازمادا «مکث» توقف ائتمک ، دانماق معناسیندا بئله یازیلیبدیر.

# موخمسلر

Mənim sevdayi eşq içrə dəmadəm şöhrətim artar,
Rəhi-üşaq ara Məcnundan əfzün qeyrətim artar.
Çəkib bir Leyliveş məhbub cövrin zülmətim artar,
Xəm açıldıqca zülfündən, bəlavü möhnətim artar.
Bihəmdillah ki, ömrüm uzanır , cəmiyyətim artar.

Keçir qürbətdə övqatım yaman,bilməm nə dirilikdir ,
Olubdur məskənim həm göra daim işi görlükdür.
Hücümi-ləşkəri –qəm üstümə dolmuş, nə dönükdür,
Tuta korgöz yolun ey əşki kim, təmkinim əksikdir.
Bu surətxanənin gördükcə nəqşin heyrətim artar.

Cahanda kimsədən kəm olmayıbdır ədlü dadım kim,
Sefid olmaz nədəndir bilməzəm bəxtü səvadım kim.
Tutub mirati-könlüm ah birlə girdbadim kim,
Mərizi- dərdi-eşqəm ,tərki-aləmdir müradım kim.
Buna xoş mülküdə əyləndiyimcə , zəhmətim artar.

Mənəm hicran  günü giryan, dəmadəm didəsi nəmdə,
Soran əhvalımı yox, qalmışam çox dərdilə qəmdə.
Çəkildi hicr dağı, hər tərəf bu odlu sinəmdə,
Büküldü qamətim həsrət yükündən, vəh ki, aləmdə.
Ümidim əksilib, hər ləhzə yüzmin həsrətim artar.

Cəfa qılmış mənə **Şövqi** fələk , əfsürdə əhvaləm,
Onunçün bu cəhətdən halıma giryan olur aləm.
Çəkib firqət bəlasın, xəstə cismim , çünki, pamaləm,
Çox olduqca qəmü dərdim , rəhi eşq içrə xoş haləm.
Füzüli şad olub, şükr  etməyimmi, nemətim artar.

بنم سودای عشق ایچره دمادم شهره تیم آرتار
رهی عشاق ارا مجنوندن افزون غیرتیم آرتار
چکوب بر لیلی وش محبوب جورین ظلتیم آرتار
خم آچلدُوقجه زلفنکدن بلا و محنتم آرتار
بحمدلله که عُمریم اوزانور جمعتیم آرتار

کیچر غربتده اوقاتم یمان بلمن نه دیرلکدر
اولوُپدور مسکنم هم کوره دائم ایشی کورلکدر
هجومُ لشکری غم اوستمه دولمش نه تونیکدر
دوتا کور کوز یولین ای اشک کیم تمکینم اکسکدر
بو صورت خانه ننک کوردکجه نقشین حیرتم آرتار

جهانده کیمسدن گم اولمیُوپدور عدل داديم كيم
سفید اولمز نددور بلمزم بخت سواديم كيم
دُوتوب مرآت کونکلم آه برله كردباديم كيم
مریض درد عشقم ترک عالمدور مراديم كيم
بونا خوش ملكده اكلندُوکمجه زحمتیم آرتار

بَنَم هجران کونی کریان دمادم دیده سی نمده
سُوران احوالمی یُوخ قالمشم چُوخ درد ایله غمده
چکلدی هجر داغی هر طرف بُو اودلو سینمده
بُوکُولدی قامتم حسرت یُوکندن وَه که عالمده
امیدیم اکسلوب هر لحظه یُوزمین حسرتیم آرتار

جفا قلمش بنکا **شوقی** فلک افسرده احوالم
آننکچون بو جهتدن حالمه کریان اولور عالم
چکوب فرقت بلاسین خسته جسمم چونکه پامالم
چُوخ اولدوقجه غم دردیم ره عشق ایچره خوش حالم
**فضُولی** شاد اولوب شکر ایتمیمـّـی نعمتیم آرتار

Müsəvvər-lövhi-hüsnündə , qaşın sərməşqi nun etdi,
Qələm kim, arizin üzrə xalın çün nilgun etdi.
Dəhanın abi-heyvana məni həm rəhnəmun etdi,
Ləbin əksi gözüm yaşını meytək laləgün etdi.
Zənəxdanın müradım , dost kamın sərnigün etdi.

Camalın pətövi-ayinənin məhv etdi safında,
Qədin yanında çeşmim gördü sərvin inhirafında.
Güli rəna rüxünlə bəhs edər, bilməz xilafında,
Sənə əksi-müqabil durduğuçün hüsni lafında.
Onu cam içrə qeyrət qərğeyi-girdabi-xun etdi.

Səlasil eyləməz hər dəm, gəlib ol türrənə taət,
Bu xislətdən düşübdür piçü tabə, qət edib taqət.
Pərişan fikrət etdi sisilə-cünbanlığa adət,
Özün nisbət qılırdı zülfünə zəncir hər saət.
Bu sevdalar onu sərhəlqeyi-əhli-cunun etdi.

O sərvi-qamətin görkəc dutasın artırar şəmin,
Yanar rəşk oduna hər dəm,cəfasın artırar şəmin.
Görüb gülcöhrə rüxsarın xafasın artırar şəmin,
Onun tək kim, pərişanlıq ziyasın artırar şəmin.
Mənə cövrün ziyad olmaq sənə meylim füzün etdi.

Kəməndi zülfünə sərbənd olub, üşaq fəhm etməz,
Olub qurban sədaqətə, tiri-qəmzən nişə rəhm etməz.
Qaşın yayın çəkər ağuşa, əsla-hiç səhm etməz,
Müjən xəncərlərin könlüm basar bağrına, vəhm etməz.
Ona cadu-gözün güya ki, təlimi-füsün etdi.

Yaxıb sübhi-əzəl eşq atəşin Məcnuni-bimari,
Edibdir xəstə, həm rəncur Leylayi diləfkari.
Qılır Fərhad hər dəm Tağİ-Büstani kuhkən zari,
Yaxayı sürəti Şirin üçün töfiği memari.
Bənayi eşqi Fərhadın əsasın bisutun etdi.

Digərgünəm fərağından . məni çün sərfəraz etsə,
Müşəvvəş könlümü vəslində mey ilə saz, baz etsə.
Təhəmmül eylə **Şövqi**, sən xudanı çarəsaz istə,
**Füzülidən** sübatü səbrü cövrü qəhri az istə.
Kim, o biçarəni , dərdü qəmin bihədd zəbun etdi.

مصور لَوح حسننکده قاشنک سرمشق نون ایتدی
قلم کیم عارصننک اوُزره خالنک چون نیلکون ایتدی
دهاننک آب حیوانه بنی هم رهنمون ایتدی
لبنک عکسی کوزیم یاشینی مَی تک لاله کون ایتدی
زنخداننک مُرادیم دوست کامین سرنکون ایتدی

جمالنک پرتوی آیینه نک مهو ایتدی صافنده
قدنک یاننده چشمم کُوردی سرونک اینحرافنده
کلی رعنا رخنکله بحث ایدر بلمز خلافنده
سنکا عکس مقابل دُوردقیچون حسن لافنده
آنی جام ایچره غیرت غرغة کرداب خون ایتدی

سلاسل ایلمز هر دم کلُوب اوُل طرنکا طاعت
بو خصلتدن دُوشوپدور پیچ تابه قطع ایدوب طاقت
پریشان فکرت ایتدی سلسله جنبانلقه عادت
اوُزین نسبت قلوردی زلفنکا زنجیر هر ساعت
بو سودالر آنی سر حلقة اهل جنون ایتدی

او سرو قامتنک کورکج دوُتاسین آرتورور شمعنک
یانار رشک اوُدینه هر دم جفاسین آرتورر شمعنک
کُوروب کلچهره رخسارنک خفاسین آرتورر شمعنک
آننک تک کیم پریشانلق ضیاسین آرتورر شمعنک
بنکا جورنک زیاد اوُلمق سنکا میلیم فزون ایتدی

کمندی زلفنکا سربند اوُلوب عشاق فهم ایتمز
اوُلوب قربان صداقه تیر غمزنک نیشه رحم ایتمز
قاشنک یایین چکر آغوشه اصلا هیچ سهم ایتمز
مژنک خنچرلرین کونکلم باسار بغرینه وهم ایتمز
آنکا جادو کوزنک کویا که تعلیم فُسوُن ایتدی

یاخُوب صبح ازل عشق آتشی مجنون بیماری
ایدُوپدُور خسته هم رنجور لیلایی دلفکاری
قلُور فرهاد هر دم طاق بستان کوهکن زاری
یقایی صورت شیرین ایچون توفیق معماری
بنای عشق فرهادنک اَساسین بی ستون ایتدی

دیکرکونم فراقنکدن بنی چون سرفراز ایسته
مشوش کونکلمی وصلنک د میی ایله ساز باز ایسته
تحمِل ایله **شوقی** سن خدانی چاره ساز ایسته
**فُضولیدن** ثبات صبر جور قهری آز ایسته
کیم اول بیچاره نی دردُ غمنک بی حد زبون ایتدی

Olub məsdud babi meykədə zühdü riyalardan,
Bulub dərdü küdürət ruhi-zövqım bisəfalardan.
Könül qan oldu, dur olqac şərabi-canfəzalardan,
Kərəm qıl saqı, kəsmə iltifatın binəvalardan.
Əlindən gəldiyi xeyri dəriğ etmə gədalardan.

Ki,biz tutiləriz ayineyi-gitinəmamız yox,
Düşən gülşəndən ayrı bülbüllər , eyşü nəvamız yox.
Bəla məhbüsiyiz , bir çarəsaz , rəhnümamız yox,
Əsiri qürbətiz biz, sizdən özgə aşinamız yox.
Ayağın kəsmə başınçün, bizim möhnətsralardan.

Keçirdim rüzgarım tirə qürbətdə məhü salı,
Qəmü dərdilə zarəm, oldu cismim hicr pamalı.
Ki, məhrəm səndən özgə bulmadım sormağa əhvalı,
Səba kuyində dildarın nədir üfdadələr halı.
Bizim yerdən gəlirsən bir xəbər ver aşinalardan.

Dilim dərdi əlac istər, kəsilmiş səbrü təmkini,
Müalic təlx goftar ilə aldın cani şirini.
Sirişkim seyli zaye qıldı bu çeşmi-cahan bini,
Təbiba! Xaki-kuyi-yardandır əşki təskini.
Bizə artırma zəhmət, göz yaşarız tutiyalardan.

Dila gördüm cahan içrə fənadan qeyr yox mənzil,
Bu təbi namüvafiqdən keçib , üqbaya verdim dil.
Mənə kim çərxi-kəcrəftarıdan həll olmadı müşkil,
Fələkdir mehri zail , yari qafil , ömri müstəcəl.
Nədir tədbir bilməm, cana yetdim bivəfalardan.

Könül mülkündə səndən ma səva bir padişah etməm,
Rüxündə görmüşəm gül, qeyri gülzara nigah etməm.
Rubabtək sızlaram, kuyindən özgə bəzmigah etməm,
Vucudum ney kimi surax-surax olsa ah etməm.
Xəm oldu qamətim, sərvim bu istiğnalardan.

Xəm oldu qamətim , sərvim bu istiğnayi az eylə,
Xəyalınla xəyalım rahını həmsazi baz eylə.
Yetişsən **Şövqiya** məhvəşlərə, ifşayi raz eylə,
**Füzüli** nazəninlər görsənin izhari niyaz eylə.
Tərəhhüm umsa, eyb olmaz gədalar padşahlardan.

اولوب مسدود باب میکده زهدُ ریالردن
بُولُوب درد کدورت روح ذوقیم بی صفالردن
کونکل قان اولدی دُور اولقج شراب جان فزالردن
کرم قل ساقی کسمه التفاتنک بی نوالردن
الندن کلدُوکی خیری دریغ ایتمه کدالردن

که بیز طوطی لروز آینهٔ کیتی نمامز یوخ
دُوشن کلشندن آیرو بلبلر عیش نوامز یُوخ
بلا محبوسیوز بر چاره ساز رهنمامز یُوخ
اسیر غربتوز بیز سیزدن اوزکه آشنامز یوخ
ایاغنک کسمه باشنکچون بزیم محنت سرالردن

کیچردُوم روزکاریم تیره غربتده مهُ سالی
غمُ دردیله زارم اوُلدی جسمم هجر پامالی
که محرم سندن اوزکه بولمادیم سورماقه احوالی
صبا کوینده دلدارنک ندُور افتاده لر حالی
بزیم یردن کلورسن بر خبر ویر آشنالردن

دلیم درد علاج ایستر کسلمش صبر تمکینی
معالج تلخ کفتاریله آلدنک جان شیرینی
سرشکیم سیلی ضایع قیلدی بو چشم جهان بینی
طبیبا خاک کویی یاردندور اشکی تسکینی
بیزه آرتورمه زحمت کوز یشاروز توتیالردن

دلا کوردُوم جهان ایچره فنادن غیر یوخ منزل
بو طبعه ناموافقدن کیچوب عقبایه ویردیم دل
بنکا کیم چرخ کج رفتاریدن حل اولمدی مشکل
فلکدور مهر زائل یار غافل عُمر مستعجل
نه دور تدبیر بلمن جانه یتدیم بیوفالردن

کونکل ملکنده سندین ماسوا بر پادشاه ایتمن
رُخنکده کورمشم گُل غیری کلزاره نکاه ایتمن
رباب تک سیزلارم کُوینکدن اوزکه بزم کاه ایتمن
وجودیم نی کبی سوراخ سوراخ اوُلسه آه ایتمن
خم اولدی قامتم سرویم بو استغنالردن
خم اولدی قامتیم سرویم بو استغنایی آز ایله
خیالنکله خیالیم راهنی هم ساز باز ایله
یِتشسنک **شوقیا** مهوشلره افشایی راز ایله
**فُضولی** نازنینلر کورسنک اظهار نیاز ایله
ترحم اومسه عیب اولمز کدالر پادشالردن

Mənim eşqim yəqindir aləmə, bir kibriyadandır,
Təriqi vəslini bulsam, müinim rəhnəmadandır.
Dərində səcdə qılsam hər zaman, qəddim dutadandır,
Xoşam kim, dəmbədəm giryan gözüm ol xaki-padandır.
Ziyanı olmaz ol göz yaşının , kim, tutiyadandır.

Bu bağrım qan olubdur, ayrı qalmış rəngi-alından,
Vəli düşvar imiş ey məh, cüda[۱] düşmək vüsalından.
Vurarsan sədrimə oxlar, kaman əbru hilalından,
Dəmadəm mərdumi çəşmim içər qan zülfü xalından.
Bəli , əksər məaşi-əhl-dəryanın qaradandır.

Züleyxa gərdəninə saldı Yusif zülfi mişkini,
Düşüb əşk içrə qərğə, Vamiq etmiş necə təmkini.
Bəlayi həbsidə Leyla qoyub Məcnuni miskini,
Demə Fərhad qanın tükmüş ancaq, eşqi Şirini.
Mənim gör qanlı yaşım kim, bu həm ol macəradandır.

Sənə həmta dəyil əflakda mahi-mələk-sima,
Baxıb rüxsarına hər dəm, saramış afitab amm.
Çəkibdir xameyi-qüdrət əcayib qaşına tuqra,
Müənbər sünbülündən almadın bu , olmadın rüsva.
Bu rüsvalıq mənə səndən dəyil, badi səbadandır.

Götürməz dərdimin bir zərrəsin, cəm olsa bütün aləm,
Ötər əflakdan hər dəm, çəkəndə sidqilə naləm.
Sirişkim qərğə vermiş aləmi, umana timsaləm,
Hübabi-əşk içində muyi jülidəmlə xoş haləm.
Başımda bu humayun sayə ,ol ali bənadandır.

---

[۱] .ayri

بـنم عشقیم یقیندور عالمه بر کبریآدندور
طریقی وصلنی بُولسم معینم رهنمادندور
درینده سجده قلّام هر زمان قدیم دوتادندر
خُوشم کیم دمبدم کریان کوزیم اول خاک پادندیر
زیانی اولمز اول کوز یاشننک کیم توتیادندر

بوُ بغریم قان اوُلُوپدور آیرو قالمش رنک آلندن
ولی دشوار ایمش ای مَه جُدا دوشمک وصالندن
اورارسن صدریمه اوُخلار کمان ابرو هلالندن
دمادم مردمی چشمم ایچر قان زلف خالندن
بلی اکثر معاشی اهل دریاننک قرادندیر

زُلیخا کرده نینه سالدی یوسف زلف مشکینی
دُوشوب اشک ایچر غرغه وامق ایتمش نیشه تمکینی
بلایی حبسده لیلا قُویوب مجنون مسکینی
دیمه فرهاد قانین دوکمش آنجق عشق شیرینی
بنم کور قانلو یاشیم کیم بُو هم اول ماجرادندر

سنکا همتا ده کل افلاکده ماه ملک سیما
باخُوب رخسارنکا هر دم سرارمش آفتاب امّا
چکُوپدور خامة قدرت عجایب قاشنکا طغرا
مُعنبر سنبلدن آلمدین بو اولمدین رسوا
بُو رسوالق بنکا سندن دکل باد صبادندور

کُوتورمز دردیمنک بر زره سین جمع اولسه بتن عالم
اوتر افلاکدن هر دم چکنده صدقیله نالم
سرشکیم غرغه ویرمش عالمی عُمانه تمثالم
حُباب اشک ایچنده مُوی ژولیدمله خُوش حالم
باشمده بو همایون سایه اوُل عالی بنادندور

Bulunmaz dəhr ara səntək gözəl , bir şüxi müstəsna,
Fəqan etməz mənim könlüm, müdam zülm eyləsən əsla.
Üzülməz damənindən dəstimiz[١], ey şüxi-bipərva,
Vəfa rəsmin unutmuş, deyib inciməzəm zira.
Bu kim, məndən cəfa kəm eyləməzsən, həm vəfadandır.

Çəkib zəhmət xəzandan bərg, solmaqdır təərüzdən,
Ona nisbət vucudun dur qılmaqdır təərüzdən.
Dili-mirati gər pak bulmaqdır təərüzdən,
Kamalı-hüsni-şürb ari olmaqdır təərüzdən.
Riya əhlinə həm çox etiraz etmək riyadandır.

Dila həmdü səna ilə səni xəlq eyləmiş bir şəh,
Sipasü şükr qıl dildən, ona tutkim təvəkkül rəh.
Edib **Şövqi** təhəmmül, çeşm giryan etmə , ol agəh,
**Füzüli** tökmə çox yaş, ehtiyat et, getməsin nagəh.
Gözündən sürmə kim, gərdi-rəhi əhli-səfadandır.

---

١ .əlimiz

بولوُنمز دهر ارا سن تک گُوزل بر شوخ مثتثنا
فقان ایتمز منم کونکلم مدام ظلم ایلسنک اصلا
اوُزیلمز دامنکدن دستمز ای شوخ بی پروا
وفا رسمین اوُنوتمش دیُوب اینجمزم زیرا
بو کیم مندن جفا گَم ایلمزسن هم وفادندُور

چکوُب زحمت خزاندن برک صُولمقدور تعرضدن
آنکا نسبت وجودین دور قلمقدور تعرضدن
دل مرآتی کر پاک بُولمقدُور تعرّضدن
کمال حسن شرب عاری اولمقدور تعرضدن
ریا اهلینه هم چُوق اعتراض ایتمک ریادندور

دلا حمد ثنا ایله سنی خلق ایلمش بر شه
سپاس شکر قل دلدن آنکا دُوتکم توکل ره
ایدُوب **شوقی** تحمل چشم کریان ایتمه اول آکه
**فضولی** توکمه چوخ یاش احتیاط ایت کیتمسنک ناکه
کوُزنکدن سرمه کیم کرد رهی اهل صفادندور

Diyari-hicri-qürbətdə günüm avara keçsinmi?
Xəm olmuş qəm yüküylə qamətim, həmvara keçsinmi?
Dəyib möhnət xədəngi sədrimə, səd bara keçsinmi?
Həmişə ruzigarım zəhmətilə, qara keçsinmi?
Mənə bu dərdilə yarəb nola bir çarə keçsinmi?

Qalıb dildardan ayrı ,canım hicrana yansınmı?
Çəkib eşqində firqət qəmlərin, suzana yansınmı?
Sipəndasa düşüb atəşlərə, mərdana yansınmı?
Müdam pərvanətə şəmi rüxi, canana yansınmı?
Yanıb xakistər içrə , həm dönüb odlara yansınmı?

Tənim cəllad çeşmin qıtl edib, meydanda qalsınmı?
Bu cismim üzrə tiğin sancılıb, hər yanda qalsınmı?
Qaşın müjganı peyvəstə atılmış, canda qalsınmı?
Yıqılmış sinəmə navəklərin, pünhanda qalsınmı?
Dəlib şüx qəmzən alması ötüb, aşkara keçsinmi?

Fələk bir cam əlindən içmişəm, ağıya dönsünmü?
Sirişkim qanı çeşmimdə bulanmış suya dönsünmü?
Vucudum zəfidən incəldi , nazik muyə dönsünmü?
Mənim könlümdəki həsrət hamı qayqıya dönsünmü?
Dönüb iqbalımız, aya daha ədbara keçsinmi?

Əla ey **Şövqiyi** biçara, səyin bada getsinmi?
Cəfaçəkmiş canın dövran əlindən dada getsinmi?
Açılsın sirri eşqin hər zaman ol yada getsinmi?
Sənə zülm eylədi gərdun əbəs, dünyada getsinmi?
Bu zülmi binəhayət , yoxsa bir əqyara getsinmi?

دیار هجر غربتده کونیم آواره کچسوُنمی
خم اوُلمش غم یوُکیله قامتم همواره کچسونمی
دکوُب محنت خدنکی صدریمه صدباره کچسونمی
همیشه روزکاریم زحمتله قاره کیچسونمی
بنکا بُو دردیله یارب نوُله بر چاره کچسونمی

قالوُب دلداریدن آیرو جانم هجرانه یانسونمی
چکوُب عشقنده فرقت غملرین سوزانه یانسونمی
سپندآسا دوُشوب آتشلره مردانه یانسونمی
مُدام پروانه تک شمعی رُخی جانانه یانسونمی
یانُوب خاکستر ایچره هم دوُنوب اودلاره یانسونمی

تنم جلاد چشمنک قتل ایدوب میدانده قالسونمی
بو جسمم اوُزره تیغنک سانجلوب هر یانده قالسونمی
قاشنک مژکانی پیوسته آتلمش جانده قالسونمی
یقلمش سینمه ناوکلرنک پُنهانده قالسونمی
دلُوب شوخ غمزنک آلماسی اوُتوب آشکاره کیچسونمی

فلک بر جام النکدن ایچمشم آغویه[1] دوُنسونمی
سرشکیم قانی چشممده بولانمش سُویه دونسونمی
وجودیم ضعفدن اینجلدی نازک مُویه دونسونمی
بنم کونکلمده کی حسرت قمو غیغوُیه دونسوُنمی
دونُوب اقبالمز آیا دخی ادباره کیچسونمی

الا ای **شوقی** بیچاره سعینک باده کیتسونمی
جفاچکمش جانون دَوران النده داد کتسونمی
آچلسنک سرّ عشقنک هر زمان اول یاده کتسونمی
سنکا ظلم ایلدی کردون عبس دُنیا ده کتسونمی
بو ظلمی بی نهایت یوخسه بر اغیاره کیتسونمی

---

[1]. مرثیه ، آه و ناله

Bahar , əyyami- gül gəldi , pərim seyrana çıxsınmı?
Üfüqdən gün kimi üz göstərib , gülüstana çıxsınmı?
Tutub dəstində sağər, mey içib , məstana çıxsınmı?
Mənim bu çeşmi cəlladım baxıb hər yana çıxsınmı?
Olur qəttalı canım, məhvəşim cövlana çıxsınmı?

Məyə dəşti-cənan olmuş yinə təklifdən aləm,
Açılmış papuçıl, şəbnəm, səmən, nəsrin olub xurrəm.
Gül ətrafında durmuş lalə vü nərgis , sünbül həm,
Açıb qönçə yaxasın, bərgi-əxzərdən çıxıb hər dəm.
Görüb bulbul camalın sübhidən əfqana çıxsınmı?

Fələk bu dövridən bir eyşü işrət aşikar eylər,
Çıxıbdır afitab , amma cahanı mürg zar eylər.
Gecə məhtab nurilə kəvakib iştihar eylər,
Nəsimi-sübhi-sadiq yüz durri-şəbnəm nisar eylər.
Ərəqçin çin düzüb bərgi-güli , xəndana çıxsınmı?

Zamana san verib, olmuş havada mö`tədil peyda,
Yetərmiş zinətin gülzara kim, ol çərxi bihəmta.
Dirəxti-istiqamət üzrə gördü ruzigar amma,
Mürəttəb eylədi bir bəzmi-gülşən kim, behişt asa.
Olub huri-sifət saqi, sönüb peymana, çıxsınmı?

Onunçün nameyi əmala nuşvü nama yetmiş,
Şükür bu könlümə sidqü təriqətdən hidayətmiş.
Təbib qılmış dava dərdimə, həm zikrü şəfa yetmiş,
Bihəmdüllah mənə hatif tərəfdən bir nida yetmiş.
Gərək .zəhmət çəkib bu **Şövqi**, bir asana çıxsınmı?

بهار ایامی کل کلدی پریم سیرانه چخسونمی
افقدن کُون کمی یُوز کوستروب کلستانه چخسونمی
دُوُتوب دستنده ساغر می ایچوب مستانه چخسونمی
منم بو چشم جلادیم باخوب هریانه چخسونمی
اوُلور قتال جانیم مهوشیم جولانه چخسونمی

مکر دشت جنان اوُلمش کنه تکلیفدن عالم
آچلمش پاپوچل شبوُ سمن نسرین اولوب خرم
کل اطرفنده دورمش لاله و نرکس سنبل هم
آچوب غنچه یخاسین برک اخضردن چخوب هر دم
کوروب بلبل جمالین صبحدن افقانه چخسونمی

فلک بو دَوریدن بر عیش عشرت آشکار ایلر
چیخوپدور آفتاب اما جهانی مرغ زار ایلر
کیجه مهتاب نوریلن کواکب اشتهار ایلر
نسیمی صبح صادق یوز دُری شبنم نثار ایلر
عرق چین چین دوزیب برک کلی خندانه چخسونمی

زمانه سان ویروب اولمش هواده معتدل پیدا
یترمش زینتین کلزاره کیم اول چرخ بی همتا
درختی استقامت اوزره کوردی روزکار اما
مرتب ایلدی بر بزم کلشن کیم بهشت آسا
اولوب حوری صِفت ساقی صونوب پیمانه چخسونمی

آننکچون[۱] نامة اعماله نشو نُما یتمش
شکر بو کونکلیمه صدق طریقتدن هدایتمش
طبیب قلمش دوا دردیمه هم ذکرُ شفا یتمش
بحمدالله بنکا هاتف طرفدن بر ندا یتمش
کرک زحمت چکوب بو **شوقی** بر آسانه چیخسونمی

---

[۱]. ألیازمادا بو سؤزون اوستونده «موخر» یازیلمشدیر.

Dila dünyada kamınca zi eyşü işrət etdin, tut,
Suleymani zamandan bilməsəl sitvətdə ötdün,tut.
Edib təsxir cümlə aləmi ,məqsuduna yetdin, tut,
Tilismi gənc üçün min ismi əzəm yad tutdun,tut.
Tilismi sındırıb, gənci töküb, ismi unutdun, tut.

Könül bəzmi tərəb şüridə qövğasın çıxar başdan,
Müsəlsəl kakuli zülfün mütərrasın çıxar başdan.
Səmənbər saqilər zövqilə sevdasiın çıxar başdan,
Töküb , mey camını tutmaq təmənnasın çıxar başdan.
Yukuş qanlar töküb, aləmdə çox xunabə  utdun, tut.

Yıxar səbrin evin bir gün hilal əbrulərin taqi,
Pərişanlıq tapar gülbərgi tək, ol hüsnün övrağİ.
Çəkirsən zəhməti bica, verirsən badələr saqi,
Şərabi-nab-zövqundən nə hasil kim, dəyil baqi.
Riyazi ömrə min kəz su verib, axır qurutdun,tut.

Xəbər sor zal dünyada, nolur Keyxosrovi Rüstəm,
Feridun getdi hişmətlən, hanı Küştasbiəzəm.
Küdürətdən olub ayineyi İskəndəri dərhəm,
Çü ney Cəmşid bilmişdir bəqa keyfiyyətin ney Cəm.
Cəmi Cəmşid ilən bəzmində mey camın yürütdün, tut.

Qalıb şeşdarda **Şövqi**  təngdil olmuş məlalından,
Fləк bazisinin yox bir güşadi etidalından.
Olur agah sahib kəəbətin ol nəqşi xalından,
**Füzüli** qıl qiyas halın, əhli-nərd halından.
Qumarü məgrü təzviri sil əhlindən , utdun, tut.

دلا دُنیاده کامنجه ز عیش عشرت ایتدونک دوُت
سلیمان زماندن بالمثل سطوتده اوُتدونک دوت
ایدوب تسخیر جمله عالمی مقصوده یتدونک دوت
طلیسمی کنج ایچون بن اسم اعظم یاد دوتدونک دوت
طلیسمی سندروب کنجی توکوب اسمی اونوتدونک دوت

کونکل بزم طرب شوریده غوغاسین چخار باشدن
مسلسل کاکلی زلفنک مطراسین چخار باشدن
سمنبر ساقیلر ذوقیله سوداسین چخار باشدن
توکوب می جامینی دوتمق تمناسین چخار باشدن
یوکش قانلار توکوب عالمده چوخ خونابه یوُتدونک دوت

خار صبرنک اوین بر کون هلال ابرولرنک طاقی
پریشانلق تاپار کلبرکی تک اول حسننک اوراقی
چکرسن زحمت بیجا ویرورسن باده لر ساقی
شراب ناب ذوقندن نه حاصل کیم دکل باقی
ریاضی عُمره بن کز سوُ ویروُب آخر قروتدونک دوت

خبر صور ذال دنیاده نوُلور کیخسروی رستم
فریدون کتدی حشمتلن هانی کشتاسب اعظم
کُدورتدن اوُلوب آیینهٔ اسکندری درهم
چو نی جمشید بلمشدور بقا کیفیتین نی جم
جمی جمشید ایلن بزمنده می جامین یوُرتدونک دوت

قالوب ششدارده[1] **شوقی** تنکدل اولمش ملالندن
فلک بازیسنون یوخ بر کشادی اعتدالندن
اولور آکاه صاحب کعبتین اول نقش خالندن
**فضولی** قیل قیاس حالنک اهل نرد حالندن
قمار و مکر تزویری صیل اهلندن یودنک دوت

---

[1]. نرد اویونوندا چیخیلماز وضعییته دئییرلر، قفس ، تورمه ؛ بوگونگو دیلیمیزده داردا قلماق مورکب فعلی همین معنانی داشیییر.

Fələk hər dəmdə qeyri hökümət aşikar eylər,
Bu da səhdir , zamani münqəlib ta kidigar eylər.
Gəh ruz eyər, gah leylü , gəh nəhar eylər,
Vəli bir qaç dili-məcruhi eəncilə ki, xar eylər.
Təhəmmül qılsalar  qurin yinə pərvərdigar eylər.

Əyər bir kəs təriqi-mütəqim üzrə irad etsə,
Müdam şamü səhər yeydir həbibin dildə yad etsə.
Qubari-jəngidən ayineyi qəlbin səad etsə,
Qəza hər fərdə kim, cəmiyyəti-xatir murad etsə.
Onun memari bəxtin daima hüsnü hisar eylər.

Cahan mülkin fəna bilsən , əyər bir kimsədir aqil,
Könül üqbaya bağlar sidqilə , arif olan kahil.
Umurin küliya məbüdinə təslim edər hasil,
Qılır nakam olan hər kimsəni məqsüdə bir vasil.
Vəlakin bir neçə müddət qərəz dər mandə zar eylər.

Varıb ixlas ilə kim, çəksə gər qəffarıdan minnət,
Olur əmrazıdan xali, yetişməz zatına illət.
Nə çəkməz çərxidən zəhmət, nə görməz dərdü qəm, möhnət,
Tutarsa pak qəlbin kim, yetər ol seyqəli rəhmət.
Münəvvər göstərir, dil güzküsün rəfi qubar eylər.

Dila gəl məst qılma özünü qiflət şərabından,
Götürmə dəstinə nüqlü məzə sixi-kababından.
Bəqa bəzminə gir, çıx bəzmi dəhrin bu xarabından,
Olur agah arif kimsə çərxin inqilabından.
Müdan **Şövqi**  riza hüsni-təvəkkül ixtiyar eylər.

فلک هر دمده غیری حکومت آشکار ایلر
بو دا صحدور زمانی منقلب تا کردکار ایلر
گه روز ایلر کاه لیل گه نهار ایلر
ولی بر قچ دلی مجروحی رنجیله که خار ایلر
تحمل قلسه لر غورین ینه پروردکار ایلر

اکر بر کس طریق مستقیم اوزره ایراد ایتسه
مدام شامُ سحر یکدرحببین دلده یاد ایتسه
غبار ژنکدن آیینة قلبین سعاد ایتسه
قضا هر فرده کیم جمعیت خاطر مراد ایتسه
آننک معمار بختین دآیما حسن حسار ایلر

جهان ملکین فنا بلسنک اکر بر کیمسه در عاقل
کونکل عقبایه باغلار صدقیله عارف اولان کاهل
امُورین کلیا معبودینه تسلیم ایدر حاصل
قلور ناکام اولان هر کیمسه نی مقصوده بر واصل
ولکن بر نچه مدت غرض درمانده زار ایلر

واروب اخلاصیله کیم چکسه کر غفاریدن منت
اولور امرازیدن[1] خالی یتشمز ذاتینه علت
نه چکمز چرخیدن زحمت نه کورمز دردُ غم محنت
دوُتارسه پاک قلبین کیم یتر اول صیقلی رحمت
منور کوسترور دل کوزکسین رفع غبار ایلر

دلا کل مست قلما اوزنکی غفلت شرابندن
کوتورمه دستنکا نُقل مزه سیخ کبابندن
بقا بزمینه کیر چخ بزم دهرنک بو خرابندن
اولور آکاه عارف کیمسه چرخنک اینقلابندن
مدام **شوقی** رضا حسنی توکل اختیار ایلر

---

[1]. امراض

Fəzayi-eşqidə divanəyi Məcnun misalam mən,
Yetib bir Leyliveş pabusuna kim, payimalam mən.
Yanar şəmi-ruyin dövründə cismim infialam mən,
Onunçün bəzm ara ənduh ilə şüridə halam mən.
Qədəh ver saqiyi dövran, xumar içrə məlalam mən.

Zehi Fərhadi nadan , eşqidən cam içməmiş əsla,
Çəkib nəqşin vurub , məşüqinə qılmış rəqib peyda.
Fəribi nəqşilə Şirin həm, qəsr eyləmiş sevda,
Mənə olmaz cununluq babda səd kuhkən həmta.
Fəzayi eşqidə divaneyi (Məcnun)[۱] misalam mən.

Bugün dildardan ayrı yaxar canım şəbi-hicran,
Fəraqi-nari-duzəxdən vucudum daqilən yeksan.
Təmənnayi vüsala yetməyə , dövr eylərəm hər yan,
Düşüb səhralara çün Qeys tək mən didəsi giryan.
Yetib bir Leyliveş pabusuna kim, payimalam mən.

Sirişkimlə mükəddər xatirimdən dəf olunmaz qım,
Yəqindir ki, nəm ayinədən jəngarı qılmaz kəm.
Dilim sevdayi eşqində sübat ilə durub möhkəm,
Qərəz dur olmadım pərvanətək yandıqca kim, mərhəm.
Yanar şəmi-ruyin dövründə cismim infialam mən.

Çal indi mütriba səmturini , sövti-nəva etsin,
Büzürgü küçəkə təsir edib, (can) fəzay etsin.
Verib arayişi söhbət, evin behcətsəra etsin,
Bəzət bir məclisi rəngin , könül zövqü səfa etsin.
Onunçün bəzm ara əndüh ilə şüridə halam mən.

Müğənilər xoş avazilə söylər , əldə tutmüş çəng,
Quşi bankilə yetib ahimin dilsuzuna ahəng.
Ləbin tərhin görüb, meyxanada badəylə etdim cəng,
Nigarın ləli-nabın **Şövqiya** sun mey kimi gülrəng.
Qədəh ver saqiyi dövran, xumar içrə məlalam ləm.

---

[۱] əlyazmada Məcnun sözü düşübdür.

فضای عشقده دیوانهٔ مجنون مثالم من
یتؤب بر لیلی وش پابوسینه کیم پایمالم من
یانار شمع روینک دورنده جسمم انفعال من
آننکچون بزم ارا اندوهله شوریده حالم من
قدح ویر ساقی دوران خمار ایچره ملالم من

زهی فرهاد نادان عشقدن جام ایچممش اصلا
چکوب نقشین وُروب معشوقینه قلمش رقیب پیدا
فریب نقشیله شیرین هم قصر ایلمش سودا
بنکا اولمز جنونلق بابده صد کوهکن همتا
فضای عشقده دیوانهٔ (مجنون) مثالم من

بکون دلداردن آیرو یاخار جانیم شب هجران
فراقی نار دوزخدور وجودیم داقلن یکسان
تمنای وصاله یتمکه دور ایلرم هر یان
دوشوب صحراله چون قیس تک بن دیده سی کریان
یتوب بر لیلی وش پابوسینه کیم پایمالم من

سرشکمله مکدر خاطرمدن دفع اولونمز غم
یقیندور که نم آینه دن ژنکاری قلمز کم
دلم سودای عشقنده ثباتیله دوروب محکم
غرض دور اولمنم پروانه تک یاندوقجه کیم مرهم
یانار شمع روینک دوریندە جسمم اینفعالم من

چال ایمدی مطربا سمطورینی[1] صوت نوا ایتسون
بزرکی کوچکه تعثیر[2] ایدوب فضای ایتسون
ویروب آرایشی صحبت اوین بهجت سرا ایتسون
بزت بر مجلس رنکین کونکل ذوق صفا ایتسون
آننکچون بزم ارا اندوهیله شوریده حالم من

مغنیلر خوش آوازیله سولر الده دوتمش چنک
قوشی بانکیله یتوب آهمنک دلسوزنه آهنک
لبنک طرحین کوروب میخانه ده باده ایله ایتدم جنک
نکارنک لعل نابین **شوقیه** صون می کمی کل رنک
قدح ویر ساقی دوران خمار ایچره ملالم من

---

[1]. سنتورینی
[2]. تأثیر

Mənim gülzar içində sərvidən yey bir nahalım var,
Sanasan bağ cənnətdə qədi-tuba misalım var.
Əcəb huriliqadır , ləblərində qəndü balım var,
Dəhanı şəkkərdir ki, dürcündə zülalım var.
Təfaxür qıl könül bir tutiyi şirin məqalım var.

Alıbdır arizin dövrəsin bu türrə-gisu,
Salıbdır fitnələr həm aləmə ol, gözləri-cadu.
Ləbi yaqutdur güya, sərasər dişləri incu[۱],
Cəm olsa aləmin məhbübəsi, olmaz belə ru.
Ziyalanmış rüxi gülgün, müzəyyən rəngi-alım var.

Müənbər zülfləri Çin mülkünə göstərdi yüz möhnət,
Qoyub Kavusi Hind əhli edəllər xalına ülfət.
Xəta etməz Xütən çəksə ol ahu-gözlüdən minnət,
Xidəngi- qəmzəsi vəhmindən həm aləm çəkər zəhmət.
Cahanı kəc qılıbdır qaşları ,çün qəddi-dalım var.

Könül dünyadi qəddarın budur rəsmi, deyim mən həm,
Əzəl şad eylər ol bir kimsə, sonra verər yüz qəm.
Bu çərxi-kəcrunın hərgiz binasın görmədim möhkəm,
Bir iş yetsə kamala , ta fələk təkrar edər hər dəm.
Deyər dana yesin , bil kim, mənim axır zəvalım var[۲].

Dili ixlası **Şövqi** qadiri yektaya verdim mən,
Dəru məqsuddan ol xalıqım bir kəz aça rövzən.
Müradım bağçasından gül dərim, qəlbim ola rövşən.
Könül Yəqubvəş səbr et, yetərsən Yusifə kim, sən.
Çək çahi-məzəllətdən , mənim bir zövcəlalım var.

---

۱. bu söz qafiyə pozulmaması üçün belə yazılıbdır.
۲. bu misradan qabaq (Deyər ixlas Şövqi) yazılıb,ancaq üstündən xət çəkilibdir.

بنم کلزار ایچنده کرویدن[۱] یک بر نهالیم وار
سناسن باغ جنتده قدی طوبی مثالم وار
عجب حوری لقادر لبلرینده قند بالیم وار
دهانی شکردور که درجنده ذلالیم وار
تفاخر قیل کونکل بر طوطی شیرین مقالیم وار

آلوپدور عارضنک دوره سین بو طرّۀ کیسو
سالوپدور فتنه لر هم عالمه اول کوزلری جادو
لبی یاقوتدور کویا سراسر دیشلری اینجو
جم اولسه عالمنک محبوبه سی اولمز بیله رو
ضیالنمش رخی کلکون مزین رنک آلیم وار

مُعنبر زلفلری چین ملکنه کوستردی یوز محنت
قویوب کاووسی هند اهلی ایده للر خالینه الفت
خطا ایتمز خُطن چکسه اول آهو کوزلودن منت
خدنکی غمزه سی وهمندن هم عالم چکر زحمت
جهانی کج قلوپدور قاشلری چون قدّی دالیم وار

کونکل دنیایی غدارنک بودر رسمی دییم من هم
ازل شاد ایلر اول بر کیمسه صنکره ویرور یوز غم
بو چرخ کجرونک هرکز بناسین کورمدیم محکم
بر ایش یتسه کماله تا فلک تکرار ایدر هر دم
دیر دانا یسون بیل کیم بنم آخر ذوالیم وار[۲]

دلی اخلاص **شوقی** قادر یکایه ویردیم من
درُ مقصوددن اول خالقیم بر کز آچه روزن
مرادیم باغچه سندن کل درم قلبیم اولا روشن
کونکل یعقوب وش صبر ایت یترسن یوسفه کیم سن
چکر چاه مذلتدن منم بر ذوالجلالیم وار

---

[۱]. بو سؤز «سرویدن» اولمالیدیر. ایملا سهویدیر.
[۲]. بو میصراعدان اول (دیر اخلاص شوقی قا ) سونرا سیلینیبدیر.

Bu könlüm razi-eşqin səndə əqlam eylərəm kağaz,
Səni dil mülkünə həm sər müdam eylərəm kağaz.
Çəkib rüxsarına xətt, müşkilə fam eylərəm kağaz,
Yazıb inşayi əhvalım səhər ya şam eylərəm kağaz.
Yetir dildara sən əlbəttə piqam eylərəm kağaz.

Yetişdin dəst-bus et, həm ingari xanü man içr.,
Açıb xəm qəddini rast eylə ox kimi Kaman içrə.
Fəsahət birlə söyləş sirrini , üşşaqi zəban içrə,
Dilim əxfayi əsrarına məhrəmsən cahan içrə.
Səni könlüm pəsənd etmiş , dil aram eylərəm kağaz.

Yetib xosrovi-xubana , ərzim cümlə izhar et,
Bəyani-müdəami hər zaman kuyində təkrar et.
Üzülməz damənindən dəstimiz, sidqilə iqrar et,
Dönüb mənzilgəhin , bad ilə cananım xəbərdar et.
Demiş dilbər  mühimmatın ki, elam eylərəm kağaz.

Edib ovsafi-mədhin dildə **Şövqi** , olmuşan agah,
Nə hikmətdir Səmərqəndi , Buxaraya olubsan şah.
Çəkib kilki-qəza ovrağına sirri kəllam-ullah,
Bu vəchilən sən oldun könlümə hər karıda həmrah.
Əməl dəsturuna daim sərəncam eylərəm kağaz.

بو کونکلیم راز عشقین سنده اقلام ایلرم کاغذ
سنی دل ملکنه هم سر مادام ایلرم کاغذ
چکُوب روخسانکا خط مشکیله فام ایلرم کاغذ
یازُوب انشای احوالیم سحر یا شام ایلرم کاغذ
یتر دلداره سن البته پیقام ایلرم کاغذ

یتشدونک دست بُوس ایت هم نکاری خان مان ایچره
آچُوب خم قدنکی راست ایله اُوخ کمی کمان ایچره
فصاحت برله سولش سرّی عشّاقی زبان ایچره
دلیم اخفایی اسرارینه محرمسَن جهان ایچره
سنی کونکلم پسند ایتمش دل آرام ایلرم کاغذ

یتوُب خسروی خُوبانه عرضیم جمله اظهار ایت
بیان مُدّعامی هر زمان گُوینده تکرار ایت
اوُزیلمز دامنیندن دستمز صدقیله اقرار ایت
دُونوب منزلکهنک باد ایله جانانیم خبردار ایت
دیمش دلبر مُهمّاتین که اعلام ایلرم کاغذ

ایدُوب اَوصاف مدحنک دلده **شوقی** اولمشم آکاه
نه حکمتدُور سمرقندی بُخارایه اُولوبسان شاه
چکوُب کلک قضا اوراقنکا سرّ کلام الله
بو وجهیلن سن اوُلدونک کونکلیمه هر کاریده همراه
عمل دستورنکا دآئم سرانجام ایلرم کاغذ

Səba hər dəm yetir razi-dilim cananıma bir-bir,
Neçün kim, vaqifi-əsrarsan , pünhanıma bir-bir.
Yetəndə ərz qıl əhvalımı sültanıma bir-bir,
Bəla navəkləri sancılmış amma canıma bir-bir.
Xəbər ver qəmlərim ta cümləsin yaranıma bir-bir.

Mənəm qürbət diyarında çəkən yüz möhnət-hicran,
Çəkilmiş daği firqət köksümə, yandım ərəz buryan.
Bəsa çeşmim yaşın gəl bağla cana , etməsin tüğyan,
Açılsa mövci seylaba verir bu aləmi yeksan.
Dolubdur əşki-purxun , dideyi giryanıma bir-bir.

Şikəstə xatirəm kim, möhnətim günügündən əfzündur,
Onunçün bu ciyər pərkaləsi qafu , əlif , nundur.
Olubdur həmrəhim vəhşi, məkanım dəştü hamundur,
Uşaqlar düşmüş ardıncan, deyəllər qoyma məcnundur.
Atarlar  taxta, daşın , təni-uryanıma bir-bir.

Fələk qılmış məni avara , güya imtahan eylər,
Dəmadəm kuhü səhra gəzdirib, halım yaman eylər.
Yıqılmış başım üzrə , tayeri-quds aşiyan eylər,
O fikrət günü-günü yıxdı , dil mülkün,viran eylər.
Qonubdur cüğdlar kulbeyi-əhzanıma bir-bir.

Dila bir kimsənə daim cahanda şadkam olmaz,
Uleyman mülkünü heç kim tutub, qaim-maqam olmaz.
Könül bu aləmi suflada bil hərgiz davam olmaz,
Təməəa eylə üqba , zövqi-dünya müstədam olmaz.
Müqəssirsən dua qıl **Şövqiya** subhanıma bir-bir.

صبا هر دم یتؤُر رازی دلیم جانانمه بربر
نیچونکیم واقف اسرارسن پُنهانمه بربر
یتنده عرض قیل احوالمی سُلطانمه بربر
بلا ناوُکلری سانجلمش امّا جانمه بربر
خبر ویر غملریم تا جُمله سین یارانمه بربر

منم غربت دیارنده چکن یُوز محنتی هجران
چکلمش داغ فرقت کوکسمه یاندیم عرض بریان
بسا چشمم یاشین گُل باغله جانا ایتمسنک طغیان
آچلسه موجی سیلابه ویرُور بُو عالمی یکسان
دولؤپدور اشک پُر خون دیدهٔ کریانمه بربر

شکسته خاطرم کیم مُحنتم کونکوندن افزوندور
آننکچون بو جکر پُرکاله سی قاف الف نوندور
اوُلوپدور همرهیم وحشی مکانیم دشت هاموندر
اوشاقلر دُوشمش آردمجن دِیَللر قویمه مجنوندر[1]
اتالّار تخته داشین تنی عریانمه بربر

فلک قلمش بنی آواره کویا امتحان ایلر
دمادم کوه صحرا کزدرؤب حالم یمان ایلر
یقلمش باشیم اوزره طآئر قدس آشیان ایلر
او فکرت گُونه یخدی دل مُلکین ویران ایلر
قونوپدُور جغدیلر کلبهٔ احزانمه بربر

دلا بر کیمسنه دآئم جهانده شادکام اولمز
سُلیمان مُلکنی هیچ کیم دوُتوب قآئم مقام اولمز
کونکل بو عالمی سفلیده بیل هرکز دوام اولمز
تمنّا ایله عقبا ذوق دُنیا مستدام اولمز
مقصرسن دُعآ قیل **شوقیا** سبحانمه بربر

---

[1]. مجنون سؤزو بورادا هم «دلی» هم ده عاشیق اولان «مجنون»-نو بیلدیریر.

Gəl ey mehri-cahanara sənin tək məh cəbin olmaz,
Camalından ki, pətöv almayan ruyi-zəmin olmaz.
Rüxün dövründə filfil xalların tək ənbərin olmaz,
Bu hüsnilə sənə həmta şəha Xosrövi-Şirin olmaz.
Mühəqəgdir mənə aləmdə səntək nazənin olmaz.

Saçın dövründə sünbüldür yanağın bir gülüstandır,
Yaraşır rüyüna xəttin , əcayib bərgi-rehandır.
Qaşın bir qibleyi-aləm , üzün xurşidi-rəxşandır,
Dəhanın höqqeyi mərcan , ləbin ləli-Bədəxşandır.
Fələk dürcündə goftarın kimi dürri-səmin olmaz.

Tutub gül arizin hicrində dil-ayinəsi jəngi,
Fəqandan əbsəm etmiş bülbüli şüridə diltəngi.
Çəkər şamü səhər səd naleyi dilsuz ahəngi,
Dərində səfəraz et mən kimi üşşaq yekrəngi.
Ona həmta cahanda bir qulami kəmtərin olmaz.

Qalıb hicran evində , könlüm dərdimən olmuş,
Yanar vəslin dilər eşq oduna , güya pəsənd olmuş.
Salıbsan boynuma ey şüx, çin-türrən kəmənd olmuş,
Düşüb gisülərin damına dil-mürği , nə bənd olmuş.
Müsəlsəl zülfünə bənzər , daha həblül-mətin olmaz.

Edərsən **Şövqiyi** biçaraya çox zülm , usanmazsan,
Dəmadəm şərhi-qəm qıllam ona, bir ləhzə qanmazsan.
Salıb nəzzarəyə səftə mənə, halıma yanmazsan,
Pərişan hali, sərgiranlığım görsəm inanmazsan.
Sual et kakulindən kim, onun tək şanəbin olmaz.

کل ای مهر جهان آرا سننک تک مَه جبین اولمز
جمالنکدن که پرتو آلِمین رویی زمین اولمز
رخنک دوریندە فلفل خاللرنک تک عنبرین اولمز
بوسنکا همتا شها خسرو شیرین اولمز
مُحققدُر بنکا عالمده سن تک نازنین اولمز

ساچنک دَورنده سنبلدُور ینکاغنک بر کلستاندر
یراشُور روُینکا خطنک عجایب برک ریحاندر
قاشنک بر قبلة عالم یُوزنک خورشید رخشاندور
دهاننک حُقة مرجان لبنک لعل بدخشاندور
فلک درجنده کفتارنک کمی دُرٌّ ثمین اولمز

دُوتوُب کُل عارضنک هجرینده دل آیینه سی ژنکی
فقاندن اَبسم ایتمش بلبل شوریده دلتنکی
چکر شام سحر صد نالة دلسوز آهنکی
درنکده سرفراز ایت بن کمی عشّاق یکرنکی
آنکا همتا جهانده بر غلام کمترین اولمز

قالُوب هجران اوینده کونکلم دردمند اولمش
یانار وصلنک دیلر عشق اوُدینه کویا پسند اولمش
سالوپ سن بُوینمه ای شوخ چین طرّنک کمند اولمش
دوشوب کیسولرنک دامینه دل مرغی نه بند اولمش
مسلسل زلفنکا بنکزر دخی حبل المتین اولمز

ایدرسَن **شوقی** بیچاره چوخ ظلم اوصانمزسن
دمادم شرح غم قِلُم آنکا بر لحظه قانمزسن
سالُوب نظارة سفته بنکا حالمقه یانمزسن
پریشان حال سر کرانلقیم کورسم ینانمزسن
سُوال ایت کاکلندن کیم آننک تک شانه بین اولمز

Nə xoşdur gülşən içrə yarilən gəzmək səbalarda,
Tutub ondan birəşmək vəslinə behcət səralarda.
Ləbaləb , sinə həm bər sinə, qol gərdən-minalarda,
Çəkib ağuşa bir dəm , zövqilə etmək səfalarda.
Əcəbdir xaba varmaq , olzaman zərrin qəbalarda.

Dönüb avmaq gərək , xabi-nəzakətdə ayağından,
Yuxudan göz açan dəm , yanda baxmaq sol , sağından.
Görəndə çin-çin olmuş zülfləri , düşmüş buxağından.
Öpüb sibi-zənəx , ləb , busələr almaq yanağından.
Rüsümi –rəsmi adətdir qədimi aşınalarda.

Sevər aşıq olan məşüqəsin, məh-ru nigar eylər,
Möhəbət dəmbədəm olmaq, arada aşikar istər.
Dilər əsmari-cənnət sədrinin bağın arar istər,
Könül kölsündə görmüş , xəstəhal olmuş anar istər.
Tapallar xəstələr dərdə dəva istər.

Ziyasından görünməz vəchinin mehri-cahan ara,
Olur pünhan məhi-taban, cəbinin görsə kim, hala.
Çəkib kelki-qəza qovsu-qəzəh əbruların tuğra,
Gər olsam qaşının payına qurban, kim deyər bica.
Dəyil bihüdə can vermək  könül , bu müddəalarda.

Qoyubdur **Şövqını** bu xəstə -çeşminin dil arasında,
Müjən bağrın dələr, qəmzən tutar çəngal arasında.
Gözüm ruyunda gördün bir siyəhrəng dil arasında,
Bənövşə hədini kəs , qoyma zülfi hal arasında.
Kəsilir başı tamamən , əyər gəzsə aralarda.

نه خوشدور کلشن ایچره یاریلن کزمک صبالرده
دُونوب آندان برشمک وصلنه بهجت سرالرده
لباللب سنه هم بر سینه قول کردن مینالرده[۱]
چکُوب آغوشه بر دم ذوقیلر ایتمک صفالرده
عجبدر خابه وارمق اولزمان زرّین قبالرده

دوُنوب آومق کرک خابُ نزاکتده آیاغندن
یُوخودن کوُز آچن دَم یکدو باخمق صول ساغندن
کوُرنده چین چین اولمش زلفلری دوشمش بوخاقندن
اوُپوُب سیب زنخ لب بوسه لر آلماق ینکاغندن
رُسوُمی رسم عادتدور قدیمی آشنالرده

سُور عشاق اولان معشوقه سین مه رو نکار ایلر
محبت دمبدم اولمق اراده آشکار ایستر
دیلر اثمار جنّت صدرننک باغین آرار ایستر
کونکل کوُکُسنده کورمش خسته حال اولمش انار ایستر
تاپالّار خسته لر درده دوا دارالشفالرده

ضیاسندن کورنمز وجهننک مهری جهان آرا
اولور پنهان مه تابان جبینین کورسه کیم حالا
چکُوب کلک قضا قوس قذح ابروُلرین طُغرا
کر اوُلسم قاشیننک یایینه قربان کیم دیر بیجا
دکل بیهوده جان ویرمک کونکل بو مدعالرده

قویوپدور **شوقنی** بو خسته چشمنک دل اراسنده
مژنک باغرین دلر غمزنک دوُتار چنکال اراسنده
کوزیم روینده کوردنک بر سیه رنک دل اراسنده
بنفشه حدینی کس قویمه زلف حال اراسنده
کسلوُر باشی تمامنک اکر کزسه ارالرده

---

[۱]. ألیازمادا بو میصراع یازیلیب «دُونوب آندان برشمک وصلنه بهجت سرالرده» آنجاق حاشیه ده دوغرو میصراع علاوه اولونوبدور.

Bəklədim məscidü mənbərdə bir əla cahı,
Oldu könlüm ol zaman zühdü riya həmrahı.
Dil təsəvvüfdə ikən mükdə yetib nagahı,
Səhərəm hatifi-meyxana be dövlətxahi.
Güft bazay ki, dirineyi in dərgahi.

Sən daha əhli-vərəə məclisinin zövqin unut,
Saliki-rah oluban , piri-muğan deyrini tut.
Bu təriqətdə ki, hüşyar ola kor , etmə süküt,
Həmçü cəm cüreyi ma keş ki, zi-seyri mələküt.
Cami-cahanbin dəhədət agahi.

Ey gözüm etmə qəbul , hər neçə nasih verə pənd,
Edə kor ləli-kövhər tək , bu sözü guşinə bənd.
Tut ki, həmdəm özünə rindləri eylə pəsənd,
Bər- dəri- meykədə rindani-qələndər başənd.
Ki, sitanənd , dəhənd əfsəri-şahənşahi.

Sənə bu çərx cəfa etsə könül, olma xəcil,
Çəkmə bu şüğla təəsüf , mənəm əlbəttə kəfil.
Gəzmə dövründə bəsi qəmli , bu fəqr içrə zəlil,
Əgərət səltənəti fəqr bebəxşənd , ey dil.
Kəmtərin mülki tu , əz mah bovəd ta mahi.

**Şövqiya** taəti naqislə umarsan hər bar,
Qərəzin bu , yetəsən mətləbinə çarnaçar.
İki dünyada xudadan dilədin leylü nəhar,
Hafizi xam - təmə şərm əzin qissə bedar.
Əmələt çist ki, müzdəş du cahan mixahi.

بکلدیم مسجد منبرده بر آعلا جاهی
اولدی کونکلم او زمان زهد ریا همراهی
دل تصوفده ایکن مژده یتوب ناکاهی
سحرم هاتف می خانه بدولت خواهی
کفت باز آی که دیرینة این درکاهی

سن داخی اهل ورع مجلسننک ذوقین اوُنوت
سالکی راه اوُلوُبان پیر مغان دیرینی دوُت
بو طریقتده که هوشیار اولا کُور ایتمه سکوت
همچو جم جرعة ما کیش که ز سیر ملکوت
جام جهان بین دهدت آکاهی

ای کوزیم ایتمه قبول هر نچه ناصح ویره پند
ایده کور لعل کوهر تک بو سوزی کوشکا بند
دوت که همدم اوزنکا رندلری ایله پسند
بر در میکده رندان قلندر باشند
که ستانند دهند افسر شاهنشاهی

سنکا بو چرخ جفا ایتسه کونکل اولمه خجل
چکمه بو شغله تأسف منم البته کفیل
کزمه دورنده بسی غملو بو فقر ایچره ذلیل
اکرت سلطنت فقر ببخشند ای دل
کمترین ملک تو از ماه بود تا ماهی

**شوقیا** طاعت ناقصله اوُمارسان هر بار
غرضنک بُو یته سن مطلبنکا چارناچار
ایکی دنیاده خدادن دیله دنک لیل نهار
حافظ خام طمع شرم ازین قصه بدار
عملت چیست که مزدش دو جهان میخواهی

Gəldi gülzara bugün dilbəri pakizə şim,
Bağı şadilərinin mənzilinə basdı qədəm.
Dəhənin görkəc ağız açdı , dedi qönçə nəəm,
Əndəlib eylədi minğarını vəsfində qələm.
Mədhi rüxsarın edib, gül vərəğin etdi rəqəm.

Sübh nəzzarə salıb gülşənə, xub etdi nigah,
Baxdı gülruyuna , heyrətdə qalıb, çəkdi həm ah.
Gəldi çakirlər , olub pabusuna səbzə, giyah,
Nərgisi məstixərab eylədi bu çəşmi siyah.
Zülfi-sünbülləri aşüftə qılıb , qoymadı cəm.

Seyqəl etmiş yinə məşateyi-təqdir  özünə,
Qaşına vəsmə çəkib, kəhli-cəvahir gözünə.
Tuti heyran qala , söyləşə bu şirin sözünə,
Lalə həsrət çəkər , əhmər görübən arizinə.
Baş əyib xəttinə bənövşə, qədin eylədi xəm.

Saqi sun badəni , fövt eyləmə , fürsət bilirəm,
Bu günün eyşini , əlbəttə qənimət bilirəm.
Yemə fərda qəmini , çəkməyə zəhmət bilirəm,
Dövri-sabiqdə keçən dəmləri möhnət bilirəm.
Dəm budur, zövq edəlim, vurma keçən dəmdən dəm.

**Şövqi** mədhində sənin söylədi əzbər kimi söz,
Yetə sərrafına əlqissə bu gövhər kimi söz.
Ləblərindən tökülür qəndi-mükərrər kimi söz,
Var zəbanında əcəb badeyi-kövsər kimi söz.
Kəbə kuyin dedilər kim, dəhənindir zəmzəm.

کلدی کلزاره بگُون دلبر پاکیزه شیم
باغ شاهدلرینک منزلنه باسدی قدم
دهنین کورکج آغز آچدی دیدی غنچه نعم
عندلیب ایلدی منقارینی وصفنده قلم
مدح رخسارین ایدوب گُل وره قین ایتدی رقم

صبح نظاره سالوب کلشنه خوب ایتدی نکاه
باخدی کل روینه حیرتده قالوب چکدی هم آه
کلدی چاکرلر اولوب پابوسنه سبزه کیاه
نرکسی مست خراب ایلدی بو چشم سیاه
زلف سنبللری آشفته قلُوب قُویمدی جم

صیقل ایتمش کنه مشاطهٔ تقدیر اوزینه
قاشنه وَسمه چکوب کحل جواهر کوزینه
طوطی حیران قالو سولشسه بو شیرین سُوزینه
لاله حسرت چکر احمر گُوریین عارضینه
باش اکوُب خطینه بنفشه قدین ایلدی خم

ساقی صُونک باده کی فوت ایلمه فرصت بلورم
بو کوننک عیشنی البته غنیمت بلُورم
یمه فردا غمنی چکمه که زحمت بِلوُرَم
دَور سابقده کیچن دملری مُحنت بلُورم
دم بودور ذوق ایده لیم اوُرمه کیچن دمدن دم

**شوقی** مدحنکده سننک سویلدی از بر کمی سوز
یته صرافنه القصه بو کوهر کمی سُوز
لبلرنکدن توکولور قند مکرّر کمی سُوز
وار زباننکده عجب بادهٔ کوثر کمی سُوز
کعبه کوینک دیدیلر کیم دهننک در زمزم

Sənəma qönçeyi güldür dəhənin , gəl güli aç,
Ahu gözlüm bu Xəta mülkün alıb, kabuli aç.
Çinü Maçindədi zülfün girehi, müşkili aç,
Xətt-ruyin tutb Hind əhli, qır kakuli aç.
Söylə Üşşaqi nəva-səncilə , şirin dili aç.

Növbahar oldu, bəzəndi yinə səhralar əcəb,
Gül pərim bağıda seyr eylə , təmaşalar əcəb.
Görünür sərvi-səmən-qamət , rənalar əcəb,
Aldı çehrən ,çevirib zülfi kəcnəmalar əcəb.
Şanə çək tellərinə, ruyi-siyəh-sünbüli aç.

Dur nəzər eylə bu gülzarıda bir dəm çəmənə,
Gör nə rəngin bəzənib, lalə girib pirhənə.
Dəyər ol badi-səba qönçeyi- şirin- dəhənə,
Ki, verir beylə zinət , güli-Xosrov-bədənə.
Onu xar eylə , üzün göstər , o babi-güli aç.

Baği-şahidlərinə hilm ilə xəşmin göstər,
Sərvi-qəddin yinə bu sünbülə göstər.
Nərgisi-məsti-xarab ilə ki, çeşmin göstər,
Bu könül mürğünə bir gül kimi hüsnün göstər.
Səni mədh eyləməyə ləhcəsi xoş aç.

Eylə nəzzarə gözüm  mahi-münəvvər üzünə,
Şəbnəm əncüm kimi amma düzülüb tər üzünə.
Baxdı xurşidə ziya saldı müdəvvər üzünə,

صنما غنچهٔ کلدور دهننک گُل کلی آچ
آهو کوزلیم بو خطا ملکین آلوب کابلی آچ
چین ماچنده دوُ زلفنک کرهی مشکلی آچ
خط روینک دوتوب هند اهلنی قیر کاکلی آچ
سوله عشاق نوا سنجیله شیرین دلی آچ

نوبهار اولدی بزندی کنه صحرالر عجب
کل پریم باغیده سیر ایله تماشالر عجب
کورونور سرو سمن قامت رعنالر عجب
آلدی چهرنک چوُروب زلف کج نمالر[1] عجب
شانه چک تللرینه رویی سیه سنبلی آچ

دور نظر ایله بو کلزاریده بر دم چمنه
کور نه رنکین بزه نوب لاله کیرُوب پیرهنه
دکر اوُل باد صبا غنچهٔ شیرین دهنه
که ویرُور بویله زینت گُلی خسرو بده نه
آنی خار ایله یوُزنک کوستر اوُ باب گُلی آچ

باغ شاهدلرینه حلمله خشمنک کوستر
سروه قدهّنک کنه بو سنبله زلفنک کوستر
نرکس مست خراب ایله که چشمنک کوستر
بو کونکل مرغنه بر کل کمی حسننک کوستر
سنی مدح ایلمکه لهجه سی خوش آچ

ایله نظاره کوزیم ماه منور یوزینه
شبنم انجمکمی اما دوزلوب تر یوزینه
باخدی خورشیده ضیا سالدی مدوّر یوزینه

---

[1]. ألیازمادا بو سوٚز بیرلشیک اولاراق « کنجمارلر» کیمی یازیلیبدیر.

Payi muriçeyi xətt gəldi ki, dilbər üzünə.
Al o miqrazi könül, kəs başını hayili aç.
Ey Kaman-əbru qılıb sinəmi ol qəmzən hədəf,
Düzülüb sədrimə ləşkər kimi müjganları səf.
Basdı bağrın ki, peykani-dil tutdi şərəf,
Mənə göstər üzünü , ey dişi dürr , ağzı sədəf.
**Şövqi** der , aşiqinəm könlümü əlhasili aç**.**

پای موریچة خط کلدیکه دلبر یوزینه
آل او مقراضی کونکل کس باشنی هایلی آچ
ای کمان ابرو قلوب سینمی اول غمزنک هدف
دوزیلوب صدریمه لشکر کمی مژکانلاری صف
باسدی باغرینه که بیکانکی دل دوتدی شرف
بنکا کوستر یوزنکی ای دیشی دُر آغزی صدف
**شوقی** دیر عاشقنکم کونکلمی الحاصلی آچ

Sənəma mehri-rüxün şəşəə saldı qəsirə,
Hüsnün avazı Hələbdən daha getdi Misirə.
Zülfi-zəncirinə girdim , halım oxşar yəsirə,
Bugün ey şüxi-cəfapişə gəlibsən əsirə.
Könlüm almaq dilədin bədi xərabi bəsirə.

Arizin əhmər gül , zülfün olub ənbərfam,
Can verir  könülü , üşşaq edəcək olsa məqam.
Müldə ver sübhi-nəsim əhli-nəzər-gaha pəyam,
Üfüqə göz tikib aləm , intizar içrə müdam.
Sənəma mehri-rüxün şəşəə saldı qəsirə,

Vəchi-ruyin əzizim cahanı söraqi,
Yədi-qüdrətlə yazılmış vəli hüsnün varaqı.
Vəslinə müntəzir üşaq çəkibdir fəraqı,
Tutdun ey Yusifi-sani ki, Hiczü İraqı.
Hüsnün avazı Hələbdən daha getdi Misirə.

Səri-kuyində hizarım yetişib, and oldum,
Üz sürüb pabusuna , aşiqi-pabənd oldum.
Zənəxin dövrün alıb, türrənə peyvənd oldum,
Düşübən çahi-tilismi-kəcinə  bənd oldum.
Zülfi-zəncirinə girdim , halım oxşar yəsirə.

Çəkmədin qiflət-əlin nəşvü numadan hərgiz,
Yoxdu ayineyi-qəlbində səfadan hərgiz.
Almadın pənd ilə təlim üləmdan hərgiz,
Oxumadın bir hərifi mehrü vəfadan  hərgiz.
Bugün ey şüxi-cəfapişə gəlibsən əsirə.

Yoxdur xublarda vəfa, min imtahan eyləmişəm,
Qönçə tək əbəs yerə bağrımı qan eyləmişəm.
Dedin əvvəl mənə taki, qəsdi-can eyləmişəm,
Sonar üzr ilə dedin, **Şövqi** yaman eyləmişəm.
Könlüm almaq dilədin bədi xərabi bəsirə.

صنما مهر رخنک شعشعه سالدی قصیره
حسننک آوازی حلبدن دخی کیتدی مصیره
زلف زنجیرنکا کیردیم حالم اوخشار یسیره
بکُون ای شوخ جفاپیشه کلپسن اسیره
کونکلم آلماق دیله دنک بعد خرابی بصیره

عارضنک احمر گُل زلفنک اولوب عنبر فام
جان ویرؤر کوینکلی عشاق ایده جک اولسه مقام
مژده ویر صبح نسیم اهل نظرکاهه پیام
اوفقه کوُز تکوب عالم انتظار ایچره مدام
صنما مهر رخنک شعشعه قالدی قصیره

وجه روینک عزیزیم جهانی سوراقی
یَدی قدرتله یازیلمش ولی حسننک وراقی
وصلنکا منتظر عشاق چکپدر فراقی
دوتدونک ای یوسف ثانی که حجاز عراقی
حسننک آوازی حلبدن دخی کیتدی مصیره

سر کوینکده هزاریم یتشوب اَند اولدیم
یوز سوروب پابوسنکا عاشق پابند اولدیم
زنخنک دورین آلوب طرّنکا پیوند اولدیم
دوشوبن چاه طلسمی کنجنکا بند اولدیم
زلف زنجیرنکا کیردُوم حالم اوخشر یَسیرَه

چکمدنک غفلتَ الین نشو نُمادن هرکز
یُوخدُو آیینة قلبنده صفادن هرکز
آلمدنک پند ایله تعلیم علمادن هرکز
اوُخمدونک بر حریف مهرُ وفادن هرکز
بکُون ای شوخ جفاپیشه کلُوبن اسیره

یوخدور خُوبلارده وفا مین امتحان ایلمشم
غنچه تک عبس یره باغریمی قان ایلمشم
دیدونک اول بنکا تا که قصد جان ایلمشم
صنکره عذریله دیدونک **شوقی** یمان ایلمشم
کونکلم آلماق دیله دونک بعد خرابی بصیره

Bəxti məmur olanın hər tərəfi şeynən olur,
Cəm olur başına əhbabi , əcəb tənən olur.
Xəsminin rişyeyi-ömründə çox özginən olur,
Şad olur könlü müdam  onda nə qəmginən olur.
Xoş olur salü məhi, saatı min günən olur.

Əqlə qəvvas gərəkdir araya bəhr ilə bərr,
Yetişə səyilə dəstinə nadir gövhər.
Ləl tək guşinə bənd eyləsə bu pəndin əyər,
Mərdumi dəhr gərək neçə nihan çəkə səfər.
Çəkməyəndə səfəri xam qalır, həm çəkinən olur.

Arif odur xəbisə qılmaya görsə  etibar,
Xirəd əhlinə qıla mehrü məhəbbət nəki var.
Verə bir yara gərək can ilə dildən ixtiyar,
Bu müəyyəndi ki, yox hərcayıda qövlü qərar.
Bil onun rişteyi-əhdi həm çürük , kəskin olur.

Hər kimin zatı müləvvəs ola , bu dəyil əcəb,
Meyli-meyxana edib , nuş qılır abi-ənəb.
Gəzər aləmdə xumar, içrəcək rəncü təəb,
Sadərularla bəçəbazlıq edər , ləhvü ləəb.
Olsa hər yerdə işi daim onun , görləknən olur.

Səbr qıl **Şövqi** bu aləmdə olursan ki , qəni,
Hər yetən münimi-nakəslərə  açma dəhəni.
Dəyil himmətdə quluv eyləsə türqiyi dəni,
Daş əyər dəysə ki , sındırsa qızıl dəngənəni.
Nə daşın qiyməti artar, nə qızıl əksiknən olur.

بختی معمور اولاننک هر طرفی شیننک اولور
جمع اولور باشینه احبابی عجب تننک اوُلور
خصمنک رشتهٔ عمرینده چوخ اوزکیننک اولور
شاد اولور کونکلی مدام آنده نه غمکیننک اولور
خوش اوُلور سال مهی ساعتی مین کوننک اولور

عقل غواص کرکدور آرییه بحریله بَرّ
یتشه سعیله کیم دستنه نادرّ کهر
لعل تک کوشینه بند ایلسه بوُ پندیم اکر
مردُمی دهر کرک نیچه نهان چکه سفر
چکمِینده سفری خام قالور هم چکیننک اولور

عارف اولدور خبیثه قلمیه کوُرسه اعتبار
خرد اهلینه قله مهر محبّت نه که وار
ویره بر یاره کرک جانیله دلدن اختیار
بو معین دوکه یوخ هر جایده قول قرار
بیل آننک رشتهٔ عهدی هم چوروک کسیکننک اولور

هر کیمنک ذاتی ملوث اولا بو دکل عجب
میل میخانه ایدوب نوش قلور آب عنب
کزر عالمده خمار ایچره چک رنج تعب
ساده رولرله بچه بازلق ایدر لهو لعب
اولسه هر یرده ایشی دآئم آننک کورلک ننک اولور

صبر قیل **شوقی** بو عالمده اولورسن که غنی
هر یتن منعم ناکسلره آچمه دهنی
ده کل همتده غلو ایلسه طرقی دنی
داش اکردکسه که سِندیرسه قزیل دنکنه نی
نه داشنک قیمتی آرتر نه قزیل اکسک ننک اولور

Həmqi bihəd olanın kuyində qalmalı dəyil,
İltifati kəm edər həm qərin olmalı dəyil.
Neməti , minəti gərdənə salmalı dəyil,
Bi cəhətdən bilirəm qəbhidən ol xali dəyil.
əkrəm-ul-zeyf hədisin yad eyləmək hal dəyil.

Düşsə bir kəs evinə , bir gecə mehman eləsə,
Əcəb etmən ki, ona naleyi-əfqan eləsə.
Yinə dilşad olu, gər şəxsi peşiman eləsə,
bunu bilməz , çox edər sərzəniş , ehsan eləsə.
Yaxşılığı kişinin başına çalmalı dəyil.

Mərdi-əlanı deyim aləm ara olur şərəf,
Sözləri dürrü gövhərdir, dəhəni sankı sədəf.
Xak ilə birdir , onun yanında çün ləlü həzəf,
Zərü dinarını əlbəttə qılır xeyli tələf.
Səxasındandır onun qəflətü ehmalı dəyil.

Gərək üşşaq müdam mədh qıla dildarın,
Can nisar eyləyə hüsnünə , bulub əxyarın.
Mah əyər görsə camalın , unudar dəvvarın,
Xaki-rahına ki, hər sübh sürər rüxsarın.
Kim deyər xurşid onun zərrə pamalı dəyil.

**Şövqi** dir pabusuna səbrim alıb, getdi könül,
Bəzmi-eyşin bu tərəbnakına , həm yetdi könül.
Saqi camında görüb , gör gözəlim netdi könül,
Ləbinə bənzədigiçün meyə meyl etdi könül.
Yoxsa bu qan çanağın heç ələ almalı dəyil.

حمقی بی حد اولاننک کوینده قالمالی دکل
التفاتی کم ایدر هم قرین اولمالی ده کل
نعمتی منتی کردنه سالمالی ده کل
بو جهتدن بِلُورم قبحیدن اول خالی دکل
اکرم الضیف حدیثین یاد ایلمک حال ده کل

دوشسه بر کس آوینه بر کیجه مهمان ایلسه
عجب ایتمنک که آنکا نالهٔ افغان ایلسه
ینه دلشاد اولو کر شخصی پشیمان ایلسه
مونی بلمز چوخ ایدر سرزنیش احسان ایلسه
یاخشلوقی کشیننک باشنه چالمالی دکل

مرد اعلانی دییم عالم ارا اولور شرف
سوزلری درّ کوهردور دهنی سانکه صدف
خاک ایله بردور آننک یاننده چون لعل حذف[۱]
زر دینارینی البته قلور خیلی تلف
سخاسندندور آننک غفلت اهمالو ده کل

کرک عشاق مدام مدح قیله دلدارین
جان نثار ایلیه حسنینه بلوب اخیارین
ماه اکر کورسه جمالین اوُنودور دوّارین
خاک راهینه که هر صبح سورر رخسارین
کیم دیر خورشید آننک زرّه پامالی ده کل

**شوقی** دیر پابوسنکا صبریم آلوب کیتدی کونکل
بزم عیشنک بو طربناکینه هم یتدی کونکل
ساقی جامنده کُوروب کوُر کوزلیم نتدی کونکل
لبنکا بنکزه دوکیچون میه میل ایتدی کونکل
یوخسه بو قان چَنَقین هیچ اله آلمالی دکل

---

۱. «حزف» گیلدن قایریلمش قاب.آلیازمادا ایملاسی بئله دیر.

Əcəba etdi məni seyd bu şəhbaz bugün,
Vəli çəngalə tutub , eylədi pərvaz bugün.
Aldı yüz işvə ilə canımı tənnaz bugün,
Qəmzə tiring edibən seyfə dəmsaz bugün.
Verdi dil mülkünü yağmaya, diləfraz bugün.

Gördüm ol şüx , əcəb getdi sərim sevdası,
Mədh qılmaq yey olurhüsnüdə bihəmtanı.
Qaşları sineyi-üşşaqa vurub müjganı,
Çeşmi-şəhr-aşubi könlümə salıb qövğanı.
Qətl edib aşiqini , fitneyi-qəmmaz bugün.

Seyi-bağ etdi pərim , gəldi bu gülzara bahar,
Bağ olub misli-behişt , açıldı güllər nəki var.
Bəzmi-gülşəndə çalar çəngini bu sünbüli tar,
Aldı gül dövrünü kim, eylədi dəstani-hezar.
Əndəlib oldu surud ilə nəvasaz bugün.

Sənəma gördü camalın yinə , şəms oldu nihan,
Qaşına səcdə qılar cümlə mələk , ins ilə can.
Mahinöv dövrə gəlib , qövsü qəzəh qurdu Kaman,
Zührə Mirix ilə çakir kimi, tir atdı sənan.
Söylədi rəzmidə gərdun sni şəhbaz bugün.

Cami-zövq ilə verir saqiyi-gülfam əcəb,
Əksi ruyin ki, düşüb , tapdı səfa cam əcəb.
Ləbinə nisbət olub , badeyi xurram əcəb,
**Şövqiya** məclisinə gəldi dil-aram əcəb.
Gərək əlbəttə ola sərin payəndaz bugün.

عجبا ایتدی منی صید بو شهباز بگُون
ولی چنکاله دوتوب ایلدی پرواز بگُون
آلدی یوز عشوه ایله جانمی طنّاز بگُون
غمزه تیرین ایدُوبن سیفه دمساز بگُون
ویردی دل مُلکنی یغمایه دل افراز بگُون

کوردوم اول شوخ عجب کتدی سریم سوداسی
مدح قلمق یک اولور حسنیده بی همتانی
قاشلری سینهٔ عشاقه وورؤب مژکانی
چشم شهر آشوبی کونکلمقه سالؤب غوغانی
قتل ایدوب عاشقنی فتنهٔ غمّاز بگُون

سیر باغ ایتدی پریم کلدی بو کلزاره بهار
باغ اولوب مثل بهشت آچلدی کُللر نکه وار
بزم کلشنده چالار چنکنی بو سنبلی تار
آلدی کُل دَورینی کیم ایلدی دستان هزار
عندلیب اولدی سرودیله نواساز بکون

صنما کوردی جمالنک کنه شمس اولدی نهان
قاشنکا سجده قلار جمله ملک انس ایله جان
ماه نو دوره کلوب قوس قذح قوردی کمان
زهره مریخله چاکر کمی بتر آتدی سنان
سولدی رزمده کردون سنی شهباز بگُون

جام ذوقیله ویرور ساقی کلفام عجب
عکس رُوینک که دوشوب تاپدی صفا جام عجب
لبنکا نسبت اولوب بادهٔ خرام عجب
**شوقیا** مجلسنکا کلدی دل آرام عجب
کرک البته اوله سَرُنک پینداز بکون

Ey dil bu səba xurşidi-rəxşan gələcəkdir,
Bir ləmə salıb aləmə yeksan gələcəkdir.
Rüxsarı münəvvər , məhi-taban gələcəkdir,
Ol qaşı Kaman navəki-müjgan gələcəkdir.
Ollam sədəqə mən ona qurban gələcəkdir.

Bu çüşmi-siyahın qaşıdır qibleyi-aləm,
Tağına səcdə qılıb, əlif qədim olub xəm.
Amacı-xədənginə qarşı dəmadəm,
Aşüftə qılıb halımı bu türrəyi-dərhəm.
Məstanə baxıb , züıfi-pərişan gələcəkdir.

Şirin dilidir , sib zənəxdan, arizi əhmər,
Qılmış neçə xorovləri xidmətdə o çaki.
Olmaz belə məhbub , cahan içrə müyəssər,
Bu ağzı sədəfdir , dişi inci , ləbi gövhər.
Sərafə yetib , ləli-Bədəxşan gələcəkdir.

Bir dilbəri-yekdanə yaratmış onu kamil,
Bir hüsnidə həm xub, gözəl , vəsfin edər dil.
Bir gözləri nərgis , rüxi lalə , yanağı mül,
Bir zülfləri sünbül, üzü gül, xalları filfi.
Bir kakuli mişkin, xətti reyhan gələcəkdir.

Gəzdirri fələk şəmsi mənə, sankı səhabın,
Gün gördü camalın , üzünə çəkdi hicabın.
Əncümlə sipehrin xəcil etdi məhi-nabın,
Qövğa düşər alәmə , gər açdırsa niqabın.
Ol qəmzə zənan , afəti-dövran gələcəkdir.

Qıl bəzmi tərəb , mütrib oxu nəməyi-ahəng,
Ver badəni sən məclis ara, saqiyi gülrəng.
Bu əsridə gül, qönçə-sifət olmayalım təng,
Ta bağlamasın könlümüzün ayinəsi jəng.
Bu tuti-zəban , sövti-xoş-əlhan gələcəkdir.

Artırdı gələk günbəgün aşübi nihanı,
Bu dövridə müslim ki, çəkər dərdi-nihanı.
Yəcucü-məcuc gəlib , tutdu cahanı.
Ey **Şövqi** çəkib tiğ , ona vur , eylə duanı.
Dəfinə onun Mehdi nümayan gələcəkdir.

ای دل بو صبا خورشید رخشان کله جکدر
بر لمعه سالوب عالمه یکسان کله جکدور
رخساری منور مه تابان کله جکدور
اول قاشی کمان ناوکی مژکان کله جکدر
اوُلّام صدقه من آنکا قربان کله جکدور

بو چشمی سیاهینک قاشیدور قبلهٔ عالم
طاغینه سجده قلوب الف قدیم اولوب خم
آماج خدنکینه قارشو دمادم
آشفته قلُوب حالمی بو طرهٔ درهم
مستانه باخوب زلف پریشان کله جکدور

شیرین دلی دور سیب زنخ عارضی احمر
قلمش نچه خسرولری خدمتده او چاکر
اولمز بیله محبوب جهان ایچره میسّر
بر آغزی صدفدور دیشی اینجو لبی کوهر
صرافه یتوب لعل بدخشان کله جکدور

بر دلبر یکدانه یراتمش آنی کامل
بر حسنیده هم خوب کوزل وصفین ایدر دل
بر کوزلری نرکس رخی لاله یکاغی مُل
بر زلفلری سنبل یوزی کل خالّاری فلفل
بر کاکلی مشکین خطی ریحان کله جکدور

کزدوردی فلک شمس بنکا سانکه سحابین
کون کوردی جمالین یوزینه چکدی حجابین
انجمله سپهرنک خجل ایتدی مه نابین
غوغا دوشر عالمقه کر آچدورسه نقابین
اول غمزه زنان آفت دوران کله جکدور

قیل بزم طرب مطرب اوُخی نغمهٔ آهنک
وَر باده نی سن مجلس ارا ساقی کلرنک
بو عصریده کل غنچه صفت اولمیه لوم تنک
تا باغله مَسُون کونکلمزنک آیینه سی ژنک
بر طوطی زبان صَوتی خوش الحان کله جکدور

آرتوردی فلک کون بکون آشوب نهانی
بو دَوریده مسلیم که چکر درد نهانی
یأجوج و مأجوج کلوب دوتدی جهانی
ای **شوقی** چکوب تیغ آنکا اور ایله دعانی
دفعینه آننک مهدی نُمایان کله جکدور

Ol mahləqa sübh saradan gedəcəkdir,
Əncüm tərəbi nəşvü nümadan gedəcəkdir.
Mirati həm ərşin ki, cəladan gedəcəkdir,
Xurşidi-cahan nuri-ziyadan gedəcəkdir.
Həaaq ki, səadət bu aradan gedəcəkdir.

Şəhbaz-sifət dam lə səyyad yanınca,
Bir yaxşı , xunxar ki, cəlad yanınca.
Yüz işvə qılıb , könlümü bərbad yanınca,
Bu qaşı Kaman , qımzəsi ustad yanınca.
Can qurban , əlif-qəddim obadan gedəcəkdir.

Ey dil çıxa gör , bir yana gək beyti-həzəndən,
Şad olmadı könlüm daha bu deyri köhəndən.
Mədh eylə camalın sənəmin, qoyma dəhəndən,
Sür mənzəri-çeşmin onun , ahuyi Xutəndən.
Bu zülfləri-çin bil ki, Xutadan gedəcəkdir.

Ta gəldi xəzan , aldı bağın zövqü səfasın,
Tərpətdi səba sərsərin ol badi-ənasın.
Gülşəndəki gülçehrələrin pozdu binasın,
Bu gecə gərək bulbul edə şürü nəvsın.
Fərda güli-aləm bu fəzadan gedəcəkdir.

Ey şüx dəyil huri , mələk hüsnünə mənsub,
Yoxdur sənə manənd cahan içrə ki, məhbub.
Bu aşiqi-dilxəstəyə vəslin yetər ey xub!
Qalmaz bu camalında belə mərğub.
Dünyadaki hər ruyi-zibadan gedəcəkdir.

Daim o xirədmənd tutar rahi-təvəkkül,
Təslimi-riza pişə qılır , açıla müşkil.
Təhqiq eləsələr bunu ta cüilə , həm kül,
Qalmaz gülə , hər kim bu fəna içrə yəqin bil.
Üqbata ki, təqdiri-qəzadan gedəcəkdir.

Arif gərək üqbanı bilə mənzili axər,
Ol yerdə musavat ilədir münimü faqir.
Həqdən mənə hər nə gəlir ollam ona şakir,
Ey **Şövqi** cahan içrə müxib olma ki, xasir.
Bil nikü bədin şahü gidadan gedəcəkdir.

اول ماه لقا صبح سرادن کیدَه جکدور
انجم طُربی نشو نمادن کیده جکدور
مرآتی هم عرشنک که جلادن کیده جکدور
خورشید جهان نور ضیادن کیده جکدور
حقّا که سعادت بو ارادن کیده جکدُور

شهباز صفت دامیله صیاد یانینجه
بر یاخشی خونخوار که جلّاد یانینجه
یوز عشوه قلوب کونکلمی برباد یانینجه
بو قاشی کمان غمزه سی اوستاد یانینجه
جان قربان الف قدیم اوبادن کیده جکدُور

ای دل چیخه کور بر ینکا کل بیت حزندن
شاد اولمدی کونکلم دخی بو دیر کُهندن
مدح ایله جمالین صنمنک قویمه دهندن
سور منظر چشمین آننک آهوی خُطندن
بو زلفلری چین بیل که خطادن کیده جکدور

تا کلدی خزان آلدی باغنک ذوق صفاسین
تیرتدی صبا صرصرنک اول باد عناسین
کلشنده که کلچهره لرنک یوزدی بناسین
بو کیجه کرک بلبل ایده شور نواسین
فردا کلُ عالم بو فزادن کیده جکدور

ای شوخ دَکُل حوری ملک حُسنکا منسوب
یُوخدور سنکا مانند جهان ایچره که محبوب
بو عاشقی دلخستیه وصلنک یتر ای خوب
قالماز بو جمالنکده کوزه لّک بیله مرغوب
دنیاده که هر روی زیبادَن کیده جکدور

دآئم او خردمند دوتار راه توکل
تسلیم رضا پیشه قلور آچله مشکل
تحقیق ایله مسلر مونی تا جزئیله هم کل
قالمز کُله هر کیم بو فنا ایچره یقین بیل
عقبایه که تقدیر قضادن کیده جکدور

عارف کرک عقبانی بیله منزل آخر
اول یرده مساواتله در منعم فاقر
حقدن بنکا هر نه کلور اولّام آنکا شاکر
ای **شوقی** جهان ایچره مخیب اولما که خاسر
بیل نیکُ بدین شاه کدادن کیده جکدور

Tutdu məh-ruyin sənəm , əfsun edib məkar zülf,
Saldı dil miratin pakına bir jəngar zülf.
Rəqs etdi arizin dövründə musiqar zülf,
Dəşti-Rum ilə İraqa saçdı bu əttar zülf.
Mişki-ənbər-fam qıldı çün bihişt asar zülf.

Bir səlasıldır əməl , karilə nəğmatın çalıb,
Fitneyi-şəhraşübi çapdı könül , şəhrin qalıb.
Hər vilayətdə əcaibqılı, nirəngin salıb,
Mavəra-ü-nəhri yəğma eylədi , Çin mülkün alıb.
Həm büzürgü kiçikə oldu zehi sərdar zülf.

Ey səba ol türrəni tərpətmə bir ahəngilə,
Könlümüz eylər pərişan muyi tarü çəngilə.
Bağlıdır can riştəsi bir zülfi şüxü şəngilə,
Nəqş çəkmiş hüsn-lövhünə səvadi-rəngilə.
Qaliba kim, dəsti-qüdrətdən alıb pərgar zülf.

Gəh qərini-şah olur  fərzeyini-xoş-məzhər kimi,
Gəh piyada əsbdən düşmüş yerə əbtər kimi.
Gəh qılar Rumi, cahanı mat şürü şər kimi,
Gəh kəsər fillər yolun rox cehrəsin ləşkər kimi.
Gəh qucar gərdən , buxağı , gəh öpər rüxsar , zülf,

Əjdəha-sülətdir ol , kənc üstə bir məvası var,
Kim edər pur-piçü tabı , könlümün qövğası var.
Başda sərgərdan gəzər, br məhvəşin sevdası var,
Razi-eşqin dildə müsthkəm qılır , əxfası var.
Şanələr ta pa , üzə kəşf eyləməz əsrar zülf.

Tuli-elmindən şəbi-yəlda kimi var küşeşi,
Çün gəzər gözdə , könüldə , canda eylər təşvişi,
Çərxi-dövran tək onun sərgəştəlikdir həm işi.
Bu cəhətdən bivəfadır , yox bir üzdə gərdişi.
Ömrüdən olmaz cahanda hiç bərxurdar zülf.

Çünki, firqətdən keçirdim sübhü şam əyyamlar,
Hicridə yandım , işim bulmadı bir əncamlar.
**Şövqi** səbr eylə , taparsan vəsli-gül-əndamlar.
Getdi məndən tabü taqət , qalmadı aramlar.
Xubrular səni eylər zinətü dəstar zülf.

دوتدی مه روینک صنم افسون ایدوب مکّار زلف
سالـدی دل مـرآتنک پاکینـه بـر ژنـکار زلف
رقص اتدی عارضنک دَورینده موسبقار زلف
دشت روم ایله عراقه ساچدی بو عطّار زلف
مشک عنبرفام قلدی چون بهشت آثار زلف

بر سلاسلدر عمل کاریله نغماتین چالوب
فتنۀ شهرآشوبی چاپدی کونکل شهرین قالوب
هر ولایتده عجایب قیلی نیرنکین سالوب
ماورآءالنهری یغما ایتدی چین ملکین آلوب
هم بزرک کوچکه اولدی زهی سردار زلف

ای صبا اول طرّۀ نی تیرتمه بر آهنکله
کونکلمز ایلر پریشانُ موییِ تار چنکله
باغلیدور جان رشته سی بر زلف شوخ شنکله
نقش چکمش حسن لوحینه سوادُ رنکله
غالبا کیم دست قدرتدن آلوب پرکار زلف

که قرین شاه اولور فرضین خوش مظهر کمی
که پیاده اسبدن دوشمش یره ابتر کمی
که قلار رُومی جهانی مات شور شر کمی
که کسر فیللر یولین رخ چهره سین لشکر کمی
که قوجر کردن بخاقی که اوُپر رخسار زلف

اژدها صولتدور اول کنج اوسته بر مأواسی وار
کیم ایدر پر پیچ تابی کونکلننک غوغاسی وار
باشده سرکردان کزر بر مهوشنک سوداسی وار
راز عشقین دلده مستحکم قلور اخفاسی وار
شانه لر تا پا اُوزه کشف ایلمز اسرار زلف

طول علمندن شبی یلدا کمی وار کوششی
چون کزر کوُزده کونکلده جانده ایلر تشویشی
چرخ دوران تک آننک سرکشته لک در هم ایشی
بو جهتدن بیوفادر یوخ بر اوزده کردیشی
عمریدن اولمز جهانده هیچ برخوردار زلف

چونکه فرقتدن کچردیم صبح شام ایّاملر
هجریده یاندیم ایشم بولمادی بر انجاملر
**شوقی** صبر ایله تاپارسن وصل کل اندامـلر
کتدی مندن تاب طاقت قالمدی آراملر
خوب رولر سنی ایلر زینت دستار زلف

Ta səba tərhi-gülüstanı zərrəfşan eyləmiş,
Nüzhət əfzayi çəməndə bağı-rizvan eyləmiş.
Səbzə bərginə ərəq durmuş , dürrəfşan eyləmiş,
Gülruxa şəbnəm saçılmış, rəngin-əlvan eyləmiş.
Bülbüli şüridə qövğasın nimayan eyləmiş.

Sübhdəm bağı- cahana yetdi amma bir xəbər,
Verdi əyyami baharın müjdəsin badi-səhər.
Düzdi güllər bərginə ,töküb dürrü gövhər,
Şölə salmış gülşənə , aləmdə şəms etmiş hünər.
Zibü zinət güllərə xurşidi-rəxşan eyləmiş.

Bağıban zinətlə vermiş bağa yüz rəngi-ziya,
Hər nahala nəqş salmış, kilki-nəqaşı-qza.
Bu çəmən gülruxləri çün etdilər zövqü səfa,
Qumrilər avaz açıb, söyləşdi nəğmatı-nəva.
Tutilər dilkəş dəhanın şəkkərsitan eyləmiş.

Gülşənə sübh nəsim etmiş əcaib təmtəraq,
Səhni-gülşəndə bəzətmiş kim, şəqayiqlər otaq.
Mey içən tək nərgisin çəşmi olub məsti- uyaq,
Al yanağın həsrətindən lalənin köksündə daq.
Naxunı –qəm sinəsin çaki-gəriban eyləmiş.

Seyri-gülzara yetişdim ta qədəm basdığda mən,
Gördüm əyyami səba gülgün edib səhni-çəmən.
Hər çiçək qəddinə geymiş bir qəba vü pirhən,
Gül bənəfşilə dəm vurmuş , aşiq məşüqədən.
Vadiye eşq içrə bitmiş çün gülüstan eyləmiş.

Xameyi-qüdrət ki, çəkmiş münşiyi-xidmət-nigar,
Kuhü səhra səfhəsin qılmış rəqəm çün laləzar.
Sətri-zərr övraqi-gül-bərginə çəkmiş mişkbar,
Mövsimi gül gəldi kim , dillərdə qalmaz intizar.
Əhli-dil b u fəslidə zövqilə seyran eyləmiş.

**Şövqiya** vrd ilə daim zikr edib həmdü səna,
Rəhm edib izəd  səni , əlbəttə qoymaz binəva.
Busitani-halına bir gün verir nəşvü nima,
Bu məzamında oxur mürği-baharistan səba.
Xeyrü şərri aləmə təqdiri-yəzdan eyləmiş.

تا صبا ترح کلستانی زرافشان ایلمش
نزهت افزای چمنده باغ رضوان ایلمش
سبزه برکینه عرق دورمش در افشان ایلمش
کلرخه شبنم ساچلمش رنکین الوان ایلمش
بلبلی شُوریده غوغاسین نُمایان ایلمش

صبحدن باغُ جهانه یتدی اما بر خبر
ویردی ایام بهارنک مژده سین باد سحر
دوزدی کللر برکنه شبنم توکُوب درّ کهر
شعله سالمش کلشنه عالمده شمس ایتمش هنر
زیب زینت کلّلره خورشید رخشان ایلمش

باغبان زینتله ویرمیش بغه یوُز رنک ضیا
هر نهاله نقش سالمش کلک نقاشی قضا
بو چمن کلرخلری چُون ایتدیلر ذوق صفا
قُمریلر آواز آچوپ سولشدی نغمات نوا
طوطی لر دلکش دهانین شکرستان ایلمش

کلشنه صبح نسیم ایتمش عجایب طمطراق
صحن کلشنده بزتمش کیم شقایقلر اوطاق
می ایچن تک نرکسنک چشمی اولوب مستی اوُیاق
آل ینکاغنک حسرتندن لاله ننک کوکسینده داق
ناخُنی غم سینه سین چاکی کریبان ایلمش

سیر کلزاره یتشدیم تا قدم باسدُوقده من
کوردوم ایام صبا کلکُون ایدُوب صحن چمن
هر چیچک قدینه کیمش بر قبا و پیرهن
کُل بنفشیله دم اوُرمیش عاشق معشوقدن
وادهٔ عشق ایچره بتمش چُون کلستان ایلمش

خامهٔ قدرت که چکمش منشی حکمت نکار
کوه صحرا صُفحه سین قلمش رقم چون لاله زار
سترُ زر اوراق کل برکینه چکمش مشکبار
موسم کُل کلدی کیم دیللرده قالمز انتظار
اهل دل بُو فصلده ذوقیله سیران ایلمش

**شوقیا** وِرد ایله دآئم ذکر ایدُوب حمدُ ثنا
رحم ایدُوب ایزد سنی البته قویمز بینوا
بوستانی حالنکا بر کون ویرور نشوُ نما
بو مضامنده اوُخور مرغ بهارستان صبا
خیرُ شری عالمه تقدیر یزدان ایلمش

Ey fələk hər dövridə bir məkr qıldın aşikar,
Fitnəculuq sənətin peyvəstə eylərsən şüar.
Olmusan bu fənndə dünya üçün amuzgar,
Hiylə nəqşin bənd- xalqa möhkəm etdin üstüvar.
Ey flək ! sən bir olursan bu xatadan şərmsar?

Bu səbəbdən kim , sənin pərgarına yox etimad,
Nərdə bir məhru görüb , çəkdin ona xəttü səvad.
Naləsi bihədd olur , hər kim səni etdikcə yad,
Daima olmaz könüllər , bil ki, əyyamında şad.
Zülmi bihdad etmisən kim, aləmə leylü nəhar.

Gəldi bu dəhr fənaya çox vəli xeyrül-bəşər,
Bivəfalıq rəsmini görkəc , həm  etdilər səfər.
Hanı şahani sələf , üqbaya etmişlər güzər,
Qalmadı hərgiz cahanda kim, olardan bir əsər.
Xaka dönmüş cümləsi , könlündə keydi intiza.

Sən ki, qıldın pişə qədarlıq aləmdə xud,
Əhli-daniş kimsə olmaz çünki dövründə niku.
Bilmədim ey çərx mən , səndə nə adətdir ki, bu,
Hər dəni-himmət murada yetdi , oldu kamcu.
Qaldı darı- zillət içrə , ali- himmət namdar.

Eylədin möhtac hər fərdi, görəndə pak zat,
Olmadı bir dəm rəha kim, dami-möhnətdən nəcat.
Mərdi-aqil görmədi dünyada səndən iltifat,
Rastrular sürmədi ömründə zövqilə həyat.
Xübsi-kəcru kimsələr xoş keçirdi ruzgar.

ای فلک هر دَوریده بر مکر قلدُنک آشکار
فتنه جولق صنعتین پیوسته ایلرسن شعار
اوُلمسن بوُ فنده دُنیا ایچُون آموزکار
حیله نقشین بند خلقه محکم ایتدُونک اُستوار
ای فلک سن بر اولورسن بو خطادن شرمسار

بو سببدنکیم سننک پرکارنکا یوخ اعتماد
نرده بر مه رو کُوروُب چکدونک آنکا خطّ سواد
ناله سی بی حدّ اولور هر کیم سنی ایتدُوکجه یاد
دآئما اولمز کونکللر بیل که ایامنده شاد
ظلمی بی داد ایتمسن کیم عالمه لیلُ النّهار

گلدی بو دهر فنایه چوخ ولی خیرالبشر
بی وفالق رسمنی کورکج هم ایتدیلر سفر
هانی شاهان سُلف عقبایه ایتمشلر کذر
قلمدی هرکز جهانده کیم اولاردن بر اثر
خاکه دونمش جُمله سی کونکلنده کیدی انتظار

سن که قلدنک پیشه غدارلک عالمده خود
اهل دانش کمسه اولمز چوُنکه دورینده نکو
بلمدیم ای چرخ من سنده نه عادتدُور که بو
هر دنی همت مراده یتدی اولدی کامجو
قالدی دارذلت ایچرَه عالی همت نامدار

ایلدُنک محتاج هر فردی کورنده پاک ذات
اولمدی بر دم رها کیم دام محنتدن نجات
مرد عاقل کورمدی دُنیاده سندن التفات
راست رولر سُورمدی عُمرینده ذوقیله حیات
خبس کجرو کیمسه لر خوش کچردی روزکار

Bu sipehri-namüvafiq dur edib , hər yan gəzər,
Görsə bir azadəni, cövr eyləyib nüqsan gəzər.
Baxıb ədna kəslərə həm tabei fərman gəzər,
Əsbi-xoşxular dəmi birəxt olur, üryan gəzər,
Çulı zərrbafdır qafasında ki, zövq eylər həmar[۱].

Çərxi bədmehrin dolanmaz yaxşılığda gərdişi,
Günbəgün artar könüllərdə qəmilə təşvişi.
Dami təzvirində bənd olmuş , gəzərkən can quşu,
Ol huma kim, üstüxanilə qənaətdir işi,
Cifeyi dünya alıb kərkəs , qılıbdır iftixar.

Müstəme güşilə bir xərçəng deyim bir halını,
Olsa kim bir kəs , şəci[۲] ədbar edər iqbalını.
Yüz məşəqətlə keçirmiş həm məh ilə salını,
Qoymadı çox kəslərin mülk içrə xoş əhvalını.
Bu cəhətdən eyləmişlər mülki-qürbət ixtiyar.

Dün mənə saldı nəzər kim, verdi bir müjdə səba,
Ki, cəfakeş , əhli-dərdisən bişarətdir sənə.
Dedi hasildir müradın , əzm qılsan bir yana,
**Şövqi** yüz himmətlə sən vird eylə, gəl həmdü səna.
Bir yetər axır sənə asari-feyzi kirdigar.

---

۱ . eşşək
۲ . igid, cəsur, şücaətli

بو سپهری ناموافق دور ایدوب هر یان کزر
کورسه بر آزاده نی جور ایلیوب نقصان کذر
باخوب ادنا کسلره هم تابع فرمان کذر
اسب خوش خولر دمی بی رخت اولور عریان کذر
چلّ زربفتدر قفاسنده که ذوق ایلر حمار[1]

چرخ بد مهرنک دولانمز یخشلقده کردیشی
گُون بکون آرتار کونکللرده غمیله تشویشی
دام تذویرنده بند اولمش کزرکن جان قوشی
اول هُما کیم استخوانیله قناعتدور ایشی
جیفهٔ دُنیا آلوب کرکس قلُوپدُور افتخار

مستمع کوشیله بو خرچنک دیم بر حالنی
اوُلسه کیم بر کس شجیع ادبار ایدر اقبالنی
یُوز مشقتله کیچورمش هم مهیله سالنی
قوُیمدی چوخ کسلرنک ملک ایچره خوش احوالنی
بو جهتدن ایلمشلر مُلک غربت اختیار

دون بنکا سالدی نظر کیم ویردی بر مژده صبا
که جفاکش اهل دردیسنک بشارتدر سنکا
دیدی حاصلدُور مرادنک عزم قلسنک بر ینکا
**شوقی** یوز حمّتده سن ورد ایله کل حمد ثنا
بر یتر آخر سنکا آثار فیض کردکار

---

[1]. ائششک

Ey fələk bir qıl təmaşa, beylə dövran işləməz,
Bu cəfagöstər nəçün məkrühi pünhan işləməz.
Bunun əmali-qəbihin gör ki , nadan işləməz,
Kari-nahəmvarını gəzdirsə hər yan işləməz.
Bu səbəbdəndir küyində əhli-irfan işləməz.

Məclisin əlvan edən ol badeyi gülrəngidir,
Əqlini başdan alan mütriblərin ahəngidir.
Həmrəhi sadə , müzəkər saqi birlə çənkidir,
Çox sərasimə gəzər güya sanasan bəngidir.
Öz işində bunu fikr eylər ki, nüqsan işləməz.

Məstü məxmüriləndir hali təkəbbürlə qurur,
Şərmsiz , bibakdır hər dəm edər fisqü fucur.
Sübhü şam işrətdədir eyşində bir qoymaz qusur,
Minibən bir-birinə daim unas ilə zükür.
Beylə naməşrü işi hərgiz müsəlman işləməz.

Əngidir bimarın ol madam zərdi-abnus,
Əynindən cisminə ləçkər əmtəla eylər culu.
Dərdinə dərman tapılmaz , min təbib olsa xüsus,
Gəlsə Əflatuni filsof , Ərəstu , Calinus.
Bu əlil üstünə həm Buqratü Loqman işləməz.

Çünki , silaba gedibdir asiyabın ənburi,
Eyləməz məmur onu, cəm olsa gər yüz min çəri.
**Şövqiya** bilməz nüzumi yox dəyimanın pəri,
Çün nüzumi yuk düşürdi ey dəyirmançı yeri.
Bir dəyirman fikri gör ki, bu dəyirman işləməz.

ای فلک بر قیل تماشا بیله دوران ایشلمز
بو جفا کُستر نیچون مکروهی پُنهان ایشلمز
بوننک اعمال قبیحین کورکه نادان ایشلمز
کار ناهموارنی کزدیرسه هر یان ایشلمز
بو سببدندُور کوینده اهل عرفان ایشلمز

مجلسین الوان ایدن اول بادۀ کلرنکی دوُر
عقلنی باشدن آلان مطربلرنک آهنکی دوُر
همرهی ساده مذکّر ساقی برله چنکیدُور
چوخ سراسیمه کزر کویا سناسن بنکیدور
اوز ایشنده مونی فکر ایلر که نقصان ایلشمز

مست مخموریله در حالی تکبرله غرور
شرمسیز بی باکدُور هر دم ایدر فسق فُجُور
صبح شام عشرتده در عیشنده بر قویمز قصور
منکبن بر بیرنه دآئم اُناثیله ذکُور
بیله نامشروع ایشی هرکز مسلمان ایشلمز

انکیدُور بیمارنک اول مادام زردی آبنوس
اکلیدن جسمینه لشکر امتلا ایلر جُلُوس
دردینه درمان تاپلمز مین طبیب اولسه خصوص
کلسه افلاطون فلیسُوف ارسطو جالینوس
بو علیل اوستینه هم بقرات لقمان ایشلمز

چُونکه سیلابه کیدپدُور آسیابنک اَنبری
ایلمز معمور آنی جمع اولسه یو زمین چری
**شوقیا** بلمز نظُومی یوخ دکرماننک پری
چون نُطُومی یُوک دوشوردی ای دکرمانچی یری
بر دکرمان فکری کور که بو دکرمان ایشلمز

Sübhüdən çıxmış gəlir gülzara cananım mənim,
Bağ ara seyran edər ol şahi-xubanım mənim.
Qönçə tək açmış dəhanın ləli-xəndanım mənim,
Sayə salmış başıma sərvi-xuramanım mənim.
Qıl təfaxur ey könül , gör şövkəti- şanım mənim.

Zülflərindən bu cahana ətr vermişdir səba,
Gözlərin gördükdə heyran qaldı nərgislər bəsa.
Lalə mey doldurmuşdu şəbnəmdən qədəhlər canfəza,
Bəzm qurmuş saqi , gülçehrələr behcətsəra.
Əndəlib olmuş surud ilə nəvaxanım mənim.

Bu cavanı mədh qıl ey dil əcəb məhru kimi,
Gərdəni misli mina tək boy çəkəndə qu kimi.
Əqlimi sərdən alır nəzzarəsi ahu kimi,
Həm dəhanı dürr , sədəf tək , dişləri inci kimi.
Sözləri gövhər , ləbi ləli-Bədəxşanım mənim.

Yoxdur üşşaqa məyər hüsnündən ehsanın sının,
Bir tərəhhüm qıl mənə oldum ki, heyranın sənin.
Ey Kaman əbru tənim peyvəstə qürbanın sənin,
Yetsə gər dil mülkünə əlbəttə fərmanın sənin.
Alsa başım dönmənəm, yolundadır canım mənim.

Görməsəm rüxsarını dərdim həddən füzun,
Dideyi giryanım bəsi , əşkim dəmadəm laləgün.
Eşq sərgərdanıyam yoxdur mənə bir rəhnəmun,
Dilbəra hicrində mən divanə tək oldum cünun.
Qıldı həsrət naxuni çaki-gəribanım mənim.

Xubluqun afaqa salmışdır müdam avazını,
Atəşin ruyi rüxün həm yaxdı , yandırdı məni.
Ləhcədə güya zəbanındır cəvahir mədəni,
Sanki, hicran gecəsində görməsəm  ey məh səni.
Bulmasam vəslin yetər əflaka əfqanım mənim.

Ey könül kəc baxma sən bir zərrəcə ustadına,
Dərsi təlimin gətir daim  unutma yadına.
Yetişir nagəh fərəhlər xatiri-naşadına,
**Şövqiya** axır yetər bir gün sənin fəryadına.
Müntəqim oldur ki, bil aləmdə sultanım mənim.

صبحدن چیخمش کلور کلزاره جانانیم بنم
باغ ارا سیران ایدر اول شاه خوبانیم بنم
غنچه تک آچمش دهانین لعل خندانیم بنم
سایه سالمش باشمه سرو خرامانیم بنم
قل تفاخر ای کونکل کور شوکت شانیم منم

زلفلریندن بو جهانه عطر ورمشدُور صبا
کوزلرین کوردکده حیران قالدی نرکسلر بسا
لاله یی دولدُوردی شبنمدن قدحلر جان فزا
بزم قورمش ساقی کلچهره لر بهجت سرا
عندلیب اولمش سرودیله نوا خوانیم بنم

بو جوانی مدح قل ای دل عجب مهرو کمی
کردنی مثل منا تک بوی چکنده قو کمی
عقلمی سردن آلور نظاره سی آهو کمی
هم دهانی دُر صدف تک دیشلری اینجو کمی
سوزلری کوهر لبی لعل بدخشانیم منم

یوخدور عشاقه مکر حسننکدن احساننک سننک
بر ترحم قیل بنکا اولدیم که حیراننک سننک
ای کمان ابرو تنم پیوسته قرباننک سننک
یتسه کر دل مُلکنه البته فرماننک سننک
آلسه باشیم دونمنم یولنکده در جانیم منم

کورمسم رخسارنکی دردیم حدّن فزون
دیده کریانم بسی اشکم دمادم لاله کون
عشق سرکردانیم یوخدور بنکا بر رهنمون
دلبرا هجرنکده بن دیوانه نک اولدیم جنون
قلدی حسرت ناخنی چاک کریبانیم منم

خوبلقونک آفاقه سالمشدور مدام آوازینی
آتشین روی رخنک هم یاقدی یاندوردی منی
لهجه ده کویا زباننکدور جواهر معدنی
سانکه هجران کیجه سنده کورمسم ای مه سنی
بولمسم وصلنک یتر افلاکه افقانیم منم

ای کونکل کج باخمه سن بر ذرّه استادنکا
درس تعلیمین کتور دآئم اونوتمه یادنکا
یتشور ناکه فرحلر خاطر ناشادنکا
**شوقیا** آخر یتر بر کون سننک فریادنکا
مُنتقیم اولدور که بیل عالمده سلطانیم منم

Müjdə olsun kim , sənə ey dil bugün yarın gəlir,
Qılmış afaqi münəvvər , şəmsi-rüxsarın gəlir.
Qaşları qövsü-qəzəh tək, çeşmi-əyyarın gəlir,
Qaməti şimşadan yey , sərvrəftarın gəlir.
Arizi gül, zülfi sünbül , hüsni-gülzarın gəlir.

Məh nüzul etkəc səhərdən çəkdi məhmil sariban,
Basdı bu mülkə qədəm , mülk oldu gülzarı-cinan.
Qıldılar görkəc təvazü cəm məhbubi-cahan,
Görmədim beylə gözəl dünyada , gəzdim hər zaman.
Hüsn-mülkün təsxir etmiş kim, cahandarım gılir.

Zülfi çin-çin gərdənə düşmüş siyəh ənbər kimi,
Ağzıdır qəndü şəkərdən şirin  kövsər kimi.
Həm buxağı pəri-qu tək , ağ sinəsi mərmər kimi,
Var neçə huri-sifət yanında çakirlər kimi.
Oldu xublar xeylinə aləmdə sərdarın gəlir.

Daima həsrət çəkibsən , bunu eylərdin tələb?
Dilbərin gəl gör camalın , eylə kim zövqü tərəb.
Gəldi bir şirin zənəx , puriltifat , həm nuşləb,
Can nisar etsən , xumar baxma , sənə olmaz əcəb.
Xabi-qəflətdən oyanmış, bəxti-bidarın gəlir.

Qeyrlər ümidi-vəslindən daha yaf ol könül,
Olma viran , gülrüxün küyində abad ol könül.
Hicrü möhnət çəkmə sən, qəmdən bir azad ol könül,
Vəslinə ol şüxü tənnazın yetib, şad ol könül.
Şükr qıl dildən fərəh göstər ki, dildarın gəlir.

Səbridə möstəhkəm ol , düşdün nigarından cüda,
Sən gözüm, təhqiq bil kim, bundadır həqqi-riza.
Seyri-gülzar eylə hər dəm, bəkləmə möhnət səra,
Təhniyətnamə gətirdi kim, sənə badi-səba.
Qəm yemə artır nişat , əlbətttə qəmxarın gəlir.

Yetsin ol bir-birinə ta mehrilə mahın sənəm,
Sərnigün olsun görüm aləmdə bədxahın sənəm.
Olmaz ol Cəmşidi-cəmdən kəm bu dəsgahın sənəm,
**Şövqiyi** şirin zəban ta oldu məddahın sənin.
Dildə mədh eylər səni , dəstində tumarın gəlir.

مژده اوُلسنکیم سنکا ای دل بکون یارنک کلور
قلمش آفاقی منّور شمس رخسارنک کلور
قاشلری قوس قزح تک چشم عیارنک کلور
قامتی شمشاددن یک سرو رفتارنک کلور
عارضی کل زلفی سنبل حسنی کلزارنک کلور

مه نزول ایتکج سحردن چکدی محمل ساربان
باسدی بو ملکه قدم مُلک اولدی کلزار جنان
قلدیلر کورکج تواضع جمع محبوبی جهان
کورمدیم بیله کوزل دنیاده کزدیم هر زمان
حُسن مُلکین تسخیر ایتمش کیم جهانداریم کلور

زلفی چین چین کردنه دوشمش سیاه عنبر کمی
آغزیدور قند شکرردن شیرین کوثر کمی
هم بخاقی پر قو تک آغ سینه سی مرمر کمی
وار نیچه حوری صفت یاننده چاکرلر کمی
اولدی خوبلر خیلنه عالمده سردارنک کلور

دآئما حسرت چکوب سن مونی ایلردنک طلب
دلبرنک کل کُور جمالین ایله کیم ذوق طرب
کلدی بر شیرین زنخ پر التفات هم نوش لب
جان نثار ایتسنک خومار باخما سنه اولمز عجب
خاب غفلتدن اویانمش بخت بیدارنک کلور

غیرلر امید وصلندن دخی یاد اول کونکل
اولمه ویران کلرخنک کوینده آباد اول کونکل
هجر محنت چکمسن غمدن بر آزاد اول کونکل
وصلنه اول شوخ طنّازنک یتوب شاد اول کونکل
شکر قیل دلدن فرح کوستر که دلدارنک کلور

صبریده مستحکم اول دوشدنک نکارنکدن جدا
سن کوزیم تحقیق بیل کیم مونده دور حقّ رضا
سیر کلزار ایله هر دم بکلمه محنت سرا
تهنیت نامه کتوردی کیم سنکا باد صبا
غم یمه آرتور نشاط البته غمخوارنک کلور

یتسنک اول بربرینه تا مهریله ماهنک صنم
سرنکون اولسنک کوریم عالمده بد خواهنک صنم
اولمز اول جمشید جمدن کم بو دستکاهنک صنم
**شوقی** شیرین زبان تا اولدی مداحنک صنم
دلده مدح ایلر سنی دستنده طومارنک کلور

Dey getdi , gəlib növruz , əyyamı bahar oldu,
Bülbül dil açıb, söylər , dəstani həzar oldu.
Tutdu dilə gül dövrün, nəğmatı həzar oldu,
Üşşaqi- nəvasəncin könülü biqərar oldu.
Gülşəndə sənaxanlıq özünə şüar oldu.

Tərpətdi nəsim hər dəm ol səbzəyi növxizi,
Xak üzrə bəsat oldu ləl , dürri-firuzi.
Xənd ilə ggüşad etdi həm qönçeyi gülrizi,
Açıldı ziraətdən bu aləm üçün ruzi.
Verdikdə səhab hər su dəştə cuybar oldu.

Dihqan həqiqətdən arayiş edib bağı,
Ta verdi səba zinət çün mövsimi-gül çağı.
Süsən , qənəfil, şəbbu artırdı bu nurağı,
Nərgis daha məst oldu, bəzm içrə gərək saqi.
Şəbnəm qədəhin tutqan çün laüzar oldu.

Nəsrinü şəqayiqlər xak üzrə durub xürrəm,
Zənbəğlə  papuçal həmsöhbət olub bir dəm.
Həsrət gülə bənövşə qəddini qılıbdır xəm,
Ol gülsaba , sünbül bivəchə dəyil həmdm.
Zülfi , rüxi məhbuba həmrəngi-nigar oldu.

Ey **Şövqi** sən agah ol , gördükdə ki, cananı,
Amma bu səbəbdəndir , çox görmüsən hicranı.
Təndən çıxarıb nagah , tapşır meyə sən canı,
Ta vəslini buldun kim, sür zövqilə dövranı.
Əhdinə vəfa qıldı , yarın sənə yar oldu.

دَی کیتدی کلوب نوروز ایام بهار اولدی
بلبل دل آچوب سولر دستانی هزار اولدی
دوتدی دیله گُل دورین نغماتی هزار اولدی
عشّاق نواسنجنک کونکلی بی قرار اولدی
کلشنده ثنا خانلق اوزینه شعار اولدی

تپرتدی نسیم هر دم اول سبزهٔ نوخیزی
خاک اوزره بساط اولدی لعل دُر فیروزی
خند ایله کشاد ایتدی هم غنچهٔ کلریزی
آچلدی زراعتدن بو عالم ایچون روزی
ویردوکده سحاب هر سو دشته جویبار اولدی

دهقان حقیقتدن آرایش ایدوب باغی
تا ویردی صبا زینت چون موسم کل چاغی
سوسن قنفیل شبّو آرتوردی بو نوراغی
نرکس دخی مست اولدی بزم ایچره کرک ساقی
شبنم قدحین دوتقان چون لاعُذار اولدی

نسرین شقایقلر خاک اوزره دوروب خرم
زنباغله پاپوچل هم صحبت اولوب بر دم
حسرت کله بنفشه قدینی قلوپدور خم
اول کل صبا سنبل بی وجه دکل همدم
زلفی رخی محبوبه همرنک نکار اولدی

ای **شوقی** سن آکاه اول کوردکده که جانانی
اما بو سببدندور چوخ کورمیسن هجرانی
تندن چخاروب ناکه تاپشورمیه سن جانی
تا وصلنی بولدونک کیم سُور ذوقیله دورانی
عهدینه وفا قلدی یارنک سنکا یار اولدی

Könlüm oldu hicrində möhnət, qəm naçağı,
Yetmək üçün vəslinə , can edər iştiyağı.
Eşqin odu köksümdə qoy bəkləsin yatağı,
Mərhəm qoyub əfkarıma, sinəmdə qanlı dağı.
Söndürmə öz əlinlə yandırdığın çırağı.

Şəşəsi hüsnünün aləmə saldı pərtöv,
Zülfü zənəxdanında can quşu bir ov.
Səcdə etməz tağına , durub zahidi-kəcrov,
Uymuş cununa könlüm , əbruna deyir mahi-nov.
Nə etibar ona kim, seçməz qaradan ağı.

Qəmzələrin peyvəstə aşiqi incitmək istər,
Rəşki-ləbində badi-fənaya getmək istər.
Dil dəhanın sirrinin vəchinə yetmək istər,
Dürr tək dişin sözünü hərdəm eşitmək istər.
Bəhrin müdam onunçün sahildədir qulağı.

Bir şüxi bihəmtasan , dəhridə yox nəzirin,
Olmuş dərində xəstə mən tək neçə həqirin.
Hurilər camalını görməyə müntəzirin,
Zülfi-siyəhs-ənəmlər olmuş sənin əsirin.
Eşqində hər birinin öz zülfi , buyi bağı.

Gülşənə getdikdə gül pəjmürdə qıldı halın,
Nərgis çeşmin görəndə , yəqin bildi zavalın.
Lalə rüxün dövründə , tərk etdi rengi-alın,
Qəddin qəmində sərvin sormağa zəfi-halın.
Gülzardan kəsilməz irmaqların ayağı.

Xoş bəzənir fəsli-gül , meykələr otağı,
Eyş edər onda biz, könül sür bu çağı.
Rindlər istər müdam mey saf ayağı,
Gər mişk versə aşıq , ol buyi-zülfə sağı.
Tünd olma bir qədəh ver, tər eyləsin dimağı.

**Şövqi** mey nəşəsinin başımdadır füuli,
Piri-muğani mürid oldu könlüm qəbuli.
Vaiz bizə vəəz edib təfsilə vermə tuli,
Dövran həvadisindən yox bakımız Füzuli.
Darul-amanımızdır meyxanalar bucağı.

کونکلم اولدی هجرنکده محنت غم نچاقی
یتمکیچون وصلنکا جان ایدر اشتیاقی
عشقنک اودی کوکسمده قوی بکلسنک یطاقی
مرهم قویوب آفکارمه سینمده قانلو داقی
سوندورمه اوز النکله یاندوردقنک چراقی

شعشعه سی حُسنیُونک عالمه سالدی پرتو
زلف زنخدانکده جان قوشی بر اَو
سجده ایتمز طاغنکا دوروب زاهد کج رو
اویمش جنونه کونکلم ابرنکا دیر بر ماه نو
نه اعتبار آنکا کیم سیچمز قرادن آقی

غمزه لرنک پیوسته عاشق اینجتمک ایستر
رشک لبنکده باده فنانه کتمک ایستر
دل دهاننک سرّنینک وجهینه یتمک ایستر
دُر تک دیشنک سوزینی هر دم ایشتمک ایستر
بحرنک مدام آننکچون ساحلده دور قولاقی

بر شوخ بی همتاسن دهریده یوخ نظیرنک
اولمش درنکده خسته من تک نیچه حقیرنک
حوریلر جمالنکی کورمکه منتظیرنک
زلفی سیه صنملر اولمش سننک اسیرنک
عشقنده هر بریننک اوُز زلفی بُوینی باقی

کلشنه کیتدوکده کل پژمرده قلدی حالین
نرکس چشمنک کورنده یقین بلدی زوالین
لاله رخنک دوریندە ترک ایتدی رنکُ آلین
قدّنک غمینده سرونک صُورماغه ضعف حالین
کلزاریدن کسلمز ایرماغلرنک اياقی

خوش بزه نُور فصل کل میکده لر اوطاغی
عیش ایدر اونده بیز کونکل سور بُو چاغی
رندیلر ایستر مدام می صاف ایاغی
کر مشک ویرسه عاشق اوُل بُوی زلفه ساغی
تُند اولمه بر قدح ویر تر ایلسنک دماقی

**شوقی** می نشئة سیننک باشمده در فعولی
پیر مغانی مرید اولدی کونکلم قبُولی
واعظ بیزه وعظ ایدوب تفصیله ویرمه طولی
دوران حوادثندن یُوخ باکمز فُضُولی
دارالامانمزدُر میخانه لر بُوجاقی

Bir huri-sifət gördüm, olmaz belə insani,
Bu məədən hüsn içrə oldur gövhərin kani.
Tərk etdi ləbi-ləli , ol ləli-Bədəxşani,
Ayinə sevər candan rüxsareyi-cananı.
Bir qayətə yetmiş kim, ayılarsa çıxar canı.

Fərz oldu qərin olmaq beylə şəhi-xubana,
Düşmüş rüxünə fil tək  həm , xallar meyi-yekdana.
Can riştəsini üzdi , zülfünə töküb şana,
Derdim verəyim könlüm ol çahi-zənəxdana.
Könlümdə görər oldum ol çahi-zənəxdanı.

Cənnətdə olan huri hüsnə dəyil nisbət,
Gül arizinə lalə dağılə çəkər həsrət.
Can almağa ol türrə verməz daha bir möhlət,
Azadələrin könlün cəm etmiş ikən qəflət.
Tərpətmə səba billah ol zülfi pərişanı.

Zəf oldu tənim mu tək, gündən-günə incəldim,
Çox girvə-vü- zar etdim, çeşmim yaşını sildim.
Qaldın yinə fərqində dildardan ayrıldım,
Hicran gecəsin görkəc , düzəx ələmin bildim.
Kim ruzi-qiyamətdir yarın şəbi-hicranı.

Manənd sənə hər xub olmaz sənəma əsla,
Sən leyli-aləmsən , Məcnun mənəm , şeyda.
Ta vəslinə yetdikcə can tazzalanır güya,
Pəjmürdə tənim qıldı ənfasın əcəb ehya.
Göstərdi ləbin hərdəm ecazi-Məsihanı.

Zahid meyə myelin çox məqsuduna heç yetmə,
Göstərmə riya xalqa , məscidlərə həm getmə.
Pəndilə nəsihətdə gəl çox bizi incitmə,
Sahib fətəva məkruh tənbakını çox etmə.
Yey səndəki qeybətdən çəkmək bizə qəlyanı.

Ey şüx bu eşq içrə kim , sənin hünər qılmaz,
Dərdü qəm , möhnətdə xuni-ciyər qılmaz.
Yar hali-dilin bilsə , bir rəhm məyər qılmaz,
Yarəb nə səbəbdəndir kim, hiç əsər qılmaz.
Dildara **Füzulinin** fəryad ilə əfqanı.

بر حوری صفت کوردیم اوُلمز بیله انسانی
بو معدن حُسن ایچره اوُلدُور کهرنک کانی
ترک ایتدی لبُ لعلی اوُل لعل بدخشانی
آیینه سَوَر جاندن رخسارهٔ جانانی
بر غایته یتمش کیم آیلرسه چیخار جانی

فرض اولدی قرین اولمق بیله شه خوبانه
دوشمش رخینه فیل تک هم خالّار می یکدانه
جان رشته سنی یوزدی زلفینه دگُوب شانه
دیردُوم وَره بیم کونکلم اول چاه زنخدانه
کونکلمده کورر اولدیم اول چاه زنخدانی

جنتده اولان حوری حسنکا دکل نسبت
گُل عارضنکا لاله داغیله چکر حسرت
جان آلمقه اول طرّه ویرمز دخی بر مهلت
آزاده لرُنک کونکلین جمع ایتمش ایکن غفلت
تیرتمه صبا باللہ اول زلف پریشانی

ضعف اولدی تنم مو تک کوندن کونه انچلدیم
چوخ کریه و زار ایتدیم چشمم یاشینی سلدیم
قالدیم ینه فرقنده دلداریدن آیریلدیم
هجران کیجه سین کورکج دوزخ آلمین بلدیم
کیم روز قیامتدور یارنک شب هجرانی

مانند سنکا هر خوب اولمز صنما اصلا
سن لیلی عالم سن مجنون منم شیدا
تا وصلنکا یتدوکده جان تازه لنور کویا
پژمرده تنم قلدی انفاسنک عجب اَحیا
کوستردی لبنک هر دم اعجاز مسیحانی

زاهد میه میلنک چوخ مقصودنکا هچ یتمه
کوسترمه ریا خلقه مسجدلره هم کیتمَه
پندیله نصیحتده کل چوخ بیزی اینجتمه
صاحب فتوی مکروه تنباکونی چوخ ایتمه
یک سنده که غیبتدن چکمک بیزه قلیانی

ای شوخ بو عشق ایچره کیم سننک هنر قلماز
درد غم مُحنتده هم خون جکر قلماز
یار حال دلنک بلسه بر رحم مکر قلماز
یا رب نه سببدندور کیم هیچ اثر قلماز
دلداره **فُضُولیننک** فریاد ایله افغانی

Sevdi könlüm yinə bir şüxi-sitəmkar mənim,
Qəsd edib , canıma ol qəmzəsi xunxar mənim.
Vaqif olmuş daha hər sirrimə əğyar mənim,
Faş qıldın qəmimi ey dideyi-xunbar mənim.
Eylədin mərdümə nəm olduğun izhar mənim.

Dəyil heyrətdə müdam əbəs diləfkarlığım,
Bu səbəbdəndir mənim ləli-gövhərbarlığım.
Bəsləmiş dürcü sədəfdə dürri- şəhvarlığım,
Dəhənin istərəmey ey eşq , yox et varlığım.
Ki , yox olmağa bugün bir  qərəzim var mənim.

Basdı gülzara qədəm , getməyə ol mərdümi-çeşm,
Qoymadı vəslinə mən yetməyə , ol mərdümi-çeşm,
Istəmiş aşiqin incitməyə , ol mərdümi çeşm,
Çıxmış əğyar ilə sey etməyə , ol mərdümi-çeşm.
Bu əcəbdirmi ki, çıxmış gözüm ağar mənim.

Eşq tüğyanı gəlib , tutdu gəribanımdan,
Baxdı , yandırdı məni atəşi-hicranımdan.
Axıban seyl rəvan dideyi-giryanımdan,
Mövc ilə könlümü ey əşk qopar yanımdan.
Nalə ilən başım ağrıtdı bu bimar mənim.

Istərəm ki, mənim səri-ömrüdə dərxəlvət olam,
Hicr eşqində onun yarü qəmü möhnət olam.
O dəyil mətləbimi  , yadı ilə həsrət olam,
Bu təmənnada ki, ol şəmilə həmsöhbət olam.
Düdi-ah etdi du  nimtək günümü tar mənim.

Bağladı məkrü füsünilə zəbanın gözümün,
Tökdi rüxsarıma ta əşki-rəvanın gözümün.
Aləmə kəşf elədi sirri-nahanın gözümün,
Çıxmış ol şüx bugün tökməyə qanın gözümün.
Girmə ey göz , kərəm et qanıma zinhar mənim.

**Şövqiya** katib usandı sitəmim yazmaqdan,
Hərfi dal üzrə baxıb , qəddi xəmim yazmaqdan.
Xamələr oldu şikəstə ələmim yazmaqdan.
Ey **Füzuli** dərü divara qəmim yazmaqdan.
Şahidi-halım olubdur dərü divar mənim.

سودی کونکلم کنه بر شوخ ستمکار بنم
قصد ایدوب جانیمه اول غمزه سی خونخوار بنیم
واقف اولمش دخی هر سرّیمه اغیار بنم
فاش قلدونک غممی ای دیدهٔ خونبار بنم
ایلدونک مردمه نم اولدوقین اظهار بنم

دکُل حیرتده مدام عبس دلفکارلقیم
بو سببدندور منم لعل کوهربارلقیم
بسلمش درج صدفده درّ شهوارلقیم
دهنین ایسترم ای عشق یوخ ایت وارلقیم
که یوخ اولماقده بکون بر غرضیم وار بنم

باسدی کلزاره قدم کتمکه اوُل مردم چشم
قویمدی وصلینه بن یتمکه اول مردم چشم
ایستمش عاشقین انجتمکه اول مردم چشم
چیخمیش اغیار ایله سیر ایتمکه اول مردم چشم
بو عجبدورمی که چیخمش کوزیم آغلار بنم

عشق طغیانی کلُوب دوتدی کریبانیمدن
یاخدی یاندوردی بنی آتش هجرانیمدن
آخُوبن سیل روان دیدهٔ کریانیمدن
موج ایله کونکلمی ای اشک قوپار یانیمدن
ناله ایلن باشیم آغرتدی بو بیمار بنم

ایسترم کا بنم سر عمریده در خلوت اولام
هجر عشقینده آننک بار غمُ مُحنت اولام
او دکل مطلبمز یادی ایله حسرت اولام
بو تمناده که اول شمعیله هم صحبت اولام
دود آه ایتدی دو نیم تک کونمی تار بنم

باغلادی مکر فسُونیله زبانین کُوزیمُون
تُوکدی رخساریمه تا اشک روانین کُوزیمون
عالمه کشف ایلدی سرّ نهانین کُوزیمُون
چخمیش اول شوخ بکُون توکمکه قانین کوزیمون
کیرمه ای کُوز کرم ایت قانمه زنهار بنم

**شوقیا** کاتب اوُصاندی ستمم یازمقدن
حرف دال اوزره باخوب قدّ خمم یازمقدن
خامه لر اولدی شکسته اُلمم یازمقدن
ای **فضولی** در و دیواره غمم یازمقدن
شاهد حالیم اولوپدور در دیوار بنیم

Aradım bu eşq dərdiçün evinin dünyanın,
Dəsti-ümidilə tutdum ətəyin dünyanın.
Cəhd ilə küyinə yetdim neçə ətibbanın,
Dəhənin dərdimə dərman dedilər cananın.
Bildilər dərdimi yoxdur verələr dərmanın.

Zahida təənə vurub , ahıma etmə əcəbi,
O cəhətdən çəkərəm daima rəcü təəbi.
Dili üşşaq təmənnasıdır , xublar tələbi,
Olsa məhbubların eşqi cəhənnəm səbəbi.
Huri qılmanı qalır kəndüsünə rizvanın.

Mütrib eyşi-tərəbin zövqını əlbəttə bulub,
Saqi sun badeyi gülgüni , qəm çəkmə nolub.
Ləblərin nisbəti səhba ilə peymana dolub,
Keçdi meyxanadan əhl, məsti-meyi-eşqin olub.
Nə mələksən ki, xarab etdin evin şeytanın.

Xəşm edər kim , nəzər etsəm məhi-rüxsarına
Canımın qatilidir , mən qılım çara sənə.
Qəsd edib qəmzələri, həm ciyərim parasına,
Vurmaram səhhət üçün mərhəm oxun yarasına.
Istərəm çıxmaya zövqi , ələmi peykanın.

Olmaz ol çərxi-müəllada sənə mah qərin,
Şəmsi-rüxsarını gördükcə oxur min təhsin.
Dili – övsafi-hımidin qılaram mən vəsfin,
Nə bilir oxumayan müshəfi-hüsnün şərhin.
Yerə göydən nə üçün endiyini Quranın.

Saldı eşqim yinə bu aləmə qövğa kələki,
Həm cahan əhli olub naleyi-zarım mələki.
Dudi-ahım əsəri atəşə yaxdı fələki,
Yerdən edigüyünə qoymuşdı sirişkim mülki.
Onda həm qoymayacaqdır oları əfqanın.

**Şövqiya** dönmədi rəyincə fələki- süfləyi-dün,
Bəxti-bərgəştə kimi yaleimiz oldu zəbun.
Eşq sərgəştəsiyəm yoxdu mənə rəhnəmun,
Ey **Füzuli** olubam qərğəyi-girdabi-cunu.
Gör nə qəhrin çəkərəm dönə- dönə dövranın.

آرادیم بو عشق دردیچون آَویین دُنیاننک
دست اُمیدیله دوتدوم اتکین لقماننک
جهد ایله کوینه یتدوم نچه اُطبّاننک
دهنین دردیمه درمان دیدیلر جاناننک
بلدیلر دردیمی یوخدور ویریلر درماننک

زاهدا طعنه اوروب آهمه ایتمه عجبی
او جهتدن چکرم دآئما رنج تعبی
دل عشاق تمنّاسیدُور خوبلار طلبی
اولسه محبوبلرنک عشقی جهنم سببی
حوری غلمانی قالور کندُوسنه رضوانننک

مطرب عیشی طربنک ذوقنی البته بوُلوُب
ساقی صونک بادة کلکونکی غم چکمه نوُلوُب
لبلرنک نسبتی صحبا ایله پیمانه دوُلوُب
کیچدی میخاندن اهل مست می عشقنک اوُلوُب
نه ملک سن که خراب ایتدُونک اوین شیطاننک

خشم ایدر کیم نظر ایتسم مه رخساره سنه
جانمنک قاتلیدربن قلیم چاره سنه
قصد ایدوب غمزه لری هم جکریم پاره سنه
اورمزم صحت ایچون مرهم اوخنک یاره سنه
ایسترم چیقمیه ذوقی المی پیکاننک

اولمز اول چرخ معّلاده سنکا ماه قرین
شمس رُخسارنکی کوردوکجه اوُخور بن تحسین
دلی اوصاف حمیدنک قلارم من وصفین
نه بلور اوُخومین مصحف حسننک شرحین
یره کوکدن نه ایچون اندیکینی قرآننک

سالدی عشقیم کنه بو عالمه غوغا کَلَکی
هم جهان اهلی اولوب نالة زاریم ملکی
دود آهیم اثری آتشه یاخدی فلکی
یردن ایدل کوکُه قومشدی سرشکیم ملکی
آنده هم قویمیه جکدور اولاری افغاننک

**شوقیا** دونمدی راینجه فلک سفلة دون
بخت برکشته کمی طالعمز اولدی زبون
عشق سرِکشته سی ام یوخدو بنکا رهنمون
ای **فضُولی** اولوبم غرغة کرداب جنون
کور نه قهرین چکرم دونه دونه دورانننک

Ey gözüm əşyayi-dəhrin işvə-vü nazi nabi var,
Aşiqi məşüqənin hər birinin bir babı var.
Bağ içində əndəlibin gül kimi əhbabı var,
Sey qil gör kim , gülüstanın nə abi-tabi var.
Hər tərəf min sərvi-sərsəbz-ü güli sirabı var.

Gülşən içrə bəzm üçün tikmiş şəqayiqlər xanələr,
Lalə doldurmuş qədəh,şəbnəm tutub peymanələr.
Bənzəmiş çeşminə yarın nərgisi-məstanələr,
Pəncəyi-bərgi-çinar etmiş mühəyya şanələr.
Anlamış güya ki, sünbül kakilinın tabı var.

Verdi həm badi-səba buyi müəttər gülşənə,
Mişki-Çindən ta Xutəndən tökdü ənbər gülşənə.
Dəsti-qüdrətdir verən zinət sərasər gülşənə,
Rahətiçün fərş salmış səbzəyi tər gülşənə.
Nərgisin görmüş , gözün məxmur salmış ,xabı var.

Keşti-zar etmiş çəməndə bağbanı-qəza,
Sübhidən gülzarıda bulbul surud eylər nəva.
Gül hisar üçün qılıbdır aşiyan behcətsəra,
Bulunur hər dərdə istərsən gülüstanda dəva.
Hoqqasında qöççanın sankim şəfa cüllabı var

Mövsimi gül gəldi , göstərdi cahan nəşvü nəma,
Kuhü səhra taləzar olmuş , görən der məhəba.
Rəsmdir aləm bu mövsimdə gəzər kim, cabəca,
Qalib olmuş xalqa zövqi-seyri-gülşən qaliba.
Çəkməyə xalqı bənövşə zülfün qullabı var.

Mahi-tələt şölə salmış seyrə çıxmış halədən,
Cəm edib üşşaq könlün həm qutarmış nalədən.
Saqi sun meylə İraqı, rəngin almış lalədən,
Gəldi gül , açıldı nərgis , lalə doldu jalədən.
Ey xoş olkim, eşrətü eyş etməyin əsbabı var.

Ahü fəryadım kimi , dad eyləsə bülbül nola?
Olsa əhvalım  görüb aşüftə tər sünbül nola?
**Şövqi** çeşmim töksə qan-yaş lalə tək hər il nola?
Gər **Füzuli** meyli-gülzar etsə fəsli-gül nola?
Eyş üçün xunabeyi-dildən şərabi nabı var.

ای کوزیم اشیای دهرنک عشوه ناز نابی وار
عاشقی معشوننک هر بریننک بر بابی وار
باغ ایچنده عندلیبنک کل کمی احبابی وار
سیر قیل کور کیم کلستاننک نه آبی تابی وار
هر طرف بن سرو سرسبز و کل سیرابی وار

کلشن ایچره بزمیچون تکمش شقایقلر خانه لر
لاله دولدورمش قدح شبنم دوتوب پیمانه لر
بنکزه میش چشمینه یارنک نرکس مستانه لر
پنجۀ برک چنار ایتمش محیّا شانه لر
آنکلمش کویا که سنبل کاکلیننک تابی وار

ویردی هم باد صبا بوی معطر کلشنه
مشک چیندن تا خُطندن توکدی عنبر کلشنه
دست قدرتدور ویرن زینت سراسر کلشنه
راحتیچون فرش سالمش سبزۀ تر کلشنه
نرکسنک کورمش کُوزین مخمور سانمش خوابی وار

کشت زار ایتمش چمنده باغبانی قضا
صُبحدن کلزاریده بلبل سرود ایلر نوا
کل حصار ایچون قلُوپدور آشیان بهجت سرا
بُولُونور هر درده ایسترسن کلستانده دوا
حُقّه سنده غنچه ننک سانکیم شفا جلّابی وار

موسم کل کلدی کوستردی جهان نشو نما
کوه صحرا لاله زار اولمش کورن دِیَر مرحبا
رسمدور عالم بو موسمده کزر کیم جابجا
غالب اولمش خلقه ذوق سیر کلشن غالبا
چکمکه خلقی بنفشه زلفنک قلّابی وار

ماه طلعت شعله سالمش سیره چیخمش هاله دن
جمع ایدوب عشاق کونکین هم قوتارمش ناله دن
ساقی صُونک میله عراقی رنکین آلمش لاله دن
کلدی کل آچلدی نرکس لاله دولدی ژاله دن
ای خوش اولکیم عشرت عیش ایتمکنک اسبابی وار

آهُ فریادیم کمی داد ایلسه بلبل نوله
اولسه احوالیم کوروب آشفته تر سنبل نوله
**شوقی** چشمم توکسه قان یاش لاله تک هر ایل نوله
کر **فُضُولی** میل کلزار ایتسه فصل کل نوله
عیش ایچون خونابۀ دلدن شرابی نابی وار

Dilbəra qəddin kimi bir sərvi-xoşrəftar yox,
Rövzeyi-rizvanda sən tək şüxi-gülrüxsar yox.
Qönçədən sordum dəhanın söylədi təkrar yox,
Ləblərin ləli-ləfzin tək dürri-şəhvar yox.
Ləlü gövhər çox ləbin tək ləli-gövhərbar yox.

Damənin tutdum həbibim sidqilən çəksən əli,
Yaslanıb xaki-dərində sevmişəm sən gözəli.
Xah öldür, xah qoy hökmisə elmi-əzəli,
Səndən etməm dad , cövrun var , lütfün yox vəli.
Məsti-zövqü şövkətəm, birdir yanımda var , yox.

Tən edər xubluqda hüsnün xurşidi-dirəxşana da,
Düşdü əbruyi hilalından ki , məh nüqsana da.
Yox sənə həmta pərim, qılsan nəzər həryana da,
Surəti-ziba sənəmlər yox deməm butxana da.
Var çox amma sənə bənzər buti-xunxar yox.

Saqi mey olmuş qərəz xəlqi-cahanın həmdəmi,
Uydular dəhri-fənada çəkməyib üqba qəmi.
Içdilər badəyi- ankub hər ləhzə Cəmşidi-cəmi,
Dövri-sərməsti-şərab qəflət etmiş aləmi.
Bunca sərməstin təmaşasına bir hüşyar yox.

Etiqadi çün zamana əhlinin tapmış xələl,
Mərdümi aləm müdam bir-birilən eylər cidal.
Yomi-məhşər var heç kim bilməmiş ruzi-əzəl,
Xalqı mədhuş eyləmiş xabi-şəb , tuli-əməl.
Sübhi-təhqiqin əlamatına bir bidar yox.

Bir gəl ey məhvəş, gör hicranında ahi-sərdimi,
Ağlamaqdan olmuş əma hər du çeşmim mərdümi.
Əşki-xunbarım dəyib , al etdi ruyi-zərdimi,
kimə izhar eyləyim bilməm  bu pünhan dərdimi.
Var yüzmin dərdi-pünhan qüdrəti-izhar yox.

Demə **Şövqi** qamətim hicrində yarın xəm dəyil,
Kim der əhvalımı aşüftəyi dərhəm dəyil.
Bu cəhətdən çün mənim könlüm daha xürrəm dəyil,
Ey **Füzuli** hər qəmin qəmxari olsa qəm dəyil.
Qəm budur kim, məndə min qəm var , bir qəmxar yox.

دلبرا قدّنک کمی بر سرو خوش رفتار یوخ
روضهٔ رضوانده سن تک شوخ کل رخسار یوخ
غنچه دن سوردیم دهاننک سولدی تکرار یوخ
لبلرنک لعل لفظننک تک درّ شهوار یوخ
لعل کوهر چوخ لبنک تک لعل کوهر بار یوخ

دامننک دوتدیم حبیبم صدقلن چکمن اَلی
یاسلانُوب خاک درنکده سومشم سن کوزه لی
خواه اولدور خواه قوی حکمیسه علم ازه لی
سندن ایتمن داد جورنک وار لطفنک یوخ ولی
مست ذوق شوقنکم بردر یانمده وار یوخ

طعن ایدر خوبلقده حسننک خورشید درخشانه ده
دوشدی ابرویی هلالنکدن که مه نقصانه ده
یوخ سنکا همتا پریم قلسنک نظر هر یانه ده
صورتی زیبا صنملر یوخ دیمن بت خانه ده
وار چوخ امّا سنکا بنزر بت خونخوار یوخ

ساقی می اولمش غرض خلق جهاننک همدمی
اویدیلر دهر فناده چکمیوب عقبا غمی
ایچدیلر باده آنکوب هر لحظه جمشید جمی
دور سرمست شراب غفلت ایتمش عالمی
مونجه سرمستنک تماشاسینه بر هوشیار یوخ

اعتقادی چون زمانه اهلنک تاپمش خلل
مردمی عالم مدام بیربیریلن ایلر جدل
یوم محشر وار هیچ کیم بلمه مش روزی ازل
خلقی مدهوش ایلمش خواب شب طول اَمَل
صبح تحقیقنک علاماتینه بر بیدار یوخ

بر کَل ای مهوش کور هجراننده آه سردمی
آغلامغدن اولمش اعما هر دو چشمم مردمی
اشک خونباریم دکیب آل ایتدی روی زردمی
کیمه اظهار ایلیم بلمن بو پنهان دردمی
وار یوزمین درد پُنهان قدرت اظهار یوخ

دیمه **شوقی** قامتم هجریده یارین خم ده کُل
کیم دیر احوالمی آشفته درهم ده کُل
بو جهتدن چون منم کونکلم دخی خرّم ده کُل
ای **فُضُولی** هر غمنک غمخواری اولسه غم ده کل
غم بودور کیم بنده بن غم وار بر غمخوار یوخ

Sənə ey şüx huri , qılman dedilər?  gerçəkimiş,
Küyına rövzeyi-rizvan dedilər? gerçəkimiş.
Vəchinə zibi-gülüstan dedilər? gerçəkimiş,
Rurinə bir güli-xəndan dedilər? gerçəkimiş.
Xəttinə sünbülü reyhan dedilər? gerçəkimiş.

Vermiş ol qadiri-yekta sənə çox hüsnü camal,
Qaşların qövsi-qəzəhdir , arizin laleyi-al.
Görsə rüxsarını xurşid batar , bəski , zaval,
Incəlir muy kimi , bir günlük olan maha missal.
Tapar əlbəttə ki, nüqsan dedilər? gerçəkimiş.

Məskənin xüldə bərabərdi şərafətdə sənin,
Dəhənin badeyi-kövsər lətafətdə sənin.
Sözlərin qəndi-mükərrərdi məlahətdə sənin,
Qamətin bağıda ərərdi nəzakətdə sənin
Qəddinə sərvi-xuraman dedilər? gerçəkimiş.

Nagəhan qaşı gəlib , bir üzünü görsən əyər,
Əql başımdan uçub , bil ki, sərasimə gəzər.
xəminə , çahi-zənəxdanına gör, saldı nəzər,
gördü goftarını , dürrcundə sənin ləlü gövhər.
Dişinə ta dürri-qəltan dedilər? gerçəkimiş.

Möcizi-nütqünü görkəc ki , Məsihada gərək,
Qıla nəzzarə müdam , çərxi-muqəəlada gərək.
Bir dəmilən edə yüz mürdəni ehyada gərək,
Xizr onun şəhd elər ki, təmənnada gərək.
Ləbinə çeşmeyi-heyvan dedilər? gerçəkimiş.

Sevmişəm gülşən arasında güli-rənayi,
Edərəm şürişi-əfqanla , min qövğayi.
Kim deyər , görsə məni əndəlibi-şeydayi,
Eylədin sən məni dilbər nə əcəb sevayi.
Olmuş aləmdə nümayan dedilər? gerçəkimiş.

**Şövqi** əqyar ilə daim edər cəngü cədəl,
Yoxdu qəm , tutsa gəribanım əyəy dəsti-əcəl.
Dəyiləm eşqü cununluqda ki, Fərhada bədəl,
Yarımı Leyli-sifət xub yazıb katib əzəl.
Məni Məcnuni-biyaban dedilər? gerçəkimiş.

سنکا ای شوخ حوری غلمان دیدیلر کرچکمش
گُوینکا روضة رضوان دیدیلر کرچکمش
وجهنکا زیب کلستان دیدیلر کرچکمش
روینکا بر گُلی خندان دیدیلر کرچکمش
خطّنکا سنبل ریحان دیدیلر کرچکمش

ویرمش اول قادر یکتا سنکا چوخ حسن جمال
قاشلرنک قوس قذحدور عارضنک لالة آل
کورسه رخسارنکی خورشید بتر بسکه زوال
اینچه لور موی کمی بر کونللک اولان ماهه مثال
تاپار البته که نقصان دیدیلر کرچکمش

مسکننک خلده برابردُرُ ُشرافتده سننک
دهننک بادة کوثر لطافتده سننک
سوزلرنک قند مکرّردُ ملاحتده سننک
قامتنک باغیده عرعردُ نزاکتده سننک
قدنکا سرو خرامان دیدیلر کرچکمش

ناکهان قارشو کلوب بر یوزنکی کورسم اکر
عقل باشمدن اوچوب بیل که سراسیمه کزر
خمنکا چاه زنخدانکا گُور سالدی نظر
کوردی کفتارنکی درجنده سننک لعل کوهر
دیشنکا تا درّ غلطان دیدیلر کرچکمش

معجزی نطقنکی کورکج که مسیحاده کرک
قله نظاره مدام چرخ معّلاده کرک
بر دمیلن ایده یوز مُردَه نی احیاده کرک
خضر آننک شهد ایلر که تمناده کرک
لبنکا چشمة حیوان دیدیلر کرچکمش

سومشم کلشن اراسنده کلی رعنایی
ایدرم شوریش افغانله مین غوغایی
کیم دیر کورسه بنکا عندلیب شیدایی
ایلدونک سن منی دلبر نه عجب سودایی
اولمش عالمده نمایان دیدیلر کرچکمش

**شوقی** اغیار ایله دآیم ایدرم جنک جدل
یوخد غم دوتسه کریبانیم اکر دست اَجل
دکولم عشق جنونلقده که فرهاده بدل
یارمی لیلی صفت خوب یازوب کاتب ازل
منی مجنون بیابان دیدیلر کرچکمش

Bəzmara badeyi-səhbasi gərəkdir kişinin,
Simtən saqiyi-zibasi gərəkdir kişinin.
Ləbləri-şəhdi-müsəffasi gərəkdir kişinin,
Mahi-tələt , rüxi-əlasi gərəkdir kişinin.
Çox onun sərində sevdasi gərəkdir kişinin.

Çala mütrib , götürə dəstə həm çəng ilə tar,
Oxuya güşeyi-məclis , tutuban musiqar.
Durub üşşaqa buseyi-naz edə , ol dəmdə ki vaar,
Xəndə ləb , sib zənəx, püstə dəhan , xoş goftar.
Tutivəş , xub , dilalarsı gərəkdir , kişinin.

Növbahar oldu , ənadil yinə göstərdi qolu,
Çıxdı gülşənlərə gül, gizlətmədi xakda ru.
Verdi çox rayihələr şəbbu , şəqayiq , məntu,
Neylər o sünbüli-tərdən ki, dimağa dəyə bu .
Mişk bu zülfi mütərrasi gərəkdir , kişinin.

Bağ ara seyrə çıxıb sərvi rəvan , görsə könül,
Qamətin əyməz ona , aləmi kan görsə könül.
Qarşı durmaz oxuna , qaşı-kaman görsə könül,
Nəzər etməz , yüz əyə r lalərüxan görsə könül,
Üzünün arizi-alması gərəkdir ,kişinin.

Hər kəsin taza nahalı gülizarında gərək,
Zərrəcik meyvələrin həm qoşa tarında gərək.
Bəsləyə güllərini bərg ilə barında gərək,
Tuta öz yarını , əlqissə kənarında gərək.
Özgədən olmaya pərvası gərəkdir kişinin.

Anlamaz oxumayan şer , qəzəl ləzzətini,
Əcəb etməz ona tutmasa gər hörmətini.
Yinə sərraf bilir , beylə dürrün qiymətinı,
Artırar arif əlinə düşə ta şöhrətini.
Söze pulütf ola , mənası gərəkdir, kişinin

Ey gözüm dəhridə hər yarı görüb , etmə həvəs,
Bağla bir yara könül, qeyilə peyvəndini kəs.
Muxtəsər çünki, təmaşayı cahandır bizə bəs,
**Şövqi** dünyaya könül vermə , əbəsdir bu əbəs.
Həsənat eylə ki, üqbası gərəkdir , kişinin.

بزم ارا بادهٔ صحباسی کرکدور کشیننک
سیم تن ساقی زیباسی کرکدور کشیننک
لبلری شهدُ مصفّاسی کرکدور کشیننک
ماه طلعت رخ اعلاسی کرکدور کشیننک
چوخ آننک سرینده سوداسی کرکدور کشیننک

چاله مطرب کُوتوره دستنه هم چنکله تار
اوخویه کوشهٔ مجلس دوتوبن موسیقار
دُورُوب عشّاقه بوسه ناز ایده اوُلدمده که وار
خنده لب سیب زنخ پسته دهان خوش کفتار
طوطی وش خوب دلاراسی کرکدور کشیننک

نوبهار اولدی عنادل کنه کوستردی غلو
چیخدی کلشنلره کُل کیزلمدی خاکده روُ
وردی چوخ رایحه لر شبّو شقایق منطو
نیلر اوُ سنبل تردن که دماغه دکه بوُ
مشک بو زلف مطرّاسی کرکدور کشیننک

باغ ارا سیره چیخوب سرو روان کورسه کونکل
قامتین اکمز آنکا عالمیکان کورسه کونکل
قارشو دُورمِز اوُخنه قاشی کمان کورسه کونکل
نظر ایتمز یُوز اکر لاله رُخان کورسه کونکل
اوزینن عارضی الماسی کرکدور کشیننک

هر کسنک تازه نهالی کل زارینده کرک
ذره چوق میوه لرین هم قوُشه تارینده کرک
بسلیه کوللّرینی برکیله بارینده کرک
دوته اوز یارینی القصه کنارینده کرک
اوزکه دن اولمیه پرواسی کرکدور کشیننک

آنکلاماز اوخومیان شعر غزل لذّتنی
عجب ایتمز آنکا دوتمسه کر حُرمتنی
ینه صرّاف بِلُور بیله دُرنک قیمتنی
آرتورور عارف الینه دوشه تا شهرتنی
سوزی پر لطف اولا معناسی کرکدور کشیننک

ای کوزوم دهریده هر یاری کوروب ایتمه هوس
باغلا بر یاره کونکل غیریله پیوندنکی کس
مختصر جونکه تماشایی جهاندور بیزه بس
**شوقی** دنیایه کونکل ویرمه عبسدور بو عبس
حسنات ایله که عقباسی کرکدور کشیننک

Keçdin ginə bu rahi-güzərdən qara çərqət,
Gördüm üzünü , sübhi-səhərdən qara çərqət.
Purnurdur ol şəmsü qəmərdən qara çərqət,
Göstərdi ziya bəhrilə bərdən qara çərqət.
Dağıtdı mənim əqlimi sərdən qara çərqət.

Gəldin bağa pabusun edər çəməndə güllər,
Rüxsarına baş əydi , görüb ləlti-əhmər.
Gül qönçəsi çəkdi üzünə pərdəyi-əxzər,
Şəhdi-dəhənindir , soralım çeşmeyi-kövsər.
Şirindir ləbin qəndü şəkərdən qara çərqət.

Açıldı nigar hüsnün ol taza baharı,
Bulbul kimi , körkəc çəkərəm nal vü zarı.
Əşcar qədin göstərib həm bərg ilə barı,
Ey sərv nahalın götürübdür qoşa narı.
Dərmək dilərəm yeni səmərdən qara çərqət.

Al dala geyib qamətinə seyr elə gülzar,
Xub yaraşır əndamına pirhəni gülnar.
Buxağına düz bir neçə mürvarilərin dar,
Goftarə gəl, ey ağzı sədəf , dişləri şəhvar.
Yeydir sözün ol ləlü gövhərdən qara çərqət.

Bir huriliqasan sənəma , yox sənə həmta,
Kəşf etmə niqabın ki, düşər aləmə qövğa.
Kim görsə camalın sənin ey hüsnüdə Lüyla,
Məcnuna dönər , sanki bu aləm sərü ta pa.
Səhraya düşər , cümlə şəhərdən qara çərqət.

Heyran oluram sən kimi məhbubi-cavana,
Sərində ləçək  çəkəndə dəstarini yana.
Nəzzarənə yox kimsədə bir tab- təvana,
Xubluğunu izhar eylədin sən ki , cahana.
Pünhan olu xublar bu xəbərdən qara çərqət.

Ey zöhrə-cəbin , sib zənəx, xalları filfil,
Sənsən gözü nərgis , rüxi-gül, zülfləri sünbül.
Oldum pəri bu şiveyi-rəftarına mail,
Ta vəslə yetib **Şövqini** mətlubin et hasil.
Üftadəni gəl salma nəzərdən qara çərqət.

کیچدونک کنه بو راه کذردن قرا چرقت
کوردوم یوزنکی صبح سحردن قرا چرقت
پر نوردر اول شمس قمردن قرا چرقت
کوستردی ضیا بحریله بَردن قرا چرقت
داغتدی بنم عقلمی سردن قرا چرقت

کلدونک باغه پا بوسنک ایدر چمنده کللّر
رخسارنکا باش اکدی کوروب لالهٔ احمر
کُل غنچه سی چکدی یوزینه پردهٔ اخضر
شهد دهننک در سوره لم چشمهٔ کوثر
شیرندور لبنک قند شکردن قرا چرقت

آچلدی نکار حسنیون اوُل تازه بهاری
بلبل کمی کورکج چکرم نالهٔ زاری
اشجار قدنک کوستروب هم برکیله باری
ای سرو نهالنک کتوروپدور قوشه ناری
درمک دیلرم ینکی ثمردن قرا چرقت

آل داله کیوب قامتنکا سیر ایله کلزار
خوب یراشور اندامنکا پیراهن کلنار
بُخاقنکا دوز بر نیچه مرواریلرنک دار
کفتاره کل ای آغزی صدف دیشلری شهوار
یکدور سوزنک اول لعل کوهردن قرا چرقت

بر حوری لقاسن صنما یوخ سنکا همتا
کشف ایتمه نقابنک که دوشر عالمه غوغا
کیم کورسه جمالنک سننک ای حسنیده لیلا
مجنونه دونر سانکه بو عالم سر و تا پا
صحرایه دوشر جمله شهردن قرا چرقت

حیران اولورم سن کمی محبوب جوانه
سریندە لچک چکنده دستارنکی یانه
نظارنکا یوخ کیمسده بر تاب توانه
خوبلوقنکی اظهار ایلدونک سن که جهانه
پُنهان اولو خوبلار بو خبردن قرا چرقت

ای زهره جبین سیب زنخ خالاری فلفل
سن سن کوزی نرکس رخی کُل زلفلری سنبل
اولدوم پری بو شیوهٔ رفتارنکا مائیل
تا وصله یتوب **شوقنی** مطلوبین ایت حاصل
افتاده نکی کل سالمه نظردن قرا چرقت

# ترکیب بند

Söyləyim arif isən guş eylə dəstanım hizar,
Ruzgarım qəmü dərd ilə keçər leylü nəhar.
O səbəbdən daha mirati-dilim tutdu qubar,
Baxmaz ol doğru mənə , əyri fələk nahəmvar,
Yetdim mənzili-məqsuduma bəxt olmadı yar,
Taleimdən yetənin mixim üstə zənbili var.

Qəfəsi-həbsidə bülbül kimi , nalan edərəm həmd,
Mişki-xunbar töküb , didəmi giryan eylərəm,
Özüm öz halımı hər ləhzə pərişan eylərəm,
Gah qəm dəfi üçün aləmi cövlan eylərəm.
Bulmadım dərdimə dərman, gəzərəm çarnaçar,
Taleimdən yetənin mixim üstə zənbili var.

Deyri-bəzmin tutaram güşeyi-meyxana qərəz,
İçərəm xuni-ciyər badeyi-peymana qərəz.
Məstü Məcnun-sifət ollam , yenə divanə qərəz,
Ahü naləm götürər aləmi həm cana qərəz.
Bəxti-bərgəştəliyimdən çəkərəm naleyi-zar,
Taleimdən yetənin mixim üstə zənbili var.

Tikdi qürbət tikanı içrə fələk məskənimi,
Dəyibən badi-xəzan gülxun edib gülşənimi.
Naxuni-üzr ilə çak eylədi pirahənimi,
Səg-rəqibi söyüş hala ki, tutar damənimi.
Xirsə nisbətdir , çəkər çevrəmə səng ilə hasa,
Taleimdən yetənin mixim üstə zənbili var.

Dəyil iqbalımız əlbəttə nəhüsətdə könül,
Çəkmə dünyada müdam dərd ilə möhnətdə könül.
Sürə gör zövqü səfa , eyşilə işrətdə könül,
**Şövqi** artır fərəhin , bağladı surətdə könül.
Həmqərin oldu sənə arizi-gül, lalə-üzr,
Taleimdən yetənin mixim üstə zənbili var.

سولیم عارف ایسنک کوش ایله دستانیم هزار
روزکاریم غم دردیله کچر لیلی نهار
اوُ سبندن دخی مرآت دلیم دوتدی غبار
باخمز اول طوغری بنکا اکری فلک ناهموار
یتمدیم منزل مقصودیمه بخت اولمدی یار
طالعمدن یته ننک میخیم اوسته زنبلی وار

قفس حبسده بلبل کمی نالان آیدرم حمد
مشک خونبار توکوب دیده می کریان ایلرم
اوزوم اوز حالمی هر لحظه پریشان ایلرم
کاه غم دفعیچون عالمی جولان ایدرم
بولمادیم دردیمه درمان کزرم چار نچار
طالمدن یته ننک میخیم اوسته زنبلی وار

دیر بزمین دوترم کوشهٔ میخانه غرض
ایچرم خون جکر بادهٔ پیمانه غرض
مست مجنون صفت اولّام کنه دیوانه غرض
آه نالم کُتورور عالمی هم جانه غرض
بخت برکشته لکمدن چکرم نالهٔ زار
طالعمدن یته ننک میخیم اوسته زنبلی وار

تکدی غربت تکنی ایچره فلک مسکنمی
دکوبن باد خزان کُلخن ایدوب کُلشنمی
ناخن عذر ایله چاک ایلدی پیرهنمی
سک رقینی سویش حالا که دوتر دامنمی
خرسه نسبتدور چکر چورمه سنکیله حصار
طالعمدن یته ننک میخیم اوسته زنبلی وار

ده کل اقبالمز البته نُحوُستده کونکل
چکمه دُنیاده مدام دردیله محنتده کونکل
سوره کور ذوق صفا عیشله عشرتده کونکل
**شوقی** آرتور فرحنک باغلادی صُورتده کونکل
هم قرین اولدی سنکا عارض کُل لاله عذار
طالعمدن یته ننک میخیم اوسته زنبلی وار

Dün seyrə gəldi gülşənə məhbubi-mahtab,
Gülzara saldı pur aşübü iztirab.
Nəzzarəsinə qalmadı taqətlə güldə tab,
Ol qönçəvəş ki, üzündən götürdü niqab.
Görkəc camalını pəh-pəh nə güldür dedim, dedi,
Səhv etmə , mehri-fəthi-sabahındır sənin.

Cənnətdir bu adəm , onun getsə küyinə,
Həsrət çəkər məlaik , əcəb xülqi xüyinə.
Lal oldu tutilər , dinəndə goftü-güyinə,
Daqıtdı dəst , şanə dəyib zelfi-ruyinə.
Əbyəz eylədi əsvədi, mənə bildir desəm , dedi,
Ol bir səhab içindəki mahındır sənin.

Aldır yanağı lalə kimi xətti-mişkbar,
Biğazə rəngi-çehrəsində buldum əhmar.
Zəmzəm , lətif dəhanın edib sün kirdigar,
Şəhdi-ləbində ki, gördüm zülal abdar.
Sördüm xəmin sənəm , neçə ildir dedim, dedi,
Rəhbərdir abi-həyata pənahındır sənin.

Bu hüsn içində bəşər sənə heçkim deməz , şəha,
Sənsən nəim rövaəndə bir sərvi hürü ləqa.
Tərpəndi arizində bu türrənin nəsimi-səba,
Rüxsarın üzrə düşəndə saçın ənbərsa.
Vəchində bənpvşə bu sünbüldür dedim, dedi,
Sal boynuna bir dami-siyahındır  sənin.

Ey badi-sba yarıma məndən yetir xəbər,
Ərz et bu aşiqin hicran qəmin çəkər.
Heç bir deməzsən atəşi-eşqə adı məyər,
Çeşmi-yaş ilə ki, naləm cahanı qərq edər.
Bu əbr abına seldir dedim, dedi,
Əbsəm ki, **Şövqi** əşkilə ahəngdır sənin.

دونک سیره کلدی کلشنه محبوب ماه تاب
کلزاره سالدی پر آشوب اضطراب
نظاره سینه قالمدی طاقتله کُلده تاب
اول غنچه وش که یوزندن کتوردی نقاب
کورکج جمالنی په په نه کلدور دیدیم دیدی
سهو ایتمه مهر فتح صباحنکدور سننک

جنت دیر بر آدم آننک کتسه کوینه
حسرت چکر ملائک عجب خلقی خوینه
لال اولدی طوطی لر دیننده کفت کوینه
داقتدی دست شانه دکوب زلفی روینه
ابیض ایله اسودی بنکا بلدور دیسم دیدی
اول بر سحاب ایچنده کی ماهنک در سننک

آلدور ینکاقی لاله کمی خطی مشکبار
بی غازه رنک چهره سنده بولدیم احمرار
زمزم لطیف دهانین ایدوب صنع کردکار
شهدی لبنکده که کوردیم ذلال ابدار
سوردیم خمین صنم نجه یلدور دیدیم دیدی
رهبردر آب حیاته پناهنک در سننک

بو حسن ایچنده بشر سنکا هیچ کیم دیمز شها
سن سن نعیم روضنده بر سرو حورُ لقا
تپرتدی عارضنکده بو طرّنک نسیم صبا
رخسارنک اوزره دوشنده ساچنک عنبرسا
وجهنکده بنفشه بو سنبلدور دیدیم دیدی
سال بوینکا بر دام سیاهنک در سننک

ای باد صبح یاریمه بندین یتیر خبر
عرض ایت بو عاشقنک هجران غمین چکر
هیچ بر دیمزسن آتش عشقه یاندی مکر
چشم یاشیله که نالم جهانی غرق ایدر
بو ابر آبه نه سیلدور دیدیم دیدی
ابسم که **شوقی** اشکیله آهنکدور سننک

Saqi gəzdir qədəhin, fəsli-bahar oldu, əcəb
Al geyib səbzə çəmən, nə laləzar oldu , əcəb.
Filməsəl rovzeyi-rizvan , kuhsar oldu , əcəb,
Baği-cənnət kimi hər  güşə ,kinar  oldu , əcəb.
Onda həmdəm bizə bir türfə-nigar  oldu,  əcəb,
Mənə gülzarıda hər ləhzə düçar oldu, əcəb.
Eylə sandım yerişin , məsti-xumar oldu, əcəb,
Yoluna canımızın nəqdi nisar oldu, əcəb.
Peşkeşi payəndazı yanımda var oldu, əcəb,
Yinə Loqman-sifət ol dərdimə çar oldu, əcəb.
Tale üz verdi mənə, bəxt özü yar oldu, əcəb.

Tanrı göndərdi bizə eyni-şəfa, qəndir  bu,
Vurdu nisyan ilə çox aləmə nemətdir bu.
Sərv göstərdi qədin , yazdan əlamətdir bu,
Açdı gül ruyini, xubluqdan ibadətdir bu.
Jalədən bərginə dürr düşdü , lətafətdir bu,
Fəthi-gülzar idi , bülbülə nüsrətdir bu.
Oldu novruz, Ərəb , Əcəmdə adətdir bu,
Içilər badə bu mövsimdə ki, ləzzətdir bu.
Meyü məhbub ilə tut dəstinə , fürsətdir bu,
Fürsət əl verdiyinə fovt etmə , qənimətdir bu.
Saqi gəzdir qədəhin, fəsli-bahar oldu, əcəb.

Mailəm baği-nəzakətdə dilaralarına,
Görünür tubaya nisbət qədi-rənalarına.
Yanaram gün kimi , rüxsari-mücəllalarına,
Cənəbi mahi-mükəmməl , qaşı tüğralarına.
Ağ buxaq , üzrə siyəh zülf mütərralarına,
Gül kimi rəngin açan , arizi- həmralarına.
Düşdü könlüm ginə  bulbul kimi sevdalarına,
Yaxdı gülcehrələri şürişü qovğalarına.
Ey könül düşmüşük eşq içrə təmənnalarına,
Çıxalm bu fəslidə gülün təmaşalarına.
Al geyib səbzə çəmən, nə laləzar oldu , əcəb.

ساقی کزدور قدحنک فصل بهار اولدی عجب
آل کیوب سبزه چمن نه لاله زار اولدی عجب
فی المثل روضهٔ رضوان کوهسار اولدی عجب
باغ جنت کمی هر کوشه کنار اولدی عجب
آنده همدم بزه بر طرفه نکار اولدی عجب
بنکا کلزاریده هر لحظه دوچار اولدی عجب
ایله ساندوم یریشین مست خمار اولدی عجب
یولنه جانمزنک نقدی نثار اولدی عجب
پشکشی پایندازی یانمده وار اولدی عجب
ینه لقمان صفت اول دردیمه چار اولدی عجب
طالع اوز ویردی بنکا بخت اوزی یار اولدی عجب

تنکری کوندردی بزه عین شفا قنّدور بو
وردی نیسانیله چوخ عالمه نعمتدور بو
سرو کوستردی قدین یازدن علامتدر بو
آچدی کل روینی حوبلقدن عبادتدور بو
ژاله دن برکنه دُر دئشدی لطافتدور بو
فتح گُلزار ایدی بلبله نصرتدور بو
اولدی نوروز عرب عجمده عادتدور بو
ایچلور باده بو موسمده که لذتدور بو
می محبوب ایله دوت دستنکا فرصتدور بو
فرصت ال ویردیکه فوت ایتمه غنیمتدور بو
ساقی کزدور قدحنک فصل بهار اولدی عجب

مائلم باغ نزاکتده دل ارالرینه
کورونور طوبیه نسبت قدی رعنالرینه
یانارام کون کمی رخساری مجلّالرینه
جنبی ماه مکمل قاشی طغرالرینه
آغ بخاق اوزره سیه زلف مطّرالرینه
گُل کمی رنکین آچن عارض حمرالرینه
دوشدی کونکلم کنه بلبل کمی سودالرینه
یغدی گُل چهره لری شوریش غوغالرینه
ای کونکل دوشمشوک عشق ایچره تمنالرینه
چیخالوم بو فصلده گُلون تماشالرینه
آل کیوب سبزه چمن نه لاله زار اولدی عجب

Ey sənəm çünki , bu əyyam bahar oldu əyan,
Edəlim gəl indi bir seyri-təmaşayi-cahan.
Qılalım eyşilə , işrət , necə xoşdur bu nahan,
Açılıb süsənü sünbül güli , məntu , nəstərən.
Şahidi şaxi-gülün sanki, olub tazə cavan,
Əndəlib , qumri-vü tuti , kəbk ilə göstərdi lisan.
Gəzəlim kuh ilə səhra , tutalım onda məkan,
Cuybar açdı xoş avaz iləsöyləşdi nahan.
Dağlar çeşməsini tutmadı köksündə nahan,
Səlsəbil kimi , sular hər tərəfə axdı rəvan.
Filməsəl rovzeyi-rizvan kuhsar oldu , əcəb,

Gəzib ol şüx bugün naz ilə bağları tamam,
Qıldı bu sərvü sənubər dili gülzara xuram.
Bir əcəb səhni-çəmənzarıda nisbət etdi Xəyyam,
Saqi bəzm əhlini süst etdi , vurub badeyi-cam.
Qıldı həm gərdəni-üşşaqa siyəh-zülfünü dam,
Aldı xublar , qərəz ol bəzmi-tərəbnakda kam.
Verdi mütrib daha nəğmati-səməndinə licam,
Ey könül durma həzin guşeyi-izlətdə müdam.
Gəl bu mənzildə edək zövqü səfa sübhilə şam,
Tut bu dəm hurilər ilən ovcı səadətdə məqam.
Bağı-cənnət kimi hər güşə, kinar oldu , əcəb.

Eylə nəzzarə gözüm hüsnünə məhbubların,
Gör camalın belə göyçəklik ilə mənsubların.
Olmuşam sidqisi bu surəti mərğubların,
Çək könül bari-qəmin məhvəşü mərbubların.
Çoxdur eşq içrə sənin şiveyi-uslubların,
Yandın atəş kimi bəzmində bu məqubların.
Tuta gör ağuşuna gər olsa məqrubların,
Biri fanussifət şəmini məhcubların.
Ərzə ver yarına yetkəc , oxu məktubların,
Basdın ey dil qədəmi məclisinə xubların.
Onda həmdəm bizə bir türfə-nigar oldu, əcəb,

ای صنم چونکه بو ایام بهار اولدی عیان
ایده لوم گل ایندی بر سیر تماشای جهان
قله لوم عیشله عشرت نجه خوشدور بو نهان
آچلوب سوسن سنبل کلی منطو نستران
شاهدی شاخ کلنک سانکه اولوب تازه جوان
عندلیب قُمری طوطی کپکله کوستردی لسان
کزه لوم کوهله صحرا دوته لوم آنده مکان
جویبار آچدی خوش آوازیله سولشدی نهان
داغلر چشمه سنی دوتمادی کوکسنده نهان
سل سبیل کمی سولار هر طرفه آخدی روان
فی المثل روضة رضوان کوهسار اولدی عجب

کزوب اول شوخ بکون نازیله باغلاری تمام
قلدی بو سرو صنوبر دلی کلزاره خرام
بر عجب صحن چمن زاریده نسبت ایتدی خیام
ساقی بزم اهلنی مست ایتدی وروب بادهٔ جام
قلدی هم کردن عشاقه سیه زلفنی دام
آلدی خوبلار غرض اوُل بزم طربناکده کام
ویردی مطرب دخی نغمات سمندینه لجام
ای کونکل دورمه حزین کوشه عزلتده مدام
کل بو منزلده ایدک ذوق صفا صبحله شام
دوت بو دم حوری ایلن اوج سعادتده مقام
باغ جنت کمی هر کوشه کنار اولدی عجب

ایله نظاره کوزیم حسننه محبوبلرونک
کور جمالین بیله کوکچکلله منسوبلرنک
اولمشم صدقسی بو صورتی مرغوبلرونک
چک کونل بار غمین مهوش مربوبلرنک
چوخدور عشق ایچره سننک شیوهٔ اسلوبلرنک
یاندونک آتش کمی بزمنده بو مرقوبلرنک
دوته کور آغوشنکا کر اولسه مقروبلرونک
بری فانوس صفت شمعنی محجوبلرنک
عرضه ویر یارنکا یتکج اوخی مکتوبلرنک
باسدونک ای دل قدمی مجلسنه خوبلارن
آنده همدم بزه بر طُرفه نکار اولدی عجب

Verib ol zinəti , bağbanı-fələk bustana,
Qönçə vü səbzə geyib rəxtlərin xezrana.
Gül açıb, rəngi-şəfəq şölə salıb həryana,
Xubrular dedilər ol xosrovi-xubana:
Gəl təfərrüc rdəlim , bizə varım seyana.
Qoydu məhbubların şahi qədəm gülüstana,
Rindlərhər birisi bəklədi bir meyxana.
Gəldi gərdişə bu bəzm içrə saqi dövrana.
Verdi mey məclisə dəstində tutub peymana,
Aldı huşum gözü nərgis baxışı məstana.
Mənə gülzarıda hər ləhzə düçar oldu, əcəb.

Dur gəl  gəl ey badi-səba eylə gülüstana güzər,
Bağ gülrüxlərinə sən yetir əlbəttə xəbər.
Söylə : təşrif gətiriz bağa bugün sərvü səhər!
Görsə rüxsarını bülbül gülə meyl etməz əyər.
Buraxar gülşənə qövğayi – nəva şür ilə şər,
Çünki, hüsn içrə mılikdir , dəyil aləmdə bəşər.
Gödə pabusin edər sabitü səyyarə , qəmər,
Sayə tək şəmsi-rüxün payına hər gündə sürər.
Yandırıb aşiqi-dilsuzini , göstərdi hünər,
Içdi qanım mey içən tək , nə sərasimə gəzər.
Eylə sandım yerişin , məsti-xumar oldu, əcəb,

Dilbəra eylə sitəm küyində əğyarımıza,
Həmqərin olma gülüm , gülşən içrə xarımıza.
Rəhm qıl, çəkəndə bülbül tək  ahü zarımıza,
Bir ol zührə-cəbin müştəri bazarımıza..
Can mətain satarıq əhli-xəridarımıza,
Al üzün mərhəm elə sən təni-əfkarımıza.
Lütf qılsan nə olar bu halı-düşvarımıza?
Ver dəva şəhdi-ləbindən dili bimarımıza.
Qıl müşərrəf əzizim , gəl dəri-divarımıza,
Gəldi mehman bizə ,sovq etdin o  didarımıza.
Yoluna canımızın nəqdi nisar oldu, əcəb.

ویروب اول زینتی باغبان فلک بوستانه
غنچه و سبزه کیوب رختلرین خضرانه
کل آچوب رنک شفق شعله سالوب هر یانه
خوبرولر دیدیلر او خسروی خوبانه
کل تفرج ایده لوم بیزه وارلیم سیرانه
قویدی محبوبلرنک شاهی قدم کلستانه
رندیلر هر بریسی بکلدی بر میخانه
کلدی کردیشه بو بزم ایچره ساقی دورانه
وردی می مجلسه دستنده دوتوب پیمانه
آلدی هوشیم کوزی نرکس باخشی مستانه
بنکا کلزاریده بر لحظه دوچار اولدی عجب

دور کل ای باد صبا ایله گُلستانه کذر
باغ گُلرخلرینه سن یتیر البته خبر
سوله تشریف کتوروز باغه بکون سرو سحر
کورسه رخسارینی بلبل کله میل ایتمز اکر
بوراخور کلشنه غوغایی نوا شوریله شر
چونکه حسن ایچره ملکدر دکل عالمده بشر
کوکده پابوسین ایدر ثابت سیاره قمر
سایه تک شمس رخین پاینه هر کونده سورر
یاندروب عاشق دل سوزینی کوستردی هنر
ایچدی قانم می ایچن تک نه سراسیمه کزر
ایله ساندوم پریشین مست خمار اولدی عجب

دلبرا ایله ستم کوینده اغیاریمزه
هم قرین اولمه گُلیم کلشن ایچره خاریمزه
رحم قیل چکنده بلبل تک آه و زاریمزه
بر اول زهره جبین مشتری بازاریمزه
جان متاعین ساتاروق اهل خریداریمزه
آل اوزنک مرهم ایله سن تنی افکاریمزه
لطف قلسون نه اولور بو حال دشواریمزه
ویر دوا شهد لبنکدن دلی بیماریمزه
قیل مشرّف عزیزم کل دری دیواریمزه
کلدی مهمان بزه صوق ایتدونک او دلداریمزه
یولنه جانمزنک نقدی نسار اولدی عجب

Yarımız yadına saldıqla , glibdir beləcə,
Mənim əfsürdəliyim məlum olubdur beləcə.
Dostlarım şad oluban , düşmən olubdur küləcə,
Səg rəqib ağlamağdan nisbət olubdur kürəçə.
Daima möhəbbəti məlum edibdir eləcə,
Arizin əhmər kimi , təşbih qılıbdır güləcə.
Kimisi böyük olur , kimi olur balaca,
Kimisi xoşsifətdir , mimisi olur qaraca.
Kimisi zərbəft geyər , kimisi geyər alaca.
Can mətain sataram ki , öz əlimlə yaraca.
Peşkeşi payəndazı yanımda var oldu, əcəb,

Səndən ey dust siyəh-bəxtim edib dur məni,
Yandırıb firqət odu, qıldı bihüzür məni.
Tutdu ətrafımı qəm , gizlədi məstur məni,
Badeyi-hicr qılıb məst ilə məxmur məni.
Eyb qılmaz daha sevdalı görən şür məni,
Tutar eşq əhli bu halətdə ki , məzür məni.
Görsə bu dərdü bəla evində rəncur məni,
Hökəma cümləsi möhlik dedi , cumhur məni.
Gördü dirbər , özü xub eylədi məsrur məni,
Vəsl dərmanın edib , qoymadı məhcur məni.
Yinə Loqman-sifət ol dərdimə çar oldu, əcəb.

Ey fələk qoyma bizi bu dari-qürbətdə qərib,
Qəm yükün çəkməyə yox bizdə daha səbrü şəkib.
Gəzdirib dəhrdə avara , bizə vermə fərib,
Gəlməsin ta sənə bu dövridə nüqsanü müib .
Nolur əhvalın əyər rəhm edə vəhhabi-vəhib,
Yinə öz məskənimiz lütf idibən , qılsa nəsib.
Çox olur onda bizə müinü , həmrahü , həbib,
Salsa qüdrət nəzərin halıma dəvati-mücib.
Süne rəhmana əlbəttə baxıb etmə əcib,
**Şövqi** bitdi sınığın , gəldi bizə qarşı təbib.
Tale üz verdi mənə, bəxt özü yar oldu, əcəb.

یاریمز یادینه سالدیکله کلوپدور بیلجه
منم افسرده لکیم معلوم اولوپدور بلجه
دوستلاریم شاد اولوبن دوشمن دونوپدور کلجه
سک رقیب اغلامقدن نسبت اولوپدور کوره چه
دآئما محبّتی معلوم ایدوپدور ایلجه
عارضین احمر کبی تشبیه قلوپدور کُلَجَه
کمسی بویوک اولور کمسی اولور بالجه
کمسی خوش صفتدور کمسی اولور قاره جه
کمسی زربفت کِیَر کمسی کیر آلَه جَه
جان متاعین ساترم که اوز الوملە یاره جه
پشکشی پایندازی یانمده وار اولدی عجب

سندن ای دوست سیه بختم ایدوب دور بنی
یاندروب فرقت اودی قلدی بی حضور بنی
دوتدی اطرافمی غم کیزلدی مستور بنی
بادهٔ هجر قلوب مست ایله مخمور بنی
عیب قلمز دخی سودالی کورن شور بنی
دوتار عشق اهلی بو حالتده که معذور بنی
کورسه بو درد بلا اوینکده رنجور بنی
حکما جمله سی مهلک دیدی جمهور بنی
کوردی دلبر اوزی خوب ایلدی مسرور بنی
وصل درمانین ایدوب قویمدی مهجور بنی
ینه لقمان صفت اول دردیمه چار اولدی عجب

ای فلک قویمه بزی بو دار غربته غریب
غم یوکین چکمکه یوخ یزده دخی صبر شکیب
کزدروب دهرده آواره بزه ویرمه فریب
کلمه سُنک تا سنکا بو دوریده نقصان مُعیب
نولور احوالنک اکر رحم ایده وهاب وهیب
ینه اوز مسکنمز لطف ایدوبن قلسه نصیب
چوخ اولور اونده بزه معین همراه حبیب
سالسه قدرت نظرین حالمه دعوات مجیب
صُنع رحمانه البته باخوب ایتمه عجیب
**شوقی** بتدی سنقنک کلدی بیزه قرشو طبیب
طالع اوز وردی بنکا بخت اوزی یار اولدی عجب

ای دل که بهار اولدی نوا سولدی بلبل
عالمنی چراغوان ایلدی آچُلوپ هر گُل
توپراغی یاروب سوسن ایله چخدی بو سنبل
یَل دکدی اثر بنفشه ننک باشنده کاکل
کوستردی صبا آب روان اوزره سلاسل
آچلدی کلشفانیله شبّو لبی قرنفل
چیخدی یوزه پاپوچل[۱] او منطویه مقابل
بو فصلده سیرانه چیخوب دلبرم ای دل
سیر اوزره کونکل اولمش سن البته انکا مائل
حق ایلدی هر مطلبنکی بو یرده حاصل
شکر ایله دلا بو دمده کیم آچلدی مشکل
پایینه پینداز[۲] ایله سر ایتمه تغافل[۳]
فوت ایلمه[٤] تا دستنکا دوشمز بله فرصت
بختنک سنکا یار اولدی عجب بلکه غنیمت



Ey dil ki, bahar oldu , nəva söylədi bülbül,
Aləm çiraqvan eylədi, açılıb hər gül.
Torpağı yarıb , süsən ilə çıxdı bu sünbül,
Yel dəydi əsər bənövşənin başında kakil.
Göstərdi səba abi-rəvan üzrə səlasil,
Açıldı gül şəqayiğlə şəbbu , ləbi qərənfil.
Çıxdı üzə papuçal o məntüyə müqabil,
Bu fəslidə seyrana çıxıb , dilbərin ey gül.
Seyr üzrə könül olmuşsan əlbəttə ona mail,
Həq eylədi hər mətləbini bu yerdə hasil.
Şükr eylə dila bu dəmdə kim, açıldı müşkil,
Payına payəndaz eylə sər! etmə təğafül.
Fövt eylə ,ta dəstinə düşməz belə fürsət,
Bəxtin sənə yar oldu əcəb bəlkə qənimət.

---

[۱]. پامچال سؤزونون أسکی فورماسی. بورادا پ>م دئییشمه سی گؤرونور.
[۲]. پای انداز سؤزونون لهجه فورماسی.
[۳]. غفلت ، اؤزونو بیلمه مزلییه قویما، گؤز یومماق
[٤]. ألدن قاچیرما، ألدن چیخارما.

نازیله کزر کلشن ارا سرو سمن بر
کفتاری لذیذ طوطی کمی لهجه سی شکر
آرتوردی فصاحت دهنی قند مکرر
مرواریه نسبت[۱] دیشی دُرّ لبلری کوهر
بوخاقی زنخدانی ملاحتدو[۲] سراسر
صدرینه[۳] ایکی دکمه سی شفاف دری تر
بر حوری لقادر ده کل انسانه برابر
باشینه دولانمق بنکا کر اولسه میسر
پروانه صفت جسممی آتشلره سالّام[٤]
شمعی رخنک دوره سین هائل کمی آلّام



Naz ilə gəzər gülşən ara sərvi-səmənbər,
Goftari ləziz tuti kimi, ləhcəsi şəkkər.
Artırdı fəsahət dəhəni qəndi-mükərrər,
Mürvariyə nisbət dişi , dürr ləbləri gövhər.
Buxağı zənəxdandır , məlahətdi sərasər,
Sədrinə iki düyməsi şəfaf , dürri tər.
Bir huriliğadır , dəyil insane bərabər,
Başına dolanmaq mənə gər olsa müyəssər.
Pərvanəsifət cismimi atəşlərə sallam,
Şəmi rüxun dövrəsin hail kimi allam.

---

۱. اوخشایان ، بنزر ، منسوب اولان.
۲. بو فورم «ملاحتدیر» سؤزونون لهجه فورماسیدیر.
۳. دؤش، سینه ؛ اؤره ک، کؤنول.
٤. ساللام و آللام سؤزلری «سالارام ، آلارام» سؤزلرین لهجه فورماسیدیر.

باغ ایچره کوزیم کوردی عجب بر کل رعنا
دل مرغی سرودیله سرور ایلدی پیدا
کوستردی نوالر دخی دیوانهٔ شیدا
بند اولدی سلاسللره[۱] دوتمش ره سودا
هم طرهٔ[۲] مشکین ایدوب بوینمه طغرا[۳]
مهبوس[٤] قفس ایچره قالوب عندلیب آسا
سودای سر زلفنه بند اولمشم اَمّا
دار[٥] اوزره چکه اوندان الیم اوزمنم[٦] اصلا
باشیم کسیله کیتمنم[٧] اول خاک درینده
افتاده سیم چون منی سالمز نظریندن



Bağ içrə gözüm gördü əcəb bir güli-rə’na,
Dil-mürği surudilə surur eylədi peda.
Göstərdi nəvalar daha divaneyi-şeyda,
Bənd oldu səlasillərə tutmuş rəhi-sevda.
Həm türrəyi-mişkin edib , boynuma tuğra,
Məhbus , qəfəs içrə qalıb əndəlib asa.
Sedayi-səri-zülfünə bənd olmuşam amma,
Dar üzrə çəkə ondan əlim üzmənəm əsla.
Başım kəsilə getmənəm ol xaki-dərindən,
Üftadəsiyəm , çün məni salmaz nəzərindən.

---

۱. زنجیرلر ، سیلسیله لر
۲. ساچ ، تئل ، آلیندان ساللانان قیوریرم تئللر.
۳. نیشان ، فرمان
٤. آلیازمادا «محبوس» سؤزونون ایملاسی بئله دیر.
٥. ائو ، بؤیوک ائو ، مکان ، یئر؛ اؤلدورمک اوچون وسیله
٦. اؤزمرم ( أل چکمک معناسیندا)
۷. گئتمیرم.

اول ماهی پسندیده یراتمش بله صانع
ابروسی کماندور دخی مژکانلری قاطع
پیکانی سیم دلده کونکلم دکو[۱] مانع
بغریمه باسُوب غمزه سین اولّام آنکا قانع
طُوغماز آنکا بنکزر گُون عروس چرخ تاسع[۲]
آفاقی منّور قلور اول زره سی لامع[۳]
قدّیم خم ایدُوب ایلرم هر لحظه تواضع[۴]
آرتار فرصتیم چُوخ بنکا یوز ویردی بو طالع
دل ملکنی ضبط ایتمکه خاقان کله جکُدور
اولدُورسده اولام آنکا قربان کله جکدور



Ol mahi , pəsndidə yaratmış belə ,sane`,
Əbrusi kamandır , daha mükganları qate.
Peykanı simi-dildə könlüm dəyil mane`,
Bağrıma basıb qəmzəsin, ollam ona qane`.
Doğmaz ona bənzər gün ərus çərxi-tase`,
Afaqi münəvvər qılır , ol zərrəsi lame`.
Qəddin xm edib , eylərəm hər ləhzə təvazö`,
Artar fürsətim çox, mənə üz verdi bu tale`.
Dil mülkünü zəbt etməyə xaqan , gələcəkdir,
Öldürsə də ollam ona qurban , gələcəkdir.

---

۱. بو سؤز «دئییل» سؤزونون لهجه فورماسیدیر.
۲. دوققوز ، دوققوزونجو (قدیم عرب سؤزو)
۳. پارلاق، پاریلدایان
۴. کبرسیزلیک، اؤزونو ساده توتما

تا کلک قضا[1] یازمش ازل اسمنی احمد
کوز کوردی جمالینه باخوب اولدی مقید[2]
اول دفتر حسنینه چکیلمش خط ابجد
ساچلدی لطافتلر او گُل رخنه قد قد
بو شیوهٔ خوبلقد که یوخ سن کمی بر فرد
ای شه سنی محبوب دیمش قادر ایزد
بو ذکری مدام ازبر ایدر دلنده صد صد
تا **شوقی** دیر صل علی آل محمد
مقصودی بو کیم ایله شفاعت آنکا هر سو
دُنیایله عقباده غرض چکمیه غیقو



Ta kilki qəza yazmış əzəl ismini **Əhməd**,
Göz gördü camalına baxıb , oldu müqəyyəd.
Ol dəftəri-hüsnünə çəkilmiş xətti-əbcəd,
Saçıldı lətafətlər ol gül rüxünə qəd-qəd.
Bu şiveyi-xubluqdu ki, yox sən kimi bir fərd,
Ey şəh səni məhbub demiş qadiri-izəd.
Bu zikri müdam əzbər edər dilində səd-səd.
Ta **Şövqi** deyər : Səlli-əla ali-Məhəmməd.
Məqsudi bu kim, eylə şəfaət ona hər su,
Dünya ilə üqbada qərəz çəkməyə qayğu.

---

[1]. سرنوشت قلمی ، اینسانین باشینا گلن حادثه نی یازان قلم.
[2]. مقید اولماق: قایغیسینا قالماق ، اونا دوشونمک.

# ترجیع بند

Ey şüxi-cahan , şahi-xuban,
Vey ruyi-fələkdə mahi-taban.
Hüsnündə ki, yoxdur zərrə nüqsan,
Xubluquna yetməz sənin insane.
Çakədi sənə behiştə xuban,
Güyənd mənə nəimi-rizvan.
Dur eyləmisən kim, məni ondan,
Yandırdı tənim bu dağı-hicran.
Yavəslini qıl bu dərdə dərman,
Ya canımı al  bu dəmdə ey can.
Öldür məni sən ,dur indi şəsban,
Al dəstinə tiğ , doğra hər yan.

Ey dilbəri-xubru , güləndam,
Gülzara ki, sən basanda əqdam.
Ol badi-səba , xücəstə , fərcam,
Çün müjdə mənə gətirdi , peyğam.
Dərganhına gəldim ey nekunam,
Pabusun edəndə xasilə am.
Öldüm mənə lütf qıl dilaram,
Möhnət çəkirəm qapında madam.
Məqsudumu hasil et , alım kam,
Çoxdur mənə , eyləsən bu ənam.
Öldür məni sən,dur indi şəsban,
Al dəstinə tiğ , doğra hər yan.

Ey tazə nəhalı sərvrəftar,
Vəchindən alıb şüar bu gülzar.
Gül səndə görəndə rəngi-rüxsar,

ای شوخ جهان شاه خوبان
وی رویی فلکده ماه تابان
حسننکده که یوخدور زرّه نقصان
خوبلوقنکا یتمز سننک انسان
چاکردو سنکا بهشته حوران
کویند بنکا نعیم رضوان
دور ایله میسن کیم بتی آندان
یاندوردی تنم بو داغ هجران
یا وصلنکی قیل بو درده درمان
یا جانمی آل بو دمده ای جان
اولدور بنی سن دور ایندی چسبان
آل دستنکا تیــغ دوغــره هــر یان

ای دلبر خوبرو کُل اندام
کلزاره که سن باسانده اقدام[1]
اول باد صبا خجسته فرجام
چون مژده بنکا کتوردی پیقام
درکاهنکا کلدیم ای نکو نام
پابوسینک ایدنده خاصله عام
اولدم بنکا لطف قیل دل آرام
محنت چکرم قاپونده مادام
مقصودمی حاصل ایت آلیم کام
چوخدور بنکا ایلسنک بو انعام
اولدور بنی سن دور ایندی چسبان
آل دستنکا تیــغ دوغــره هــر یان

ای تازه نهال سرو رفتار
وجهنکدن آلوب شعار بو کُلزار
کل سنده کورنده رنک رخسار

---

[1]. قدم سؤزونون جمعی. آدیم

Göyçəkliyin eyləməz bir izhar.
Xak içrə qalıbdır əbtər xar.
Ey arizi-lalə, ruy gülnar,
Küyində rəqibi görsəm hər bar,
Candan oluram o dəmdə bizar.
Dünyada dirilməyimdi çox ar,
Kəs başımı , onda qoyma zinhar.
Öldür məni sən,dur indi şəsban,
Al dəstinə tiğ , doğra hər yan.

Ey yari-Məsiha-dəmi əla,
Ecazın edər mürdəni ehya.
Məflukin kim , etməsən mudava,
Yəqub sifət eyləmə əma.
Yusif kimi vəslin yetər amma,
Müştağın olub neçə Zuleyxa.
Etmişlər özün aləmə rusva,
Hər biri gəzər kuh ilə səhra.
Mən suxtədil dərində tənha,
Can verməyə olmuşam mühəyya.
Öldür məni sən,dur indi şəsban,
Al dəstinə tiğ , doğra hər yan.

Ey şüx yetəndə sən nigara,
Rəhm et , məni- xəstə , dilfikara.
Eşqin məni saldı çox azara,
Meyxanada bənzərəm xumara.
Meygün ləbin içmişəm , nə çarə,
Bari mənə eylə bir nəzarə.
Bənd eylə bu zülfi-mişkbara,
.

کوکچک لکین ایلمز بر اظهار
خاک ایچره قالوپدور ابتر خار
ای عارضی لاله روی گُل نار
گُوینکده رقیبی کورسم هر بار
جاندان اولورم او دمده بیزار
دُنیاده درلمکُمدو چوخ عار
کس باشمی اونده قویمه زنهار
اولدور بنی سن دور ایندی چسبان
آل دستنکا تیــغ دوغـــره هــر یان

ای یار مسیحا دم اعلا
اعجازنک ایدر مرده نی احیا
مفلوکنکم ایتمه سن مداوا
یعقوب صفت ایلمه اعما
یوسف کمی وصلنک یتیر امّا
مشتاقنک اولوب نچه زلیخا
ایتمشلر اوزین عالمه رسو
هر بری کزر کوهله صحرا
من سوخته دل درنده تنها
جان ویرمکه اولمشم مهیا
اولدور بنی سن دور ایندی چسبان
آل دستنکا تیــغ دوغـــره هــر یان

ای شوخ یتنده سن نکاره
رحم ایت من خسته دل فکاره
عشقنک بنی صالدی چوخ ازاره
میخانده بنکزرم خماره
میکون لبنک ایچمشم نه چاره
باری بنکا ایله بر نظاره
بند ایله بو زلف مشک باره

Məhzüzam əyər aparsa dara.
Qəssab-sifər çəkib qənara,
Çax xəncəri , bağrım eylə para.
Öldür məni sən,dur indi şəsban,
Al dəstinə tiğ , doğra hər yan.

Fikr et sənəma , bir elə tədbir,
Qoyma məni dərd evində , dəstgir!
Ahım sənə eyləməz mi təsir?
Ey hüsni-xudadad ilə təzkir
Gün yazdı rüxün katibi-təqdir,
Sal şöləni maha , mehri-tənvir.
Sevdin yinə sən cavanı mən pir,
Rəyincə əyər bu olsa təqsir.
Bu xeyr-işi gəl sən etmə təxir,
Qəttal qaşındır , tiz şəmşir.
Öldür məni sən,dur indi şəsban,
Al dəstinə tiğ , doğra hər yan.

Ey tuba nijad , qəddi-şimşad,
Yox bağı-ərəmdə sən tək azad.
Təsvirini eyləyəndə bünyad,
Qüdrət qələmilə çəkmiş ustad.
Rüxsarına xətti yazmış əsvad,
Sən bir kərəm eylə , qıl məni yad.
O qəsdinə çıxdığında dilşad,
Vur tiri-xidəngi çeşmi-cəllad.
Can mülkünü qarət eylə , bərbad,
**Şövqini** şikar edəndə səyyad.
Öldür məni sən,dur indi şəsban,
Al dəstinə tiğ , doğra hər yan.

محظوظم اکر آپارسه داره
قصاب صفت چکوب قناره
چاخ خنجری باغریم ایله پاره
اولدور بنی سن دور ایندی چسبان
آل دستنکا تیــغ دوغــره هــر یان

فکر ایت صنما بر ایله تدبیر
قویمه منی درد اونده دست کیر
آهیم سنکا ایلمزمی تأثیر
ای حسن خدا دادیله تذکیر
کون یازدی رخنک کاتب تقدیر
صال شعلنکی ماهه مهر تنویر
سودیم کنه سن جوانی من پیر
راینجن اکر بو اولسه تقصیر
بو خیر ایشی کل سن ایتمه تاخیر
قتال قاشندور تیز شمشیر
اولدور بنی سن دور ایندی چسبان
آل دستنکا تیــغ دوغــره هــر یان

ای طوبی نژاد قدّی شمشاد
یوخ باغ اَرَمده سن تک آزاد
تصویرنکی ایلینده بنیاد
قدرت قلمیله چکمش اوستاد
رخسارنکا خطّی یازمیش اسواد
سن بر کرم ایله قیل بنی یاد
آو قصدینه چیخدوقنکده دل شاد
وور تیر خدنکی چشم جلاد
جان ملکنی غارت ایله برباد
**شوقنی** شکار ایدنده صیاد
اولدور بنی سن دور ایندی چسبان
آل دستنکا تیــغ دوغــره هــر یان

بر کوشه دوتونک دیم گُذارش[۱] عقلالر
هر شهریده خانلار قویوبن ینکی بنالر
کاسب لره آرتیردی مدام جور جفالر
آخر بو سببدنکه رئیس اولدی کدالر
دیننده قائم[۲] دورمدی هرکز علمالر
چیخدی کنه هر کوشده مکرده صدالر
شام اولدی قرانقو دخی بو صبح صبالر
طاعون ایله باش ویردی یمان اوزکه بلالر
یغمور[۳] عوضینه یره قان توکدی سمالر
تاپولمدی هیچ نوعیله بو درده دوالر
پشیمان اولوب هیچ کیمسه یمانلوقنک اوسانمز[٤]
فقر اهلیننک احوالنه خلقنک جانی یانمز



Bir guş tutun deyim guzariş üqəlalar,
Hər şəhridə xanlar qoyuban yeni binalar.
Kasıblara artırdı müdam cövrü cəfalar,
Axır bu səbəbdən ki, rəis oldu gədalar.
Dinində qaim durmadı həgiz uləmalar,
Çıxdı ginə hər guşa məyə dəh sədalar.
Şam oldu qaranğu daha bu sübhi-səbalar.
taun  ilə baş verdi yaman özgə bəlalar.
Yağmur əvəzinə yerə qan tökdü səmalar,
Tapılmadı heç növilə bu dərdə dəvalar.
Peşman olub , heç kimsə yamanlığın usanmaz,
Füqəra əhlinin əhvalına xalqın canı yanmaz.

---

۱. گزارش وئرمک .
۲. مؤحکم ، آیاق اوستونده
۳. یاغیش
٤. ناراحات اولماق ، چکینمک ، اوتانماق

تا اولدی پائیز کوردی کوزیم خلد برینی
کوستردی جهان باغننک هر میوه لرینی
بالدن ده پسندیده کوروب شهدلرینی
هر کیم یدی ساغ ایلدی جانیله سرینی
صرصر یلی چکدی کنه میدانه چرینی
سهمیله[۱] کتوردی بزه قیشنک خبرینی
قشلاقی دوتوب هر کشی برک ایتدی یرینی
دَی عالمه کورکزدی نچه کز[۲] هنرینی
چارپایه قرلدی چوخ آدام یقدی درینی[۳]
یارّب کرمندن دور ایتمه بن حقیرینی
قویدی درینی قاچدی اوه قوتاردی جانین
یاد ایتمدی بر کرّه[٤] ده اولکه[٥] مکانین



Ta oldu payız gördü gözüm xüldi-bərini,
Göstərdi cahan bağının hər meyvələrini.
Baldan da pəsəndidə görüb , şəhdlərini,
Hər kim yedi , sağ eylədi canını , sərini.
Sərsər yeli əsdi , çəkdi ginə meydana çərini,
Səhmilə gətirdi bizə qışın xəbərini.
Qışlağı tutub , hər kişi bərk etdi yerini,
Zi aləmə görkəzdi neçə kəz hünərini.
Çarpaya qaraldı , çox adam yığdı dərini,
Yarəb kərəmindən dur etmə mən həqiri.
Qoydu dərini , qaçdı evə , qurtardı canın,
Yad etmədi bir kərrə də ölkə , məkanın.

---

۱. قورخو ، زهم
۲. دفعه
۳. محصول ، أکین ، دریلن شئیلر
٤. دفعه ، کز
٥. وطن ، یورد

قاریله کولک[۱] بربرینه ایلدی جنکی
خزری[۲] یلی اسدی آتوبن توپ تفلنکی
سالدیکم او سازیله نیلنک باشنه هنکی
قاودی[۳] میشده قویمدی هم شیر پلنکی
قار چکدی بو یاندن قوشنی آتدی خدنکی
تا کسدی قلج تک یری کوسترمدی ننکی
دریاننک اودودن اوزده چقمدی نهنکی
سندیردی مسی قردی چوخ اولرده سهنکی[٤]
آغسو قراسو[٥] دَودی دولانمدی دکرمان
قاورقه یمکدن که بیزه قالمدی دندان



Qar ilə külək bir-birinə eylədi cəngi,
Xəzri yeli əsdi , atıban top –tüfənfi.
Saldı kim , o saz ilə Nilin başına həngi,
Qovdu meşədə , qoymadı həm şir , pələngi.
Qar çəkdi bu yandan qoşunu , atdı xədəngi,
Ta kəsdi qılınc tək  yeri , göstərmədi nəngi.
Dryanın odundan üzə çıxmadı nəhəngi,
Sındırdı misi , qırdı çox evlərdə səhəngi.
Ağsu , Qarasu döndü , dolanmdı dəyirman,
Qavurğa yeməkdən ki, bizə qalmadı dəndan.

---

[۱]. یئل ، سرعتله أسن یئل
[۲]. یئل آدیدیر، داها چوخ خزر دنیزی طرفیندن أسن یئله دئییلیر، بعضی یئرلرده پاییز یئلینه دئییلیر.
[۳] قووماق فعلیندن اوزاقلاشدیرماق
[٤]. سو قابی
[٥]. جای آدلاریدیر.

ای دل کنه یاز اولدی آنکا یوخدو نشانه
کوستردی فلک عالمه بر غیری زمانه
دیللرده کلوپدور بو قشنک وضعی بیانه
سرمادن عجب سبزه چمن دوندی سمانه
ترک ایلدی بلبل دخی آواز ترانه
باقی قالان حیوانلری یاز یتوردی جانه
دوندردی بو خوف انساننک هم بغرینی قانه
قورخار کنه بو جسمی دوشوب اودلا زبانه
سراست ایدوبن دوتوب آنی کمانه
احسان ایلمز یوز مین ایدر عذر بهانه
یوخدور بو جهان ایچره غرض جود سخاوت
هیچ کیمسه کرم اهلی دکل آرتدی خسارت



Ey dil ginə yaz oldu , ona yoxdu nişana,
Göstərdi fələk aləmə bir qeri zamana.
Dillərdə gəlibdir bu qəşəng vəzi bəyana,
Sərmadan əcəb səbzə , çəmən döndü samana.
Tərk eylədi bübül daha avaz , tərana,
Baqı qalan heyvanları yaz yetirdi cana.
Döndürdü bu xof insanın həm bağrını qana,
Qorxar ginə bu cismi düşüb , odla zəbana.
Sərast edibən tutub onu kamana,
Ehsan eyləməz yüzmin edər üzrü bahana.
Yoxdur bu cahan içrə qərəz cudü səxavət,
Heç kimsə kərəm əhli dəyil , artdı xəsarət.

نانیله نمکده بو زمان یوخدور کرامت
تاثیر دوا ایتمدی بیماره شفاعت
تاپلمدی بو مردُم عالمده نظافت
آندن بلورم اهل زمان ایتمز عبادت
هر کشی که بر کیمسیه تاپشوردی امانت
کوستردی او کس آخر آنکا کلّی خیانت
مذهب سبّبیله ارایه دوشدی عداوت
چوخلار بو جهتدن دخی اولمدی فراغت
اولمش او سببدن منکا پُر[۱] ایله کفایت
اولمدی بو خلق ایچره که بر ذرّه دیانت
دین سومدی دنیاده غرض شقّی کمراه
بو اسریده دنیانی سووب نعوذ بالله



Nanilə nəməkdə bu zaman yoxdur kəramət,
Təsiri-dəva etmədi bimara şəfaət.
Tapılmadı bu mərdümi-aləmdə nəzafət,
Ondan bilirəm əhli-zaman etməz ibadət.
Hər kişi ki, bir kimsəyə tapşırdı əmanət,
Göstərdi o kəs axır ona külli xiyanət.
Məzhəb səbəbilə araya düşdü ədavət,
Çoxlar bu cəhətdən daha olmadı fərağət.
Olmuş bu səbəbdən mənə pur ilə kinayət,
Olmadı bu xalq içrə ki, bir zərrə diyanət.
Din sevmədi dünyada qərəz şövqiyi gümrah,
Bu əsridə dünyanı sevib , nəuze-billah.

[۱]. «پور» اوغلان معناسیندا ألیازمادا ایملاسی بئله یازیلیبدیر.

کوندن کونه خلقنک یورکی باغلاد پاسی
ترک ایلدیلر صوم صلوة اولوب عاصی
بو دوریده وار فسق فجورنک تماشاسی
چکننه آتار هر کیم اولور قاره پلاسی
تا کیمدی بر کیمسنه اوّلکی لباسی
کویا که دوشوب باشلرینه شرب هواسی
معدوم[۱] اولوب اقسام ذکورنده[۲] وفاسی
کوتورلدی اناس[۳] اهلننک القصه حیاسی
هم سر دوتوب اوز یاشنه باخمادی ارینه
حقّا بیله معلوم ایله دوک دوندی قرینه



Gündən-günə xalğın ürəyi bağladı pası,
Tərk eylədi sövmü sələvat , olub asi.
Bu dövridə var fisqü fücurun tamaşası,
Çiyninə atar hər kim olur , qara palası.
Ta geymədi bi kimsənə əvvəlki libası,
Güya ki, düşüb başlarına şürb havası.
Mə`dum olub əqsamı -zükürün da vəfası,
Götürüldü ünas əhlinin əlqissə həyası.
Həmsər tutub , öz yaşına baxmadı ərinə,
Həqqa belə m`lum ilə dün döndü qərinə.

---

۱. آرادان گئتمک ، هئچ اولماق
۲. کیشیلرین ، ائرکک.
۳. قادین ، دیشی.

کل **شوقی** دخی دوتمه بو دنیانی کرامی
آزمش که بولندن بو جهان خلقی تمامی
کذبیله[۱] اوُ فاسقلقه باش قوشدیلر هامی
بولمزسن[۲] اکر دوغری کزرسن بر آدامی
اوباش صفت جمله ایچر بادهٔ جامی
ظالم دخی مظلومی تالار[۳] اولدی حرامی[٤]
اولمدی بربرینه بو دهریده هامی[٥]
آخر کلجک مهدی وره مونده نظامی
مومن اولنه رحم ایدر اول قادر ایزد
خلق اوُلسه اکر روزه نمازینه مقیّد



Gəl **Şövqi** daha tutma bu dünyanı girami,
Azmış ki, yolundan bu cahan xalqı tamamı.
Kezb ilə o fasiqlığa baş qoşdular hamı,
Bulmazsan əyər doğru gəzərsən bir adamı.
Obaçsifət cümlə içər badeyi-camı,
Zalim daha məzlümi talar , oldu haramı.
Olmadı bir-birilə bu dəhridə hami,
Axır gələcək Mehdi verə bunda nizami.
Mö`min olana rəhm edər ol qadiri izəd,
Xalq olsa əyər ruzə , namazına müqəyyəd.

---

۱. یالان دانیشماق
۲. تاپمازسان
۳. تالان ائتمک ، غارت ائتمک ، اوغورلاماق
٤. اوغرو
٥. ساخلایان ، حمایت ائدن

بر نظر آچ عالمه اعلایه باخ[1]
فصل بهار اولدی تماشایه باخ
شمس قمر چرخ معلّایه باخ
قوس قذح نسبت اولوب پایه باخ
برق لمعه کوستروب شعایه باخ
آچدی زمین زینت زیبایه باخ
باد صبا یتشدی هر جایه باخ
سبزهٔ اشجار اولوب دایه باخ
پروریش ایلر گُلی رعنایه باخ
قدّ چکوب سرو سمن سایه باخ
حکم قلوب قادر دانایه باخ
بر نظر آچ عالم اعلایه باخ



Bir nəzər aç , aləmi- `əlayə bax,
Fəsli bahar oldu , təmaşaya bax.
Şəmsü qəmər , çəri-mü`əllaya bax,
Qovsi-qəzəh nisbət olub , paya bax.
Bərği lüm`ə göstərib , şüaya bax,
Açdı zəmin , zinəti-zibaya bax.
Badi-səba yetişdi , hərcaya bax,
Səbzəyi-əşcar olub , daya bax.
Pərvəriş eylər , güli-rənaya bax.
Qəd çəkib , sərvi-səmən-saya bax.
Hökm qılıb , qadiri-danaya bax,
Bir nəzər aç , aləmi-ə`laya bax.

---

[1]. بو شعیر صفحه بندی اوجون قاباقدا گلیبدیر. ألیازمادا ۱۰-نجی ردیفده دیر.

Bir bağı-nəzakətdə ki, səhni-çəmənim var,
Ol səhni-çəməndə gül nəsrin bədənim var.
Kim qəddi-sənübər , ləbi-qönçə dəhənim var,
Gör qədinə geymiş neçə pirəhənim var.
Çin zelfləri , qullab üzü , gül yasəmənim var,
Gülzari-litafətdə ki, simin zəğənim var.
Gördüm güli , çün gülşən ara nişimənim var,
Bülbül kimi əfqan eyləsəm , üzr mənim var.
Nəzzarəsi xub , ahyi çeşmi-Xutənim var.
Guftarı ləziz , tutiyi şəkərşəkənim var,
Övsafını mədh etməyə şirin suxənim var.

Gülzara hava zinət edib, açdı şəfaqi,
Həm vərdidi səba səbzəyi novxizə məzaqi.
Ab oldu rəvan gülşənə kim yetdi ayağı,
Nəğmat ilə bülbül oxur Üşşaqü İrağı.
Qumri yetirib küçük , büzürgə surağı,
Rəşgində rüxün lalə çəkib bağrına dağı.
Süsən də diraz etdi zəban , aldı qabağı,
Işrətdə əcəb tikdi şəqayıqlar otağı.
Baxdı gülə , bənövşə qədin əydi budağı,
Çün oldu bahar , eyş edəlim , yetişdi çağı.
Bir bağı-nəzakətdə ki, səhni-çəmənim var,

Gəldi bu fəna mülkünə Yusiflə Züleyxa,
Fərhad sevib Şirini , olmuş belə şeyda.
Heç almadı kamın ginə Məcnun daha Leyla,
Bir dövridə eşq ilə gəzib Vərqəyə Gülşa.

بر باغ نزاکتده که صحن چمنیم وار
اول صحن چمنده گُل نسرین بدنیم وار
کیم قدّی صنوبر لبی غنچه دهنیم وار
کور قدینه کیمش نجه گُل پیره هنم وار
چین زلفلری قلاب یوزی کل یاسمنم وار
کلزار لطافتده که سیمین زغنم وار
کوردیم گُلی چُون کلشن ارا نشیمنم وار
بلبل کمی افغان ایلسم عُذر بنم وار
نظّاره سی خوب آهویی چشم خُطنم وار
کفتاری لذیذ طوطی شکر شکنم وار
اوصافنی مدح ایتمکه شیرین سخنم وار

کلزاره هوا زینت ایدوب آچدی شفاقی
هم ووردی صبا سبزهٔ نوخیزه مزاقی
آب اولدی روان کلشنه کیم یتدی ایاقی
نغماتیله بلبل اوُخور عُشاق عراقی
قُمری یتوروب کوچک بزرکه سوراقی
رشکنده رخنک لاله چکوب بغرینه داقی
سوسنده دراز ایتدی زبان الدی قباقی
عشرتده عجب تکدی شقایقلر اوطاقی
باخدی گُله بنفشه قدّین اکدی بوداقی
چُون اولدی بهار عیش ایده لوم یتشدی چاقی
بر باغ نزاکتده که صحن چمنم وار

کلدی بو فنا ملکنه یوسفله زلیخا
فرهاد سَوُب شیرینی اولمش بیله شیدا
هیچ آلمدی کامین کنه مجنون دخی لیلا
بر دوریده عشقیله کزوب ورقهٔ گُلشا

Vamiq suya batdı , vəli ah etmədi əsla,
Pərvanəh də cismin oda yandırdı sərapa.
Həmrah olub ol sünbülə zülf-ənbərsa ,
Çeşmi – xətinə aşiq olub , nərgisi-şəhla.
Üşşaqi-cahan hər birisi bəklədi bərca,
Bu səhni-çəməndə gəzərəm əndəlibasa.
Ol səhni-çəməndə gül nəsrin bədənim var.

Bu əsridə aramım alıb dilbəri-bədxu,
Çox fitnəyə saldı məni , ol gözləri cadu.
Xəm qaşı qəzəh vurdu mənə qəmzəyi-əbru,
Dil mürğini bənd eylədi həm zelfi-səmən bu.
Gər baxsa , düşər çeşminə , səhralara ahu,
Rüxsarına daim nəzər etsəm daha niku.
Gəzsəm ginə dünyanı , tapılmaz belə məh ru,
Könlüm çəkər aləmdə yetə vəslinə qayğu.
Qaldım tək bu həsrətlə dövridə hər su,
Qəddim xəm edib qaməti , dişi incu.
Kim qəddi-sənübər , ləbi-qönçə dəhənim var,

Bir vəsl tələb eylərəm ol huriliqadan,
Göyçəkliyi xurşidi xəcil etdi binadan.
Ol pərtövi hüsni keçirdib şəm`i ziyadan,
Çeşmi-siyəhin- fitnəsi çıxmaz bu aradan.
Nəzzarəsi bac aldı həm ahuyi Xətadan,
Əl çəkmədi ömründə əcəb mehrü vəfadan.
Küyində olan görmədi bir cövrü cəfadan,
Pabusi üçün endi yerə mehr səmadan.
Bir Yusifi sani yaradıb onu yaradan,
Yəqub sifət buyin alım yə`ni səbadan.

وامق سویه باتدی ولی آه ایتمدی اصلا
پروانه ده جسمین اوده یاندوردی سراپا
همراه اولوب اوُل سنبله زلف عنبر سارا
چشمی خطنه عاشق اولوب نرکس شهلا
عُشاق جهان هر بریسی بکلدی برجا
بو صحن چمنده کزرم عندلیب آسا
اوُل صحن چمنده کلی نسرین بدنیم وار

بو عصریده آرامیم آلوُپ دلبر بدخو
چوخ فتنه سالدی بنی اول کوزلری جادو
خم قاشی قُذح اوردی بنکا غمزة ابرو
دل مرغنی بند ایلدی هم زلف سمن بو
کر باخسه دوشر چشمنه صحرالره آهو
رخسارینه دآئم نظر ایتسم دخی نیکو
کزسم کنه دُنیانی تاپلمز بیله مه رو
کونکلم چکر عالمده یته وصلنه غیقو
قلدیم تک بو حسرتله دوریده هر سو
قدّیم خم ایدوب قامتی دلجو دیشی اینجو
کیم قدّی صنوبر لبی غنچه دهنیم وار

بر وصل طلب ایلرم اول حوری لقادن
کوکچک لکی خورشیدی خجیل ایتدی بنادن
اوُل پرتوی حسنی کچوردُب شمعی ضیادن
چشمی سیهننک فتنه سی چخماز بو ارادن
نظاره سی باج آلدی هم آهویی خطادن
ال چکمدی عُمرنده عجب مهر وفادن
کوینده اولان کورمدی بر جور جفادن
پابوسیُچون آندی یره مهر سمادن
بر یوسف ثانی یرادوب آنی یرادن
یعقوب صفت بویین آلیم یعنی صبادن

Gör qədinə geymiş neçə pirəhənim var.

Divanə qılıbdır məni bu sərvəri-xuban,
Hüsnilə təvazü` edər ol xurşidi-dirəxşan.
Nüqsana düşüb rəşki-rüxündən məhi-taban,
Ixlasilə küyində durub , huri –sərpan.
Əbrulərinə səcdə qılar qovsi-qəzəh san.
Aşüftə edib sünbülünü zülfi-pərişan,
Eşqində yanar Müştəri , Zührə oda yeksan.
Səyyarəyi-sabit yoluna verdi sərücan,
Keyvan , sürəyanı görüb afəti-dövran
Cövrilə əqrəb məni salıb kəməndə hər yan,
Çin zelfləri , qullab üzü , gül yasəmənim var,

Aldı yinə bu səbrimi bir yarı-dilaram,
Səyadsifət zülfün edib gərdənimə dam.
Aşüftə qılıb könlümü bu türrə siyəhfam,
Saqi bir ayağilə əlim tut , yetirib cam.
Ver badə ləbaləb içəlim sərvi-güləndam,
Ol mey ki , verə xatiri-əqlimə sərəncam.
Qalmışdı xumar üzrə bu çeşmi daha badam,
Al mütrib ələ çəng , dəfi sübhilə ta şam.
Gərdun fələkdən kim alım dövridə bir kam,
Dey getdi , bahar oldu , gəlib dolandı əyyam.
Gülzari-litafətdə ki, simin zəğənim var.

Bir qovsü qəzəh qaşlı sənəm qəddim edib xəm,
Həm türrəyi mişkini qılıb halımı dərhəm.
Məşatə verib muyi-zərəfşana pur nəm,

کور قدّینه کیمش نجه گُل پیره هنم وار

دیوانه قلوپدور منی بو سرور خوبان
حسنینه تواضع ایدر اوُل خورشید رخشان
نقصانه دوشوب رشک رخنکدن مهی تابان
اخلاصیله کوینده دوروب حُور سرپان
ابرولرینه سجده قلار قوس قذح سان
آشفته ایدوب سنبله نی زلف پریشان
عشقنکده یانار مشتری زهره اوده یکسان
سیارهٔ ثابت یولنه وردی سر و جان
کیوان ثریانی کوروب آفت دوران
جوریله عقرب بنی سالوب کمنده هر یان
چین زلفلری قلّاب یوزی گُل یاسمنم وار

آلدی ینه بو صبرمی بر یار دلارام
صیاد صفت زلفین ایدوب کردنمه دام
آشفته قلوب کونکلمی بو طرّه سیه فام
ساقی بر آیاغیله الیم دوت یتوروب جام
ویر باده لبالب ایچ لوم سرو کلندام
اوُل می که ویره خاطر عقلیمه سرنجام
قالمشدی خمار اوزره بوچشم دخی بادام
آل مطرب اله چنک دفی صبحله تا شام
کردون فلکدن کیم الیم دوریده بر کام
دَی کیتدی بهار اولدی کلوب دولاندی ایام
گُلزار لطافتده که سیمین ذقنیم وار

بر قوس قزح قاشلو صنم قدّیم ایدوب خم
هم طرّه مشکینی قلوب حالمی درهم
مشاطه ویروب موییی زرافشاننه پر نم

Xalları siyəh ləşkər edib Rumi üçrə cə`m.
Çün taqı-cəbinidir onun qibləyi-aləm,
Bir nəxli-tubadan dəyil ol sərv qədi kəm.
Daim ki, Məsiha kimi hər ruha verir dəm,
Əmvatilə yetsə olur ehya ona ad'm.
Gül cehrələr istər dolana başına hər dəm,
Seyr ilə yetişdim bu gülüstana ki, mən həm.
Gördüm güli , çün gülşən ara nişimənim var,

Bir şüxdur insafdan onda əsər olmaz,
Küyində gözüm yaşını daim tökər olmaz.
Əbrusi kaman qəddimi hərdəm bükər olmaz,
Müjganı qanın tökməmiş , amma ciyər olmaz.
Zibilə nahalında bitən kim , səmər olmaz,
Məhbubi-cahanda belə niku siyər olmaz.

Tapılmaz ona tay , arasan bəhrü bər olmaz,
Ol lə`li-ləbi- şəhdi kimi neyşəkər olmaz.
Hər qətrədən aləmdə deyəllər gövhər olmaz,
Bu hüsnüdı bir arizi- gül tək bəşər plmaz.
Bülbül kimi əfqan eyləsəm , üzr mənim var.

Gəldi sənəma payına dünyada gözəllər,
Üqbada gərək huri-mələk dərində çakər.
Qoyma qala üşşaq müdam eşqində əbtər,
Qoy vəslə yetim , xatırımı etmə mükəddər.
Səndən bu yetər , könlümə ey zülfi-müə`nbər,
Qəbğəbə zənəxdanın əcəb arizin əhmər.
Qeybətdə dəhanın , vəli nasüftəyi-gövhər,
əndamın edib qadiri-yekta yinə xoştər.
Bu şəhridə şahid dəyil hüsnünə bərabər,

خالّاری سیه لشکر ایدوب رومی اوزره جم
چون طاق جبئنی در آننک قبلهٔ عالم
بر نخل طوبی دن دکل اوُل سرو قدی کم
دآئم که مسیحا کمی هر روحه ویرور دم
امواتله یتسه اولور احیا اونه آدم
گُل چهره لر ایستر دولانه باشنه هر دم
سیریله یتشدیم بو کلستانه که من هم
کوردیم گُلی چُون کلشن ارا نشیمنم وار

بر شوخ در انصافدن آنده اثر اولماز
کوینده کوزیم یاشنی دائم توکر اولماز
ابروسی کمان قدّیمی هر دم بوکر اولماز
مژکانی قانین توکمه میش امّا جکر اولماز
زیپله نهالنده بتن کیم ثمر اولماز
محبوب جهانده بیله نیکو سیر اولماز
تاپلمز آنکا تای آراسنک بحرُ بر اولماز
اوُل لعل لبی شهدی کبی نی شکر اولماز
هر قطره دن عالمده دیللر کهر اولماز
بو حسنیده بر عارض کل تک بشر اولماز
بلبل کمی افغان ایلسم عذر بنم وار

کلدی صنما پاینکا دُنیاده کوزللر
عقباده کرک حوری ملک درنکده چاکر
قویمه قاله عشاق مدام عشقنده ابتر
قوی وصله یتیم خاطریمی ایتمه مکدّر
سندن بو یتر کونکلمه ای زلفی معنبر
غبغبه زنخداننک عجب عارضنک احمر
غیبتده دهاننک ولی ناسفتهٔ کوهر
اندامنک ایدوب قادر یکتا ینه خوشتر
بو شهریده شاهد دکُل حسننقه برابر

Olmaz belə məhbub cahan olsa sərasər.
Nəzzarəsi xub , ahyi çeşmi-Xutənim var.

Məcruh dilim qaldı müdam bari-qəmində,
Fariq ola bilməz daha dövran sitəmində.
Əbrusi verib cismimə bir tiğ kəmində,
Dedim , yinə aləmi selə verdi nəmində.
Bu xəstə canım üzüldü çeşm ələmində,
Xubluqda bədili yox ona xublar cəmində.
Hər dilbər üzün görsə , qalar rəşk ədəmində,
Yox belə pəsəndidə gözəl  ruyi-zəmində.
Tağındadı səcdəm yeri əbruyi-xəmində.
Meratını pak eylə könül zövq dəmində.
Guftarı ləziz , tutiyi şəkərşəkənim var,

Vəhm etmə könül cürmidə qəffar işində,
Rəhmi bizə var qadiri-səttar işində.
Bədxah düşər zillətə qəhhar işində,
Dil həmdü səna eyləki, təkrar işində.
Mətluba  yetim , Əhmədi-Muxtar işində,
Sevdim o, Əbubəkri ki, hərbar işində.
Xətab Ömər çox düzədir kar işində,
Can buldu ziya Osmanən ənvar işində,
Izzət taparam Heydəri kərar işində,
Ixlas il’ dur **Şövqi** müdam yar  işində.
Övsafını mədh etməyə şirin suxənim var.

اولمز بیله محبوب جهان اولسه سراسر
نظاره سی خوب آهویی چشم خطنم وار

مجروح دلیم قالدی مدام بار غمینده
فارق اوله بلمز دخی دوران سُتمنده
ابروسی وُریب جسممه بر تیغ کمینده
دیدوم ینه عالمنی سیله ویردی نمینده
بو خسته جانیم اوزُلدی چشم اَلَمینده
خوبلقده بدل یوخ آنکا خوبلار چمینده
هر دلبر اوزین کورسه قالور رشک عدمینده
یوخ بیله پسندیده کوزل روییی زمینده
طاغنده دو سجدم یری ابروی خمینده
مرآتنکی پاک ایله کونکل ذوق دمینده
کفتاری لذیذ طوطی شکرشکنیم وار

وهم ایتمه کونکل جُرمیده غفار ایشکنده
رحمی بیزه وار قادر ستار ایشکنده
بدخواه دوشر ذلته قهار ایشکنده
دل حمدُ ثنا ایله که تکرار ایشکنده
مظلوبه یتیم احمدمختار ایشکنده
سودیم اول ابوبکری که هر بار ایشکنده
خطاب عُمر چوخ دوزه در کار ایشکنده
جان بولدی ضیا عُثماننک انوار ایشکنده
عزت تاپارام حیدر کرّار ایشکنده
اخلاصیله دور **شوقی** مدام یار ایشکنده
اوصافنی مدح ایتمکه شیرین سخنم وار

Bağına zinət ki , verib bağıban,
Bağladı şirazə , çəkib sarvan.
Səbzəyi-novxiz bitən tək haman,
Helyeyi-əxzər geyinib şadman.
Sünbüli xoşbu , qənəfil həmrəhan,
Şəbbu , şəqayıqla , güli-nəstəran.
Oldu gül ol mərhələdə alişan,
Çətr çəkib başına , həm zərnişan.
Süsən olub münşi ona xoş zəban,
Bənövşə baş əydi gülə hər zaman.
Gəldi çəmən gülrüxi-həmraya bax.

Bu fəslidə rəngin olub bağlar,
Gəldi ənadil ki , gedib zağlar.
Oldu nəvasaz ilə  üşşaqılar,
Bəzəndi əlvan , geyinib dağlar.
yandı çiçək , başında çırağlar,
güllər üçün , quruldu novraqlar.
Lalə vü nəstəran olub sağlar,
Eyş qılıb , bəzmində bu çaqlar.
Sinəm ilə pur etdi yarpağlar,
Içində nərgis onu mıçağlar.
Sərxoş olubdur , gözü şəhlaya bax.

Badi-səba gülşənə basdı qədəm,
Açıldı gül , oldu cahan möhtərəm.
Qalmadı dəhr içrə bəla , dərdü qəm,
Tökülfü gülün bərginə şəb dürr- nəm.
Yazdı gülüstan içinə bir rəqəm,

باغینه زینت که ویروب باغبان
باغلادی شیرازه چکوب سوروان
سبزة نوخیز بتن تک همان
حلیة اخضر کینوب شادمان
سنبل خوش بو قنفیل همرهان
شبّو شقایقله گُلی نستران
اولدی گُل اول مرحله ده عالیشان
چتر چکوب باشنه هم زرنشان
سوسن اولوب منشی آنکا خوش زبان
بنفشه باش اکلدی گُله هر زمان
کلدی چمن کل رخی هم رایه باخ

بو فصلده رنکین اولوب باغ لر
کلدی عنادل که کدوب زاغ لر
اولدی نواساز ایله عشاق ایلر
بزندی الوان کیونوب داغلر
یاندی چچک باشنده چیراقلر
کوللر ایچون قورولدی نوراقلر
لاله و نستران اولوب ساغلر
عیش قلوب بزمینده بو چاقلر
شبنم ایله پر ایتدی پیراغلر
ایچینده نرکس اونی میچاغلر
سرخوش اولوپدور کوزی شهلایه باخ

باد صبا کلشنه باسدی قدم
آچلدی کل اولدی جهان محترم
قالمدی دهر ایچره بلا درد غم
توکولدی کلنک برکنه شب درّ نم
یازدی کلستان ایچنه بر رقم

Nəqşi-nigar ilə bəzəndi həşəm.
Şüküfələr üzrə açıbdır kərəm,
Nüqrə , təla başına düzmüş dirəm.
Qıldı səxavət sərvəri-pak şiyəm,
Çəkmə könül bu dəmdə həgiz ələm.
Bağı cahan içrə dilaraya bax.

Çəməndə boy çəkib sərvi-naz , gör,
Əylənib üsründə o , şəhbazı gör.
Cümlə tuyura çox edər nazı gör,
Yanında tifun kimi həmrazı gör.
Tərlan edər tərzüyinən bazı gör,
Kəbki-xuraman gəzər əndazı gör.
Cilvələnib tavusı- tənnazı gör,
Hud-hud elər dilində niyyazı gör.
Qumru, ənadil açıb avazı gör,
Oxudular dugahı-Şahnazı gör.
Eylədilər zövqilə , səfaya bax.

Saqi gətir badeyi-gülrəngi sən,
Ver mey içək bərş ilə , həm bəngi sən.
Mütribi-xoşxan ələ al çəngini,
Qönçəsifət çox olma diltəngi sən.
Bəzm çal , nəğməyi-ahəngi sən,
Olmusan üşşaqi-şüxşəngi sən.
Rast eylədin sədrinə xədəngi sən,
Əhli-eşqi atdın oda yeni sən.
Eyləmisən fitneyi-neyrəngi sən,
Aləmə saldın ki, qərəz cəngi sən.
Düşübdür aşübilə qövğaya bax.

نقش نکار ایله بزندی حَشَم
شکوفه لر اوزرره آچپدور کرم
نقره تلا باشنه دوزمش درم
قلدی سخا سرور پاک شیم
چکمه کونکل بو دمده هرکز اَلم
باغ جهان ایچره دل ارایه باخ

چمنده بوی چکوب سرو نازی کور
اکلنوب اوستنده او شه بازی کور
جمله طیوره چوخ ایدر نازی کور
یاننده طیفونک کمی همرازی کور
طرلان ایدر ترزوینن بازی کور
کپک خرامان کزر اندازی کور
جلوه لنور طاوس تنّازی کور
هدهد ایلر دلنده نبیازی کور
قُمری عنادل آچوب آوازی کور
اوخودیلر دوکاه شاهنازی کور
ایلدیلر ذوقیله صفایه باخ

ساقی کتور بادهٔ کُل رنکی سن
ور می ایچک برش ایله هم بنکی سن
مطرب خوشخوان اله آل چنکی سن
غنچه صفت چوخ اولمه دل تنکی سن
بزم چال نغمهٔ آهنکی سن
اولمیسن عشاق شوخ شنکی سن
راست ایلدونک صدرینه خدنکی سن
اهل عشقی آتّدونک اوده ینکی سن
ایله میسن فتنهٔ نیرنکی سن
عالمه صالدنک کی غرض جنکی سن
دوشوپدور آشوبیله غوغایه باخ

Ey könül et cahan tamaşaların,
Tə`rif ediim dilbəri- sonaların.
Dam eləmiş zelfi-mütəraların,
Tutdu rüxunun məhü simaların.
Ol tuba nisbət , qədd-rənaların.
Gördü gözüm cəbini-ə`laların,
Mədh qılım qaşının bənyaların.
Qüdrət əli çəkdirib tüğraların,
Sevdi könül çehreyi-zibaların.
Sibi-zənəx arizi-almaya bax.

Yar rüxün tək güli-nəsrin dəyil,
Sünbül o zülfün təki , mişkin dəyil.
Qəndi-xəmin tək belə şirin dəyil,
Lə`li-ləbin yanında rəngin dəyil.
Bənövşə saçın kimi , puçin dəyil,
Ayına könlün təki, durbin dəyil.
Eəsmi-vəfasında ki, atin dəyil,
Eylə cəfa , dil ona qəmgin dəyil.
Hicrini çəkmək daha mümkun dəyil,
Vəslinə yetmək , mənə tə`yin dəyil.
Var bu könlümdə təmənnaya bax.

Aldı könül mülkünü bir şəhriyar,
Eylədi qarət ki, qılıb iftixar.
Eşqə salıbdır məni leylü nəhar,
Qaldı bu sevdada sərim üstuvar.
Dərdü bəla , möhnəti etdim şüar,
Verdim onun dəstinə mən ixtiyar.

ای کونکل ایت جهان تماشالرین
تعریف ایدوم دلبر صُونالرین
سرین دیم کنبد خضرالرین
دام ایلمش زلف مطرالرین
دوتدی رخیننک مهُ سیمالرین
اول طوبی نسبت قد رعنالرین
کوردی کوزیم جبین اعلالرین
مدح قلیم قاشیننک بنیالرین
قدرت الی چکدوریب طغرالرین
سودی کونکل چهرهٔ زیبالرین
سیب زنخ عارض آلمایه باخ

یار رخنک تک گُلی نسرین دکل
سنبل او زلفنک تکی مشکین دکل
قند خم نتک بیله شرین دگُل
لعل لبنک یاننده رنکین دگُل
بنفشه ساچنک کمی پرچین دکل
آینه کونکلنک تکی دوربین دکل
رسم وفاسنده که آیین دگُل
ایله جفا دل آنکا غمکین دگُل
هجرنکی چکمک دخی ممکن دَگُل
وصلنکا یتمک بنکا تعیین دکل
وار بو کونکلمده تمنایه باخ

الدی کونکل ملکنی بر شهریار
ایلدی غارت که قلوب افتخار
عشقه سالوپدور بنی لیل النهار
قالدی بو سودادہ سریم استوار
درد بلا محنتی ایتدوم شعار
ویردیم آننک دستنه بن اختیار

Tiğsifət müjganı bağrım yarar,
Çəkdi sinəm xədənginə intizar.
Atıldı sinəmdə olub bərqərar,
Oldu tənim qəmzəsinə sazigar.
Çəkmədi könlüm daha pərvaya bax.

Çünki fələk taraz edib mizanı,
Saçdı zəminə lö`lö`yi mə`ani.
Utarudda çoxdur əqli-nahanı,
Tutdu səvabit bu dürri-yeganı.
Cuza mürəssə` kəmər , al miyanı,
Şəms müləmə` bədən nuranı.
Maha müdam mülhəq edərcəlanı,
Hisar edib , hut dövri-zamanı.
Qovs qurub Merix , aldı kamanı,
Gör necə dövr edir çərxi-cahanı.
Gəzər bu pərgaridə əşyaya bax.

Oldu bu məclis yinə Darulsəlam,
Zövq , səfa sürdü , könül aldı kam.
Saqi bu bəzm içrə daha sundu cam,
Cəmşudə nisbət mey içdük müdam.
Meykədə olmuş bizə qaimməqam,
Belə qılıb əmr , həyi-layənam.
Badi-səba mjdə gətirdi pəyam,
Y`əni bu eyşin düz ola müstədam.
Tapdı bizim ruhumuz ehya tamam,
**Şövqi** sən həmdinoxu hasil kəlam.
Eylə səna qürəti-mövlaya bax.

تیغ صفت مژکانی بغریم یرار
چکدی سینم خدنکنه انتظار
آتلدی سینمده اولوب برقرار
اولدی تنم غمزه سینه سازکار
چکمدی کونکلم دخی پروایه باخ

چونکه فلک تراز ایدوب میزانی
ساچدی زمینه لؤلؤی معانی
عُطارتده چوخدور عقل نهانی
دوتدی ثوابت بو دری یکانی
جوزا مرصّع کمر آل میانی
شمس ملمّع بدن نورانی
ماهه مدام ملحق ایدر جلانی
حصار ایدوب حوت دور زمانی
قوس قوروب مریخ آلدی کمانی
کور نجه دور ایدر چرخ جهانی
کزر بو پرکاریده اشیایه باخ

اولدی بو مجلس ینه دارالسلام
ذوق صفا سوردی کونکل آلدی کام
ساقی بو بزم ایچره دخی صٌوندی جام
جمشیده نسبت می ایچدوک مدام
میکده اولمش بزه قایم مقام
بیله قلوب امر حیّ لاینام
باد صبا مژده کتوردی پیام
یعنی بو عیشنک دوز اوله مستدام
تاپدی بزیم روحمز احیا تمام
**شوقی** سن حمدنک اوخی حاصل کلام
ایله ثنا قدرت مولایه باخ

آلدی بر شوخ بنیم قویمدی کونکلمده قرار
کنه دل ملکنی یغمایه ویروب هر نه که وار
بنکا سرکشته لیک اوکرتدی جهان ایچره شعار
رخی گُل بلبل نسبت چکرم نالهُ زار
عاشقی خسته سیم عارضننک لیل نهار
آلدی بر شوخ بنیم قویمدی کونکلمده قرار
عرض ایدیم حال دیلیم تا کله سلطان بکون



Aldı bir şüx , mənim qoymadı  könlümdə qərar,
Ginə dil-mülkünü yəğmaya verib , hrnə ki, var.
Mənə sərgəştəlk öyrətdi cahan içrə şüar,
Rüxi-gül –bülbül nisbət çəkərəm naleyi-zar.
Aşiqi xəstəsiyəm , arizinin leylü nəhar,
Aldı bir şüx , mənim qoymadı  könlümdə qərar,
Ərz edim hali-dilim , ta gələ sultan bugün.

باباتـــیلار

| | |
|---|---|
| | ١ |
| Hakimi Lüqman bugün, | حاکم لقمان بکون |
| Dərdinə dərman bugün | دردینه درمان بکون |
| Olsəri xuban bugün | اولسر خوبان بکون |
| | ٢ |
| Mənə bir göstərə məskən, | بنکا بر کوستره مسکن |
| Kuyini çox sevərəm mən. | کویینی چوخ سورم من |
| Olur ol məqami rövşən, | اولور اول مقام روشن |
| Açıb ol bağılə gülşən. | آچوب اول باغیله کلشن |
| | ٣ |
| Oxunur surudi bülbül, | اوخونور سرود بلبل |
| Sanasan göründü bir gül. | سناسن کورندی بر کل |
| Necə gül, zülfləri sünbül, | نجه کل زلفلری سنبل |
| Belə xuyi istərəm bil. | بیله خویی استرم بیل |
| | ٤ |
| Cəbəni mahi münəvər, | جبنی ماه منور |
| Verib ustad ona zivər. | وریب اوستاد انکا زیور |
| Saçı qəddilə bərabər, | ساچی قدیله برابر |
| Edib afaqi müətər | ایدوب آفاقی معطر |
| | ٥ |
| Elə bil ləşkəri Qeysər, | ایله بل لشکر قیصر |
| Tutub hind əhlini yeksər. | دوتوب هند اهنلنی یک سر |
| Çinə uğraşdı sərasər, | چینه اوغراشدی سراسر |
| Xalı əsvadi müdəvər. | خالی اسواد مُدور |
| | ٦ |
| Buvaqi bir güli əhmər, | بواقی بر کل احمر |
| Yasəmən zülfi müənbər. | یاسمن زلفی معنبر |
| Rüxi bir lalə-uzar, | رخی بر لاله عذار |
| | آلدی بر شوخ بنیم قویمدی کونکلمده قرار |

۷

Can alan bi nazənindir, جان آلان بو نازنین دور
Hurivəş,zöhrə cəbindir. حوری وش زهره جبین دور
Yeri firdovsi bərindir, یری فردوس بریندور
Mənə həqa ki, yəqindir. بنکا حقا که یقیندور

۸

Beylə məhbub heç olmaz, بیله محبوب هیچ اولمز
Üzi tək xub hiç olmaz. اوزی تک خوب هیچ اولمز
Ona mənsub hiç olmaz. آنکا منسوب هیچ اولمز

۹

Məni xub eylədi xəstə, منی خوب ایلدی خسته
Qəmzəsin gətirdi dəstə. غمزه سین کتوردی دسته
Cəng edir bu cismim üstə, جنک ایدر بو جسمم اوسته
Vuruban etdi şikəstə.ووروبان ایتدی شکسته

۱۰

Qaşı bir kamana nisbət, قاشی بر کمانه نسبت
Gözüdür fitneyi afət. کوزیدور فتنه آفت
Eyləməz aşiqə mürüvvət, ایلمز عاشقه مروت
Çəkərəm kuyində möhnət. چکرم کوینده محنت

۱۱

Nə qəzəbdir bu , nə şəfqət, نه غضبدور بو نه شفقت
Ədən etməz mənə ülfət. ندن ایتمز بنکا الفت
Daha göstər indi izzət. دخی کوستر امدی عزت
Edib ol qəət möhəbbət, ایدوب اول قطع محبت

۱۲

Ah əyər fövt ola fürsət. آه اکر فوت اوله فرصت
Ta əbəd ruzi qiyamət, تا ابد روز قیامت
Qala könlüm intizara. قاله کونکلم انتظاره
کنه دل ملکنی یغمایه ویروب هر نه که وار
Ginə dil mülkünü yəğmayə verib hər nə ki var

۱۳

| | |
|---|---|
| Mənəm ol dilbərə mail, | منم اول دلبره مائل |
| Oluram dərində sail. | اولورم درینده سائل |
| Göstərib, şəkil , şəmail, | کوستریب شکل شمائل |
| Eylədi əqlimi zail. | ایلدی عقلمی زائل |
| | ۱٤ |
| Halımı etdin digərgün, | حالمی ایتدونک دکرکون |
| Qılıb aşüftə, məhzun. | قلوب آشنته محزون |
| Necə kim, Leyli-ü Məcnun, | نجه کیم لیلی مجنون |
| Oldular cahanda məğbun. | اولدیلر جهانده مغبون |
| | ۱٥ |
| Fələkin cövri yamandır, | فلکنک جوری یماندور |
| Sanasan afəti-candır. | ساسن آفت جاندور |
| Çəkərəm dad, amandır, | چکرم داد اماندور |
| İçmərəm , badəsi qndır. | ایچمنم باده سی قاندور |
| | ۱٦ |
| Saqi sun cami-müsəffa, | ساقی صون جام مصفا |
| İçəlim badeyi səhba. | ایچه لوم بادة صحبا |
| Olalım məst ilə şeyda, | اولالیم مست ایله شیدا |
| Tutalım təriqi-sevda. | دوتالیم طریق سودا |
| | ۱۷ |
| Gəzəlim guhilə səhra! | کزه لیم کوهله صحرا |
| Görəlim dilbəri ziba. | کوره لیم دلبر زیبا |
| Qədi bir sərvi səmənsa. | قدی بر سرو سمن سا |
| Yanağı tər , güli rəna. | ینکاقی تر کل رعنا |
| | ۱۸ |
| Zənəxi sibdən əla, | زنخی سیبدن اعلا |
| Sinəsi cənnətə məva. | سینه سی جنت مأوا |
| Səmər etmiş qoşa nar, | ثمر ایتمش قوشه نار |
| Bulmadı beylə nigar. | بولمدی بیله نکار |
| | آلدی بر شوخ بنیم قویمدی کونکلمده قرار |
| | ۱۹ |

Mən dedim hər bar könül, من دیدیم هر بار کونکل
Olma dil-əfkar könül. اولمه دل افکار کونکل
Dərdlərə giriftar könül, درده کرفتار کونکل
Sevdin əcəb yar könül. سودونک عجب یار کونکل
۲۰

Qaməti şimşad kimi, قامتی شمشاد کمی
Qaşları cəllad kimi. قاشلری جلاد کمی
Qəmzəsi ustad kimi, غمزه سی استاد کمی
Gözləri səyyad kimi. کوزلری صیاد کمی
۲۱

Sərvidir azad kimi, سرویدور آزاد کمی
Xosrovi Fərhad kimi. خسرو فرهاد کمی
Könlüm edər şad kimi, کونکلم ایدر شاد کمی
Qoymadı bərbad kimi. قویمدی بر باد کمی
۲۲

Ol şüx-mehr,kaman əbru, اول شوخ مهر کمان ابرو
Qədi dilcu, dişi incu. قدی دلجو دیشی انجو
Rüxi niku, halı bədxu, رخی نیکو حالی بدخو
Xalı hindu, gözü cadu. خالی هندو کوزی جادو
۲۳

Bu cəfakari cəfacu, بو جفاکار جفاجو
Verdi mən qəm, qayğu. ویردی بنکا غم قیغو
Yinə göstərdi vəfa bu, کنه کوستردی وفا بو
Bir təvir dilbəri kuku. بر تَویر دلبری کوکو

Aradısa könül hər su, ارادیسه کونکل هر سو
آلدی بر شوخ بنم قویمدی کونکلمده قرار
۲٤

Açılıb taza nahalım, آچلوب تازه نهالم
Söylə ey tuti məqalım. سوله ای طوطی مقالیم
Daha yoxdur ki, məlalım, دخی یوخدور که ملالیم

Yinə xoş keçdi bu halım. ینه خوش کشدی بو حالیم

Qoxuram zülm edə zalım, قورخارم ظلم ایده ظالیم
Qaşı cəllad , hilalım. قاشیجلاد هلالیم

۲۵

Yayını çəkəməz Rüstəm, یاینی چکمز رستم
Necə bazuya verir xəm. نچه بازویه ویرور خم
Ola Küştasbi əzəm, اوله کشتاسب اعظم
Pakdır ruhi mücəssəm. پاکدر روح مجسم

۲۶

Sevirəm sərvi-xuraman, سورم سرو خرامان
Edirəm çaki gəriban. ایدرم چاک کریبان
Çəkərəm naleyi-əfqan, چکرم نالهٔ افقان
Qalmışam zarilə giryan. قالمشم زاریله کریان
Duna mey saqiyi-dövran. صونه می ساقی دوران

۲۷

İçibən məst olasan, ایچوبن مست اوله سن
Eşqinə peyvəst olasan. عشقنه پیوست اوله سن
Aşiqi pabəst olasan, عاشقی پابست اوله سن
Həmişə sərməst olasan. همیشه سرمت اوله سن

۲۸

Düz bəzmi tamamı, دوز بزم تمامی
Mütrib ahəng edə hamı. مطرب آهنک ایده هامی
Tuta bu Rast müğamı, دوته بو راست مقامی
Yinə üşaq ala kamı. کنه عشاق آله کامی

۲۹

Tapa bu məclis nizamı, تاپه بو مجلس نظامی
Nə bilək sübhilə, şamı. نه بلک صبحله شامی
Verək həm eşqə zimamı. ویرک هم عشقه زمامی
Yetə pəjmürdə pəyamı. یته پژمرده پیامی

۳۰

Gəldi həm bəzmivə yar, کلدی هم بزموه یار
آلدی بر شوخ بنم قویمدی کونکلمده قرار
کنه دل ملکنی یغمایه ویروب هر نه وار
Aldı bir şüx ,mənim qoymadı könlümdə qərar,
Yinə dil mülkini yağmaya verib hər nə var.

٣٢

Dilbəra şahi-xubansan, دلبرا شاه خوبان سن
Daha bir mahi-tabansan. دخی بر ماه تابان سن
Məni oldlara salansan, بنی اودلاره سلان سن
Bivəfalıqdan usansan. بیوفالقدن اوصان سن

٣٣

Kərəm et qılma cəfanı, کرم ایت قلمه جفانی
Tuta gör, rahi-vəfanı, دوته کور راه وفانی
Mənə göstərmə yamanı, بنکا کوسترمه یمانی
Ərz edim , bil ki, ziyanı. عرض ایدیم بیلکه زیانی

٣٤

Sənəma dəhr fənadır, صنما دهر فنادور
Dari-möhnət bu səradır. دار محنت بو سرادور
Sitəmi çün sərə, padır, ستمی چون سره پادور
Ona aldanma bicadır. آنکا آلدانمه بیجادور

٣٥

Dəyil ol kimsəyə layiq, دګُل اول کیمسیه لایق
Olmaz heç qulidə sadiq. اولمز هیچ قولیده صادق
Xak edibdir neçə aşiq, خاک ایدوپدور نچه عاشق
Qərq olub,bəhrinə Vamiq. غرق اولوب بحرینه وامق

٣٦

Vərğa Gülşaya vurub bəst, ورغه کلشایه ووروب بست
Gördü Məcnun məzəllət. کوردی مجنون مذلت
Getdi Fərhad ki, ol vaxt, کتدی فرهاد که اول وقت
Yetişibdir sənə növbət. یتشپدور سنکا نوبت

Çək könül yar qəmin də, چک کونکل یار غمینده
Cana tut dərd , ələmin də. جانه دوت درد المینده

Qalxız eşqin ələmin də,
Eylə səhət bu dəmən də.
Bəlkə dəhrin ədəmin də.
Gör xudanın kərəmin də.
**Şövqi** hər kar cəmin də,
Durma sidqdən kənar.
Aldı bir şüx mənim də.

قالخوز عشقنک علمنده
ایله صحت بو دمنده
بلکه دهرنک عدمنده
کور خداننک کرمنده
**شوقی** هر کار جمینده
دورمه صدقدن کنار
آلدی هر شوخ بنمده

# مرثیه شعیرلری

**İmam-Hüseyn Mərsiyəsi**

Oldu bu mahi-mühərəm qəmilə bəna, Hüseyn,
Aləm gərək səninçün edə ah , va Hüseyn.
Qasilə qaldı xalq yerdə cabəca Hüseyn,
Həm tutdu göydə məlaik hamı əza Hüseyn.
Dönmüşdü həşrə vaqeyi-Kərbəla Hüseyn.

Bulbul ki, bağa yetirdi özün, fəqan çəkib,
Aşüftə gördü gülşəni, güya xəzan çəkib.
Zərd oldu sanki Dey, güli-ərqəvan çəkib,
Qan içrə lalə sədrinə daği-nihan çəkib.
Görmüşdü xak içində qanlı qəba Hüseyn.

Qaldı bəsa çəmən əyaləti fərsüdə tən,
Nərgis göz açdı, ədəmdə yatıb həzən.
Kəc gərdən oldu bənövşə zar, kəbud kəfən,
Sünbül seyrindəki muyin edib şikən-şikən.
Göy geydi süsən əzada çəkdi cəfa Hüseyn.

Lalə öldü , tuti ayinəsin gördü tar,
Dilkirlikdə qumri etdi qissəsin heza.
Hamama xuni-Hüseynə batıb, giryə qıldı zar,
Əyləndi hamı faxta qəsrində aşikar.
Kuku verdi nalə çəkib hər səba Hüseyn.

Xurşidə zəfidən məyərki, eytişdi zaval,
Çəkmiş bu dərdi sabit, səyyarə ruzü sal.
Gərduna bu şivəndə yetişdi infial,

**مرثیه امام حسین**

اولدی بو ماه محرم غمیله بنا حسین
عالم کرک سنچون ایده آه وا حسین
قاسیله قالدی خلق یرده جابجا حسین
هم دوتدی کوکده ملآئک قمو عزا حسین
دونمشدی حشره واقعۀ کربلا حسین

بلبل که باغه یتوردی اوزین فقان چکیب
آشفته کوردی کلشنی کویا خزان چکیب
زرد اولدی صانکه دَی کل ارغوان چکیب
قان ایچره لاله صدرینه داغ نهان چکوب
کورمشدی خاک ایچنده قانلو قبا حسین

قالدی بسا چمن آیالتی فرسوده تن
نرکس کوز آچمدی عدمده یاتوب حزن
کج کردن اولدی بنفشه زار کبوت کفن
سنبل سیرنده کی موین ایدوب شکن شکن
کوک کیدی سوسن عزاده چکدی جفا حسین

لاله اولدی طوطی آینه سین کوردی تار
دل کیرلکده قمری ایتدی قصه سین هزار
حمامه خون حسینه یاتوب کریه قلدی زار
اکلندی قمو فاخته قصرنده آشکار
کوکو ویردی ناله چکوب هر صبا حسین

خورشیده ضعفدن مکر که یتشدی زوال
چکمش بو دردی ثابت سیاره روز سال
کردونه بو شیونده یتشدی انفعال

Olmuş tamam mah o müsibətdə bir hilal.
Çərxin qədin xəm eylədi bu macəra Hüseyn.
Möhnət sərada qaldı kənara çəkilmədi,
Hüznilə qaldı geriyə, Hicaz əhli gəlmədi.
Məğlub İraqidə olmuş, ədüya əyilmədi,
Hərgiz müxalif ilə işi rast gəlmədi.
Qəm guşəsində qaldı yinə binəva Hüseyn.

Dərda nəhayət oldu əncam qəm hənuz,
Oldu Hüseynə cövrü cəfa çox, sitəm hənuz.
Rəncur xəlqi-vilayət çəkib ələm hənuz,
Qıl **Şövqi** şüri-növhə daha sən bu dəm hənuz.
Bu dəm yetər harayına övladi Müstafa Hüseyn.

اولمش تمام ماه او مصیبتده بر هلال
چرخنک قدّین خم ایلدی بو ماجرا حسین
محنت سراده قالدی کناره چکلمدی
حزنیله قلدی کریه هجاز اهلی کُلمدی
مغلوب عراقیده اولمش عَدویه اکلمدی
هرکز مخالف ایله ایشی راست کلمدی
غم کوشه سنده قالدی کنه بینوا حسین

دردا نهایت اولمدی انجام غم هنوز
اولدی حسینه جور جفا چوق ستم هنوز
رنجور خلق ولایت چکوب الم هنوز
قیل **شوقی** شور نوحه دخی سن بو دم هنوز
بر دم یتر هراینکا اولاد مصطفی حسین

Ey dil bahara düşdü bu mahi-Mühərrəm[۱],
Qıldı fələk bu aləmə cövrü cəfa, sitəm.
Hər dəştü kuhü vilayət içrə doldu qəm,
Xalq etdi girya vü zari , çəkib ələm.
Düşdü cahana qulqulə, fəryad dəmbədm.

Ta girdi bağa Məhərəmdə nəsimi-səba,
Matəmlə səbzəyə əşcar buracdı səda.
Yas ilə qönçə bağrı qana döndü bəsa,
Nərgis gözünə göründü ki, yerdə qanlı qəba.
Bildi bu Hüseynindir o girya qıldı həm.

Aşüftə hal sünbül oldu ruzi-təbah,
Süsən libasın abnusin geydi , çəkdi ah.
Həm lalə bağrını dağ etdi caygah,
Çıxdı bənövşə xakdan əzaya rəngi-siyah.
Əydi duta bu yas qaməti qıldı xəm.

Oldu gülsaba ki, dəmi-sübhdən əyan,
Pəjmürdə hal durdu müsibətlə nagəhan.
Çün yasa batdı yasəmən libası göy haman,
Qanıla səhifələrin gülün etdi ərqəvan.
Kelki qəza Hüseyn üçün əza yazıb rəqəm.

Va ümməta Hüseynin görün bu müsibətin,
Ərşüzrə şəms tutuldu , görüb zillətin.

---

۱ .burada şeirin yazma tarixi (۸۸۵ hicri) müəyyən olunubdur

ای دل بهاره دوشدی بو ماه محرم[1]
قلدی فلک بو عالمه جور جفا ستم
هر دشت کوه ولایت ایچره دولدی غم
خلق ایتدی کریه و زاری چکوب الم
دوشدی جهانه غلقله فریاد دمبدم

تا کیردی بغه محرمده نسیم صبا
ماتمله سبزة اشجاره بوراخدی صدا
یاسیله غنچه بغری قانه دوندی بسا
نرکس کوزینه کورندی که یرده قانلو قبا
بلدی بو حسنینکدور او کریه قلدی هم

آشفته حال سنبل اولدی روز تباه
سوسن لباسین آب نوسی کیدی چکدی آه
هم لاله بغرینی داغ ایتدی جایکاه
چیخدی بنفشه خاکدن عذایه رنک سیاه
اَکدی دوتا بو یاس قامتی قلدی خم

اولدی کُل صبا که دمی صبحدن عیان
پژمرده حال دوردی مصیبتله ناکهان
چون یاسه باتدی یاسمن لباسی کوک همان
قانیله صفحه لرین کلک ایتدی ارغوان
کلک قضا حسین ایچون عزا یازوب رقم

وا امتا حُسیننک کورون بو مصیبتین
عرش اوزره شمس دوتولدی کوروب ذلتین

---

[1]. بو شعیرین یازیلماسی ۸۸۵ قمری ایلینه برابر اولور.

Giryan olub səhab, çəkdi möhnətin,
Ol dəm səmada pozdu məlik cümlə zinətin.
Həm şivən ilə Kərbəlaya basdı qədəm.

Aləm bu vaqiə`dən xufnakdır zəlil,
Dəşti İraqda hər yan Hüseyn öpür xəcil.
Dərda büzügü küçük giryandır müttəsil,
Novruza düşdü mahi-Mühərrəm ki , bu fəsil.
Fəryadi-növhə qıldı Hicazü Ərəb,Əcəm,

Ey **Şövqi** çək fəqanını , ağla Hüseyn üçün.
Əfv eylə günahını xuda Hüseyn üçün,
Peyğəmbərin sənə şəfi[۱] ola Hüseyn üçün.
Çeşm ilə xunfəşan ki, daima Hüseyn üçün,
Hər dəm sirişki xaki-məqamından etmə kəm.

کریان اولوب سحاب چکدی محنتین
اولدم سماده پوزدی ملک جمله ذینتین
هم شیون ایله کربلایه باسسدی قدم

عالم بو واقعه دن خوف ناکدر ذلیل
دشت عراقده هر یان حسین اویور خجیل
دردا بزرک کوچک کریاندور متصل
نوروزه دوشدی ماه محرم که بو فصل
فریاد نوحه قلدی حجاز عرب عجم

ای **شوقی** چک فقاننکی آغلا حسین ایچون
عفو ایلیه کناهنکی خدا حسین ایچون
پیغمبرنک سنکا شفیع اولا حسین ایچون
چشم ایله خونفشان که دآئما حسین ایچون
هر دم سرشکی خاک مقدمندن ایتمه کم

## Hüseyn üçün

Ey dil həmişə giryə qıl , əfqan Hüsey üçün,
Ey didə tök sirişki-xunfəşan , hüseyn üçün
Ey dətim eylə çak gəriban , Hüseyn üçün,
Ey cism oda pərvanə kimi yan, Hüeyn üçün.
Ey can et ənadil kimi nalan , Hüseyn üçün.

Gör netdi Kərbəlada bu çərxi-vajgun,
Qövğayi-həşr tək xəlayiq olub zəbun.
Tufan qılıb , səhabi-sirişgi eyləmişdi xun,
Olmadı Hüseynə kim, ol yerdə rəhnəmun.
Açılmadı siyahbəxt numayan , Hüseyn üçün.

Ol şam hüseyn üçün qəmilə oldu sabah,
Dəşti-İraqidə biçarə qaldı binəva.
Cövr etdi qovmi-müxalif əhli-Hicaza ta,
Məğlub qaldı, yoxdur ona xəsmidən rəha.
Möhnət hisarı oldu ki, hər yan , Hüseyn üçün.

Incəldi bu əzada qəmər muyə qıl qiyas,
Zərd oldu aftab , üzün aldı yas.
Çəkdi hezar qissə , kəvakib qurub əsas,
Ərşi-əzəl növh qıldı , çünki mələk tutdu yas.
Qan ağla bu yerdə ki, yaran Hüseyn üçün.

Va həsrəta xəzana yetdi bunda baölar,
Bülbül gedib , bu gülüstanı tutdu zağlar.
Nərgis gözünə şəbnəm ilə duşdü ağlar,

ای دل همیشه کریه قیل افقان حسین ایچون
ای دیده توک سرشک خونفشان حسین ایچون
ای دستیم ایله چاک کریبان حسین ایچون
ای جسمم اوده پروانه کمی یان حسین ایچون
ای جان ایت عنادل کمی نالان حسین ایچون

کور نتّدی کربلاده بو چرخ واژکون
غوغایی حشرتک خلایق اولوب زبون
طوفان  قلوب سحاب سرشک ایلمشدی خون
اولمدی حسینه کیم اول یرده رهنمون
آچلمدی سیاه بخت نمایان حسین ایچون

اول شام حسین ایچون غمیله اولدی صبا
دشت عراقیده بیچاره قالدی بینوا
جور ایتدی قوم مخالف اهل حجازه تا
مغلوب قالدی یوخدور آنکا خصمدن رها
محنت حصاری اولدی که هر یان حسین ایچون

اینچلدی بو عزاده قمر مویه قیل قیاس
زرد اولدی آفتاب یوزین آلدی یاس
چکدی هزار قصه کواکب قوروب اساس
عرش اوزره نوحه قلدی چونکه ملک دوتدی یاس
قان آغلا بو یرده که یاران حسین ایچون

وا حسرتا خزانه  یتدی مونده باغلر
بلبل کیدوب بو کلستانی دوتدی زاغلر
نرکس کوزینه شبنم ایله دوشدی آغلر

Sədrinə çəkdi matəm üçün lalə dağlar.
Xun etdi sürx ruyini əlvan , Hüseyn üçün.
Sərsər hücum qıldı ki , gülzara dərdnak,
Gül qönçəsi yaxasını yas ilə qıldı çak.
Qan eylədi zəmin , əşk tökdü çeşmi-tak,
Nilikəfən bənövşə daha bəkləmişdi xak.
Qılmış müdam qamətin kaman, Hüseyn üçün.

Etmişdi bu Hüseynə fələk zulmi aşikar,
Kamınca dönmədi hərgiz , bu çərxi kəcmədar.
Qan ağlamaq gərək bu müsibətdə zar,
Peyğəmbər tək yəqin ki, min mənə hədisi var.
Ey **Şövqi** sən bu didəsi giryan Hüseyn üçün.

صدرینه چکدی ماتم ایچون لاله داغلر
خون ایتدی سرخ روینی الوان حسین ایچون
صرصر هجوم قلدی که کلزاره دردناک
کل غنچه سی یخاسنی یاسیله قلدی چاک
قان ایلدی زمین اشک توکدی چشم تاک
نیلی کفن بنفشه دخی بکلمشدی خاک
قلمش مدام قامتین کمان حسین ایچون

ایتمشدی بو حسینه فلک ظلمی آشکار
کامنجه دونمدی هرکز بو چرخ کج مدار
قان آغلامق کرک بو مصیبتده زار
پیغمبرنک یقین که من بکا حدیثی وار
ای **شوقی** سن بو دیده سی کریان حسین ایچون

Ah könül çək qəmü əfqnı sən,
Tapşır Hüseynın yoluna canı sən.
Bisərü purxun kimin qurbanı sən,
Tapşır Hüseynın yoluna canı sən.

Oldu xəzan həm gülü , bağı Reəsul,
Zeynət edib zülfünü aşüftə tul.
Fatimə məhşərdə deyir vay oğul,
Ah könül çək qəmü əfqnı sən,

Ah nədən çəkdi Hüsenim cəfa,
Qasim üçün quruldu matəmsəra.
Yasa dönüb , qaldı töyü həşrə ta,
Qan ağla , seylab ilə dünyanı sən.

Əhli-cəfa verdi Hüseynə fərib,
Qalmadı binahidə səbrü şəkib.
Abidin avara düşübdür qərib,
Tut ki , siyəhşami-qğribanı sən.

Sübh saçıb xunilə həm nalıni,
Görkəc Hüseyni , dili-purkaləni.
Şəhrbani ahilə çək naləni,
Tut ki , əza , matəmi-pünhan sən.

Cəddinə təşbih et Əli Əkbəri,
Xakilə yeksana vü gözəl peykəri.
Sudan ötrü oxladılar Əsğəri,

آه کونکل چک غم افغانی سن
تاپشور حسیننک یولنه جانی سن
بی سرُ پر خون کیمنک قربانی سن
تاپشور حسیننک یولنه جانی سن

اولدی خزان هم کلی باغ رسول
زینب ایدوب زلفنی آشفته طول
فاطمه محشرده دیر وای اوغول
آه کونکل چک غم و افغانی سن

آه ندن چکدی حسینم جفا
قاسم ایچون قورولدی ماتم سرا
یاسه دونوب قالدی طوبی حشره تا
قان آغلا سیلاب ایله دنیانی سن

اهل جفا ویردی حسینه فریب
قلمدی بناحیده صبر و شکیب
عابدین آواره دوشوپدور غریب
دوت که سیه شام غریبانی سن

صبح ساچوب خونیله هم نالهٔ نی
کورکج حسینی دلی پر کاله نی
شهره بانو آهله چک ناله نی
دوت که عزا ماتم پنهان سن

جدینه تشبیه ایت علی اکبری
خاکیله یکسانه و کوزل پیکری
سودن اوتری اوخلادیلر اصغری

Ağla gözüm  , sür saçı giryanı sən.

Məğlub olub , qaldı Hüseyn arada,
Şürü şivən etdi fələk əzada.
Mühü mələk nala qıldı səmada,
Yasda bil xurşidi-rəxşanı sən.

Oldu xəcil Kərbəlada şah Hüseyn,
Təşnə qaldı deyrə nagah Hüseyn.
Girye qıl ey **Şövqi** çəkib ah Hüseyn,
Eylə müdam çak gəribanı sən.

آغلا کوزیم سور صچی کریانی سن

مغلوب اولوب قالدی حسین اراده
شور شیون ایتدی فلک عزاده
ماه ملک ناله قلدی سماده
یاسده بیل خورشید رخشانی سن

اولدی خجل کربلاده شاه حسین
تشنه قالدی دیرده ناکاه حسین
کریه قیل ای **شوقی** چکوب آه حسین
ایله مدام چاک کریبانی سن

# تـــوبه نامـــه

## Tövbənamə

Ya ilahi daima könlüm edər səndən vəhim,
Bir sabah açdım oxurdum yə`ni Qurani-əzim.
Ayələr gördüm içində ,düşdü bu canıma bim,
Xfum ondandır , vucudum qalsa xakistər həcim.
Çünki, üyandan peşimanam , nəsib eylə nə`im,
Eylərəm səndən tələb aləmdə, istiğfari-`əmim.
Sidqilən virdim budur , çağırram ya kərim!
Dur qıl məndən mə`azallah zi şeytani-rəcim.
Sidqi-dildən tövbə qıldım : əntə təvab əlrəhim,
Dur qıl məndən məazallah zi-şeytan əlrəhim.
Sidqi-dildən tövbə qıldım , əntə təvvab əlrəhim.

Ol zaman kim, cəhli-qəflətdən keçən dövran idi,
Bu cəhətdən əql nəfsə tabe`i fərman idi.
Işrətim bəzmi münəvvər , məclisim əlvan idi,
Rindilər meyxanam içrə cabəca yeksan idi.
Badeyi-məhbubə könlüm bağlanıb , heyran idi,
Indi təhqiq etmişəm , bu işlərim üsyan idi.
Bu cəfaları mənə bildim , edən şeytan idi.
Dur qıl məndən məazallah zi-şeytan əlrəhim.
Sidqi-dildən tövbə qıldım , əntə təvvab əlrəhim.

Mən ki, bu ədna olan dünyaya çün basdım qədəm,
Tərpədib fisqü fucurun ləşkərin , çəkdim ələm.
Bilmədim bu dun dəhrin olduğun mülki-ədəm,
Çox bəla məzluma qıldım , eylədim zülmü sitəm.

یا الهی دآئما کونکلم ایدر سندن وهیم
بر صباح آچدیم اوُخوردیم یعنی قرآن عظیم
آیه لر کوُردوُم ایچنده دوشدی بو جانمقه بیم
خوفیم آندندور وجودیم قلسه خاکستر حجیم
چون که عصیاندن پشیمانم نصیب ایله نعیم
ایلرم سندن طلب عالمده استغفار عمیم
صدقیلن ویردوُم بودور چاغرم یا کریم
دور قیل بندن معاذالله ذی شیطان الرجیم
صدق دلدن توبه قلدیم انت التواب الرحیم

اوُل زمان کیم جهل غفلتدن کچن دوران ایدی
بو جهتدن عقل نفسه تابع فرمان ایدی
عشرتیم بزمی منوّر مجلسیم الوان ایدی
رندیلر میخانم ایچره جابجا یکسان ایدی
بادهٔ محبوب کونکلم باغلانوب حیران ایدی
شمدی تحقیق ایتمشم بو ایشلریم عصیان ایدی
بوُ جفالرنی بنکا بلدیم ایدن شیطان ایدی
دور قیل بندن معاذالله ذی شیطان الرجیم
صدق دلدن توبه قلدیم انت التواب الرحیم

بن که بو ادنا اوُلان دنیایه چون باسدیم قدم
تیره دوُب فسق فجُورنک لشکرین چکدیم علم
بلمدیم بو دون دهرنک اولدوغین مُلک عدم
چوخ بلا مظلومه قیلدوم ایلدیم ظلم ستم

Bu səbəbdəndir ziyada olmuşam , amma dildə qəm,
Günbəgün artar bu aləmdə mənə dərdü ələm.
Olmuşam agəh , mənim zikrim budur çün dəmbədəm.
Dur qıl məndən məazallah zi-şeytan əlrəhim.
Sidqi-dildən tövbə qıldım , əntə təvvab əlrəhim.

Nalə bünyad eylədim , gəldim sənə sultanı-din,
Bilmişən çün sənsən ol  şahənşəhi ruyi-zəmin.
Müjdə verdi ümmətin haqqında Cəbraili-əmin,
Məzhəri islamsan , şayistə , burhanı-yəqin.
Çün həbiballahsan olsun sənə səd afərin,
Eylə ehsanın mənə kim , qalmışam zarü həzin.
Bu  Məhəmməd xatiriçün bikəsəm rəhm et həmin,
Dur qıl məndən məazallah zi-şeytan əlrəhim.
Sidqi-dildən tövbə qıldım , əntə təvvab əlrəhim.

Görmədim bu aləmi süflidə müstəhkəm əsas,
Bivəfalıq rəsmini qıldım ki, halından qiyas.
Vermiş ayini-dəni-himmətlərə faxir libas,
Ali himmət kəslərə qalmışdı hər fəqrü pəlas.
Mən onunçün könlümə üqbadab aldım iqtibas,
**Şövqiya** imanilə yarəb deyib şükrü sipas.
Cürmə etdim tövbə , allah səndən iltimas,
Dur qıl məndən məazallah zi-şeytan əlrəhim.
Sidqi-dildən tövbə qıldım , əntə təvvab əlrəhim.

بو سببدندور زیاده اولمش امّا دلده غم
کن بکون آرتار بو عالمده بنکا درد و اَلَم
اولمشم آکه بنم ذکریم بودور چوُن دمبدم
دور قیل بندن معاذالله ذی شیطان الرجیم
صدق دلدن توبه قلدیم انت التواب الرحیم

ناله بُنیاد ایلدیم کلدیم سنکا سلطان دین
بلمشم چوُن سن سن اول شاهنشهی روی زمین
مژده ویردی امّتنک حقّنده جبریل امین
مظهری اسلام سن شایسته برهان یقین
چوُن حبیب الله سن اولسونک سنکا صد آفرین
ایله احساننک بنکا کیم قالمشم زار و حزین
بو محمد خاطریچون بیکسم رحم ایت همین
دور قیل بندن معاذالله ذی الشیطان الرجیم
صدق دلدن توبه قلدیم انت تواب الرحیم

کورمدیم بو عالمی سفلیده مستحکم اساس
بیوفالق رسمنی قلدیم که حالیندن قیاس
ویرمش آیین دنی همتلره فاخر لباس
عالی همت کسلره قالمشدی هم فقر پلاس
بن آننکیچون کونکلمه عقبادن آلدیم اقتباس
**شوقیا** ایمانیله یارب دیُوب شکرُ سپاس
جُرمه ایتدوم توبه الله سندن التماس
دور قیل بندن معاذالله ذی الشیطان الرجیم
صدق دلدن توبه قلدوم انت التواب الرحیم

# یاش نامــه

Yaşnamə

Çahar ənasirdən vucuda gəldim
Fənayi qaradan kim, oldum peyda
Haqqın lütfi müəyyən oldu zatıma
Qədəm badım bu aləmə ibtida.
Tədricilə çəkdi xameyi təqdir
Peykəri nəqşimi rəhimmdə təsvir
Yetişdi sərimə aqıl müdəbbir,
Təprətdi can verdi qadiri dana
Verdi ruh zati-xuda mənə pay
Tamam oldu hər sifətim cabəcay
Doqquz saat,doqquz dəqiqə,doqquz ay
Keçdi gəlmək üçün oldum mühəyya
Gəlkəc bu gözümlə görüdü cahan
Düşdü bu könlümə çünki intiha.
Nəsb etdilər mənim  üçün gəhvara,
Etdilər onu təhrik hər bara.
Qırxım tamam oldu çıxdım aşkara,
Təbssüm eylədim görəndə aşina
Günbəgün oldu camaalım mərğub,
Sanasan ki,oldum məhbubi qulub.
Göründü aləmə hüsni ruyim xub.
Oldu nasiyəmdə rüçd huvida,
Yürüdüm bir yaşda ,göstərdim hünər,
Açdım iki yaşda zəbani göhər.
Üç yaşda pedərim verdi kəncü zər.
Səxa dəmi ruhim eylədi ehya.
Dörd yaşda gözə göründüm kulbədən
Seyr etdim beş yaşda gülzar,çəmən.

چهار عناصردن وجوده کلدیم
فنای قرادن کیم اوُلدوُم پیدا
حقّنک لطفی معُین اولدی ذاتمه
قدم باسدوم بو عالمه ابتدا
تدریجله چکدی خامهٔ تقدیر
پیکری نقشمی رحمده تصویر
یتشدی سریمه عقلُ مُدبیر
تپرتدی جان ویردی قادر دانا
ویردی روح ذاتی خدا بنکا پای
تمام اولدی هر صفتیم جابجای
دوقّوزساعت دوقّوزدقیقه دوقّوزآی
کیچدی کلمکیچون اولدیم مهیا
کلکج بو کوزیمه کوُرندی جهان
دوشدی بو کونکلمه چونکه انتها
نصب ایتدیلر منم ایچون کهواره
ایلدیلر آنی تحریک هر باره
قرخیم تمام اولدی چیخدوم آشکاره
تبسّم ایلدوم کورنده آشینا
کون بکون اولدی جمالیم مرغوب
سناسن که اولدوم محبوب القلوب
کورندی عالمه حسن روئیم خوب
اولدی ناصیمده رشد هویدا
یوریدیم بر یاشده کوستردیم هنر
آچدیم ایکی یاشده زبان کوهر
اوُچ یاشده پُدریم وردی کنج زر
سخا دمی روحیم ایلدی احیا
دورت یاشده کور یئدیم کوزه کلبدن
سیر ایتدیم بیش یاشده کلزار چمن

Altı yaşda tutdum dəstmə çövgən.
Çıxartdım meydandan topu mübərra,
Yeddi yaşda yeddi yaşaım tökdüm.
Səkkiz yaşda sərvi qamətim çəkdim,
Bağı cahan içrə nahalım tikdim.
Göstərdim aləmə bir nüşvu-nama.
Doqquz yaşda təriqi sünnət,
İtmama yetişdi , uluma növbət.
Yetəndə müəllim , eylədi adət,
Dərs Verdi oxudum hurfi ica.
Qıldım on yaşımda sələvati rəman,
Dildə zikr eylədim ,təsbihi sübhan.
Açdım onbir yaşda , oxudum Quran,
Ta könlüm miratı göstərdi ziya.
Oniki yaşımda oldum növcavan,
Onüç yaşda sövtim oldu xoşilhan.
Ondörd yaşda oldum mükəlləf əyan.
Əlnikah sünnət demiş ənbiya,
Ol hədisə dildən eylədim əməl.
Sevdim cahanda bir şüxi bibədəl.
Yetdi könül məh vüsalına mükəmməl.
Onbeş yaşda oldum yağlı kədxuda,
İyirmidə gəldi mənə məhabət.
Açdım ol zamanda ruyi şücaət,
Əhbaba göstərdim cudu səxvət.
Xəsm kəməndimdən olmadı rəha,
İyirmibeşdə gəldi mənə zur,
Oldum otuzumda hər eybdən dur.
Bibak idim otuzbeşimdə,məğrur,
Qırxda gəldi aqlım başımız ka. ,

آلتی یاشده دوتدیم دستمه چَوگَن
چخارتّدیم میداندن توپی مبّرا
یدی یاشده یدّی یشاریم توکدیم
سکّز یاشده سرو قامتم چکدیم
باغ جهان ایچره نهالیم دکدیم
کوستردیم عالمه بر نشو نما
طوقّوز یاشده طریق سّنت
ایتمامه یتشدی عُلومه نوبت
یتنده معلم ایلدی عادت
درس ویردی اوخودیم حروف ایجا
قلدوم اون یاشمده صلوة رحمن
دلده ذکر ایلدیم تسبیح سبحان
آچدیم اون بر یاشده اوقیدیم قرآن
تا کونکلم مرآتی کوستردی ضیا
اون ایکی یاشمده اولدیم نوجوان
اون اوُچ یاشده صوتیم اولدی خوش الحان
اون دورت یاشده اولدیم مکلف عیان
النکاح سنت دیمش انبیا
اول حدیثه دلدن ایلدیم عمل
سودیم جهانده بر شوخ بی بدل
یتّدی کونکلم مه وصلنه مکمّل
اون بیش یاشده اولدیم بغلی کدخدا
ایکرمی ده کلدی منه مهابت
آچدیم اول زمانده رویی شجاعت
احبابه کوستردوم جود سخاوت
خصم کمندیمدن اولمدی رها
ایکرمی بیشمده کلدی بنکا زور
اولدیم اوتوزیمده هر عیبدن دور
بی باک ایدیم اوتوز بشمده مغرور
قرخده کلدی عقلیم باشه مُز کّا

Qırx beşimdə sevdim mal,övladi,
Əlli yaşda oldum hər iş ustadi.
Altmışda eylədim zikr ibadi,
Sidq ilə çağırdım əlimu-əla.
Altmış yetmiş arasında canıma,
Xüf xətər gəldi üstuxanıma.
Yetmişdə yetişdi dəndanıma,
Töküldü sədəfdən dürri bibəha.
Səksənimdə muy ağardı sərasər,
Gəldi peyki-əcəl, gətirdi bəd xəbər.
Görməz olddu gözüm,guşimdə əsər
Vəqti rihlət bunu eylər iqtiza.
Doqsanımda nəzər saldım dünyaya,
Bir kimsənə bunda çatmadı vaya.
Əymiş əlif qədim, döndərdi yaya,
Çərxi-fələk mənə eylər təmaşa.
Zaiqəyi dildə tapılmadı illət,
Şərabu əkəlimdən görmədim ləzzət.
Zəfu pirlikdən çəkim məzəllət.
Ol vaxt şəbabi etdim təmənna.
Yüz yaşımda təhqiq etdim ölümü,
Gördüm bu fənada solmuş gülümü.
Gülzari dəhridən çəkdim əlimi,
Könlüm tələb etdi riyazi üqba.
Dünyada sevmədim olam sərəfraz,
Baqını fənadan etdim imtiyaz.
Murği ruhum istər eyləyə pərvaz,
Düşdü xarırıma cənnət-ulməva.
Dildə müdam şükr eylədim səttara,
Sidqi könül verdim pərvərdigara.

قرخ بشیمده سودیم مالُ اولادی
الّلی یاشده اولدیم هر ایش استادی
آلتمشده ایلدیم ذکرُ عبادی
صدقیله چاغردیم علیم اعلا
آلتمش یتمیش آراسنده جانمه
خوف خطر کلدی استخوانمه
یتمشده یتشدی دندانمه
توکولدی صدفدن درّ بی بها
سکسنمده موی آغاردی سراسر
کلدی پیک اجل کتوردی خبر
کورمز اولدی کوزیم کوشمده اثر
وقت رحلت مونی ایلر اقتضا
دوقسانمده نظر سالدیم دنیایه
بر کیمسنه مونده چاتمادی وایَه
اکمیش الف قدّیم دوندردی یایه
چرخ فلک بنکا ایلر تماشا
ذائقة دلده تاپلمدی علت
شراب اکلمدن کورمدیم لذت
ضعف پیرلکدن چکدیم مذلت
اول وقت شبابی ایتدیم تمنا
یوز یاشمده تحقیق ایتدوم اولومی
کوردوم بو فناده صولمش گُولمی
کلزار دهریدن چکدوم المی
کونکلم طلب ایلدی ریاض عقبا
دنیاده سومدیم اولام سرافراز
باقنی فنادن ایتدیم امتیاز
مرغ روحیم ایستر ایلیه پرواز
دوشدی خاطریمه جنت المأوی
دلده مدام شکر ایلدیم ستاره
صدق کونکل ویردوم پروردکاره

Can təslim eylədim əmri qəffara,
Əfv edər günahım, gər qılsa əta.
Paku münəzəhdir biləm mühəqəq,
Tamam aləmə vəkili mütləq.
Hərkimi sevərsə eylər  əlhi-həqq.
Bu rəhimü rəhman xaliqi yekta,
Rəbbim , yarlığıya var günahlarım,
Qalmaya dildə naley zarım.
Ruzi-qiyamətdə ola qəmxarım,
Şəfaətçi Məhəmmədi Müstafa.
Onun kuyi mənim daruləmanım,
Fədadir yolunda başıla canım.
Qəm çəkmənəm olsa yüzmin üsyanım,
Məzhərimdir ol sərvi ənbiya.
Nurdan yaranmış vucudi zati,
Onun dəmi ehya qılar əmvati.
Yasü tahadır hüsnü sifatı,
Ləblərində var ecazi Məsiha.
Ərzi halım deyim  belə şəhlara,
Əbubəkir,Ömər,Üsman,Heydərə.
Açarlar qəbrimdən töhfə pəncərə,
Rövzeyi-rizvani görüm sərapa.
Mənim könlüm onda ola kamyab,
Nari cəhənəmdən görməyim əzab.
Ol abi kövsərdən içim meyi nab,
Şərabən təhürən cami müsəffa.
Görməyəsən münkir-nəkir zəmətin,
Sərat cəhimin suzi möhnətin.
**Şövqi** müdam çək tanrının minnətin,
Dilə cənnət, tutubtəriqi riza.

جان تسلیم ایلدوم امر غفاره
عفو ایدر کناهیم کر قلسه عطا
پاک منزهدور بلّم محقق
تمام عالمه وکیل مطلق
هر کیمی سورسه ایلر اهل حق
بو رحیم رحمن خالق یکتا
ربیم یارلغیه وار کناهلریم
قالمیه دلده نالة زاریم
روز قیامتده اولا غمخواریم
شفاعتچی محمد المصطفی
آننک کُویی منم دارالامانیم
فدادور یولنده باشیله جانیم
غم چکمنم اولسه یوزمین عصیانیم
مظهریمدور اول سرو انبیا
نوریدن یرانمش وجود ذاتی
آننک دمی احیا قلار امواتی
یس طه در حسن صفاتی
لبلرینده وار اعجاز مسیحا
عرض حالیم دییم بیله شهلره
ابوبکر عمر عثمان حیدره
آچرلر قبریمدن تحفه پنجره
روضهٔ رضوانی کورم سراپا
منم کونکلم آنده اولا کامیاب
نار جهنمدن کورمیم عذاب
اول آب کوثردن ایچم می ناب
شراباً طهوراً جام مصفا
کورمیه سن منکر نکیر زحمتین
صراط جحیمنک سوز محنتین
**شوقی** مدام چک تنکرنینک منتین
دیله جنت دوتوب طریق رضا

# کـرایلیـلار

| | |
|---|---|
| Mənim piranə sər könlüm, | منم پیرانه سر کونکلم |
| Pir ol duqca cavan istər. | پیر اولدوقجه جوان ایستر |
| Çeşmi fitnə , kirpigi ox, | چشمی فتنه کپرکی اوخ |
| Əbrulərin laman istər. | ابرولرین کمان ایستر |
| | |
| Zülf dal gərdəndən ötmüş, | زلف دال کردندن اوتمش |
| Pər qoncağına yetmiş. | پر غونجاغینه یتمش |
| Zənəxdan çövrəsin tutmuş, | زنخدان چوره سین دوتمش |
| Xalların zərəfşan istər. | خالّارین زرفشان ایستر |
| | |
| Gözüm hüsnün görəndə xub, | کوزیم حسنین کورنده خوب |
| Zibü zinətlə mərğub. | زیب زینتله مرغوب |
| Nəsli Yusif kimi məhbub, | نسلی یوسف کمی محبوب |
| Sur, ulya məkan istər. | سور علیا مکان ایستر |
| | |
| Gələ bir dilbəri məhru, | کله بر دلبری مهرو |
| Ola nəzzarəsi ahu. | اوله نظّاره سی آهو |
| Xulqi , xuyi daha niku, | خلقی خوی دخی نیکو |
| Ol şüxi mehriban istər. | اول شوخی مهربان ایستر |
| | |
| Gülşəndə bir arizi gül, | کلشنده بر عارضی کل |
| Aşiqin eyləmiş bulbul. | عاشقین ایلمش بلبل |
| Görsə üzün can verər bəl, | کورسه اوزین جان ویرور بل |
| **Şövqi** belə canan istər. | شوقی بیله جانان ایستر |

| | |
|---|---|
| Könül bir şüxi müstəsna, | کونکل بر شوخ مثتثنا |
| Onulmuş  intixab istər. | اوکولمش[1] اینتخاب ایستر |
| Xubru Yusifi sani, | خوب رو یوسف ثانی |
| Sevər, ülya cənab istər. | سور علیا جناب ایستر |
| | |
| Xumar çeşmi gərək siyəh, | خورما چشمی کرک سیه |
| Əbruləri qövsi qəzəh, | ابرولری قوس قذح |
| Zülfi bulud , cəbasi məh, | زلفی بولوط جباسی مه |
| Camalın afitab istər. | جمالین آفتاب ایستر |
| | |
| Ağzı şəkkər , dili bal, | آغز شکرتک دلی بال |
| Abi-heyvan tökər missal. | آب حیوان توکر مثال |
| Sözləri gövhər,şəhdi zülal, | سوزلری کوهر شهدی زلال |
| Ləblərin ləli nab istər. | لبلرین لعل ناب ایستر |
| | |
| Aşiq eşq həvəsindən, | عاشق عشقنک هوسندن |
| Xət edər məşüqəsindən. | خط ایدر معشوقه سندن |
| Busə dilər çöhrəsindən, | بوسه دیلر چهره سندن |
| Alır üzdən niqab istər. | آلور اوزدن نقاب ایستر |
| | |
| Taxta çıxa sultan kimi, | تختته چخه سلطان کمی |
| Hüsni şahi xuban kimi. | حسنی شه خوبان کمی |
| Hökm edə Suleyman kimi, | حکم ایده سلیمان کیمی |
| **Şövqi** şövkətmaab istər. | **شوقی** شوکت مآب ایستر |

---

[1]. ساغالماق ، یاخشیلاشماق، شفا اپماق

Olmuş diyarından cuda, اولمش دیاریندن جدا
Yanmasın , neyləsin könül? یانمسنک نیلسنک کونول
Kabab bağrı düşmüş oda, کباب بغری دوشمش اودا
Yanmasın , neyləsin könül? یانمسنک نیلسنک کونکل

Yaraları heç sağalmaz, یرالری هچ ساغلمز
Təbib qayqısına qalmaz. طبیب غیقوسنه قالمز
Dərdinə dərman tapılmaz, دردینه درمان تاپلمز
Yanmasın, neyləsin könül? یانمسنک نیلسنک کونکل

Yar sevdası başdan getməz, یار سوداسی باشدن کتمز
Nə səbr , nə qərar etməz. نه صبر نه قرار ایتمز
Pərvanə tək vəslə yetməz, پروانه تک وصله یتمز
Yanmasın, neyləsin könül? یانمسنک نیلسنک کونکل

Ağlamaqdan bu dünyada, آغلامقدن بو دنیاده
Göz yaşım bağlamış ada. کوز یاشم باغلامش آده
Yetişmədi bir murada, یتشمدی بر مراده
Yanmasın, neyləsin könül? یانمسنک نیلسنک کونکل

**Şövqi** deyir,yarəb nədəndir bu? **شوقی** دیر یارّب ندور بو
Sitəm oldu mənə hər su. ستم اولدی بنکا هر سو
Qaldı könlümdə çox arzu. قالدی کونکلمده چوق آرزو
Yanmasın, neyləsin könül? یانمسنک نیلسنک کونکل

Qadır allah yetir dada, قادر الله یتر داده
Könül səbr eylə, səbr eylə. کونکل صبر ایله صبر ایله
Çox da qəm yemə dünyada, چوخده غم یمه دنیاده
Könül səbr eylə, səbr eylə. کونکل صبر ایله صبر ایله

Göstəribdir sənə möhnət, کوستریبدور سنکا محنت
Dərd, bəla yüz müsibət. درد بلا یوز مصیبت
Axır eylər bir gün ülfət, آخر ایلر بر کون الفت
Könül səbr eylə, səbr eylə. کونکل صبر ایله صبر ایله

Vətənimdir Bağı İrəm, وطنمدور باغ ارم
Nəsib ola birgün görəm. نصیب اوله بر کن کورم
Bizə rəbbim ,eylə kərəm, بزه ربّم ایله کرم
Könül səbr eylə, səbr eylə کونکل صبر ایله صبر ایله

Xidmət eylə Müstafaya, خدمت ایله مصطفایه
Bil sərinə salar saya[1]. بیل سرنکا سالور سایه
Yetərsən hər təmənnaya, یترسن هر تمنایه
Könül səbr eylə, səbr eylə. کونکل صبر ایله صبر ایله

**Şövqi** bunu xuda demiş, **شوقی** مونی خدا دیمش
Hər dərdə bir dava demiş. هر درده بر دوا دیمش
Bədə[2] üsrə[3] yüsra[4] demiş, بعد عسر یسری دیمش[5]
Könül səbr eylə, səbr eylə. کونل صبر ایله صبر ایله

---

[1] . kölgə
[2] . Farsca qoşmadır sonra mənasında
[3] . çətinlik, problem
[4] . dinclik ,
[5] . چتینلیکدن سونرا دینجلیک اولار.

| | |
|---|---|
| Fələk hicranın çəkməkdən, | فلک هجراننک چکمکدن |
| Əydi möhnət , qəm məni. | اکدی محنت غم منی |
| Əlif qədim bükməkdən, | الف قدّیمی بوکمکدن |
| Yay tək eylədi xəm məni. | یای تک ایلدی خم منی |
| | |
| Kərəm olmaz möhnətdə, | کرم اولمز محنتده |
| Çəkmənəm ondan minnətdə. | چکمنم آندان منتده |
| Yüz il diyari qürbətdə, | یوز ایل دیار غربتده |
| Qoysa zülüm, sitəm məni. | قویسه ظلم ستم منی |
| | |
| Düşər olsam durlu dərdə, | دوشر اولسم دورلو[۱] درده |
| Boyun əymənəm namərdə. | بویین اکمنم نامرده |
| Cahan təslim eyləsəm mərdə, | جهان تسلیم ایلسم مرده |
| Pəsnd eylər aləm məni. | پسند ایلر عالم منی |
| | |
| Coşubdur çərxi cəfacu, | جوشیدوب چرخ جفاجو |
| Verdin mənə qəm , qayqı. | وردنک بنکا غم قیقو |
| Qoydun vətənimdən ayrı, | قویدنک وطنمدن آیرو |
| Aldı dərdü vərəm məni. | آلدی دردُ ورم منی |
| | |
| Fərhad , Məcnun, Vamiq, | فرهاد مجنون وامق |
| Olardılar qövlündə sadiq. | اولاردور قولینده صادق |
| **Şövqi** eşq içrə hər aşiq, | **شوقی** عشق ایچره هر عاشق |
| Bilməz olardan kəm məni. | بلمز اولاردن[۲] کم منی |

---

[۱]. جوربه جور ، موختلیف

[۲]. اونلاردان

| | |
|---|---|
| Fələk xub yetirdin cana, | فلک خوب یتوردنک جانه |
| Saldın bəlaya sən məni. | سالدنک بلایه سن منی |
| Təşni oxuna nişana, | تشنیع اوخنه نشانه |
| Eylədi hər yetən məni. | ایلدی هر یتن منی |
| | |
| Əhvalımdan bixəbərsən, | احوالمدن بی خبرسن |
| Saldın məni dərbədər sən. | سالدنک منی دربدر سن |
| Axır ki, qəmgin edərsən, | آخر که غمکین ایدرسن |
| Şad görndə haçan məni. | شاد کورنده هاچن منی |
| | |
| Saqi ver içəlim badə, | ساقی ویر ایچه لوم باده |
| Hər deni yetdi murada. | هر دنی یتدی مراده |
| Məhrum mən oldum dünyada. | محروم من اولدم دنیاده |
| Bu dərdir öldürən məni. | بو دردور اولدورن منی |
| | |
| Arif sözün qəsdin tapar, | عارف سوزنک قصدین تاپار |
| Görəcəyin mənasın qapır. | کورجکین معناسین قاپار |
| Yəqin bilsən kəəbə yapar, | یقین بلسنک کعبه یاپار |
| Mətləbə yetirən məni. | مطلبه یتورنک منی |
| | |
| Şövqi sil gedər gözümdən, | **شوقی** سیل کیدر کوزمدن |
| Xəbərim yoxdur özümdən. | خبریم یوخدور اوزیمدن |
| Görsə bəyənir sözümdən, | کورسه بکنور سوزمدن |
| Sübhan xoş süxən məni. | سحبان خوش سخن بنی |

Sediyim bir alagözdi yar,
Can qəsdin aşkar eylər.
Atar müjgan xədngini,
Sədrimə üstuvar eylər.

سودیم بر آلا کوزدی یار
جان قصدین آشکار ایلر
آتار مژکان خدکینی
صدریمه استوار ایلر

Qurbanam Kaman qaşına,
Çəkilmiş bənaguşüna.
Qəmzəsi bağrım başına,
Toxunar sazigar eylər.

قوربانم کمان قاشینه
چکلمش بنا کوشنه
غمزه سی بغریم باشنه
توخونور سازکار ایلر

Gördüm bu şüx şəhbazı,
Havada çərxi həmrazi.
Çarçəngəl edər bazi,
Könül murğun şikar eylər.

کوردوم بو شوخ شهبازی
هواده چرخ همرازی
آچار چنکال ایدر بازی
کونکل مرغین شکار ایلر

Rüxsari dürri səmindir,
Xalı tək, tək ənbərindir.
Zülfləri həblül-mətindir.
Cürmini düçar eylər.

رخساری در ثمین دور
خالی تک تک عنبرین دور
زلفلری حبل المتین دور
جرمنی دوچار ایلر

Qaldım qürbətdə avara,
İşim yetdi ahü zara.
**Şövqi** bil dədinə çara,
Axır bir girdigar eylər.

قالدوم غربتده آواره
ایشم یتدی آه زاره
**شوقی** بیل دردنکا چاره
آخر بر کردکار ایلر

Meyi səhba içən dilkəş, می صحبا ایجن دلکش
Bəzmində dilrubalardır. بزمنده دلربالر دور
Çəkən dərd, bəla, möhnət, چکن درد بلا محنت
Sərada binəvalardır. سراده بینوالردور

Kaman əbruni seyr etmiş, کمان ابرونی سیر ایتمش
Sinəm amaca qəsd etmiş. سینم آماجه قصد ایتمش
Vurub bağrım şikəst etmiş, اوروب بغریم شکست ایتمش
Xidəngi xunnəmalardır. خدنگی خون نمالردور

Dəhanı qəndi mükərrər, دهانی قند مکرّر
Ləbləri cənnətdə kövsər. لبلری جنتده کوثر
Məni bu aləmdə müztər, بنی بو عالمده مضطر
Qoyun huriliqalardır. قوین حوری لقالردور

Mənə xublar kərəm qılmaz, بنکا خوب لار کرم قلمز
Könül mülkün ərəm qılmaz. کونکل ملکین ارم قلمز
Cəfavü cövri kəm qılmaz, جفا و جوری کم قلمز
Nəçün kim, bivəfalardır. نیچون کیم بیوفالردور

**Şövqi** çox eyləmə əfqan. **شوقی** چوخ ایلمه افقان
Düşmən qəvi , baxt yaman. دوشمن قوی بخت یمان
Məni qürbətdə sərgərdan, بنی غربتده سرکردان
Edən bu macəralardır. ایدن بو ماجرالردور

Səhər gülzar seyrindən,
Pərim gülə-gülə gəlir.
Gül rüxsarına düzmüş,
Dəyər gülə-gülə gəlir.

سحر کلزار سیرندن
پریم کلا کلا کلور
کُل رخسارینه دوزمش
دکر کلا کلا کلور

Şüx dedim yarın gözünə,
Yandım kabab kzünə.
Tökər rəqibin ggözünə,
Dostum gülə-gülə gəlir.

شوخ دیدیم یارنک کوزینه
یاندیم کباب کوزینه
توکر رقیبنک کوزینه
دوستم کلا کلا کلور

Bülbüllər tökübdür ada,
Gülşəndə illər ada.
Sonalar görmüş ada,
Gör nə gülə-gülə gəlir.

بلبللر تکوپدور آده
کلشنده ایللر آده
صونالر کورمیش اده
کور نه کلا کلا کلور

Gəlin tək bəklərəm dərya,
Xəstə könlüm sevər dərya.
Oldu çeşmim yaşı dərya,
Dam-dam ,gülə-gülə gəlir.

کلینک تک بکلرم دریا
خسته کونکلم سور دریا
اولدی چشمم یاشی دریا
دم دم کلا کلا کلور

Olubdur **Şövqi** budala,
Qaməti dönmüş budala.
Qəm yükün almış budala,
Bax nə gülə-gülə gəlir.

اولوپدور **شوقی** بوداله
قامتی دونمش بوداله
غم یوکین آلمیش بوداله
باخ نه کلا کلا کلور

| | |
|---|---|
| Leyli sifət yarı sevən, | لیلی صفت یاری سون |
| Mənəm Məcnun bu dala. | منم مجنون بو داله |
| Bari möhnət götürməkdən, | بار محنت کوتورمکدن |
| Qamətim bənzər bu dala. | قامتم بنکزر بوداله |
| | |
| Ağa gözüm var sənəmin, | آغلا کوزیم وار صنمنک |
| Dərdimə yetər sənəmin. | دردیمه یتر صنمنک |
| Qazə rəng almış sənəmin, | غازه رنک آلمش صنمنک |
| Lalə rüxundən budla. | لاله رُخیندن بوداله |
| | |
| Ləblərin bəslər aləmi, | لبلرنک بسلر عالمی |
| Vurub canımı ələmi. | وروب جانمی عالمی |
| Kəc baxsa yıxar aləmi, | کج باخسه یخار عالمی |
| Xumar gözlərin budala. | خومار کوزلرنک بوداله |
| | |
| Müsəvvər çəkmiş xətadan, | مصور چکمش خطادن |
| Surətin üzrə xətadan | صوره تنک اوزره خطادن |
| Müşki  çin Xətadan, | مشک چین خطادن |
| Gərək zülfündən budala. | کرک زلفنکدن بوداله |
| | |
| **Şövqi** çox gəzmə gqlzari, | **شوقی** چوخ کزمه کلذاری |
| Gözdə namus gülzari. | کوزده ناموس کُلزاری |
| Əndəlib istər gülzari, | عندلیب ایستر کلزاری |
| Onunçün qonar bu dala. | آننکیچون قونار بو داله |

| | |
|---|---|
| Oldu bahar açıldı bağ, | اولدی بهار آچلدی باغ |
| Şüküfə göstərdi budağ. | شکوفه کوستردی بوداغ |
| Saqi sun qədəhin bu çağ, | ساقی صون[1] قدحنک بو چاغ |
| Dəstimə gəl yetir ayağ. | دستمه کل یتر آیاغ |
| | |
| Ay sənəm nazik bədən, | آی صنم نازک بدن |
| Sey elə gülzar, çəmən. | سیر ایله کلزار چمن |
| Lalə rüxun eşqilən, | لاله رخنک عشقیلن |
| Sədrinə çəkmiş qara dağ. | صدرینه چکمش قرا داغ |
| | |
| Mailəm rəng alına, | مائلم رنک آلنکا |
| Ləbində şəhd balına. | لبنکده شهد بالنکا |
| Qoy yetişim vəslına. | قوی یتشم وصالنکا |
| Sən mənə göstərmə fərağ. | سن بنکا کوسترمه فراغ |
| | |
| Yanma oda xırmanımı, | یانمه اوده خرمنمی |
| Yandırma cismi , tənimi. | یاندورمه جسمی تنمی |
| Ver dərində məskənimi, | ور درنکده مسکنمی |
| Eyləmə kuyindən irağ. | ایلمه کوینکدن ایراغ[2] |
| | |
| İncimənn hərgiz xüyündən, | اینجمن هرکز خوینکدن |
| Göz götürmənəm ruyindən. | کوز کوتورمنم روینکدن |
| Müənbər zülfün buyindən, | معنبر زلفنک بویندن |
| Kim, müəttə oldu dimağ. | کیم معطر اولدی دماغ |
| | |
| Dur olmanam müşküldən, | دور اولمنم مشکلندن |

---

۱. قدیم ائمک ، وئرمک

۲. اوزاق . ماراقلیدیر کی، اوزاق «ایراق» سؤزونون لاپ أسکی فورماسیدیر.

Türrələnmiş sünbüldən. طرّه لنمش سبنلدن
Baş qaçırmanam telindən, باش قاچرمنم تلندن
Saçındır boynumda duzağ. ساچنکدور بوینمده دوزاغ

Qurbanam qaşı yayına, قربانم قاشی یاینکا
Qələm çəkmiş du tayına. قلم چکمش دو تاینکا
Can verib xaki payına, جان ویروب خاک پاینکا
**Şövqi** çəkibdir iştiyaq. **شوقی** چکوپدور اشتیاق

| | |
|---|---|
| Gülşənə girdin məhi tab, | کلشنه کیردون مهی تاب |
| Qönçəyə saldın inqilab. | غنچیه سالدنک انقلاب |
| Çöhrəsin çəkdi hicab, | چهره سین چکدی حجاب |
| Bağrı yanəb oldu kabab. | باغری یانوب اولدی کباب |
| Al yanağın pozdu güli, | آل ینکاغنک پوزدی کلی |
| Saldı həm eşqə bülbüli. | سالدی هم عشقه بلبلی |
| Dərhəm eylədi sünbüli, | درهم ایلدی سنبلی |
| Açdı zülfün piçü tab. | آچنده زلفنک پیچ تاب |
| Tutilər sevər sözünü, | طوطیلر سَور سوزنکی |
| Görəndə gül arizini. | کورنده کل عارضنکی |
| Nərgis ovubdur gözünü, | نرکس آووپدور کوزنکی |
| ondan olub məsti xərab. | آندن اولوب مست خراب |
| Xubluq cahana düşdü, | خوبلوقنک جهانه دوشدی |
| Gözüm sən cavana düşdü. | کوزیم سن جوانه دوشدی |
| Kisulərin yana düşdü, | کیسولرین یانه دوشدی |
| Günəşdən ayrıldı səhab. | کونشدن آیرلدی سحاب |
| Artdı camalın şəfəqi, | آرتدی جمالنک شفقی |
| Əhmərdir rəngi , rəməqi. | احمردُر رنکی رمقی |
| Tuyində dürri ərəfi, | روینکده درّ عرفی |
| Görən deyir gül üzrə gülab. | کورن دیر کُل اوزره کلاب |
| Saqi tək durdun qiyama, | ساقی تک دوردون قیامه |
| Əl vurdun meyi gülfama. | ال اوردون می کُل فامه |
| Əksi rüxun düşdü cama, | عکس رُخنک دوشدی جامه |
| İçində məhv oldu şərab. | ایچنده مهو اولدی شراب |

**Şövqi** deyir yüz olsa məhbub, **شوقی** دیر یوز اولسه محبوب
Olmaz biri sən kimi xub. اولمز بری سن کمی خوب
Aləmi qıldın pur aşub, عالمی قیلدنک پُرآشوب
Rüxundən çəkəndə niqab. رخنکدن چکنده نقاب

Könül bir dilbəri sevdim, کونکل بر دلبری سودیم
Münəvvər ruyi mahımdır. منوّر رویی ماهمدور
Hilal əbrusuna uydum, هلال ابروسنه اویدیم
Kəbə tək qibləgahımdır. کعبه تک قبله کاهمدور

Bu aləmi unutdum mən, بو عالمنی اونوتدیم من
Ki,bağrım qanın utdum mən. که بغریم قانین اوتدیم من
Təriqi eşqi tutdum mən, طریق عشقی دوتدیم من
Mənim ol doğru rahımdır. منم اول طوغری راهمدور

Mənə cövr eyləsə canan, بنکا جور ایلسه جانان
Mən əsla çəkmənəm əfqan. بن اصلا چکمنم افقان
Deməm kim,zülm edər yaran, دیمنک کیم ظلم ایدر یاران
Ədalət padişahımdır. عدالت پادشاهمدور

Du çeşmim seyli ab olmuş, دو چشمم سیلی آب اولمش
Cahan ondan xarab olmuş. جهان آندن خراب اولمش
Fələk üzrə səhab olmuş, فلک اوزره سحاب اولمش
Çəkilmiş dud , ahımdır. چکلمش دود آهمکدر

**Şövqi** nə münimәm, nə ac, **شوقی** نه منعمم نه آج
Vermənəm heç kimsəyə bac. ویرمنم هچ کیمسیه باج
Məni hər namərdə möhtac, منی هر نامرده محتاج
Edən baxti siyahımdır. ایدن بخت سیاهمدور

| | |
|---|---|
| Bad səri zülflərin bükər, | بادَسر زلفلرین بوکر |
| Peri qu buxağına yarın. | پر قو بوخاغینه یارنک |
| Əbr kimi halə çəkər, | ابر کمی هاله چکر |
| Ol ay qabağına yarın. | اول آی قباغینه یارنک |
| | |
| Mailəm nazik telinə, | مائلم نازک طلینه |
| Yaraşır incə belinə. | یراشور اینجه بیلنه |
| Bənd olub səlasilinə, | بند اولوب سلاسلینه |
| Düşdüm duzağına yarın. | دوشدیم دوزاغینه یارنک |
| | |
| Artırıbdır şan , şövkət, | آرتُوروپدور شأن شوکت |
| Hüsni mələk, huri nisbət. | حسنی ملک حوری نسبت |
| Deyər adam görsə cənnət, | دِیَر آدم کورسه جنت |
| Kuyinə, bağına yarın. | کوینه باغنه یارنک |
| | |
| Məclisi rəngin , əlvandır, | مجلسی رنکین الواندور |
| Badəsi rahəti candır. | باده سی راحتی جاندور |
| Meyə meylim çox ondandır, | میه میلیم چوخ آندندور |
| Bənzər dodağına yarın. | بنکزر دوداغنه یارنک |
| | |
| **Şövqi** seyr edər gülüstan, | **شوقی** سیر ایدر کلستان |
| Görəndə qönçeyi xəndan. | کورنده غنچه نی خندان |
| Əndəlib tək olmuş heyran, | عندلیب تک اولمش حیران |
| Bu gül yanağına yarın. | بو کل یناغنکا یارنک |

# روباعیلر

Rubailər

١
الحمدُ سپاس بی قیاس ایله ثنا
واجب بنکا هر فرد که ایلرسه دعا
شایسته اولور وجودنکا چونکا بقا
ممکن بو ده کل قبول ذاتنکقه فنا

Əlhəmdü sipasi biqiyas ilə səna,
Vacib mana hər fərd ki, eylərsə düa.
Şayistə olur vucuduna çünki bəqa,
Mümkun bu dəyil zatına fəna.

٢
ایتدنک بو جهان خلقی کُن دن پیدا
شمسیله قمر عرش زمین کوه فزا
ویردون بو جهان اهلنه امیدیله بیم
عدلیله نظام تاپدی کیم جابجا

Etdin bu cahan xalqı kundan peyda,
Şəmsilə qəmər , ərş, zəmin , kuh fəza.
Verdin bu cahan əhlinə ümidilə bim,
Ədlilə nizam tapdı kim cabəca.

٣
هر جور جفا چرخ نکون ایتدی بنکا
دردُ غمی هم بخت زبون ایتدی بنکا
رحم ایله قل اعدایه منی بر غالب
یارب ستمین عدو فزون ایتدی بنکا

Hər cür cəfa çərxi negün etdi mana,
Dərdü qəmi həm bəxti zəbun etdi mana.
Rəhm ilə qıl ədayə məni bir qalib,
Yarəb sitəmin ədu füzun etdi mana

٤

احسنت خدا دیمش سنکا چون که حبیب
سندن یتشوبدور امته صبر شکیب
بر آیله شفاعت بنکا بو مشکلده
صدقیله چاغررم سنی بن زار غریب

Əhsənt xuda demiş sana çünki həbib,
Səndən yetişir ümmətə səbr , şəkib.
Bir eylə şəfaət mənə bu müşgildə,
Sidqilə çağırıram səni mən zar,qərib.

۵

ساقی کرم ایله ویر بنکا جام نجات
فیصنک یتوره بو مرده جانمقه حیات
دولدور قدحی که اول می صحبادن
بر نوش ایده لیم بو دوریده یوخد ثبات

Saqi kərəm ilə ver mənə cami nicat,
Feyzin yetirəbu mürdə canıma həyat.
Doldur qədəhi ki,  ol meyi səhbadan,
Bir nuş edəlim bu dövridə yoxdu sübat.

٦

فرهادیله مجنون اولان دم حادث
هر فتنه کوزللردن اولوپدور باعث
ایام سلفده کیدبلر عشقیله
بو اسریده اولدیم اولاره وارث

Fərhad ilə Məcnun olan dəm hadis,
Hər fitnə gözəllərdən olubdur bais.
Əyyami sələfdə gediblər eşqilə,
Bu əsridə oldum olara varies.

۷

وجهی ندور ای چرخ پیشه سنج
عاقل کسه غم دردیله جوخ وردنک رنج
دانایی حلیم مور کبی اینجلدی
ادنایی اخس مار صفت بکلدی کنج

Vəchi nədir ey çərxi pişə sənc,
Aqil kəsə qəmü dərdilə çox verdin rənc.
Danayi həlim mur kimi incəldi,
Ədnayi əxəs mar-sifət bəklədi gənc.

۸

بازار جنون ایچره اولوب عشق رواج
هر شوخ لر ایتدی نقد عمرمنی تراج
بیهوده کیچردوم عمری بو عالمده
یارب بنکا عقباده کرک سندن علاج

Bazari cunun içrə olub eşq rəvac,
Hər şüxlər etdi nəqdi ömrümi təra.
Bihüdə keçirdim ömrü bu aləmdə,
Yarəb mənə üqbadə gərək səndən əlac.

۹

ساقی بنکا لطف قیل یتور باده صُبوح
خماریده هم فرح تاپه جسمیله روح
من توبنی می دن ایلدیم کلدی بهار
بالله ایدرم او توبه دن توبه نصوح

Saqi mənə lütf qıl yetir badə səbuh,
Xumaridə həm fərəh tapa cism ilə ruh.
Mən tövbəni meydən elədim , gəldi bahar,
Billah edirəm o tövbədən tövbə nəsuh.

۱۰

ای چرخ ستمکار کلون اولدی صریح
کوسترمدنک اما بنکا بر کار فصیح
اوردون بنکا اولدوردون عجبدر بو صنم
احیا قلور عالمنی اول انفاس مسیح

Ey çərxi simgər gülün oldu sərih,
Göstərmədin amma mənə bir kari fəsih.
Vurdun mənə , öldürdün əcəbdir bu sənəm,
Ehya qılır alımni ol ənfasi Məsih.

۱۱
ای بحر صاقین سرشک کلکئنمه باخ
گل چهرهٔ زردمده که پُر خونمه باخ
هم نوح کورن طوفانی ایلر چشم
بر موجی سنکا یتر که جیحونمه باخ
Ey bəhr saqın sirişgi gülgünümə bax,
Gül çöhrəyi zərdimdəki purxunuma bax.
Həm Nuh görən tufanı eylər çeşm,
Bir mövci sənə yetir ki, Ceyhunuma bax.
۱۲
بو چرخ فلک همیشه دُر کون فساد
کج رولکی پیش ایلمش کیم معتاد
عارفلره دورنده جفا چکدیردی
نادان لری هر زمانده چوخ ایلدی
Bu çərxi fələk həmişə dər kunu fəsad,
Kəcrülügi pişə eyləmiş kim , mötad.
Ariflər dövründə cəfa çəkdirdi,
Nadanları hər zamanda çox əylədi.
۱۳
ای قامتی طوبی سرو رفتار لذیذ
وی عارضی کلرنک لطیف وار لذیذ
تنکی دهنک وصفی دُرر ناممکن
کلزاریده غنچه دن که هر بار لذیذ
Ey qaməti tuba , sərv rəftar ,ləziz,
Vey arizi gülrəng , lətifvar,ləziz.
Təngi dəhənin vəsfidurur namümkun,
Gülzarida gönçədən ki, hər bar əziz.
۱٤
فسقیله ایامه کچوبدور بنکا دنیاده مدار
امید اولورم لطفنکا بن یا غفار
فضلنک اوله کر حساب ارا ثبت اولمز

تا روز قیامتنده بنکا استطهار
Fisqilə əyama keçibdir mənə dünyada mədar,
Ümid oluram lütfünə mən ya qəffar.
Fəzlin ola gər hisab ara , səbt olmaz,
Ta ruzi qiyamətində mənə istethar.

۱۵

هر سفله دنی کسده لطافت اولمز
یوز خوبلقده بر شرافت اولمز
سک کمی یودوردوقجه ملوثدور اول
سو دکمسه نجس اولور نظافت اولمز
Hər süflə, dəni kəsdə lətafət olmaz,
Yüz xubluqda bir şərafət olmaz.
Səg kimi yudurduqca müləvvəsdir ol,
Su dəysə nəcis olur , nizafət olmaz.

۱۶

ایدل سنکا جور ایلسه بو چرخ ستیز
هر کاریده اعمالنکی قیل پاک تمیز
کاه اولسه مخالف رفیقنک گه راست
صبریله دور اول شخصیله کج دار مریز
Ey dil sənə cövr eyləsə bu çərxi sitiz,
Hər karidə əmalını qıl pak , təmiz.
Gah olsa müxalif rəfiqin , gəh rast,
Səbr ilə dur, ol şəxsilə kəcdar-məriz.

۱۷

بو دهریده همتله بر اعلا اولا کس
بلبل کمی دنیادر آنکا دار قفس
کر قالسه قفسده نالسی گُل وصلی
عقبایه ایدر او کس بو دنیاده هوس
Bu dəhridə himmətlə bir əla ola kəs,
Bulbul kimi dünyada ona dar qəfəs.
Gər qalsa qəfəsdə , naləsi gül vəsli,

Üqbayə rdər o kəs bu dünyada həvəs.

۱۸

بر کیمسه قیله دهریده همتلو معاش
بر جوهر صاف لعلدور سانکه تراش
کر دوشسه غباره واردور قیمتده
صراف پسندیده قلور هر چه که داش

Bir kimsə qıla dəhridə himməli maaş,
Bir cövhəri saf təlidir sanki taraş.
Gər düşsə qubara , vardır qiymətdə,
Sərraf pəsəndidə qılır hərçi ki, daş.

۱۹

ایزد قلوب احسانکی بر معدن خاص
اول بحر ترحمده بنم چون غواص
سن بر کرم ایت بنکا شفاعتدندور
دوتدیم سنکا یا حبیب دلدن اخلاص

Izəd qılıb ehsanını bir mədəni xas
Ol bəhr tərəhümdə mənəm çün qəvvas.
Sən bir kərəm et mənə .əfaətdəndir,
Tutdum sənə ya həbib dildən ixlas.

۲۰

مرآت کونکل دوتمه که ژنکار غلط
آهیله که چکمه نالهٔ زار غلط
اول عیب تُتُقدن هر نه وار اخفادور
قیل حسن رضا ایلمه افکار غلط

Mirati könül tutma ki, jəngar qələt,
Ahilə ki , çəkmə naleyi zar qələt.
Ol eyb tutuqdan hər nə var əxfadır,
Qıl hüsu riza, eyləmə əfkari qələt.

۲۱

ای دل سنکا همراه که دنیاده بو لفظ
هم بیل سنکا خیریدور که هر جاده بو لفظ

ذکر آیله خدایه توحید ایله چوخ
انفعدور عجب عالم عقباده بو لفظ
Ey dil sənə həmrah ki , dünyada bu ləfz,
Həm bil sənə xeyrdir ki, hər cada bu ləfz.
Zikr eylə xudaya, tövhid ilə çox,
Ənfədir əcəb aləmi üqbada bu ləfz.

۲۲

ای شوخ اکر اوله بنکا یوز مانع
ایتمز دخی عشقیم رویشین ضایع
هجرنکده جفایی ستمی چوخ کوریم
وصلنکده خیاله اولمزم قانع
Ey şüx əgər ola mənə yüz mani,
Etməz dəxi eşqim ruyişin zayi.
Hicrində cəfayi , sitəmi çox gördüm,
Vəslində xiyala olmazam qani.

۲۳

ای محرم اسرار سن ایت شاهمه عرض
جانمده که بو دردیمی آکا هم عرض
اعدا که شماتت بنکا بی حدّ ایتمش
بو حالمه رحم ایت که دی اللهمه عرض
Ey məhrəmi əsrar, sən et şahima ərz,
Canımdaki bu dərdimi ona hə ərz.
Əda ki, şəmatət mənə bihədd etmiş,
Bu halıma rəhm et ki, de allahıma ərz.

۲٤

ایام بهار عجب ضیالندی که باغ
یاندوردی چیچلر که دونوب الده چراغ
بو موسم کلده عندلیب چکدی نوا
کورمشدی جفا یاله زمستانده فراغ
əyyami bahar əcəb ziyalandı ki bağ,
yandırdı çöçlər ki, dönüb əldə çirağ.

Bu mövsimi güldə əndəlib çəkdi nəva,
Görmüşdü cəfa ilə zimistanda fərağ.

۲۵

عالمده چون آکاه دُرر عارف
هم علم دقایقده اولوب کاشف
بلمشدی جهانی بیوفادر اما
عقبانی دیلردی هر زمان خایف

Aləmdə çün agahdir arif,
Həm elmi dəqayıqdə olub kaşif.
Bilmişdi cahanı bivəfadır amma,
Üqbanı dilərdi hər zaman xaif.

۲۶

ایدل سنکا مهمان کلیب دوتد رفیق
اطوارنکی قل کشاه کیم دوتمه مضیق
صرف ایله آننک یولننده چوخ ماحضره
دوت کونکلنکی اول محلده دریای عمیق

Ey dil sənə mehman gəlib , tutdu rəfiq,
Ətvarını qıl guşa kim, tutma məziq.
Sərf eylə onun yolunda çox mahəzəri,
Tut könlünü ol məhəldə dəryayi əmiq.

۲۷

صنما مصحف رخسارنکا ویرمش رونق
یَد قدرت دوزه دوب عارضنکا زیب و رزق
بنی عشاق یازوب حسنکا منشی قضا
اهل عشقم که مدام حسنه مقید مطلق

Sənəma müshəfi rüxsarına vermiş rövnəq,
Yədi qüdrət düzədib , arizinə zibu rəzəq.
Məni üşşaq yazıb hüsnünə münşiyi qəza,
Əhli eşqəm ki, müdam hüsnə müqəyyəd mutləq.

۲۸

ای ساقی کرم ایله بنکا صحبادن

ویر می ایچه لوم غم یمه لیم دنیادن
سرمست یاتیم که اولمیم بر آکه
تا روز قیامتده اولان غوقادن
Ey saqi kərəm eylə mənə səhbadan,
Ver mey içəlim , qəm yeməlim dünyadan.
Sərməst yatım ki, olmayam bir agah,
Ta ruzi qiyaməydəh olan qövğadan.

۲۹

وار سنده ترحم ای خداوند بنام
واجب بنکا درکاهنکا بی حد قیام
تقصیر ایله وارم که اطاعتده بنی
جرمیم ایده سن عفو بنکا چوق انعام
Var səndə tərəhüm ey xudavən benam,
Vacib mənə dərgahına bihəddü qiyam.
Təqsir ilə varam ki, itaətdə məni,
Cürmum edəsən əfv mənə çox ənam.

۳۰

عزم ایتدی که بر تازه تمنایه کونكل
یارب بنی بو مرحلده ایتمه خجل
باسدیم قدمی راه توکل اوزره
امیدیله واردیم آچله بو مشکل
Əzm etdi ki, bir tazə təmənaya könül,
Yarəb məni bu mərhələdə etmə xəcil.
Basdım qədəmi rahi təvəkkül üzrə,
Ümidilə vardım açıla bu müşkil.

۳۱

ساقی صون باده نی غم چکمه چله باک
دوتمنم زهدیله خو اولسم هلاک
مست مدهوشیله ویرسم میه جان
قبه ایوان دوتر اوستمده که تاک
saqi son badəni qəm çəkmə çələ bak,

tutmənəm zühdilə xu , olsam həlak.
Məsti mədhüşilə versəm meyə can,
Qübbə eyvan tutar  üstümdəki tak.

۳۲

جانانه دیدیم که عارضنک گُلدر بو
دیدی بنکا کشف ایتمه خطا دلدر بو
مردم کوره دستنده دوتر کیم آنی
کورمک رُخمی چشمه که مشکلدور بو

cana dedin ki, arizin güldür bu,
dedi mənə kəşf etmə xətadır bu.
Mərdüm görə dəstində tutar kim , onu,
Görmək rüxümü çeşmə ki, müşküldür bu.

۳۳

ای چرخ که بسدور بنی کریان ایتمه
پنهان غم عالمده نمایان ایتمه
موج ایلسه بر دمده یخار بنیادنک
سیلابیله اشکمنی فراوان ایتمه

Ey çərx ki bəsdir məni giran etmə,
Pünhan qəmi aləmdə nümayan etmə.
Mövc eyləsə bir dəmdə yıxar bünyadın.
Silabilə əşkimni firavan etmə.

۳٤

کلزاره صونام باسدی قدم نازیله
همراه اولوبان او کپک طنّاز ایله
وصلینه یتیر عاشق او معشوقه سیننک
سالمیه ارایه فتنه غماز ایله

Gülzara sonam basdı qədəm nazilə,
Həmrah oluban o kəbki tənaz ilə.
Vəslinə yetir aşıqə o məşüqəsinin,
Salmaya araya fitnə qəmmazilə.

۳۵

آچلمدی بر سوادنک ای بخت سیه
هچ اولمدی کونکلمده بنیم ذوق فره
چخدی فلکه دودیله آهم اولوب ابر
چخمز اوزه پنهان اولوب خورشید مه

Açılmadı bir savadın ey bəxti siyah,
Heç olmadı könlündə mənim zövq fərəh.
Çıxdı fələkə dudilə ahım olub əbr,
Çıxmaz üzə pünhan olub xurşidu məh.

۳٦

سالدنک منی ای کونکل بو زاره ینه
صاتدنک بر عجب یار خریداره ینه
زلفینه آننک رشتۀ جانیم سریدنک
ویردنک دخی کنج اوسته کی شهماتمه ینه

saldın məni ey könül bu zara yinə,
satdın bir əcəb yari xəridara yinə.
Zülfünə onun rişteyi canım səridin,
Verdin dəxi kənc üstəki şahmata yinə.

۳۷

ویردنک بنکا ای فلک یمان دردُ بلا
عرض ایلرم اول خدایه حالنک که نولا
دادیله شکایت قلارم سندن آنکا
فریادیمه بیل یتر علیم اعلا

Verdin mənə ey fələk yaman dərdu bəla,
Ərz elirəm ol xudaya halın ki, nola.
Dadilə şikayət qılaram səndən ona,
Fəryadıma bil , yetir əlimi əla.

۳۸

هر محنت آلمی تا جکریم خون ایتدی
قاریشوب کوز یاشیمه رنکینی کلکون ایتدی
منی بر لیلی عالم بوراخوب صحرایه
سالدی سودایه غرض آدیمی مجنون ایتدی

hər möhnət, ələmi ta ciyərim xun etdi,
qarışıb göz yaşıma rəngini gülgün etdi.
Məni bir Leyliyi aləm buraxıb səhraya,
Saldı sevdaya qərəz adımı Məcnun etdi.

۳۹

یارب بو جهانده ایلمه خار بنی
اولدردی جفایی طعن اغیار بنی
ای پادشاهیم کلدی ترحم چاغی
مقصوده یترسنک نولا هر بار بنی

Yarəb bu cahanda eyləmə xar məni,
Oldurdı cəfayi-tə`ni-əğyar məni.
Ey padişahım gəldi tərəhhüm çağı,
Məqsudə yetirəsən nola hər bar məni.

٤٠

عارفدور او کس سَومیه تا دنیانی
ایلر که فنا جمله مزی بو فانی
تسلیم ایده سن که شوقیه سن یارب
عقباده همان او روضة رضوانی

Arifdir o kəs sevmiyə ta dünyanı,
Eylər ki, fəna cümləmizi bu fani.
Təslim edəsən ki, Şövqiyə sən yarəb,
Üqbadə həman o rövzeyi- rizvani

# مـــوربـــع لر

Bu hüsnilə göründün çeşmimə bir sübh cananım,
Dəyil həmta sənə məhbubi aləm şahi xubanım.
Səba tərpətdi zülfün ,vurdu büsə rişteyi canım,
Nə nazilən gəzirsən bağ ara , sərvi xuramanım.

Camalın gördü güllər olzaman kim, ördü runağı,
Yanağın həsrətindən lalənin köksündə var dağı.
Qədəminlə müşərrəf eylədin firdovs tək bağı,
Nə nazilən gəzirsən bağ ara , sərvi xuramanım.

Itirdi göftegusun , tutuilər fəhm etdi göftarın,
Saraldı gülşən içrə gördü nərgis çeşmi xumarın.
Ənadil əl çəkib sevdayi güldən , oldu bimarın,
Nə nazilən gəzirsən bağ ara , sərvi xuramanım.

Vurarsan çətr tavus tək açanda bali pərvazi,
Giriftar etmisən gisülərin damına şəhbazı.
Görüb rəftarını rəşk öldürübdür kəbki tənnazı,
Nə nazilən gəzirsən bağ ara , sərvi xuramanım.

Gəhi dil mülkini qarət qılan sərdara bənzərsən
Gəhi cəlad , qatıl gözləri xunxara bənzərsən.
Gəhi işvə ilə yüz neyrəng edən əyara bənzərsən
Nə nazilən gəzirsən bağ ara , sərvi xuramanım

بو حسنیله کورندنک چشممه بر صبح جانانیم
دگُل همتا سنکا محبوب عالم شاه خوبانیم
صبا تیرتدی زلفنک اوردی بوسه رشتهٔ جانیم
نه نازیلن کذرسن باغ ارا سرو خرامانیم

جمالین کوردی کُللر اولزمان کیم ارتدی رَوناغی
ینکاغنک حسرتندن لاله ننک کوکسنده وار داغی
قُدومنکله مشرف ایلدنک فردوس تک باغی
نه نازیلن کذرسن باغ ارا سرو خرامانیم[۱]

ایتوردی کفتکوسین طوطیلر فهم ایتدی کفتارنک
سارالدی کلشن ایچره کوردی نرکس چشم خمارنک
عنادل آل چکوب سودایی کُلدن اولدی بیمارنک
نه نازیلن کذرسن باغ ارا سرو خرامانیم[۲]

اورارسن چتر طاوس تک آچنده بال پروازی
کرفتار ایتمسن کیسولرنک دامینه شهبازی
کوروب رفتارنکی رشک اولدورپدور کبک طنازی
نه نازیلن کزرسن باغ ارا سرو خرامانیم

کهی دل ملکنی غارت قلان سرداره بنکزرسن
کهی جلاد قاتل کوزلری خونخواره بنکزرسن
کهی عشوه ایله یوز نیرنک ایدن عیاره بنکزرسن[۳]
نه نازیلن کزرسن باغ ارا سرو خرامانیم

---

۱. بو میصراع ألیازمادا دوشوبدور.
۲. بو میصراع ألیازمادا دوشوبدور.
۳. ألیازمادا یئر اولمادیغی اوچون تکرار میصراع (نه نازیلن کزرسن باغ ارا سرو خرامانیم) یازیلمامیبدیر.

Çəkibsən nöki müjganın hilal əbrun kaman etdin,
Şəbnəm amac edib qəmzən xədənginin nişan etdin.
Vurub nazi-kirişmə toxların bağrını qan etdin,
Nə nazilən gəzirsən bağ ara , sərvi xuramanım

Cəfavu cövri dilbər daima əğyara qıl hər dəm,
Çəkib tiği sitəm , vur cismimi səd para qıl hər dəm.
Şikəstə Şövqiyə dur meh sal, nəzzarə qıl hər dəm,
Nə nazilən gəzirsən bağ ara , sərvi xuramanım

چکوب سن نوک مژکاننک هلال ابرنک کمان ایتدنک
شبنم آماج ایدوب غمزنک خدنکینه نشان ایتدونک
اوروب نازی کرشمه توخلارین بغریمی قان ایتدونک
نه نازیلن کزرسن باغ ارا سرو خرامانیم

جفا و جوری دلبر دآئما اغیاره قیل هر دم
چکوب تیغ ستم اور جسمنی صد پاره قیل هر دم
شکسته شوقیه دور مهر سال نظاره قیل هر دم
نه نازیلن کزرسن باغ ارا سرو خرامانیم

Könül mən kimi dünyada görüm pəşman olan varmı?
Qalıb qəmxanada daim, işi əfqan olan varmı?
Müdam qan-yaş töküb , həm didəsi giryan olan varmı?
Bu aləmdə mənim tək, heç sərgərdan olan varmı?

Əgər kim tirə ruzim sorsa, artar naleyi ahım,
Əgər qılsam nigah əflaka görsən mehrilə mahım.
Əgər əzm etsəm bir yana, yox onda həmrahım,
Bu aləmdə mənim tək, heç sərgərdan olan varmı?

Kimə pünhan sirrm şərh eylədim, həm qıldı aşkara,
Kimə dərdim deyən dəm, xəşmilə ol gəldi goftara.
Kimə biçaralıq izhar qıldım, yox dedi çara,
Bu aləmdə mənim tək, heç sərgərdan olan varmı?

Gəhi cismim bürəhnə qaldı,çərx üryana döndərdi,
Gəhi atəşlərə yaxdı, tənim buyana döndərdi.
Gəhi dost qəhri,dümən cövri bağrımı qana döndərdi,
Bu aləmdə mənim tək, heç sərgərdan olan varmı?

Mənəm bir nəxli möhnətkeş, qərəz badi fəna görmüş,
Mənəm gül dəhr bağında, xəzan çox bəla görmüş.
Mənəm nabəxt, nafərcam əlindən bir cəfa görmüş,
Bu aləmdə mənim tək, heç sərgərdan olan varmı?

کونکل بن کیمی دنیاده کوریم پشمان اولان وارمی
قالوب غمخوانده دآئم ایشی افقان اولان وارمی
مدام قان یاش توکیب هم دیده سی کریان اولان وارمی
بو عالمده منم تک هیچ سرکردان اولان وارمی

اکر کیم تیره روزیم صُورسه آرتر نالهٔ آهِم
اکر قلسم نکاه افلاکه کورسن مهریله ماهیم
اکر عزم ایتسم برینکا یوخ آندا همراهیم
بو عالمده منم تک هیچ سرکردان اولان وارمی[1]

کیمه پنهان سریم شرح ایلدیم هم قلدی آشکاره
کیمه دردیم دِیَن دم خشمیله اول کلدی کفتاره
کیمه بیچاره لک اظهار قلدیم یوخ دیدی چاره
بو عالمده منم تک هیچ سرکردان اولان وارمی[2]

کهی جسمم برهنه قلدی چرخ عریانه دوندردی
کهی آتشلره یاخدی تنم بریانه دوندردی
کهی دوست قهری دوشمن جوری بغریمی قانه دوندردی
بو عالمده بنم تک هیچ سرکردان اولان وارمی

منم بر نخل محنت کش غرض باد فنا کورمیش
منم کُل دهرباغینده خزان چوخ بلا کورمیش
منم نابخت نافرجام الندن بین جفا کورمیش
بو عالمده منم تک هیچ سرکردان اولان وارمی[3]

---

[1]. بو میصراع ألیازمادا یوخدور.
[2]. بو میصراع ألیازمادا یوخدور.
[3]. بو میصراع ألیازمادا یوخدور.

Nə əhli aləmə mülhəq, nə onlardan cüdayam mən,
Nə münim, nə qəni-müflis, nə şahəm, nə kədayam mən.
Nə fəqri bu cahanda bilmənəm, nə kədxudayam mən,
Bu aləmdə mənim tək, heç sərgərdan olan varmı?

Müətəl **Şövqiyəm** e.qində mən bir aşiqi zarəm,
Mükəhhəl çeşminin dilxəstəsi, rəncurü bimarəm.
Müsəlsəl kakulin damına dilbər çün giriftarəm,
Bu aləmdə mənim tək, heç sərgərdan olan varmı?

نه اهلی عالمه ملحق نه آنلاردَن جدایم من
نه منعم نه غنی مفلس نه شاهم نه کدایم من
نه فقر بو جهانده بلمنم نه کدخدایم من
بو عالمده منم تک هیچ سرکردان اولان وارمی[۱]

معطل **شوقیم** عشقنکده بن بر عاشقی زارم
مکحّل چشمبونک دلخسته سی رنجور بیمارم
مسلسل کاکلنک دامینه دلبر چون کرفتارم
بو عالمده منم تک هیچ سرکردان اولان وارمی

[۱]. بو میصراع ألیازمادا یوخدور.

Günbəgün çün pərişan oldu əhvalım mənim,
Nəqş özün göstərmədi , ta surəti halım mənim.
Oldu ədbara mübəddəl yəni iqbalım mənim,
Bəndəyi ruyi siyahəm rəhm qıl pərvərdiga.

Ruzigarım dəhridə qayqıya döndü ah,ah,
Zəfdən nazik tənim bir muyə döndü ah,ah.
Ürəyin olmuş qanlı, bağrım suya döndü ah,ah,
Bəndəyi ruyi siyahəm rəhm qıl pərvərdiga.

Ah kim bəxtim mənimlən hərgiz olmaz sazigar,
Dönmədi rəyincə bir axırki çərxi kəcmədar.
Olmuşam dilxəstə daim lütfünə umidvar,
Bəndəyi ruyi siyahəm rəhm qıl pərvərdiga.

Mən kimi aləmdə yox daim çəkən dərdu əzab,
Ləşkəri qəm könlümün mülkün alıb,etmiş xərab.
Hicr ,möhnət çəkmə yox məndə bir zərrəcə tab,
Bəndəyi ruyi siyahəm rəhm qıl pərvərdiga.

Zəhr camın içdirib ol saqiyi dövran mənə,
Dövri cövründən year hər ləhzə min nüqsan mənə
Padişahım sən tərəhhüm göstər,et ehsan mənə,
Bəndəyi ruyi siyahəm rəhm qıl pərvərdiga.

**Şövqi** dostun yoluna canilə baş eylər fəda,
Vadiyi qürbətdə qalmış həm diyarından cuda.
Yox ona imdad ey xaliq ki səndən maəda,
Bəndəyi ruyi siyahəm rəhm qıl pərvərdiga.

کون بکون چون پریشان اولدی احواليم بنم
نقش اوزین کوسترمدی تا صورتی حاليم بنم
اولدی ادباره مبدل یعنی اقباليم منم
بنده رویی سیاهم رحم قیل پروردکار

روزکارم دهریده قیقویه دوندی آه آه
ضعفدن نازک تنم بر مویه دوندی آه آه
اورکین اولمش قانلو باغریم سویه دوندی آه آه
بندة رویی سیاهم رحم قیل پروردکار

آه کیم بختیم بنملن هرکز اولمز سازکار
دونمدی رأینجه بر آخر که چرخ کج مدار
اولمشم دلخسته دائم لطفنکا امیدوار
بندة رویی سیاهم رحم قل پروردکار

بن کمی عالمده یوخ دآئم چکن دردُ عذاب
لشکر غم کونکلمنک مُلکین آلوب ایتمش خراب
هجر محنت چکمکه یوخ منده بر زره جه تاب
بندة رو سیاهم رحم قیل پروردکار

زهر جامین ایچدروب اول ساقی دوران بنکا
دور جورندن یتر هر لحظه بنک نقصان بنکا
پادشاهم سن ترحم کوستر ایت احسان بنکا
بندة روی سیاهم رحم قل پروردکار

**شوقی** دوستنک یولنه جانیله باش ایلر فدا
وادة غربتده قالمش هم دیارندن جدا
یوخ آنکا امداد ای خالق که سندن ما عدا
بندة روی سیاهم رحم قل پروردکار

# مستزاد

کورکج صنما شمس خجیل ایتدی جمالنک[1]
ای قیلدی عجایب چکلوب طاق هلالنک
مهو اولدی مه تاب اولمش بنکا محراب
ویرمیش سنکا زینت ولی مشاطهٔ تقدیر
یک دانه دوروب عارضنکا زیبله خالنک
قدرت قلمینون فیل تک رخنکا باب
یوخدور بو کوزلکده کوزل حسنکا همتا
شهرت بولوب عالمده که چون عقل جمالنک
ای شوخ دل ارام چوخدور سنکا احباب
آشفته قلوب حالمی بو طرّه مشکین
دل مرغی سالمش کرهه دام جمالنک
بند ایتدی کمندین چین زلفلری قلاب
قهریله فلک ویردی بنکا جامله زهرین
صون بر قدح ای ساقی بنکا یوخدر مثالنک
قالدوم خمار اوزره ویر جام می ناب
طغیان ایدوب اشکیم جهانی ویردی فنایه
ای چشم جفا ایچره سننک نولور بو حالنک
موج ایلدی بحریم اولدونک بی مرغاب

Görkəc sənəma şəmsi etdi camalın, məhv oldu məhtab
Ay qıldı əcayib çəkilib taqı hilalın. Olmuş mənə mehrab.
Vermiş sənə zinət vəli məşateyi təqdir, qüdrt qələminnən,
Yek danə durub arizinə zibilə xalın. Qıl tək rüxunə bab.
Yoxdur bu gözəllikdə gözəl hüsnünə həmta- ey şüxi dilaram,
Şöhrət bulub aləmdə ki,çün əql camalın, çoxdur sənə əhbab.
Aşüftə qılıb halımı bu türreryi mişkin, bənd etdi gəməndin,
Dil mürği salmış girihə dami camalın. Çin zülfləri qüllab.
Qəhrilə fələk verdi mənə camilə zəhrin, qaldım xumar üzrə,
Son bir qədəh ey saqi mənə yoxdur misalın. Ver cami meyi nab.
Tüqyan edib əşkim cahanı verdi fənaya, mövc eylədi bəhrim,
Ey çeşmi cəfa içrə sənin nolur bu halın. Oldun bimürğab.

---

[1]. آلیازمادا بو شعرین عنوانیندا « مستزاد شوقی» یازلیبدیر.

## سؤزلوک

**اتوب** : اؤتمک فعلیندن ؛ گئچمک
**احباب** : حبیب سؤزون جمعی ، دوست، تانیش
**ادنا** : آشاغی ، دیرسیز
**اضیاف** : قوناقلار
**اظهارینه**: آغیز آچماغینا، دئمه یینه .
**اعدایه** : دوشمانا
**اقدامینه**: آددیملاری ، قدم سؤزونون جمع فورماسی
**اکلنسم** : أیلنمک تفریح ائتمک
**اوتردیم**: اؤتمک فعلیندن ؛ گئچمک ، سبقت آلماق
**اوجندن** : اوجباتیندان، خاطرینه ، اوتری
**اورن** : هؤرن ، آت سسی
**اوغراشماق** : محاربه ائتمک ، ساواشماق
**اوماردیم** : اومید ائدیردیم ، اومماق فعلی منسوخ اولوبدور.
**اونوت** : اونوتماق فعلیندن:یاددان چیخارماق
**اویمش**: اویماق فعلیندن؛ یاتمیش ، یوخلامیش
**ایاغ** : باده ، قدح
**آزار** : عذاب ، أذیت ، زحمت
**آشیان قلماق** : یووا سالماق
**باش اوروب** : باش وورماق فعلیندن باش قویماق
**بتن** : باتماق فعلیندن باتان
**بریان**: قیزارمیش ، یانمیش ، کاباب اولموش
**بسلنور** : بویا-باشا چاتماق، بؤیومک ، تربیه اولماق ، رشد ائتمک
**بکلر**: بکلمک فعلیندن؛ گؤزلمک ، صبر ائله مک ، اینتیظاردا اولماق
**بکلمیش** : گؤزلمیش ، مونتظیر الموش
**بکلسنک:** گؤزله سین ، مونتظیر اولسون
**بوراخدی**: بوراخماق فعلیندن یول وئرمک ، ایجازه وئرمک
**پرکارینه**: ییغینجاق، جمعیت؛ باجاران، باجاریغلی؛ مجازی معنادا دونیا ، کاینات.
**تتق** : اورتولو، باغلی ،قاپالی؛ یاشماق، یوواق، پرده
**تشنیع** : ملامت
**توسن** : آت
**جبن** : آلین
**جمله** : هامی ، هرکس
**چاغ**: زامان ، آن ، لحظه ، دم (بو سؤز بوگون اوشاق چاغی ترکیبینده ایشلنیلیر).
**خمارینه**: باش آغریسی ، ألدن-آیاقدان دوشمک

**دماغمز** : بئیین ، نأشعه ، کئیف
**دوتمشم** : توتماق فعلیندن یاپیشماق
**دُور اولمان**: اوزاق دوشمک ، کناردا قالماق
**دیرلیکیم**: وارلیق ، دیری اولماق، یاشام ، حیات
**دیلمک** : آرزو ائتمک ، اومید ائتمک
**ریاض**: باغچالار (روضه نین جمعیدیر).
**ژنک** : پاس
**سرود ایتمز** : اوخوماز
**سمعنکا**: قولاغینا
**سناسن** : سانماق فعلیندن؛ حئساب ائتمک ؛ گومان ائتمک ؛ نظرده توتماق
**سوردوم**: سئوآل ائتدیم؛ سورماق فعلی بوگون منسوخ اولوب، آنجاق سوروشماق فورماسیندا ایشلکدیر.
**سورر** : سورمک فعلیندن بو فعل بوگون سورتمک فورماسندا ایشلنیلیر.
**سورقی** : سورو ، سوآل ، بوردا ایشلنیلن «-قی» پسوندی چوخ أسکیدیر و حاضیردا بیر ندچه سؤزده مثلن ایچگی ، سئوگی ، ایتگی گؤرمک اولور.
**سوروب** : سورمک فعلیندن چاپماق ، آت مینمک
**سولر**: سؤیله مک فعلیندن دئمک ؛ بیان ائتمک ، دانیشماق
**سوله** : سویلمک فعلیندن. دئمک
**شتابندن**: سؤرعت ، سؤرعتلی حرکت
**شیم** : أسکی عرب سؤزو خاصیت ، حوی
**صدریمه**: سینمه ، اوره یمه
**صوردیم**: سوروشماق فعلیندن ، سئوال ائتمک.
**صون** : سونماق فعلیندن ، تقدیم ائتمک. قدیم متنلرده «س» قالین سسلی ایله گلنده «ص» حرفیله یازیلیردی.
**ضیا** : ایشیق
**ضیاسین** : ایشیغین ، شؤوقون
**عنادل** : بولبوللر ( عندلیب سؤزونون جمعیدیر).
**عیب ایتمک** : عیب چیخارتماق ، عیب بیلمک
**غماز ایله** : گؤز یوم ، کئچ
**غیری** : باشقا ، آیری
**فرض** : سرباز
**قرین** : یاخین، قوهوم؛ تای ، اوخشار؛ یولداش، یاخین دوست
**قورمیش** : قورماق مصدریندن تیکمک ؛ یارادماق ؛ سالماق
**قیطاق**: چوخ سئویلن بیر قویونون باشینا قویولان بزک
**کن کزمک** : اوزاق گزمک ، اوزاق اولماق
**کوز یشاروز**: گؤز یاشی تؤکمک ، آغلاماق
**کوش ایله:** قولاق آس
**کوکسنده** : سینه سینده
**لیلی نهار:** گئجه – گوندوز

**ماهوشلر**: آی اوزلو ، گؤزل ، گؤیچک
**محظوظم**: حض آلیرام ، سئوینیرم
**مخمور**: کئفلی ، سرخوش ، خومار، مست
**مخیب:** مانع اولماق ، آرزویا چاتماغا مانع یاراتماق
**مربوب**: قول ، بنده
**مردم** : گؤز ببیی
**مطرا** : عطیرلی ، خوش اییبلی
**معلاده** : اوجا، یوکسک ؛ چرخ معلا: اوجا سما ، دونیا
**معمور**: آباد ، عمارت ، تیکینتی
**معمور**: آباد ، آبادان
**معین** : آرخا ، یاردیم ائدن
**مقال آچمق**: سؤز آچماق ، دانیشماق
**میکون**: شراب کیمی قیرمیزی رنگلی
**ناقه** :
**نسبت** : گؤره ، کیمی
**نظر قیلماق**: نظر سالماق ، نظر ائتمک.
**نوراق** : ایشیقلیق ساچان یئر، ایشیق گلن یئر
**هاتفدن**: غیبدن گلن سس، قیشقیران،باغیران، ویجدان سسی، داخیلی سس
**هانده** : هاردا
**هجرنکده** : غربتده ، غریب یئرلرده
**یاده کتور** : یادا سال ، خاطیرلات
**یتمدیم** : یئتمک فعلیندن چاتماق . بو فعل بوگون یئتشمک فورماسیندا ایشلنیلیر.
**یتمک** : چاتماق. بو سؤز بوگون یئتیشمک فعل فورماسینده ایشلکدیر
**یتوب** : چاتیب ؛ یئتمک (چاتماق ) فعلیندن
**یتیم** : یئتمک فعلیندن ؛ چاتماق ؛ بیز بوگون یئتیشمک دئییریک
**یخدونک**: خاراب ائیله مک ، یئره سالماق. تیکمک فعلین عکسی معناسی.
**یطاق**: یاتان یئر ، موعاصیر دیلیمیزده یاتاق اوتاغی دئییلیر.
**یغناقدور**: ییغیلان یئر ، قوناقلیق ؛ توی ؛ مجلس
**یکدور**: یاخشیدیر ، یئی سؤزو آرتیق بوگون دیلیمیزده ایشلنمیر
**ینکی دن**: تزه دن ، یئنی (تزه) سؤزو دیلیمیزده أسکیلشیبدیر.

bilibdir. Şövqi şerlərində dəfələrlə çətin vəziyyətə düşəndə Fuzulini yad edir:

*Digərgünəm fərağından məni çün sərfəraz eylə,*
*Müşəvvəş könlümü vəslində mey ilə saz baz istə.*
*Təhəmmül eylə Şövqi sən xudani çarəsaz istə,*
*Fuzulidən subatü səbrü cövrü qəhri az istə.*
*Kim ol biçarəni dərdü qəmin bihəd zəbun etdi.*

*Şövqiya katib usandı sitəmim yazmaqdan,*
*Hərfi dal üzrə baxıb qəddi xəmim yazmaqdan.*
*Xamələr oldu şikəstə ələmm yazmaqdan,*
*Ey Fuzuli dərü divarə qəmim yazmaqdan*
*Şahidi-halım olubdur dərü divar mənim.*

Əhməd Şövqi Təbrizinin Azərbaycan dilində yeganə əlyazmasının üzərində “ Ankara Milli Kütüphane 1945” damğası var. Bu əlyamanın birinci və sonuncu səhifələri düşməsi nəticəsində onun yazılma tarixi və katibinin kim olması aydın deyil. Şerlər gözəl Nəstəliq xəti ilə yazılıbdır. Şerlər ənənəvi əlifba sırasıylə qeydə alınmayıbdır. Ortada da səhifə düşməsi var.

Firuz Refahi Alamdari
Tehran 2014

*Bizə rəbim eylə kərəm,*
*Könül səbr eylə, səbr eylə.*

*çəkib bir nalaeyi fəryadi dilsuz,*
*dedim,aləmdə yox mən tək ciyərsuz.*
*kim eylərdi mənə beylə kümanı,*
*göreydim qarət olmuş xanı-manı.*
*mənəm ol əndəlibi zar qalmış,*
*cuda olmuş vətəndən, yar qalmış.*

Şövqi qurbətdə yaşasa da qəmü hicrana düşsə , güldən ayrı, fləkin qarşısında boyun əyməyi rəva görmür və bütün dərdü bəlalara dözməyi qəbul edir:

*Fələk hicranın çəkməkdən*
*əydi möhnət qəm məni.*
*Əlif qədidimi bükməkdən,*
*Yay tək eylədi xəm məni.*
*Kərəm olmaz mühnətdə,*
*Çəkmənəm andan minnətdə.*
*Yüz il diyari-qurbətdə*
*Qoysa zülmü sitəm məni.*
*Düşər olsam durlu dərdə,*
*Boyun əymənəm namərdə.*

Böyük şairimiz Əhməd Şövqi Təbrizi Baqdadda yaşadığı dövrü Fuzulinin doğum illərinə bərabər olur və onun şeirlərindən belə başa düşülür ki, o Fuzuli ilə dostluq münasibətində olub və onu özünə həmdəm

Şövqinin yaşadığı dövr çox çətin və gərgin bir dövr olubdur. Həmin dövrdə Qaraqoyunlular, Aqqoyunlular və ardınca Səfəvilər dövrü bir tərəfdən şairlərə hörmət olan dövr olsa da , başqa tərəfdən şairləri vətəndən didərgin edən bir zaman olubdur. Əlican Mövci Əhəri həmin dördə yaşayıb və yazır:

*Getmək gərək bir özgə diyarə bu mülkidən,*
*Kim , günbəgün ziyadə gəlir macəra səsi,*
***Mövci** xudan istə bu bəhrə içrə bir nicat,*
*Girdabə düşsə bu kəşti nelər naxuda səsi.*

Şövqi də buna bənzər bir şəraiti bizə təsvir edir:

*Rəxti-iqaməti ey dil götür bu mülkidən*
*Daim gəlir qulağıma şurü şivən səsi.*

Bəlkə də buna görədir ki, şair vətənini tərk etməyə məcbur olur. Onun şeirlərində vətən həsrəti, vətən dərdi, vətəndən uzaq düşməsi , Şövqinin canü dildən vətənini sevməsini göstərir:

*Olmuş diyarından cuda,*
*Yanmasın , neyləsin könül?*
*Kabab bağrı düşmüş oda,*
*Yanmasın , neyləsin könül?*

*Vətənimdir Baği İrəm,*
*Nəsib ola bir gün görəm.*

Şövqi şerinin bir beytində adına işarə edir  və yazır ki, doğulanda onu "Əhməd" çaırırlar.

*Ta kilki qəza yazmış əzəl ismini* ***Əhməd****,*
*Göz gördü camalını baxıb oldu müqəyyəd.*

Bundan əlavə bir şerində də işarə edir ki, Novruz bayramı həmin il Məhərəm ayı ilə üst-üstə düşür. Şövqi yazır :

*Ey dil bahara düşdü bu mahi-Məhərrəm,*
*Qıldı fələk u aləmə cövrü cəfa, sitəm.*
*Hər dəştü kuhü vilayət içrə doldu qəm,*
*Xalq etdi giryə vü zari çəkib ələm.*

Hicri və Şəmsi təqvimlərin arasında olan 10 gün 21 saat fərqi nəzərə alsaq  həmin şer 851, 885, 929, 953 Hicri illəri ilə bərabər olur. Şövqinin "yaşnamə"-sindən öyrənirik ki, o həmin illərdə iki, otuzbeş, altmış doqquz və doqsan doqquz yaşında olmalı idi. Demək həmin şeri yazanda otuzbeş və ya altmış doqquz yaşında olması daha aqla batandır. Həzrəti Əlinin Divanı 885 Hicri ilində tərcumə olunubdur. Demək, Şövqi Təbrizi həmin ildə otuzbeş yaşı olub və tərcumənin ona aid olunması daha da aqla batandır. Nəticədə Məhəmmədəli Tərbiyyətin verdiyi məlumat doğrudur. Beləliklə Şövqi Təbrizi yüz yaşında Kabildə dunyasını kuman etmək olar.

Şövqi Baqdadi Həzrət Əlinin Divanın Ərəbcədən Farcaya 885 H. Ilində tərcumə edibdir. O yazır ki, təzkirələrdə Şövqi Təbrizi və Şövqi Yəzdi iki şairin həyatı və əhvalatları səhv olaraq birbirinə qarışıq qeyd olunubdur. Sonra əlavə edir ki, Şövqi həmin tərcumənin girişində qeyd edir ki, o , elm arxasınca Baqdada gedir. Bir ara həmin şəhərdə qalır və Həzrəti Əlinin Divanını oxuyarkən onun Ərəbcə bilməyənlər üçün tərcumə etməyə qərar verir. Buna görə onu Şövqi Baqdadi sadalanmaq daha uyqundur.[1]

Təzkirələrdə Şövqi Təbrizi və Şövqi Yəzdinin əhvalatı qarışsada üçüncü bir Şövqinin ortaya salması daha çox səhv görünür. Əlbəttə , əyər Şövqi Təbrizinin Farsca Divanı əldə olsaydıa hər şey aydın olardı. Tərcumə və Divan üslübü bunu aşkar edərdi. Ancaq , hələlik bu mümkun olmayıbdır.

Biz bugün Şövqi Təbrizinin Türkcə Divanında onun həyatı haqqında təzkirələrdə olmayan məlumati əldə edirik. Şövqinin “yaşnamə”-sindən onun yüz il yaşamasını öyrənirik. Bir də gəzib dolanmağı sevən bir adam olmasını görürük. İctimai cəhətdən gözü açıq bir şəxsiyyət olması aydın olur. Bir də, uzun müddət qurbətdə yaçaması və onun vətəndən uzaq düşməsini oxuyuruq.

---

[1] . İsfahan Universiteti (humanitar Elmlər ) dərgisi, No.13, 1381, s. 91-114

*Billah qazın qəbrimi sərvü səmən içrə.*
*Həqqa ki, sən olmazsan əyər nurü fər olmaz,*
*Ey şəmi şəbistani səfa əncumən içrə.*
*Biganə bilirmiş səni **Şövqi** səgi-kuyi,*
*Qurbət nə qəti müşkil olurmuş vətən içrə.*

Xəyyampur "Şözəhli Sözlüyü" adlı əsərində Şövqi adında 21 şairi sadalayır və Şövqi Təbrizini Mövlana Şövqi adlandıraraq , onun vəfat tarixini 954 H. Qeyd edir.[1]

Ədəbiyyatşunas Səid Nəfisi " İranda və Fars dilində nəzm və nəsir tarixi" əsərində Şövqini Sam Mirzənin katiblərindən olmasını yazır və onun 885 H.-də Əlinin Divanını Farscaya tərcumə etməsini yazır.[2]

Mehdi Bəyani Şövqi Təbrizi və Şövqi Yəzdi adlı şairlərin təzkirələrdə olan əhvalatı və onları birbirinə qarmaqarışıq olan bilgiləri nəzərə alaraq yazır ki, " gərək ki, iki gözəl xət bilən Şövqi adında şair olsun. Bunlardan biri Sam Mirzənin yanında olub və 957 H. Vəfat edibdir. O biri Şövqi yüzirmi il birinci Şövqidən əvvəl yaşayıb və 885 H.-də İmam Əlinin Divanını Farscaya tərcumə edibdir.[3]

Xanım S.M. Ruzayiyan diplom işində Şövqi Baqdadi adında şairdən ad aparır və yazır ki,

---

[1] . Ə.Xəyyampur , Söz Əhli Sözlüyü, Təbriz, 1340, s. 315

[2] Səid Nəfisi, İranda və Fars dilində nəzm və nəsir tarixi, Tehran, 1363, s.653

[3] . Mehdi Bəyani, Kaligraflarin əsərləri və həyatları, Tehran, 1362, s.317

“Reyhanətul Ədəb”-də şövqi haqqında yazır ki, Şövqi Təhmasib Şahın qorxusundan Hindistana qaçır və Kabildə dunyasını dəyişi.[1]

Məhəmmədəli Tərbiyət də “ Azərbaycan Alimləri” adlı əsərində onun tərk vətən etməsini qeyd edir və yazır ki, qəzəl , qəsidə və rubaiyyatdan ibarət olan dürdyüz beytli bir divanı var. Şövqi 954 H. ilində Kabildə vəfat edibdir. Elə bu Şövqidir ki, 885-ci ildə Həzrəti Əli(s) ın Divanını Farscaya tərcumə edərək, onu Sultan Yəquba təqdim edir. Həmin tərcumədən bir əlyazma məndə var.[2]

Adı qeyd olunan təzkirələrdə Şövqini Xacə Rəşideddinin qohum olduğu qey olunur.

Biz “ Səfineyi Gülzar” adında bir cungdə Şöqvqinin bir rubaisinə rast gəldik.[3] Bundan əlavə Məclis Əlyazmaları arasında bir cungdə də Şövqi adında bir qəzələ rast gəldik. Şeirin dili , üslübu və ictimai motivi onun Şövqi Təbriziyə aid olmasını yəqin edir. Qəzələ divanda rast gəlmirik.

*Tən şöylə zəif oldu bəlavü məhən içrə,*
*Ararsa bəni bulmaz əcəl pirəhən içrə.*
*Tən xaki-rəhi-dil rəsəni zülfünə bəstə,*
*Yarəb nə sorarlar alacaq kəfən içrə.*
*Ol qaməti-şimşad fəraqından ölərsəm,*

---

[1] . Məhəmmədəli Müdərris Təbrizi Xiyabani,, Reyhanətul Ədəb, 3-cu cild, s. 262

[2] . Məhəmmədəli Tərbiyət , Azərbaycan Alimləri, Tehran , s. 208

[3] .Astane Qudds Rəzəvi Kitabxanası , No. 15905 nömrəli əlyazma.

## Şövqi Təbrizinin Həyatı

Əhməd Şövqi Təbrizi Aqqoyunlu dövrü (XIV-XV) Azərbaycan ədəbiyyatının zövqlü , kəskin qələmli və lirik numayəndələrindən biri sayılır. Onun həyatı haqqında Təzkirələrdən çox az bilgi əldə etmək olur.

Dovlətşah Səmərqəndi "Təzkərətul Şuəra" adlı əsərində Şövqinin adını sadalamır.

Şövqinin vəfatından sonra yazılan "Töhfeyi Sami"-də Sam Mirzə yazır: xoş söhbətli , yaxşı xasiyyətli bir cənabdır. Nəstəliq xəti gözəl yazır və bütün kitabları oxuyub. Şerdə qəsidəyyə daha meylidir və doğru sözlü şairdir. Bizim yanımızda inşah işləri ona tapışırılmışdır. [1]

Lutfəli bəy "Atəşgədə" təzkirəsində yazır ki, Şövqi bir ara Sam Mirzənin xidmətində olub, sonra Şah Təhmasıbdən inciyib , Hindistana köcüb və Kabil şəhərinə dunyasını dəyişibdir.[2]

Nadir Mirzə " Təbriz Hökümət Sarayının Tarixi və Cöğrafiyası" adlı əsərində Lutfəli bəyin sözlərini təkrar edir.[3]

---

[1] . Sam Mirzə Səfəvi, Töhfeyi Sami, hazırlayan Vəhid Dəstgerdi, Tehran , 1341

[2] . Təzkireye Azər , Şurari İslami Məclisinin 6706 sayılı əlyazma, s.22

[3] . Nadir Mirzə Qacar, Təbriz Hökümət evinin tarixi və coğrafiyası, hazırlayan Qulamrza Təbatəbayi Məcd, Tehran , 1373, s. 183

Üzərində `Ankara Milli Kütüphane 1945` damğası olan bir Əlyazma əsasında hazırlanmış bu kitab Aqqoyulu və Səfəvilər dönəmində yaşamış təbrizli şairin Azərbaycan Türkcəsində olan divanı əsasında hazırlanıbdır.

Hazırlayan: Firuz Refahi Ələmdari
İSBNI:978-600-04-2358-2
Tehran 2015
©All rights reserved

# Əhməd Şövqi Təbrizi
# *Divanı*

Ankara Milli Kütüphane
Əlyazması

Tehran
2015